**Müasir Azərbaycan Psixoloqları İctimai Birliyi**
**Psixologiya Elmi-Tədqiqat İnstitutu**

# "ƏBDÜL ƏLİZADƏ: AZƏRBAYCAN PSİXOLOGİYASININ TARİXİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ"

## RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI (tezis və məqalələr)

**22 oktyabr 2022**

*Psixologiya Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasının 24 noyabr 2022-ci il tarixli iclasının (protokol №7) qərarına əsasən çap edilir.*

**Bakı - 2023**

## Təşkilat komitəsi

**Bəxtiyar ƏLİYEV (sədr)** – professor, AMEA-nın müxbir üzvü
**Elnur RÜSTƏMOV (sədr müavini)** – fəlsəfə ü.f.d., Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri
**Məhərrəm ƏLİYEV (məsul katib)** – dosent, Azərbaycan Dövlət Pedaqoi Universiteti
**Ramiz ƏLİYEV** – professor, Azərbaycan Dövlət Pedaqoi Universiteti
**Hökümə ƏLİYEVA** – dosent, Psixologiya Elmi-Tədqiqat İnstitutu, şöbə müdiri
**Ceyhun ALIYEV** – dosent, Azərbaycan Dillər Universiteti
**Mətanət ƏLİYEVA** – Psixologiya Elmi-Tədqiqat İnstitutu, şöbə müdiri

# MÜNDƏRİCAT

Bəxtiyar Əliyev. Azərbaycanda psixologiya elminin inkişafında özünəməxsus yeri və zəhməti olan alim ........................................................ 6

## I BÖLMƏ
## Əbdül Əlizadə fenomeni: şəxsiyyəti və elmi yaradıcılığı

1.İlhamə Sultanova. Ə.Əlizadənın taksonomiya konsepsiyasının özünəməxsusluğu, orjınallığı və fəqliliyi................................8
2.Ülviyyə Əfəndiyeva. Ə.Ə.Əlizadənin yaradıcılığında istedadlı uşaqlar problemi.........................................................................12
3.Almaz Əhmədova. Görkəmli psixoloq, gözəl insan, novator alim.................15
4.Kübra Quliyeva. Görkəmli psixoloq, professor Əbdül Əlizadə yaradıcılığına pedaqoji aspektdə yanaşma..........................................17
5.Tünzalə Əliyeva. Sosial psixologiyanın tədqiqində professor Əbdül Əlizadənin yeri və rolu ……….........................................................19

## II BÖLMƏ
## Ümumi psixologiya

1.Məhərrəm Əliyev. Qeyri-tarazlıq psixologiyası kontekstində insest problemi.........................................................................................21
2.Zümrüd Cavadova, Arifə İsgəndərova. Nizami Gəncəvi: insan münasibətlərində əxlaqi şüur və hisslərin rolu.........................................23
3.Yeganə Əskərova. Azərbaycanda psixoloji fikir və elmi psixologiyanın yaranması və inkişafı mərhələləri.............................................26
4. Günəş Əfəndiyeva. Şəxsiyyətin inkişafına dair bəzi nəzəriyyələr və onların xüsusiyyətləri...........................................................37
5.Könül Məmmədova. Psixologiyada şəxsiyyət problemi................................40
6.İlhamə İsmayılova. Psixologiyada istedad problemi.....................................41
7.Nüşabə Məmmədova. Stressın yaranması və profilaktikası............................43
8. Nigar Muradova. Şizoid şəxsiyyət pozuntusu olan insanların özlərinə və ətrafa münasibətləri...................................................................46
9. Fatma İslamlı. Ailə münasibətlərində psixologiya........................................48
10.Səbinə Cəfərova. Müasir dövrdə ailələrin psixoloji iqlimi..........................50
11.Aynur Eyvazzadə. Peşə stressinin və peşə fəaliyyətinin xüsusiyyətləri.........52
12.İlahə Novruzova. Asılılıq spektrini neyropsixoloji perspektivdən anlamaq..54

## III BÖLMƏ
## İnkişaf və yaş psixologiyası

1.Elnur Rüstəmov. 44 günlük müharibədə qələbə - müasir azərbaycan gəncliyinin vətənpərvərlik və milli identikliyinin formalaşması amili kimi......59
2.Sevinc Orucova. Uşaqlarda iradənin inkişafı və tərbiyə edilməsi....................66
3.Zərifə Nəsrullayeva. Samirə Orucova. Uşaqlıq dövründə inkişaf və böyümə problemı..........................................................................................69
4.Rəna Qasımova. İntellektual inkişafdan geri qalan uşaqların idrak proseslərinin psixoloji xüsusiyyətləri......................................................71
5.Rəna Qasımova. Yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntuları və onların aradan qaldırılması yolları................................73
6.Kifayət Əhmədova. Ailə mühiti, uşaqların tərbiyəsi və qarşılıqlı hörmət..............................................................................................75
7.Ayxan Hüseynli. Kiçikyaşlı dizartriyalı uşaqlarda nitqi qüsurların yaranma səbəbləri...........................................................................................78
8.Sülhanə Bəşirova. Eşitmə pozulmaları olan uşaqlarda texniki təfəkkürün formalaşdırılması.........................................................................82
9.Almaz Məmmədova. Serebral iflicli uşaqlarda şəxsiyyətin inkişaf xüsusiyyətləri..........................................................................................84
10.Aygün İsmayılova. Uşaq bağçası və körpələr evinin tərbiyəçisinin əsas xüsusiyyətləri..................................................................88
11.Gülnar Məmmədova. Gənclərin əxlaqi-mənəvi sferasında yaranan depressiv pozuntular..........................................................................90
12.Təranə Təhməzli. Daun sindromunun diaqnostikasında kordosintez üsulu.......................................................................................94
13.Aydan Yaralıyeva. Görmə pozuntusu olan uşaqlarda sensor-motor çatışmazlıqların aradan qaldırılmasında oyunların rolu................95
14.Aytac Xəlilova. Yeniyetməlik yaş böhranı və onun aradan qaldırılması..........................................................................................97

## IV BÖLMƏ
## Sosial və pedaqoji psixologiya. Pedaqogika

1.Çapay Quliyev. Müasir dövrdə pedaqoji kadr hazırlığında ixtisasa və peşəyə münasibətin psixoloji məsələləri......................................101
2.Salatın Hacıyeva. Birinci sinif şagirdlərinin məktəb həyatına adaptasiyası problemi..........................................................................103
3.Cəfər İbrahimov. Təlim prosesində müəllim - şagird əməkdaşlığı və produktiv təfəkkürün inkişaf dinamikası................................106
4.Gültəkin İsmayılova. Qələbə qafqaz regionunda dönüş nöqtəsi kimi və qalib azərbaycan əsgərinin sosial-psixoloji portreti..............108
5.Sona Əliyeva. Valideyn – uşaq münasibətləri: tərbiyənin psixopedaqoji məsələləri.......................................................................116
6.Pərvanə Məmmədova. Müasir dərs və şagirdlərdə nəzəri təfəkkürün formalaşdırılması problemi..........................................................118
7.Alvina Babayeva. Siyasi mədəniyyətin şəxsiyyətin siyasi sosiallaşmasına təsiri............................................................................121
8.Ülviyyə Verdiyeva. N.Gəncəvinin "Xəmsə"sində təbiəti mühafizə və ekoloji tərbiyə məsələləri........................................................123
9.Aynurə Məmmədova. Müasir dövrdə tələbələrin təhsil maraqlarının formalaşmasına təsir edən amillər.....................................125
10.Nurlanə Məmmədova. Pedaqoji texnologiyaların təhsil sistemində rolu...............................................................................127
11.Mətləb Bayramov. Müasir məktəbin "çətin" uşaqlar problemi və onlarla aparılan işin psixoloji və pedaqoji xüsusiyyətləri............................130
12.Nərgiz Niftəliyeva. Məktəb aqressiyası məktəbli şəxsiyyətinin travma amili kimi..............................................................................137
13 Əfsanə Əlizadə. "Molla nəsrəddin" jurnalinin ana dilimizin qorunmasinda əsil xalq jurnalı kimi rolu........................................................139
14.Nərgiz Malayeva. Müəllimlərin rəhbərlik üslubları...................................142

## Azərbaycanda psixologiya elminin inkişafında özünəməxsus yeri və zəhməti olan alim



**Əməkdar elm xadimi, psixologiya elmləri doktoru, professor Əbdül Əli oğlu Əlizadə** -1955-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin "Məntiq-psixologiya şöbəsi"ni bitirmiş, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspiranturasında təhsil almış, 1961-ci ildə namizədlik, 1973-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1958-2012-ci illər ərzində Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim, dosent, professor və "Ümumi psixologiya" kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Ə.Əlizadə görkəmli Azərbaycan filosofu və psixoloqu professor Ə.K.Zəkuyevin rəhbərliyi ilə "Şagirdlərin yaradıcı təxəyyül fəaliyyətində analiz və sintez proseslərinin xüsusiyyətləri"ni öyrənirdi. Onu aktual bir məsələ - təxəyyüldə informasiyaların işlənməsi prosesi maraqlandırırdı. 60-cı illərdə informasiyaların işlənmə prosesi XX və XXI əsrlər psixologiyasında önəmli yer tutan koqnitiv psixologiyanın əsas problemlərindən biri idi. Gənc alim də təxəyyülün xüsusiyyətlərini məhz bu kontekstdə araşdırırdı.

İnsan münasibətləri dünən də, bu gün də dövrün aktual problemləri kimi səslənir. Onun önəmli variasiyalarından biri ər-arvad münasibətlərində fundamental problemlər sayılır. Onların genezisi, görəsən nə ilə şərtlənir? İstər sosiologiya, istərsə də psixologiya 1960-70-ci illərdə bu parafrazaya sistemli cavab verə bilmirdi.

Əslində, bu problemlər diferensial psixologiyanın problemi idi, lakin 1950-70-ci illərdə diferensial psixologiya bunu həll etməyə metodoloji cəhətdən hələ hazır deyildi. Cinsin diferensiasiyası problemi açıq-aydın biolojiləşdirilmişdi. Bu sahəyə addım atan hər bir mütəxəssis isə istər-istəməz Z.Freydin əzəmətli nüfuzu ilə rastlaşırdı. Z.Freyd qətiyyətlə deyirdi ki, anatomiya tale deməkdir. Bu kökdə də cinsin diferensiasiyası nəzəriyyəsində bioloji cins ayırd edilsə də, psixi (psixoloji) cins anlamı müəyyən edilməmişdi. 1970-ci illərdə isə cinsin psixi proseslərin ontogenezdə inkişafına təsiri (psixoloji-cinsi) məsələsi gündəmə gəldi və ciddi müzakirələr başladı.

1975-ci ildə Əbdül Əlizadə "Cinsi dimorfizm və şəxsi qarşılıqlı münasibətlərin formalaşmasının psixoloji problemləri" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edir. Professor Əbdül Əlizadənin bu istiqamətdə apardığı araşdırma və əldə edilmiş nəticələrin təhlili əsasında irəli sürdüyü elmi fikir nəinki Azərbaycanda, ümumiyyətlə, psixologiya elmində mühüm hadisə idi. Bu tədqiqatla Azərbaycan psixologiyasında yeni elmi istiqamət - cinsi fərqlər psixologiyası istiqaməti yarandı və uğurla inkişaf etməyə başladı. Professor Əbdül Əlizadənin əsasını qoyduğu bu elmi istiqamətdə elmi araşdırmalar davam etdirilir.

Professor Əbdül Əlizadənin tədqiqatlarında məktəbəqədər və yeniyetməlik yaş dövründə oğlan və qızların şəxsiyyətlərarası münasibətlərinin mürəkkəb və çoxcəhətli sahəsi, öz dövrünə qədərki psixoloji araşdırmalar, cinsi dimorfizm kontekstində şəxsiyyətin sosial qruplarda sosial-psixoloji statusu, simpatiya, laqeydlik və antipatiya kimi məsələlər sistemli şəkildə öyrənilmişdir.

Professor Əbdül Əlizadə dahi Azərbaycan şair-filosofu Nizami Gəncəvinin yaradıcılığını araşdırmış və "Nizaminin psixoloji görüşləri" və "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri" monoqrafiyalarında psixologiyanın aktual məsələlərini təhlil etmişdir.

O, təlim və təhsilin psixoloji məsələlərinə həsr etdiyi "Yeni pedaqoji təfəkkür", "İstedadlı uşaqlar: psixoloji məsələlər", "İdrak prosesi və hisslər", "Təxəyyül: psixoloji etüdlər" kimi əsərlərində yeni pedaqoji paradiqmaları araşdırmış, təhsili qarşısında duran və həllini gözləyən vəzifələri müəyyən etmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki, professor Əbdül Əlizadə "Müasir Azərbaycan məktəbinin psixoloji problemləri" adlı əsərində şəxsiyyət mərkəzli təlimin üstünlükləri, tənqidi və yaradıcı düşüncəyə malik, ümumi və xüsusi səriştələrə malik məsuliyyətli şəxsiyyətin formalaşdırılmasının psixoloji mexanizmlərini, yol və vasitələrini müəyyən etmişdir.

Professor Əbdül Əli oğlu Əlizadə əmək fəaliyyətini Azərbaycan Dövlət Pedaqoji Universitetinə həsr etsə də, Bakı Dövlət Universitetinin psixologiya kafedrası ilə də daima əməkdaşlıq etmiş, uzun illər saathesabı qaydada mühazirələr oxumuş, doktorant və magistrlərə rəhbərlik etmişdir.

Professor Əbdül Əlizadə uzun illər Bakı Dövlət Universitetində fəaliyyət göstərən Dissertasiya Şurasının həmsədri və üzvü olmuşdur. 80-ə qədər monoqrafiya, dərslik və dərs vəsaitinin, 500-ə qədər elmi məqalənin müəllifidir.

Professor Əbdül Əlizadənin elm və təhsil sahəsində xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Şöhrət" ordeni ilə təltif edilmiş, Əməkdar elm xadimi adı almış, Prezident təqaüdünə layiq görülmüşdür.

Professor Əbdül Əlizadənin də qeyd etdiyi kimi Azərbaycanda psixologiya elminin yeni inkişaf mərhələsi başlayıb və əminik ki, bu mərhələ elmi yeniliklərlə zəngin olacaq və bir çox sahələri əhatə edən psixoloji məsələlərin həllində uğurlar qazanacaqdır.

**Bəxtiyar Əliyev**,
AMEA-nın müxbir üzvü,
psixologiya elmləri doktoru,
professor

# I BÖLMƏ
## Əbdül Əlizadə fenomeni: şəxsiyyəti və elmi yaradıcılığı

**İlhamə SULTANOVA**
***psixologiya üzrə fəlsəfə doktoru,***
***BDU-nun Sosial elmlər və psixologiya fakültəsi,***
***Sosial və pedaqoji psixologiya kafedrasının***
***elmlər doktoru proqramı üzrə dissertantı***
**E-mail: ilhama.sultanova@mail.ru**

## Ə.ƏLİZADƏNİN TAKSONOMİYA KONSEPSİYASININ ÖZÜNƏMƏXSUSLUĞU, ORİJİNALLIĞI VƏ FƏRQLİLİYİ

*Açar sözlər:* Ə.Əlizadə, taksonomiya konsepsiyası, üç tərkibli taksonomiya, təlim məqsədləri, öyrənmə , inkişaf, mədəniyyət

Pedaqoji psixologiya tarixində 1930-1970-ci illər taksonomiyaların işlənməsi sahəsində xüsusi bir mərhələ kimi önəmli yer tutur. Təlim məqsədlərinin taksonomiyası tədqiqat obyekti kimi müxtəlif alimlər tərəfindən araşdırılmış, koqnitiv proseslərin, intellektin strukturunu əks etdirən konseptual modellər yaradılmışdır. R.V.Tayler (1930), B.Blum (1956), G.Gilford (1967), Vilson (1967), Bruner (1979) və başqaları tərəfindən idrak, emosional, psixomotor (koqnitiv, affektiv, qeyri-iradi) sahələrdə taksonomiyalar işlənilmişdir. Digər tədqiqatçılar da bu məsələləri həmin taksonomiyalar axarında araşdırmışlar. Elmi ədəbiyyatlarda göstərilir ki, təhsil sahəsində ilk uqurlu taksonomiya XX əsrin ortalarında psixoloq Benjamin Blum tərəfindən yaradılmışdır. Onun rəhbərliyi ilə psixoloqlar- Maks Enqlexart, Edvart Furst, Uolter Xill və David Krasvoll idrak bacarıqlarını təsnif etmək üşün üsullar müəyyənləşdirib, təhsil prosesində bütün təfəkkür səviyyələri üçün cox vacib olan fikri bacarıqlar şəbəkəsini yaradıblar.Koqnitiv məqsədlər taksonomiyası kimi adlanan bu taksonomiya müxtəlif səviyyədə düşünmə və ya fikirləşmə bacarıqlarını əhatə edir, təlim prosesinin planlaşdırılmasında istifadə olunur. Hazırladığı nəzəriyyə ABŞ-ın təhsil müssisələri tərəfindən qəbul edilmişdi Blumun taksonomiyası ən universal bir model kimi tətbiq olunmaqdadır. Bu taksonomiyalar sadədən mürəkkəbə doğru düşünmə bacarıqlarının altı səviyyədə təşkilini təmin edir. B.Blumun idraki taksonomiyasının ilkin variantında koqnitiv sahədə təlim məqsədlərinin bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə kimi altı səviyyəsi müəyyənləşdirilmişdir

Amerika mənbələrində göstərildiyi kimi, 1990-cı illərdə Lorin Anderson, Blumun tələbəsi və əməkdaşları tərəfindən B.Blumun taksonomiyası yenidən nəzərdən keçirilmiş, onun nəticələri bu və ya digər dərəcədə modifikasiya olunmuşdur. 2001-ci ildə Koqnitiv psixoloqlar qrupu, təhsil sahəsində

nəzəriyyəçi tədqiqatçılar, həmçinin testləşdirmə və qiymətləndirmə üzrə mütəxəsislər "Təlim, tədris, qiymətləndirmə üşün taksonomiyalar haqqında" elmi-metodik vəsaitdə B.Blumun taksonomiyasının yeni variantını nəşr etdiriblər. Burada altı idraki bacarıq əsasında idrakda istifadə edilən biliyin muxtəlif növlərinin taksonomiyasını işləyibiblər. B.Blumun ardıcılları uğurla araşdırmışlar və müxtəlif aspektlərdə inkişaf etdirmişlər Pedaqoji psixologiyada B.Blumun axtarışları əsasında özünəməxsus elmi ənənə formalaşmışdır. Lakin bununla belə qeyd etmək lazımdır ki, B.Blum və onun ardıcılları Q.Madesin, R.Xornun və b. qeyd etdikləri kimi, B.Blum metodik problemləri sistemli öyrənməmiş, öz araşdırmalarında başlıca olaraq inkişaf konsepsiyasına söykənmişlər. Lakin bu önəmli problemi mahiyyətcə "analiz-sintez" dilemması əsasında araşdırmışlar. Onun taksonomiyasında təhsil problemləri də sistemli işıqlandırılmamışdır. B.Blumun opponentlərinin müşahidələrində dünya psixologiyasında (pedaqogikasında) taksonomiya nəzəriyyəsi və təcrübəsinin əsas istiqamətləri açıqlanıb. Le Fransuanın qeyd etdiyi kimi, bu taksonomiyalar nəinki müəllimlər, həm də şagirdlər üçün əhəmiyyətlidir. Lakin mövcud taksonomiyalar ən yaxşı halda iki tərkibli (təhsil+inkişaf) taksonomiyadır.

1956-cı ildə ilk taksonomiya nəşrindən sonra təhsil məqsədləri təsnif etmək üçün pedqoq və psixoloqlar tərəfindən tədqiqatlar aparılmış,19-dan çox alternativ sistemlər yaradılmış və bizim zamanımızda ən azı 30 belə təhsil taksonomiya sistemləri məlumdur. Bu illər ərzində nəinki idrak, həm də emosional və psixomator sahələrdə taksonomiyalar yaradıldı.

1.İdrak taksonomiyaları: B.Blum, Enqlexart, Furst və Kratfol, C.Gilford, Mak Pur, D.Xeynot , Qronland , Bandelverd və b.

2. Emosional sahə taksonomiyaları: D.Krasvol, B.Blum və B.Masin, Vilson, Qronland və b.

3. Psixomotor sahə taksonomiyaları: Simpson , Deivs, Beldvin, Bruner və b.

Müxtəlif taksonomiyalardan yalnız üçü-idraki, emosional və psixomotor taksonomiyalar mütəxəssislər tərəfindən təhsil üçün əhəmiyyətli hesab edilmişdir. Ümumiyyətlə ilk yaradılan taksonomiyadan sonra onu tamamlamaq, inkişaf etdirmək və ya dəyişdirmək üçün bir çox alternativ ortaya çıxdı. Məsələn, 1981-ci ildə Robert Stahl və Gary Mörfi bu yeni başlıqları təqdim etdilər: Hazırla, müşahidə et, al, çevir, topla, qoru, ötür, birləşdir, təşkil et və yaradın. David Merrill 1994-cü ildə tələbə müvəffəqiyyətini (əzbərlə-nümunə, əzbərlə-çox yönlülük, istifadə və tapmaq) və mövzu aspektini ölçən bir yeni məzmunlu şəbəkə yaratmaa cəhd etdi. O yenidən işlənmiş taksonomiyaya bənzər bir quruluş inkişaf etdirdi - konsepsiya, prosedur və prinsip.

Larri Xanna və Djon Mixaelisin 1977-ci il sxemi daha da bənzəyir. Alfred DeBlok (1972) və başqaları ikidən çox ölçülü çərçivələr inkişaf etdirmişlər və Dean Howenstein 1998 ci ildə hazırladığı sistemi hər üç sahə üçün taksonomiya yaratmışdır. Digər ən tanınmış idrak taksonomiyaları cədvəldə verilmişdir.

| | |
|---|---|
| G.Gilford | tanıma, yadda saxlama, konvergent istifadə, divergent istifadə, qiymətləndirmə. |
| V.Simonov | ayırma, yadda saxlama, anlama, sadə bacarıq və vərdişlər. |
| V.Bespalko | tanıma, tətbiq, planlaşdırma, yaradıcı yanaşma. |
| V.Maksimova | tanıma, yadda saxlama, anlama, tətbiqetmə. |
| M.Skatkin | anlayışın ifadəsi, anlayışı bilmə, anlayışın tətbiqi, anlayışlar sisteminin ifadəsi, anlayışlar sisteminin tətbiqi. |
| M. Lebedev | bilmə, funksional savad, savad, bilik- bacarıq-vərdiş. |
| V.Teslenko | bilmə, təkrar, bünövrə, dərinləşmə, yaradıcı yanaşma |
| Ə.Əlizadə | öyrənmə, inkişaf, mədəniyyət. |
| V. Korolyova | reproduktiv müstəqil bərpaetmə; reproduktiv alqoritmik fəaliyyət; produktiv evrestik fəaliyyət: produktiv yaradıcı fəaliyyət |
| N. Vebb | xatırlamaq, əsas tətbiqi bacarıq - konsepsiya, strateji təfəkkür, genişləndirilmiş təfəkkür |
| R. Marsano | üç bilik sahəsi : məlumat, zehni prosedurlar və psixomotor prosedurlar. üç sistem:mən sistem, metadərketmə,koqnitiv system |
| D.Fink | mənalı öyrənmənin altı tipi: əsas bilik, tətbiq, inteqrasiya,insan ölçüsü,özünüzü və başqalarını araşdırmaq, inkişaf problemi |
| C. Biggs və K. Collis- SOLO taksonomiyası | strukturdan əvvəl,qeyri-struktur, çox strukturlu, əlaqəli, genişlənmiş mücərrəd |

Yuxarıda sadalanan taksonomiya konsepsiyalarına diqqət etsək görərik ki, onlar əsasən ikitərkiblidir. Təlim və inkişaf taksonlarından ibarətdir. Bu tədqiqatçıların taksonomiyalarında koqnitiv sferanın inkişafı məqsəd kimi qarşıya qoyulur. Bunların içərisində yalnız Ə.Əlizadənin üçəm taksonomiyasında koqnitiv sfera ilə yanaşı şagirdin bir şəxsiyyət kimi formalaşmasını nəzərdə tutan mədəniyyət taksonundan istifadə edilmişdir. Apardığımız təhlillər göstərir ki, Turkiyə, Qazaxıstan, Özbəkistan və digər türk türkdilli tədqiqatçılar da (Z.Kablan, T.Baran, Ö.Hazer, B.Tugrul, E.Yeşilyurt, Y.Eser, H.Şəkər, Yiğit N, Alev N. Devecioğlu, Y. Doc. Dr. Ə Ziya Tum və s.) öz araşdırmalarında bu və ya digər aspektdə təlim məqsədlərini tədqiq etmiş, əsasən də, Bloom taksonomiyasına istinad etmişlər. Nəinki türk dilli tədqiqatçılar arasında, ümumiyyətlə dünya psixopedaqogikasında ilk dəfə olaraq müasir təhsil nəzəriyyəsinin prinsipinə istinad edərək üç tərkibli taksonomiyanın yaradıcısı Azərbaycan psixoloqu, professor Əbdül Əlizadə olmuşdur.

Ə.Əlizadə xarici ölkələrin pedaqoji psixologiyasına istinad edərək, 1996-cı ildən etibarən Azərbaycan pedaqoji psixologiyasında ilk dəfə təlim

məqsədlərini sistemli şəkildə xarakterizə etmək üçün «taksonomiya» anlamından istifadə etmişdir. Ona qədər təlim məqsədləri ənənəvi anlamda səciyyələndirilmiş və təhlil edilmişdir. Üçəm kateqoriya olan təhsil, inkişafetdirici və tərbiyəedici təlim məqsədləri vaxtilə sırf təhsil məqsədi kimi dərk olunurdu. Sonralar tərbiyə və inkişafetdirici təlim prinsipləri əsasında tərbiyəedici və inkişafetdirici təlim məqsədləri formalaşdı. «Təhsil, inkişafetdirici və tərbiyəedici təlim məqsədləri bir-birindən ayrılmazdır. Müəllim onları ayrı-ayrı deyil, vəhdətdə həyata keçirir» deyən Ə.Əlizadə ilk dəfə müasir təhsil nəzəriyyəsinin prinsiplərinə əsaslanan üçtərkibli taksonomiya yaratmışdı. Həmin taksonomiya üç bölmədən ibarətdir: Əsas taksonomik kateqoriyalar birinci bölmədə təhsil, ikinci bölmədə inkişafetdirici, üçüncü bölmədə tərbiyəedici təlim məqsədlərinə görə təsnif olunmuşdur. Əbdül Əlizadə məktəbinin yetirməsi olaraq, əvəzedilməz psixoloqla həmmüəllif olduğum "Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008" adlı kitabda üç tərkibli taksonomiya təkmilləşdirilmiş, özünün, təkcə psixopedaqoji paradiqmaları ilə deyil həm də ilk növbədə fəlsəfi psixoloji paradiqmaları ilə fərqlənən II (sonuncu) variant 2008-ci ildə formalaşmışdı. II variantda triologiyanın nominasiyaları belədir: "Öyrənmə-İnkşaf-Mədəniyyət". Bu triologiyada "öyrənmə" "təhsil"in mahiyyətcə ekvivalenti kimi açıqlanır. "Mədəniyyət" konsepsiyası isə istər Azərbaycan psixologiyasında, istərsə də Azərbaycan pedaqogikasında problemin yeni transformasiyasıdır. Mədəniyyəti tərbiyənin nəticəsi kimi qiymətləndirilir. Təlim prosesində şagirdlər sadəcə öyrənmir, onlar öyrənə-öyrənə inkişaf edirlər. Həmin prosesin son nəticəsində mədəniyyətə (hissi, ünsiyyət, kommunikativ, əxlaqi, iradi, milli-mənəvi, dünyəvi), dəyərlərə malik şəxsiyyət formalaşır. Bu "Üç tərkibli" taksonomiyanın "Mədəniyyət" səviyyəsini təşkil edir. Bu kontekstdə mədəniyyət sadəcə olaraq əsrin estetik şüarı kimi deyil, ilk növbədə mənəvi-psixoloji şüarı kimi dəyərləndirilir. Hisslər mədəniyyəti, ünsiyyət mədəniyyət, əxlaqi mədəniyyət, iradi mədəniyyət, mənlik şüuru mədəniyyəti, milli-mənəvi mədəniyyət, ümumbəşəri mədəniyyət-mədəniyyət taksonunun alma-materi belədir. Bu mənəvi-psixoloji dəyərlər isə bilavasitə gözəllik (estetik) ölçülərlə mənalandırılır. Bu konteksdə hisslər, ünsiyyət, mənlik şüuru və ya iradə kimi həmişə ənənəvi ölçülərlə işıqlandırılan fenomenlər, demək olar ki, yeni baxımda- mədəniyyət baxımında təhlil edilir. Əbdül Əlizadinin taksonomiya konsepsiyasının özünəməxsusluğu, orjinallığı ondan ibarətdir ki mədəni dəyərlərə malik şəxsiyyətin formalaşmasını təlim məqsədi kimi ön plana çəkərək, müasir təhsil nəzəriyyəsinin prinsipinə istinad edərək dünya psixopedaqogikasında ilk dəfə olaraq üç tərkibli taksonomiya konsepsiyası yaratmışdır.

ƏDƏBİYYAT

1. Sultanova İ.H., Əbdül Əlizadənin üç tərkibli taksonomiya konsepsiyası. Şamaxı: 2021
2. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: 2001.
3. Ə.Ə.Əlizadə, İ.H.Sultanova, Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı: 2008.
4. Bloom, Benjamin S., Ed.,Taxonomy of Educational Objektives, Handboor I: The Coqnitive Domain. New York: David McKay Co., 1956

**Ülviyyə ƏFƏNDİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının dosenti***
**E-mail: ulviyya16@yandex.com**

## Ə.Ə.ƏLİZADƏNİN YARADICILIĞINDA İSTEDADLI UŞAQLAR PROBLEMİ

*Açar sözlər:* istedad, inkişaf, intellekt, yaradıcılıq, potensial, qabiliyyət, təhsil

İstedadlı uşaq problemi psixoloqların tədqiqatlarında önəmli yer tutur. A. Maslou, C.Gilford, Q.Ayzenk, M.V Panova, B.M. Teplov, N..S.Leytes və başqaları isedad problemini müxtəlif aspektlərdə araşdırmış, maraqlı elmi nəticələr əldə etmişlər.

Azərbaycan psixoloqlarının əsərlərində də isteded problemi tədqiq və təhlil edilmişdir. Bununla belə problemi Azərbaycan psixoloqları içərisində ilk dəfə sistemli, fundamental şəkildə Ə.Ə. Əlizadə araşdırmışdır. Ə.Ə.Əlizadənin “Müasir Azərbaycan məktəbinin psixoloji problemləri” (1998). “Yeni pedaqoji təfəkkür: psixopedaqoji araşdırmalar” (2001). “Təxəyyül. Psixoloji etüdlər” (2006), “Fantaziya binomu” (2008) əsrlərində, eləcə də onlarla məqalələrində istedad problemindən bəhs olunur. Ə.Ə.Əlizadənin “İstedadlı uşaqlar. Psixo-pedaqoji məsələlər:esselər və etüdlər” (2005) əsəri Azərbaycanda istedad probleminə həsr olunmiuş ilk əsərdir.

“Əslində qabiliyyətsiz, istedadsız uşaq yoxdur. Ancaq qabiliyyətli, istedadı vaxtında üzə çıxarılmamış, inkişaf və tərbiyə olunmamış, bəlkə də hələ necə deyərlər “bələkdə boğulmiş” uşaqlar vardır. Ədalət naminə demək lazımdır ki, nə valideynlər, nə də müəllimlər məhz bu sahədə addımbaşı köklü səhvlərə yol verəndə, onları heç də qəsdən etmirlər” (3, s. 196).

Ə.Ə.Əlizadə qeyd edir ki, istedadın müəyyənləşdirilməsi, onunla işin təşkili xeyli mürəkkəb məsələdir. Elm sahəsində istedadın müəyyənləşdirilməsi həm çətindir, həm də insanlar onu düzgün qiymətləndirə bilmirlər. “Gələcəyin alimləri bir qayda olaraq ümumtəhsil məktəblərində təhsil alırlar. Çox vaxt müəllimlər bu şagirdlərin nəinki orjinal fikirlərini, ideyalarını qiymətləndirə

bilmirlər. Hətta bəzən tərifləyə-tərifləyə əzbərçi şagirdlərə beş yazırlar, lakin dərslikdə nöqsan tapdıqları üçün onlara ağız büzürlər" (3,s. 196).

Ə.Ə.Əizadəyə görə istedad nə vaxtsa üzə çıxır, lakin onun vaxtında müəyyənləşdirilməsi daha səmərələi üsul hesab edilir. Bu zaman şəxsiyyətin inkişafı və intellektinin dərinləşməsi üçün geniş imkan yaranır.İstedadlı uşaqların şəxsiyyətinin formalaşmasına xüsusi qayğı ilə yanaşılmalı, onların hərtərəfli inkişafına xüsusi diqqət yetirilməlidir.

İstedadlı uşaqlar hər şeylə maraqlanırılar. Səbəb-nəticə əlaqələrinin açılmasına xüsusi fikir verir və müəyyən nəticə çıxarırlar. Onlar yaxşı hafizəyə, yüksək inkişaf etmiş nitqə və abstrakt təfəkkürə malik olurlar. Bir çox hallarda onlarla danışmaq çətin olur. Bəzən deyilənlərə qulaq asır, ancaq fikri başqa yerdə olur. Digər halda isə fikri əvvəlcədən tutur və onu qabaqlayır. Bu zaman səbirsiz təsiri bağışlayır ki, bu da konfliktli vəziyyətin yaranmasına səbəb olur. Böyük alimimiz Ə.Ə. Əlizadə göstərir ki, istedadlı uşaqların xüsusiyyətləri nəzərə alınmadıqda onlar itib batırlar.

Təbii ki, istedad özünün ilk təzahürlərini ailədə göstərir. Ə.Ə. Əlizadə B.Blumun tədqiqatlarına istinad edərək belə qənaətə gəlir ki, görkəmli adamlaradan heç biri ailənin köməyi olmadan, müstəqil surətdə böyük uğurlar qazana bilməzdilər. Çünki erkən yaş dövrlərində onların istedadının hansı səviyyədə olmasından asılı olmayaraq onlara fəal köməklik edilməsəydi uğur qazana bilməzdilər. "İstedadlı uşaq özünü dərk edəndə, öz "Mən"ini tapana qədər onun inkişafı, necə deyərlər, pərvazlanması bilavasitə ətrafdakı adamlardan-valideynlərdən və müəllimlərdən çox asılıdır" (3, s.213).

İstedadın başlıca şərtlərini Ə.Ə.Əlizadə yaradıcı təfəkkürdə görür. "İsteadlı uşaqların qəribə koqnitiv üslubu var. Onlar adi bir şeydə qeyri-adilik görür, rastlaşdıqları problemləri ağlagəlməz və qeyri-banal yollaral həll edirlər" (1, s. 316).

Psixoloqlar istedadlı uşaqların koqnitiv xüsusiyyətlərindən bəhs edərkən göstərirlər ki, onlar cisim və hadisələrdə başqalarının görə bilmədiklərini görürlər, hadisələri müstəqil qiymətləndirməyi bacarırlar. Onların idrak maraqları gücləndikcə, idrak tələbatının da yönümü dəyişir, kreativ meyillər güclənir.

Ə.Ə.Əlizadə istedadın növlərindən bəhs edərkən onun hər bir sahəsi üçün də hansı cəhətlərin daha vacib olduğuna diqqət yetirir. O, istedadın uşaqlıq, yeniyetməlik və gənclik yaş dövrləri üçün səciyyəvi olan aşağıdakı növlərini ayırd edir: akademik istedad; bədii istedad; konstruktiv (texniki istedad); psixomotor istedad; sosial istedad; pedaqoji istedad.

Ə.Ə.Əlizadə göstərir ki, müsir dövrdə psixoloji ədəbiyyatda uşaq istedadının öyrənilməsində iki başlıca meyl üstünlük təşkil edir: 1) femoneoloji aspekt; 2) srtuktur aspekti.

Alim problemi tarixi-nəzəri aspektdə təhlil edərək belə qənaətə gəlir ki, tədqiqatlarda daha çox fenomenoloji aspektə üstünlük verilir və bu daha düzgün mövqedir. "İstedad qeyri-adi psixoloji fenomendir və ətinə-iliyinə qədər fərdi

xarakter daşıyır. İstedad ancaq və ancaq fərdi fərqlər kontekstində öyrənilməli və təhlil edilməlidir" (2, s.32).

Görkəmli alimimiz istedad və şəxsiyyət arasında sədd çəkilməsini, onlardan birinin digərindən ayrılmasını qəbuledilməz hesab edirdi. "İstedadlı uşaq ilk növbədə uşaqdır. Başqa uşaqlar kimi onun da bir şəxsiyyət kimi formalaşması prosesi ontogenetik inkişafın qanunauyğunluqları ilə şərtlənir. Lakin elə ki, uşaq istedadının stixiyasında yaradıcılıq məkanına qədəm basır, onun şəxsiyyət kimi önəmli xüsusiyyətləri meydana çıxır" (2, s.133).

Təbii ki, istər şəxsiyyət, istərsə də istedadın xüsusiyyətlərinin üzə çıxarılmasında müəllimin rolu böyükdür. Ə.Ə.Əlzadə yazır: "Müəllimin istedadlı uşaqlarla işinin ana xətti onların tipoloji xüsusiyyətlərini nəzərə almaq şərtilə yaradıcılığın psixoloji korrelyatlarına söykənməsidir. Necə deyərlər "liriklər"lə işləyərkən bədii yaradıcılığın, "fiziklər"lə işləyərkən elmi yaradıcılığın xüsusiyyətlərini nəzərə almalıdır" (2, s. 239).

"İstedadlı uşaqlar bilavasitə məktəb məkanında kəşf olunmalıdır. Bu, XXI əsr məktəbinin aktual psixopedaqoji problemidir. İstededlı uşaqların inkişafı və tərbiyəsi məsələləri də ancaq bu kontekstdə irəli sürülməli və sistemli həll edilməlidir" (2, s.277).

İstedadlı uşaqlarla bağlı Ə.Ə.Əlizadə yalnız elmi-nəzəri fikirləri təhlil edib edib öz mövqeyini bildirməklə kifayətlənmir, eyni zamanda mövcud vəziyyəti təhlil edir, problemin həlli yollarını göstərir. Bununla bağlı məktəb təcrübəsində istedadlı uşaqlarla bağlı iki bir-birinə zidd meylin olduğunu qeyd eddir. Müəllif bu meyillərdən birini bir çox müəllimlərin istedadlı uşaqları xoşlamamaları ilə bağlı olduğunu göstərir. Onlar istedadlı uşaqların qəribə suallarından, ağlagəlməz məntiqindən ehtiyat edirlər.

Digər meyl də müəllimin istedadlı uşaqlara neqativ münasibəti ilə bağlıdır. Çünki belə şagird sinifdə aktiv olur. Müəllim sinifdə intizamın pozulmasının səbəbkarı kimi istedadlı uşağı görür. Bu da tədricən şagirdin dərsə münasibətinin pisləşməsi ilə nəticələnir.

Ə.Ə.Əlizadə istedadlı uşağın tərbiyəsi və inkişafında müəllimin 3 mərhələdən keçdiyini göstərir. İstedadın üzə çıxarılmasında ilk müəllim elə valideyn özüdür. Bu mərhələdə valideyn müəllim rolunu ifa edir. İkinci mərhələdə uşaq artıq məktəbli rolunu ifa edir. Burada müəllim ona fərdiyyət kimi yanaşır, şəxsiyyət amilini də nəzərdən qaçırmır. Üçüncü mərhələdə uşaq müəyyən nailiyyətlər edir və bundan sonra yaradıcı müəllimə ehtiyac hiss olunur. Müəllim təlim prosesinin yeganə təlimatçısına çevrilir, valideynin rolu isə uşağa mənəvi və maddi köməkdən ibarət olur.

Ə.Ə.Əlizadə hesab edir ki, istedadlı uşaqlar arasında müşahidə edilən fərdi fərqlər başlıca olaraq onların maraqlarının istiqamətində özünü göstərir. "Peşə maraqlarının ilk pöhrələri bu kökdə qaynaqlanır, bəzən də hətta həndəsi ölçülərlə müəyyən bir fəaliyyətin məzmununa yönəlir" (2, s.283). İstedadın müəyyənləşdirilməsində maraqların nəzərə alınması, maraqların istiqaməti müəyyənedici amildir.

Növbəti mərhələdə müəllim və valideynlərin əlbir işi vacibdir. Həm məktəbdə, həm də ailədə eyni maraq, eyni istiqamət öyrənilməlidir. Ə.Ə.Əlizadənin qənaətinə görə müəllimin müşahidəsi birtərəfli olmayıb, istər tərbiyə, istər inkişaf, istərsə də şəxsiyyətin formalaşdırılması baxımından vəhdət təşkil etməlidir.

Valideynər də bir çox hallarda səhvlərə yol verirlər. Belə ki, ya istedadlı uşağa qayğı göstərmir, ya da onun istedadının qarşısını alırlar. Valideyn uşağın istedadını yox öz istəyini önə çəkir, özünün məsləhət bildiyi peşə sahəsinə istiqamətləndirməyə çalışır.

Ə.Ə.Əlizadəyə görə "Uzun müddət məktəblərdə istedelı uşaqların aşkarlanması sistemi yaradılmayıb. Bu gün isə məktəblərdə keyfiyyətcə yeni şərait əmələ gəlib: psixoloji xidmət şəbəkəsi formalaşıb" (2, s.303).

İstedadlı uşaqlar bütün dövrlərdə olub və onlara müxtəlif ölçülərlə yanaşılıb. Bu gün istedadlı uşaqlar milli sərvət kimi dərk olunmağa başlanılıb. Ə.Ə.Əlizadənin sözləri ilə desək: "İstedadlı uşaq milli sərvətdir. Ölkənin sosial-iqtisadi inkişafının vüsəti bilavasitə istedadlı uşaq problemi ilə bağlıdır. Bu problemin aktuallığı istər inkişaf etmiş, istərsə də inkişaf etməmiş ölkələrdə nəzəri metodoloji ölçülərlə müəyyənləşdirilir" (3, s. 8) .

ƏDƏBİYYAT

1. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər. - Bakı: ADPU, 2006. - 346 s.
2. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər.- Bakı: ADPU, 2005. - 352 s.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri.- Bakı: Ozan, 2004. - 432 s.

**Almaz ƏHMƏDOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Məktəbəqədər pedaqogika kafedrasının baş müəllimi***
**E-mail: heydarovanigar.87@gmail.com**

## GÖRKƏMLİ PSİXOLOQ, GÖZƏL İNSAN, NOVATOR ALİM

*Açar sözlər:* Postulat, səmimi insan, pedaqoq, xatirə, novator

Humanitar elmlərin əksəriyyətində qəbul edilmiş belə bir postulat var ki, biz hər bir insanı şəxs kimi qəbul edə bilirik. Yəni şəxs bir anlayışdır, şəxsiyyət isə ondan xeyli yüksəkdə durur. Bu bir həqiqətdir ki, cəmiyyətdə nadir hallarda elə insanlara rast gəlmək olar ki, əsil şəxsiyyət həm də sözün əsl mənasında yüksək peşəkar alim kimi tanınsın. Əbdül müəllim bu iki cəhəti özündə birləşdirən böyük alim, pedaqoq əlçatmaz zirvədə durmuş ideal insan idi.

Əbdül müəllim mənə dərs deməyib, amma bütün pedaqoji və psixoloji fəaliyyətimdə onun ideyalarından, əsərlərindən faydalanmışam. Onun elə bir monoqrafiyası, dərsliyi, məqaləsi elmi məclislərdəki çıxışları yoxdur ki, orada, xüsusilə psixologiyaya aid yeni bir şey deyilməsin. Bu böyük alim ən qəliz, dərin elmi fikirləri sadə, anlaşıqlı dildə ifadə etməyi bacarırdı.

Professor Əbdül Əlizadə 60-cı illərdə mənim həyat yoldaşımın müəllimi olmuşdur. Bu iki nəfərin əvvəlcə müəllim-tələbə münasibətləri, sonra isə sənət-peşə yaxınlığı keçmiş tələbəsinin alim kimi formalaşmasında böyük rol oynadığının şahidi olmuşam.

Əbdül müəllim Azərbaycan psixologiya elmində məktəb yaratmış bir insandır. Bu məktəbin üzvləri onun yetirmələri, şübhəsiz ki, bu məktəbin ideyalarını davam etdirməkdədirlər.

Əbdül müəllim, böyük şəxsiyyət idi. O,tituluna, vəzifəsinə, ad sanına və sosial statusuna görə insanları bir-birindən fərqləndirməzdi. Onların hamısına yalnız bir prizmadan şəxsiyyət, insanlıq prizmasından baxardı və qiymətləndirərdi. Olduqca təvəzökar münasibətlərində isə, səmimi idi. Təkcə müəllimlərlə deyil, tələbələrin də yaxşı dostu idi. İnsanlarla çox tez ünsiyyətə girə bilirdi.

Ustad müəllim Ə.Əlizadə tələbələrlə çox səmimi idi və onlara çox qayğı ilə yanaşardı. Elə bu keyfiyyətlərinə görə tələbələr də onu çox sevir, onun dərslərinə mühazirələrinə həvəslə gəlir, onun iştirak etdiyi tədbirlərdə iştirak etməyə həvəs göstərirdilər.

Əbdül müəllim, təkcə psixoloq deyildi. O, həm də gözəl pedaqoq idi. Ustad müəllim mühazirələrinə həmişə maraq oyadır və tələbələri onu dinləməyə cəlb etməyi bacarırdı . Ən yadda qalan məsələlərdən biri onun yenilikçi olması, yeniliklərlə çıxış etməsi idi.

Görkəmli psixoloq, novator alim, ustad pedaqoq səmimi insan və gözəl müəllim olan professor Əbdül Əlizadənin xatirəsi bundan sonrakı on illərlə belə yad ediləcək və əziz tutulacaqdır.

## ƏDƏBİYYAT

1.Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.

2.Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı: ADPU, 2010.

3.Əlizadə Ə.Ə. , Əlizadə H.Ə., Əlizadə S.H. Psixopedaqogika. Bakı: “Esoprint” nəşriyyatı, 2019.

**Kübra QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Pedaqogika və psixologiya kafedrasının kabinə müdiri***
**E-mail: k.guliyeva@yahoo.com**

# GÖRKƏMLİ PSİXOLOQ, PROFESSOR ƏBDÜL ƏLİZADƏ YARADICILIĞINA PEDAQOJİ ASPEKTDƏ YANAŞMA

*Açar sözlər:* psixoloq, fenomen, psixologiya, pedaqoq, dərslik

Doğma vətən, doğma torpaq, ana yurdumuz Azərbaycan qədim dövrlərdən bu günümüzədək neçə-neçə görkəmli, dahi şəxsiyyət, maarifpərvər, ziyalı, əsl nəcib keyfiyyətlərə malik insanlar yetişdirmişdir. O şəxslər ki, onlar istər elmi, istərsə də öz şəxsi xüsusiyyətləri, insanlara olan münasibətləri ilə seçilmişlər. Yaradıcılığı, mənəvi aləminə, pedaqoqa görə öyrətmə, psixoloqa görə insanlara yanaşma tərzinə ilə seçilən, Azərbaycan görkəmli psixoloqları, maarifçiləri sıralarında dayanan məhz Əbdül Əlizadədir. Görkəmli psixoloq, maarifçinin yaradıcılığı çox geniş və hərtərəflidir. Xüsusilə psixologiya və onun tədrisi ilə bağlı görüşləri rəngarəngliyi ilə seçilir. Əbdül Əlizadə təkcə psixoloq kimi deyil, dərs dediyi müddətdə bir pedaqoq kimi də fəaliyyətini uzun illər davam etdirmişdir. Psixoloq hələ tələbəlik illərindən elmə, xüsusilə psixologiya elminə marağı olmuş, təhsil illərində psixologiyaya dair məqalələr yazmışdır.

Görkəmli psixoloqun elmi yaradıcılığının əsasını təhsil psixologiyası və etnopsixologiya təşkil etmişdir. O, bu sahələrlə ilə bağlı tədqiqatlar aparmış, Azərbaycan klassik psixoloji irsinin araşdırılmasına diqqət yetirmişdir. Onun Nəsrəddin Tusinin konseptual ideyalarına əsaslanması, “Nizamının psixoloji görüşləri”, “Xəmsə” də yaş və pedaqoji psixologiya məsələlər və s. kimi yazıları da Azərbaycan psixoloji fikrin inkişaf tarixinin tədqiqatı baxımından da olduqca əhəmiyyətlidir. Psixoloqun yaradıcılığına, əsərlərinə, qələmə aldığı yazılarına dair müxtəlif yanaşmalar, istinadlar da olmuşdur. Təsadüfi deyildir ki, E.S.Kuzminin “Sosial psixologiya” əsərində A.A.Bodalyov, İ.S.Kon, A.Q.Xripkova kimi tanınmış alimlərin sırasında professor Əbdül Əlizadənin də adı çəkilir və ona yüksək qiymət verilir (2, s. 8).

Bütün bunlarla yanaşı görkəmli psixoloq, professor Əbdül Əlizadə yaradıcılığına dövrün psixoloq və pedaqoqlarıda yüksək dəyər vermiş, psixoloqun yaradıcılığı ilə fikirlər söyləmişlər. Psixologiya üzrə elmlər doktoru Ramiz Əliyev Əbdül Əlizadə yaradıcılığına əsaslanaraq deyir: “Alimin yaradıcılığı bir insan ömrünə sığmayan möhtəşəm bir məktəbdir və biz ondan həmişə yararlanırıq. Əbdül müəllim təkcə tanınmış alim-psixoloq deyil, o, həm də mənəviyyat sahibidir.”.

Professor Əbdül Əlizadənin yaradıcılğna, həyatına və haqqında yazılan məqalələrinə diqqət yetirsək psixoloqun bir çox yaradıcı insanlara xas olan mənsəbpərəzlik, qərəzlik kimi anlayışlar onun daxili və xarici aləminə yad idi. Bəzən psixoloqun “zəif cəhəti” kimi nifrət etməyi bacarmaması, ən məhsuldar

cəhəti kimi isə özünün potensialını problem üzərinə cəmləyə bilməsi idi. İnsanın "daxili mən" nin həqiqətlərini psixoloq nəzəri, baxışı ilə hiss edib, görə bildiyi üçün onu əsl psixoloq adlandıra bilərik.

Onun yaradıcılığına bir çox dərslik və dərs vəsaiti daxildir ki, onların əksəriyyəti hal-hazırda universitetlərdə tədris olunur. Gənc psixoloqların istinad etdiyi, hər cümləsində dərin mənaları olan və günbəgün tədqiqat sahəsi genişlənən, həmkarları prof. M.Ə.Həmzəyev və dos. İ.Ə.Seyidovla birgə tərcümə və əlavələr edərək tələbələrə təqdim olunan "Ümumi psixologiya" dərsliyidir, hansında ki, tərcümənin elmi redaktoru dostu Ə.Bayramov olmuşdur. Dərslik bir çox tələbələrin, professor-müəllim heyətinin stolüstü kitabına çevrilmişdir. Dərsliyin əvvəlində kitabı öyrənməyin mahiyyəti və hətta gələcək müəllimləri peşə fəaliyyətinə hazırlayacağını, fənnləri, pedaqogikanı, xüsusi metodikaların əsaslarını şərh edərkən müəllimlərin ümumi psixologiyaya aid istinadları etməsi də qeyd olunur.

Qeyd olunanlardan bir daha aydın olur ki, Əbdül Əlizadə fenomeni olduqca zəngin bir mənbədir, irsdir. Görkəmli psixoloqun yaradıcılığı olduqca genişdir və hər zaman tədqiqatçılar, öyrənmək, yeni biliklərə yiyələnmək, fərqli istiqamətə yönəlmək istəyənlər üçün açıq qapıdır. Psixoloqun yaradıcılığının tədqiqi zamanı və aparılan araşdırmalarla gənclər özlərini inkişaf etdirəcəklər. Alim, psixoloq, əsl nəcib keyfiyyətlərə malik professor Əbdül Əlizadə zəngin elmi irsinin gənc psixoloq və pedaqoq, eləcə də psixologiya elminə, elmin sirrlərini və fərqliliklərini öyrənmək istəyən tədqiqatçılar tərəfindən araşdırılması zəruridir. Psixoloqun qələmindən çıxan hər bir yazı həmçinin psixoloji biliklərə silahlanmaq, pedaqoji-psixoloji mədəniyyətə yiyələnmək baxımından da təqdirə layiqdir.

## ƏDƏBİYYAT

1.Ümumi psixologiya / Prof. A.V.Petrovskinin redaktorluğu ilə. Tərcümə edənlər: prof. Ə.Ə.Əlizadə, prof. M.Ə.Həmzəyev, dos. İ.Ə.Seyidov.- Bakı: "Maarif" nəşriyyatı, 1982. – 496 s.
2.60 il elm və təhsilin xidmətində // Azərbaycan müəllimi qəzeti. 5 mart 2016

**Tünzalə ƏLİYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Pedaqogika və psixologiya kafedrasının laborantı***
**E-mail: tunzaleeliyeva69@gmail.com**

# SOSİAL PSİXOLOGİYANIN TƏDQİQİNDƏ PROFESSOR ƏBDÜL ƏLİZADƏNİN YERİ VƏ ROLU

*Açar sözlər:* Ə.Əlizadə, sosial psixologiya, psixoloq, dərslik

Psixologiya elminin inkişafında bir çox tədqiqatçı alimlərimizin özünəməxsus yerləri olmuşdur. Bildiyimiz kimi XVII əsrdən etibarən psixologiya müstəqil elm sahəsinə çevrilmiş, istər dünya təcrübəsində istərsə də ölkəmizdə özünəməxsusluğu ilə seçilmişdir. Elmin inkişafında son dövrlərdə R.Əliyev, Ə.Bayramov, M.Həmzəyev və s. kimi görkəmli psixoloqların adını çəkə bilərik. Bu görkəmli psixoloqlar içərisində psixologiya elminin surətlə inkişafında öz tədqiqatları elmi yaradıcılığı ilə seçilən professor Əbdül Əlizadənin adını xüsusi qeyd etmək olar. Professor Əbdül Əlizadə azərbaycan psixologiyasında öz məktəbini yaradan bir alim idi. Psixoloqun məktəbi fərdiyyət psixologiyasına tərəf istiqamətlənmişdir. Buna görədə o, cinsi, mənəvi, etnopsixoloji yaradıcılıq aspektlərinin öyrənilməsini qarşısına vəzifə qoymuşdu.

Psixologiyanin ondan artıq elm sahəsi qeyd olunur ki, bunlara yaş, pedaqoji, sosial, etnik, differensial, ümumi psixologiya və s. aid edilir. Professor Əbdül Əlizadənin psixologiyanın demək olar ki, bütün sahələrini tədqiqat obyektinə çevirmiş digər görkəmli psixoloqlarla birlikdə dərslik və dərs vəsaitlərinin nəşrində səylə çalışmışdır. Psixoloq yaradıcılığında sosial psixologiyanın inkişafına xüsusi yer ayırmış və bu istiqamətdə yazılar qələmə almışdır. O, həmkarı Ə. Bayramov ilə birgə “Sosial psixologiya” adlı dərsliyi hazırlamışdır. Sosial psixologiya fənni ali məktəblərdə bir çox ixtisaslar üzrə tədris olunur. Sosial psixologiyanın tədqiqinin əsasını şəxsiyyətin sosial aləminin təhlili təşkil edir. Dərslikdə sosial psixoloji təfəkkür, sosial psixologiyanın inkişaf xüsusiyyətləri, səxsiyyətin sosial psixologiyası, qrup nəzəriyyələri, ünsiyyətin sosial psixologiyası, sosial psixolo-giyanın tətbiqi problemləri və s. hərtərəfli yanaşılmışdır.

XX əsrin sonu XXI əsrin əvvəllərində sosial psixologiya üzrə müxtəlif dərsliklər və monoqrafiyalar dərc olunmuşdur. Professor Ə.Əlizadə və Ə.Bayramov tədris informasiyanın müasirliyinə və eləcə də şərhin ətraflı olması, sosial psixologiyanın inkişafı üçün onların hamısından istifadə etmişlər. Müəlliflər daha çox özlərinin konsepsiyaları ilə səsləşən əsərlərə istinad etmişlər. Onu da qeyd edə bilərik ki, sosial psixologiya metodologiyası məsələsi dünya təcrübələrinin xüsusilə Amerika psixoloqlarının təcrübələri əsasında izah olunmuşdur. Dərslikdə həmçinin sosial psixologiyanın bütün istiqamətlərinə toxunulmuş, şərhlər və qerydlər öz əksini tapmışdır.

Psixoloq Əbdül Əlizadə dərsliyin əvvəlində sosial psixoloji anlayışın mahiyyətinə dair izah vermiş, tədqiqata cəlb etmişdir. O, qeyd etmişdir ki, sosial psixologiya söz birləşməsində "sosial" sözünü özünəməxsus məntiqi mənası vardır: burada öyrənilən psixoloji hadisələrin yalnız spesifik cəhətləri "sosial" sözü ilə ifadə olunur, başqa sözlə, sosial psixologiya ayrı- ayrılıqda sosial və ya psixoloji hadisələri öyrənmir, onun fenomenologiyasını sosial psixoloji hadisələr təşkil edir (1, s.7). Müəllif dərsliyin sonrakı hissələrində yuxarıda qeyd olunan fikirlərə tam əhatəli şəkildə açıqlamalar gətirir, sosial psixologiyanın mahiyyətini anlamağa köməklik edir.

Sosial psixologiya formalaşan, inkişaf edən hər bir şəxs üçün olduqca əhəmiyyətlidir. Çünki bizlər həyatımızın bir çox hissəsini, cəmiyyətdə, qrupda, təşkilatda və s. kimi yerlərdə keçirərək sosiallaşırıq. Sosial psixologiya sahəsindəki biliklər həmçinin bizləri düzgün istiqamətləndirir, şəxsiyyətlərarası münasibətlərin tam,stabil qurulmasına köməklik edir. Buna görə də professor Əbdül Əlizadənin və Ə.Bayramovun sosial psixologiya sahəsində apardıqları tədqiqatlar olduqca əhəmiyyətli və peşəsindən asılı olmayaraq hər kəs üçün vacibdir. Məhz sosial psixologiya insanların cəmiyyətdəki mövqeyini, rolunu və yerini aydınlaşdırmaqda əvəzedilməz rola malik olmuşdur. Bunun nəticəsidir ki, görkəmli psixoloq, əsil alim professor Əbdül Əlizadənin sosial psixoloji sahədəki tədqiqatları istər bu dövr, istərsə də sonrakı dövrlər üçün bir mənbədir, irsdir, xəzinədir.

## ƏDƏBİYYAT

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. Bakı: "Qapp-Poliqaf" Korporasiyası, 2003. – 356 s.
2.Ümumi psixologiya / Prof. A.V.Petrovskinin redaktorluğu ilə. Tərcümə edənlər: prof. Ə.Ə.Əlizadə, prof. M.Ə.Həmzəyev, dos. İ.Ə.Seyidov.- Bakı: "Maarif" nəşriyyatı, 1982. – 496 s.

# II BÖLMƏ
## Ümumi psixologiya

**Məhərrəm ƏLİYEV**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının dosenti***
**E-mail: m_a_1977@mail.ru**

## QEYRİ-TARAZLIQ PSİXOLOGİYASI KONTEKSTİNDƏ İNSEST PROBLEMİ

*Açar sözlər:* qeyri-tarazlıq psixologiyası, insest, zorakılıq, seksuallıq

İnsest hadisəsi bəşəriyyətin bütün tarixi boyu olmuşdur desək yanılmarıq. Sadəcə üzərinə tabu qoyularaq müəyyən müddət bu mövzu gizli qalmışdır. Müasir günümüzdə insest üzərindəki gizlilik pərdəsi qalxmışdır. Belə mövzuya müraciət etməyimizin əsas motivlərindən biri də məhz problemin geniş vüsət alması və tədqiqatçıların araşdırma predmetinə çevrilməsidir. Problemlə mübarizə apara bilmək üçün öncəliklə onun mahiyyətini tamlığı ilə başa düşmək önəmlidir. Ona görə də, ilk olaraq, insestin nə olduğunu təhlil etməyə çalışaq. Daha sonra isə, qeyri-tarazlıq psixologiyasında insestə yanaşmanın necə olduğunu təyin etməyə çalışaq.

"İnsest" sözünün mənşəyi latınca *castus* (təmiz, eyibsiz) və *incestus* (təmiz olmayan, eyibli, ləyaqətsiz) sözlərindən törəyir [3, s. 16]. *İncestare* feili "ləkələmək, kirlətmək, zorlamaq" anlamını verir [3, s. 16]. Bu anlamda insest hadisəsi mənəvi pozuntu kimi nəsə kirli olan şey təəssüratı oyadır.

İnsestin mahiyyətinin izahına müxtəlif yanaşmalar mövcuddur. Littrenin lüğətində insestə qanun çərçivəsində tərif verilir: "*Qohum və ya qohumlaşmış şəxslərin qanun səviyyəsi hüdüdlarından kənara çıxan qanunsuz birləməsi*" [4, s. 12]. Rober isə insesti bədən əlaqəsi kontekstində nəzərdən keçirir: "*Qohum olan və ya nikahı qadağan edən səviyyədə qohumlaşmış kişi və qadın arasındakı seksual münasibətlər*" [4, s. 12]. Hər iki aspektdə yaşlı qan qohumları arasında olan seksual əlaqədən söhbət gedir. Bəs əgər bu əlaqə yaş fərqi böyük olan insanlar arasındadırsa, məsələn, ata-qız, ana-oğul arasındadırsa?

Z.Freud yazır ki, *"Psixoanaliz bizə öyrətmişdir ki, oğlanın ilkin seksual seçimi insestuozdur, qadağan edilmiş obyektlərə – ana və bacıya – istiqamətlənmişdir..."* [5, s. 212]. Deməli, uşaq və yaşlı insestini fərqləndirmək heç də yanlış olmaz. J.Andre yazır ki, *"Əgər biz uşağın insestuoz istəyindən yaşlının (pedofil) istəyinə keçiriksə, biz məhz insestə, başqa sözlə, universal qadağanı pozan cinayətə, akta yaxınlaşırıq"* [4, s. 22]. Eyni zamanda, müəllif "inceste" sözünü "qanın qarışması" kimi qeyd edir [4].

U.Virts isə insestin mahiyyətini tam fərqli şəkildə izah etməyə çalışır. Onun fikrincə, *"İnsest – qan qohumluğu olanlarla münasibətlərdə deyil, asılı olanlarla münasibətlərdə sui-istifadədir və bu anlamda, o, uşaqlara qarşı iyrənc zorakılıq və istismar növüdür"* [3, s. 18]. Başqa sözlə, müəllif insesti seksuallaşmış zorakılıq, "nəzarət və tabe olma" ritualı kimi nəzərdən keçirdiyini vurğulayır.

Gördüyümüz kimi, insest qan qohumları arasındakı seksual əlaqədən daha geniş, yəni yaşlıların uşaqları seksual istismarı kimi başa düşülür. U.Virtsin kitabında [3] insest həm zorlanma kimi, həm də ruhun öldürülməsi kimi nəzərdən keçirilir. O, yazır ki, *"İnsesti, daha çox uzun müddət ərzində təkrarlanan işlərə aid edirlər"* [3, s. 20]. U.Virts onu da qeyd edir ki, seksual insestuoz qəsdlər çox vaxt dəyişkən olur, belə ki, ilk vaxtlar nəcibliklə və ya seksual inisiasiya haqqında söhbətlərlə maskalanır, lakin əslində bilinən və zorakıdır. Müəllifin gəldiyi nəticələrdən biri ondan ibarətdir ki, insestə ruhun öldürülməsi kimi işarə etdikdə, bu ona gətirib çıxarır ki, bunu yaşamış uşaq artıq başqa uşaqlar kimi nə düşünə, nə də hiss edə bilmir, onun bütün hərəkərləri başqa çalarlar əldə edir. Əlbəttə ki, U.Virts bu prosesi ailə daxilində, xüsusilə qızın ata yaxud ögey ata tərəfindən seksual istismarı fonunda təhlil edir. Qeyd etməliyik ki, insest hadisəsinə həm də ana yaxud ögey ana və oğul, o cümlədən ata-oğul və ana-qız arasında da rast gəlinir.

Qeyri-tarazlıq psixologiyası [1] kontekstində insest hadısəsi müvafiq şərtlər ortamında, məsələn, süni və ya indifferent şokların yaşandığı zamanda qəbul edilmiş qərar seçimidir. Tezisimiz ondan ibarətdir ki, əgər qərar seçiminin mexanizmlərini aşkar edə bilsək, onda insest hadisəsini qadağan olunmamış üsullarla əvəzləyə biləcək seçimlərlə qərarı dəyişdirə bilərik.

Həmin mexanizmlərin aşkarlanması üçün metodologiya işlənilib hazırlanmışdır [2].

## ƏDƏBİYYAT

1.Əliyev, M.S. Qeyri-tarazlıq psixologiyası: sahə nəzəriyyəsinə yeni baxış // Bakı Qızlar Universitetinin Elmi əsərləri. Bakı: 2018, № 3. – səh.220-225

2.Əliyev, M.S. Qeyri-tarazlıq psixologiyasının metodoloji əsasları // "Psixologiya Zirvəsi: Problemlər, perspektivlər və yeni yanaşmalar" adlı beynəlxalq elmi-praktik konfransın materialları (tezislər). Bakı: ADPU nəşriyyatı, 2020. – səh. 14-17

3.Виртц, У. Убийство души: Инцест и терапия. – Пер. с нем. – М.: Когито-Центр, 2014. – 293 с.

4.Инцесты / Под ред. Ж. Андре. Пер. с фр. – М.: Когито-Центр, 2017. – 158 с.

5.Фрейд, З. «Я» и «Оно». Труды разных лет. Книга I / Перевод с немецкого. – Тбилиси: Мерани, 1991. – 401 с.

**Zümrüd CAVADOVA**
***psixologiya üzrə fəlsəfə doktoru, dosent,***
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının müdiri***
**Arifə İSGƏNDƏROVA**
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının müəllimi***
**E-mail: Cavadova-Zumrud@mail.ru**

# NİZAMİ GƏNCƏVİ: İNSAN MÜNASİBƏTLƏRİNDƏ ƏXLAQİ ŞÜUR VƏ HİSSLƏRİN ROLU

*Açar sözlər:* Nizami, hisslər, şüur, maddi, təbii, məhəbbət, şəhvət, əxlaqi, qorxu, ambivalent

Orta əsrlərdə Azərbaycan fəlsəfi-psixoloji fikir tarixinin intibah dövrü böyük Nizaminin adı ilə bağlıdır. Nizami təkcə öz zəmanəsinin böyük şairi deyil, həm də mütəfəkkir filosofu və psixoloqu idi. Nizamişünaslıqda Nizami fenomeni "bəşər ictimai-bədii fikir tarixində xüsusi bir mərhələ" sayılır.

Nizami insanı XII əsrdə, dünya fəlsəfi-psixoloji fikir tarixində ilk dəfə olaraq intibah ölçüləri ilə təhlil etmişdir. Ə.S.Bayramovun qeyd etdiyi kimi "Nizami dövründə sənət, bədii ədəbiyyat və fəlsəfi fikrin vəhdətini əks etdirirdi, həm də Nizaminin yaradıcılığında nəinki dövrün elmi inkişaf səviyyəsi, eləcə də bir sıra sahələr üzrə elmin gələcək inkişaf perspektivləri və mürəkkəb problemləri barədə çox maraqlı məsələlər əks olunmuşdur. Belə elmlər sistemində psixologiya elmi xüsusi yer tutur.

XII əsrdə Azərbaycanda elmi-fəlsəfi fikrin inkişafı şəraitində psixoloji fikirdə yüksək inkişaf səviyəsi ilə fərqlənirdi və bu məsələlər Nizami Gəncəvinin bənzərsiz əsərlərində sistemli əks olunmuşdur. Nizami böyük psixoloq idi. Dövrün çöxcəhətli psixoloji fikrindən bədii yaradıcılığında sadəcə olaraq bəhrələnməmiş, onları qüdrətli psixoloq kimi təhlil etmiş və yaradıcılığında inkişaf etdirmiş, öz dövrünün böyük naliyyətləri olan təkrar olunmaz psixoloji sistem yaratmışdır.

Nizaminin fikrincə insanın psixi həyatı nə qədər çoxcəhətli olsa da, onlar bir-biri ilə üzvü surətdə bağlıdır. Nizami bu önəmli problemə nəzəri-metodoloji baxımdan yanaşmış, psixi prosesləri və psixi xüsusiyyətləri funksiyalararası əlaqələr baxımdan nəzərdən küçirmiş və onların şəxsiyyət əmsalını açıqlamışdı.

Nizami dünya ədəbiyyatında ilk psixoloq və filosof obrazı yaratmış böyük şair idi.

Nizami dövrün fəlsəfi-psixoloji fikrindən yaradıcılıqla bəhrələnmiş, onları intibah meyarları ilə dahiyanə sürətdə inkişaf etdirmiş, öz dövrünün böyük naliyyəti olan təkrarolunmaz fəlsəfi-psixoloji sistem yaratmışdı. Onun insan konsepsiyası mahiyyətcə orjinal idi və XII əsr psixologiyasının böyük naliyəti kimi diqqəti cəlb edir. Nizamişünaslıqda əsaslı tədqiqiatlarla bərqərar olmuş

fikrə görə, mütəfəkkir şair bütün dövürlər üçün öz əhəmiyyətini itirməyən bitgin və mükəmməl fəlsəfi-etik sistem yaratmışdı.

Fəlsəfi-etik sistem ifadəsinə, xüsusilə onun ikinci tərəfinə diqqət yetirək. Nizami dövrün fəlsəfi problemlərini, ilk növbədə, həyatın mənası insanın dünyada və insan münasibətlərində yeri onun əzəməti kimi problemləri zəmanəsinin böyük humanisti kimi ilk növbədə etik-mənəvi ölçülərlə dəyərləndirirdi. Bu intibah dünya durumunun bilavaistə əksi idi və özünəməxsus psixoloji çalarlarla seçilirdi. Nizaminin psixoloji sistemində təlabat problemi önəmli yer tuturdu. Onun fikrincə insan iki başlanğıcdan ibarətdir: cismani və mənəvi. Mahiyətcə bir-birinə əksi olan bu iki aləm öz qaynaqları ilə insanın təlabat-motivasiya sahəsi ilə bağlıdır.

Nizami insanın-təlabat motivasiya saəsinin xüsusiyyətlərini təkcə şərq poetikasında deyil, həm də şərq fəlsəfi-psixoloji fikrində özünəməxsus evristik tutumu olan "qəlb" kəlməsi ilə təsvir edirdi. O, insan qəlbini üç hissəyə bölərək göstərirdi ki, bu hissələrdə hər birinin öz obyekti var. Məsələn, I hissə qidaya və şəhvətə, II hissə qələbəyə, intiqama, III hissə isə biliklərə və kamilliyə can atır.

Nizami insan qəlbini təsvir edərkən dövrün psixoloji naliyyətlərinə araxalanırdı. Nizami özünün dahi sələflərindən (Platon və Əbu Əli İbn-Sina) fərqli olaraq bu məslələrə intibah dövrünün ölçüləri ilə yanaşırdı və onları yeni istiqamətdə-şəxsiyyətin cəmiyyətlə qarşılıqlı əlaqəsi baxımında orjinallıqla təhlil edirdi. Nizamiyə görə cəmiyyətdə, insanlar mühitində insan kimi yaşamaq üçün mənəvi cəhətdən kamilləşməlidir. Onun fikrincə, mənəvi meyarlar insan münasibətlərinin başlıca şərtidir.

Insanın bir şəxsiyyət kimi özəmli xüsusiyytələri məhəbbət hissində bilavaistə əks olunur. Mahiyyətinə görə əxlaqi hiss kimi meydana çıxsa da, o, insanın təkcə mənəvi təlabatları ilə deyil həm də biogenetik təlabatları ilə ilk növbədə şərtlənir.

Birinci səviyyə maddi tələbatlarla bağlıdır. Onların sırasında təbii tələbatlar – yeməyə, yuxuya, əks cinsə və s.tələbat mühüm yer tutur. Tələbatların ikinci səviyyəsi mənəvi tələbatlarla səciyyələnir. Bu tələbatlar müxtəlifdir, lakin onların kökü insanın özünü təsdiq etmək tələbatı ilə bağlıdır. Qələbəyə, alinəsibliyə tələbatlar məhz bu zəmində əmələ gəlib inkişaf edib. Lakin bu səviyyədə insan hələ öz mənafeyini başqa adamın mənafeyindən üstün tutur.

Üçüncü səviyyədə isə insanın mənəvi tələbatları yeni məzmun kəsb edir: o, məhəbbətə qovuşur, cılız ehtiraslardan azad olur, kamillik zirvəsinə - mənəvi harmoniya səviyyəsinə yüksəlir.

İnsanın həyat fəaliyyəti üçün maddi (təbii) tələbatlar özəmli əhəmiyyətə malikdir. Nizami onları nəinki inkar etmir, hətta insanın səhhəti, sağlamlığı baxımından bu tələbatların səmərəli təmin olunması yollarını nəzərdən keçirir. Lakin, Nizamiyə görə, heyvani ehtirasların kökü məhz tələbatların bu sahəsi ilə şərtlənir. Maddi tələbatlar insaniləşməlidir – Nizaminin fikrincə, mənəvi harmoniyaya nail olmağın ilk şərtlərindən biri elə bundan ibarətdir.

Şairin şəhvət və məhəbbət hissi barəsindəki fikirləri bu cəhətdən diqqəti xüsusi ilə cəlb edir ki, onlarda "əxlaqi hisslər: şəhvət və məhəbbət problemi" təhlil olunur. Nizami göstərirdi ki, şəhvət hissi özünün köklərinə görə heyvani mənşəyə malikdir. Onun qaynaqları "sövqi-təbii"ilə bağlıdır.

Nizaminin fikrincə, insan münasibətləri sahəsində şəhvət hissi iki yolla – ya qorxu hissi, ya da əxlaqi hisslərin təsiri ilə yeni keyfiyyətlər kəsb edir. Lakin qorxu hissi nə qədər güçlü olsa da, əlverişli şəraitdə xüsusilə erotik təsiri ilə şəhvət hissi özünü asanlıqla göstərir. Cinslərarası münasibətlər isə ismət ölçüləri ilə dolğunlaşanda yeni məzmun kəsb edir və ilk növbədə, məhəbbət hissi meydana çıxır.

Nizaminin fikrincə, cinslərarası münasibətlər ismət ölçülər ilə dolğunlaşanda onlar yeni məzmun kəsb edir və ilk növbədə, məhəbbət hissi kimi özünü göstərir.

Əgər məhəbbətdə olmasa ismət
O şəhvət hissidir, deyil məhəbbət.

Nizami özünün bənzərsiz əsərlərində təkcə öz qəhramanlarının çoxcəhətli hisslər aləmini təsvir etməklə kifayətlənməyib, hisslərin bir çox mühüm qanunauyğunluqlarını ətraflı təhlil etmişdir. Onun "Leyli və Məcnun", "Xosrov və Şirin" kimi ölməz əsərlərində hisslər psixologiyası məsələləri əslində sistemli araşdırılmışdır.

Hisslərin ambivalentliliyi, hisslərin gizlədilməsi, onların motivləri, şəxsiyyətlərarası münasibətlərin xaraxteri ilə şərtlənməsi, emosional hislərin fenomenologiyası kimi məsələlərin sistemli təhlili XII əsr Azərbaycan psixologiyasının önəmli uğur idi. Nizami insanın hislər aləminin şəxsiyyət baxımında təhlil edərək emosional halətlərin təsvirinə xüsusi diqqət yetirirdi. Bu baxımdan aşağıdakıları xüsus ilə qeyd etmək olar:

•Emosional halətlərin fenomenoloji xüsusiyyətləri insanın, ilk növbədə, özünə və onun şəxsi məna kəsb edən hadisələrə xüsusilə sevdiyi adama münasibətlərinin xaraxteri ilə bilavaistə bağlıdır.

•Nizaminin əsərlərində insanın hisslər aləminin bənzərsiz ölçülərlə əks etdirən çoxçalarlı emosional halətlər - sevinc, peşmançılıq, qəm-qüssə, qeyz, dərdi-sər, kədər, qorxu, hirslənmək, hicran, vahimə və s. psixoloji baxımdan dəqiq təsvir olunur.

•Hisslər ünsiyyət prosesində bənzərsiz ekspressiv çalarlar kəsb edir və fenomenoloji səpgidə özünəməxsus boyalarla ifadə olunur.

•Emosional halətlər özlərinin bənzərsiz çalarları ilə insanın bütün intelektual aləminə nüfuz edir. Təxəyyülün fəaliyyəti xüsuilə güclənir. Insan "xəyal ilə dolaşmağa" başlayır.

•Insan özü-özü ilə danışmağa başlayır, "dərdini öz kölgəsinə açır" onun üçün əziz, əhəmiyyətli adamla dioloqa girir.

•Insan özünəməxsus emosional halətlər keçirəndə mahnı ilə, şerlə boşaldır. Əslində bu yolla özü-özünə təsginlik verir.

Nizaminin məhəbbət fəlsəfəsi nəinki azərbaycan, həm də dünya fəlsəfi fikir tarixində bənzərsiz hadisə idi. Mütəfəkkir şair məhəbbət hissinin psixoloji məsələlərini araşdıranda da bu qiymətli fikirlərə söykənirdi.

ƏDƏBİYYAT


1. Abbasov M. Nizaminin psixoloji görüşləri. Namizədlik dissertasiyası BDU, 1948. – 158 s.
2. Babayeva T.T. Nizami Gəncəvinin yaradıcılığında şəxsiyyət psixologiyası problemi. Namizədlik dissertasiyası avtoreferatı, Bakı: BDU, 1995. – 32 s.
3. Əlizadə Ə.Ə. “Xəmsə”də yaş və pedaqoji psixologiya məsələləri. Bakı: 2002, səh.111-119.
4. Şirinova Z.S. Nizami Gəncəvinin psixoloji görüşləri. Bakı: 2008, səh.73-81.



**Yeganə ƏSKƏROVA**
***psixologiya üzrə fəlsəfə doktoru ,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: y.askerova@inbox.ru**


## AZƏRBAYCANDA PSİXOLOJİ FİKİR VƏ ELMİ PSİXOLOGİYANIN YARANMASI VƏ İNKİŞAFI MƏRHƏLƏLƏRİ

*Açar sözlər:* elmi psixologiya, psixoloji fikir, elmi fəaliyyət, yaradıcılıq, inkişaf

Bütün ölkələrdə və xalqlarda olduğu kimi Azərbaycanda da psixoloji fikrin təşəkkülü və inkişafını iki dövrə bölmək olar: elməqədərki və elmi psixologiyanın yaranması və inkişafı.

Məlumdur ki, onları eyniləşdirmək mümkün olmadığı kimi, aralarında kəskin sərhəd qoymaq da mümkün deyildir. Elməqədərki və elmi psixologiya bir-birindən bəhrələnmiş, bir-birlərinin inkişafına, formalaşmasına təsir göstərmişdir.

R.İ.Əliyev yazır: “Elməqədərki psixoloji fikirlərin yaranması tarixi çox qədimlərdən, eramızdan əvvəl başlanır. O, bir tərəfdən Şərq fəlsəfi fikrindən, digər tərəfdən xalq yaradıcılığından bəhrələnmişdir. O, bir tərəfdən həyatın özündən, ictimai-tarixi proseslərdən asılı olaraq inkişaf etmiş, digər tərəfdən baş verən proseslər psixoloji fikrə öz təsirini göstərmişdir” (1, s. 354).

F.A.Rüstəmovun fikrincə ilk pedaqoji təsəvvürlərin təşəkkülü xalqın qədim adət və ənənələri, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlı olmuşdur. “Xalqın həyat müşahidələrinə və emprik təcrübəsinə əsasən

əldə edilən pedaqoji biliklər ilk növbədə şifahi xalq yaradıcılığında və bədii ədəbiyyat nümunələrində əks olunmuşdur. Təlim-tərbiyə ilə bağlı Azərbaycan xalqının tarix boyu gündəlik müşahidələrinin, əməli fəaliyyətlərinin nəticəsi kimi qazandıqları və folklor nümunələrində, adət-ənənələrdə, etnoqrafik materiallarda, tarixi sənədlərdə, milli mədəniyyət abidələrində, pedaqoji yönümlü əsərlərdə və akademik pedaqogikada sistemə salınıb inkişaf etdirilən pedaqoji ideyaların hamısı əvvəlcə xalq pedaqogikasında mövcud olmuşdur" (2, s. 20).

Hər bir xalqın yaratdıqlarının, keçdiyi tarixi yolun, həyat tərzinin öyrənilməsi vacibdir. Müxtəlif dövrləri, ictimai-tarixi şəraiti öyrənən əksər tədqiqatçılar konkret tarixi şəraitdə yaşayan insanların dünyagörüşü, şəxsiyyəti və mənəviyyatını tədqiq edərkən həmin dövrün insanlarının psixologiyasının öyrənilməsini zəruri şərt kimi irəli sürmüşlər.

Xalq yaradıcılığında özünün geniş ifadəsini tapmış psixoloji fikirlər, əxlaqi keyfiyyətlər, nəcib davranış formaları bu və ya digər şəkildə Ə.Bəhmənyarın, N.Gəncəvinin, N.Tusinin, İ.Nəsiminin, Xətainin, M.Füzulinin, A.Bakıxanovun, M.F.Axundovun və digərlərinin əsəarlərində öz ifadəsini tapmış, daha da cilalanmış, elmi-bədii şəkildə təqdim olunmuşdur. Bu mütəfəkkirlər öz əsərlərində təlim-tərbiyə məsələlərinə geniş yer vermiş, maarifçi filosof kimi şöhrət qazanmışlar.

Professor Ə.S.Bayramov və professor Ə.Ə.Əlizadənin "Psixologiya" dərsliyində (Bakı, 1989) elməqədərki psixologiya eyni zamanda "güzəran psixologiyası" kimi təqdim olunur. Doğrudur, onlar güzəran psixologiyasını yalnız tarixi keçmiş şəklində təqdim etmirlər. Onun həm də insanların gündəlik həyatında özünəməxsus rol oynadığını qeyd edirlər. Böyük həyat təcrübəsi olan, hər kəsin dilni bilən, müdrik adamları həm də insan sərrafi (psixoloq) adlandırmışlar.

"Güzəran psixologiyasına aid biliklərdə biz hətta müasir psixologiya üçün maraqlı olan müəyyən faktlara rast gəlirik. Lakin onların hamısı üçün bir cəhət səciyyəvidir: Güzəran psixologiyasında faktlar ardıcıl şəkildə izah edilmir, sübut olunmur, ancaq bu və ya digər formada qeyd edilir, bir çox hallarda isə onlar sadəcə olaraq birtərəfli xarakter daşıyırlar" (3, s. 54).

Elməqədərki psixoloji fikirlərdə hadisələr, faktlar müşahidələrə əsasən gəlinən doğru, dəqiq qənaətlərdir. Ona görə də burada müvafiq psixoloji hadisələrin mahiyyəti açılmır, faktlar izah edilmir.

R.İ.Əliyev psixologiya elminin təşəkkülü və inkişafını üç mərhələyə ayırır. Onun təsnifatına görə I mərhələ qədim dövrlərdən başlayaraq bizim eradan əvvəlki VII-VI əsrləri əhatə edir. "Bu dövrdə ruh (psixika) haqqında təsəvvürlər çoxsaylı mif və əsatirlərdə, nağıl və ilkin dini inamlarda, totemlərdə öz əksini tapmışdır" (1,s.14).

II mərhələ bizim eradan əvvəl VII-VI əsrlərdən başlayaraq XVIII əsrin sonunadək olan dövrü əhatə edir. Bu dövrdə psixologiya elmi fəlsəfənin tərkibində inkişaf etmişdir. Müxtəlif ədəbiyyatlarda II mərhələnin

başa çatması vaxtı fərqli mövqelərdən şərh olunur. Kimi onun ilk psixologiya məktəbinin – assosionizmin yaranmasıyla (XVIII əsrin sonunları), kimi də fəlsəfə və təbiət elmlərindən fərqli psixologiya terminlərinin yaranmasıyla (XIX əsrin ortaları) II mərhələnin başa çatdığını qəbul edir.

Bu mərhələyə dair R.İ.Əliyevin mövqeyi belədir: "Psixoloqların böyük əksəriyyəti psixologiya elminin müstəqil elm sahəsinin meydana çıxmasının tarixini XIX əsrin II yarısından, eksperimental psixologiyanın yaranması tarixindən götürməyi daha düzgün hesab edirlər" (1, s.14).

Psixologiya elminin inkişafının III mərhələsi Almaniyanın Leypsiq şəhərində V.Vundtun eksperimental psixologiya laboratoriyasının yaranmaslyıa başlayır. Bununla belə bu dövrün özünü də II dövrə ayıranlar var. "XX əsrin II yarısında yeni psixologiya məktəbləri və istiqamətləri: humanist psixologiya, genetik psixologiya, koqnitiv psixologiya meydana çıxdı. Beləliklə, demək olar ki, XX əsrin 60-cı illərindən başlayaraq psixologiya elmi özünün yeni inkişaf mərhələsinə daxil oldu. Bu mərhələnin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, indi ayrılma, parçalanma yox, ayrı-ayrı məktəblərin, tədqiqat istiqamətlərinin birləşməsi prosesi gedir"(1, s.17).

XX əsrin başlanğıcında isə psixologiya elmində böhran, parçalanma baş verdi. XIX əsrin 80-ci illərində eksperimental, introspektiv metodlara inanan və bununla da insan psixikasının sirrlərinin tamamilə açılacağına bəslənən ümidlər özünü doğrultmadı. Belədə psixologiyanın nəzəri məsələlərinin öyrənilməsində kəskin mövqe fərqləri meydana çıxdı. Bu böhranın aradan qaldırılmasına edilən cəhdlər nəticəsində yeni-yeni psixologiya məktəbləri yaranmışdır. Bunlara misal olaraq ABŞ-da yaranan biheviorizmi, Almaniyada yaranan geştalt psixologiyanı, Avstriyada yaranan psixoanalizi göstərmək olar.

Ə.S.Bayramov və Ə.Ə.Əlizadə isə psixologiya elminin yaranması və inkişafının II mərhələsini göstərirlər: "Birinci mərhələ lap qədim zamanlardan başlayaraq XIX əsrin 70-80-cı illərinə qədər davam edir. İkinci mərhələ isə (XIX əsrin 70-80-cı illərindən müasir dövrə qədər) psixologiyanın müstəqil elm kimi inkişaf mərhələsidir" (3, s.55).

Azərbaycanda da psixoloji fikir və elmi psixologiyanın yaranması təxminən Qərb ölkələri və Rusiyada olduğu kimidir. Bununla belə Azərbaycanda psixologiya elminin özünəməxsus inkişaf xüsusiyyətləri vardır.

Azərbaycanda psixoloji fikrin təşəkkülü və təzahürü ilkin olaraq qədim adət-ənənələrdə, mərasim və ayinlərdə öz əksini tapmışdır. Bununla yanaşı psixoloji fikrin daşıyıcısı daha bariz şəkildə şifahi xalq ədəbiyyatında özünü göstərir. Bura bayatılar, atalar sözləri, alqışlar, qarğışlar, nağıllar və s. aid etmək olar.

R.İ.Əliyev ta qədim dövrlərdən başlayaraq müasir dövrümüzədək Azərbaycanda baş verən ictimai-siyasi, sosial-iqtisadi prosesləri təhlil edərək Azərbaycan xalqının düşüncə, təfəkkür, davranış tərzinə, milli xüsusiyyətlərin formalaşmasına təsir edən hadisələri aşağıdakı dövrlərə ayırmışlar:

– İslamaqədərki I dövr;
– İslamdan sonrakı, orta əsrləri əhatə edən II dövr;
– Rusların Azərbaycana gəldiyi və istila etdiyi III dövr (XIX əsrdən 1920-ci il, sovet hakimiyyətinin qurulmasınadək);
– 1920-1991-ci illəri əhatə edən sovet hakimiyyəti illəri (IV dövr);
– Azərbaycanın müstəqillik qazanmasından sonrakı dövr (V dövr) (4, s.99).

Hələ e.ə. II-I minilliklərdə "Avesta" da psixoloji xüsusiyyətlər, psixi hadisələr barədə fikirlər öz əksini tapmışdır.

"Kitabi-Dədə Qorqud" dastanında Azərbaycan xalqının həyatı, düşüncə tərzi daha dolğunluğu ilə təsvir edilmişdir. Bu dastan islamaqədərki, qədim türk təfəkkürünün, həyat tərzinin dərk olunması baxımından da çox əhəmiyyətlidir.

İslamaqədərki dövrün təhlili göstərir ki, Azərbaycan xalqının təfəkkür, həyat tərzinin formalaşmasında bu dövrün müstəsna yeri var. Ə.S.Bayramov bunula bağlı yazır: "Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır.

... Bu cəhətdən xalqımızın qədim tarixə malik olan "Kitabi-Dədə Qorqud" dastanları çox zəngin məxəzdir" (5, s.111)

"Kitabi-Dədə Qorqud" dastanında şəxsiyyət azadlığı, azad fikir, qadın və kişilərin bərabərliyi, qadının uca tutulması fikri başlıca yer tutur. Bu dastan xalqa qəhrəman keçmişini, mərd igidlərini, şərəfli tarixini göstərir. Bununla da xalqı mənəvi ucalığa, milli oyanışa səsləyir. Dastanın ümumi qayəsi belədir ki, düşmənə dinc yolla təslim olmaq, yadları özündən üstün tutmaq olmaz.

İslam dininin Azərbaycanda yayılmasıyla insanlarda tədricən yeni düşüncə, yeni təfəkkür tərzi, yeni adət-ənənələr formalaşmağa başladı. İslam dini yalnız zor yolu, qılınc gücü ilə yox, həm də siyasətlə, ideologiya ilə, inam, şüurlara təsir yolu ilə yayılırdı.

"XI əsrdən başlayaraq Azərbaycanda psixoloji ideyalar fəlsəfi traktat və bədii ədəbiyyat nümunələrində daha geniş surətdə öz əksini tapır" (3, s. 57).

İslam dininin tədricən, həm də köklü şəkildə Azərbaycanda bərqərar olmasıyla, Ərəb və fars ədəbiyyatı və fəlsəfəsinin təsiriylə yeni dünyagörüşü formalaşmağa başladı. İslam dini daha çox nəsihətə, sözə istinadən yayıldığından sürətlə geniş əhatəyə malik oldu.

Elə bu səbəbdən də Nizami dövründən başlayaraq orta əsrlərdə şəxsiyyətin formalaşmasında tərbiyə ön plana keçdi, şair və filosofların əsərlərində nəsihətçilik xüsusi yer tutdu. Ona görə də Nizami, Xaqani, Nəsimi, Xətai, Füzuli və digər mütəfəkkirlərin əsərlərində bir tərəfdən qədim türk və islam dəyərləri qovuşmuş, digər tərəfdən qarşı-qarşıya qoyulmuşdur.

Maraqlıdır ki, bu paralellər müasir dövrümüzdə də davam edir, eyni zamanda biri digəri ilə vəhdətdə götürülür. Bu gün inanc və andlarımızda qədim türk təfəkküründən gələn suya, torpağa, oda inam var.

Nizami Gəncəvi şeyxdir, islamın təbliğatçısıdır, bununla belə mənşəcə, xaraktercə türkdür. O, əsərlərində demək olar ki, insana xas olan müsbət keyfiyyətlərin hamısını türklüklə bağlayıb.

"Dövrün elmi biliklərini bədii yaradıcılığında sintez edən dahi Nizaminin bədii əsərlərində çox zəngin orijinal psixoloji ideyalar öz əksini tapmışdır. Nizami ruhla bədənin vəhdətini qeyd etmiş, insanın daxili aləminə dərindən nüfuz edərək əsərlərində dəqiq psixoloji təsvirlər vermiş, mühitin təsiri ilə şəxsiyyətdə baş verən dəyişiklikləri ... kimi psixoloji problemlərə toxunmuşdur" (3, s. 57).

Orta əsrləri Şərqin intibah dövrü də adlandırarlar. Bu dövrdə bir çox şəhərlərdə yeni – yeni elm, təhsil ocaqları yaradıldı, görkəmli şəxsiyyətlər yetişdi. Bu dövrdə ərəb və fars dilli ədəbiyyat geniş yayıldı, saray dili oldu, lakin xalq öz dilini, ənənəsini qoruyub saxladı. Orta əsrlərdə Azərbaycan xalqının psixologiyası da bu zəmində formalaşdı.

Orta əsrlərdə Azərbaycanda ümumislam mədəniyyəti əsasında formalaşan psixoloji fikirlər XIX əsrin ortalarından başlayaraq tədricən rus mütəfəkkirlərinin fəal təsirinə məruz qaldı. İlk vaxtlar bu təsir təsviri xarakter daşıyırdı. XIX əsrin ikinci yarısından başlayaraq pərakəndə, emprik nəzəri fikirlər bitkin konsepsiyalara çevrildi. Mütərəqqi milli ziyalılar-maarifçi pedaqoqlar A.A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov, M.Nəvvab, M.T.Sidqi, A.Səhhət və başqaları, Rusiyanın ali məktəblərində təhsil almış H.Zərdabi, N.B.Vəzirov, Ə.B.Haqverdiyev və başqaları, Qori Müəllimlər Seminariyasının məzunları F.Köçərli, Ü.Hacıbəyov, M.Mahmudbəyov və başqaları Azərbaycanda psixoloji fikrin inkişafında müstəsna rol oynamışlar.

"XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ictimai, ədəbi, psixoloji və pedaqoji fikrinin maarifçilik ideologiyası zəminində inkişafı və yetkinləşməsi onun orijinal spesifik xüsusiyyətlərini şərtləndirir. Azərbaycan maarifçilik məfkurəsinin əsas məzmununu və ideya istiqamətini orta əsrlərdən, feodalizmdən qalma, köhnəlmiş, ömrünü yaşamış həyat-məişət tərzinin tənqidi, kapitalizmin inkişafı ilə əmələ gələn yeni əlaqə və münasibətlərin təbliği təşkil edir" (6, s.3).

XX əsrin əvvəllərindən başlayaraq mövcud gerçəklikdən narazılıq özünü göstərməyə, tədricən azadlıq ideyalarının yaranması başladı. XX əsrin əvvəllərində yaranan onlarla milli mətbuatda etiraz və şikayət notlarını azadlıq konsepsiyası, milli təfəkkür, qan yaddaşına qayıdış çağırışları əvəz etməyə başladı.

Göründüyü kimi, elməqədərki psixoloji fikirlər dövrün, zamanın tələbləri zəminində yaranır, inkişaf edirdi. Xalqın təfəkkür tərzinin, adət-ənənələrin formalaşmasını şərti olaraq müxtəlif dövrlərə bölmək mümkün olsa da, hesab edirik ki, o, tamın, bütövün hissələri kimi götürülməlidir. Başqa sözlə, psixoloji

fikrin formalaşmasında bu dövrlərin hər birinin pozitiv və neqativ rolu olmuşdur.

Ə.T.Baxşəliyevin aşağıdakı fikirlərini qəbul edirik. O, yazır: "Azərbaycanda psixoloji fikrin tarixi inkişafının xarakterini başa düşmək üçün həmin irsin öyrənilməsinin çox böyük əhəmiyyəti vardır" (7, s. 23).

Azərbaycanda elmi psixologiyanın yaranmasında elməqədərki psixoloji fikirlər əsaslı təsir göstərsə də həmin dövrdə sistemli, fundamental tədqiqatlar olmamışdır. Elməqədərki psixoloji fikirlər yalnız sovet hakimiyyəti dövründə görkəmli psixoloqlar Ə.K.Zəkuzadə, F.Ə.İbrahimbəyov, A.O.Makovelski, M.C.Məhərrəmov, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.T..Baxşəliyev və başqaları tərəfindən tədqiqata cəlb olunmuşdur.

Azərbaycanda elmi psixologiyanın yaranması və inkişafinin sovet dövrünü tədqiq edən psixologiya tarixçisi Ə.T.Baxşəliyev yazır: "Tədqiqat zamanı sovet hakimiyyəti qurulana qədərki dövrdə Azərbaycanda psixologiyaya aid xüsusi bir əsərin, kitabın, elmi tədqiqatların, dissertasiyaların yazılmasına rast gəlmədik" (7, s.28).

Azərbaycanda elmi psixologiyanın təşəkkülü inkişaf etmiş Qərb ölkələri və Rusiya ilə müqayisədə xeyli gec başlamışdır. Elmi psixologiyanın yaranması tarixi 1919-cu ildən başlamış və təxminən 90 illik bir dövrü əhatə edir. Tarix üçün çox da uzun bir müddət olmayan bu dövrdə Azərbaycan psixologiya elmi zəngin bir inkişaf yolu keçmişdir.Aydındır ki, elmin inkişafında görkəmli ziyalıların, psixoloqların əvəzsiz xidmətləri olmuşdur.

Hələ 1919-cu ildə - Azərbaycan Demokratik Respublikasının vaxtında yaradılan Azərbaycan Dövlət Universitetində ilk yaradılan kafedralardan biri də psixologiya kafedrası olmuşdur. Kafedraya görkəmli alim A.O.Makovelski rəhbərlik etmişdir. Həmin dövrdə çətinliklərdən biri də milli kadrların olmaması ilə bağlı idi. Vəziyyətdən çıxış yolu kimi dilləri Azərbaycan dilinə yaxın olan kadrların ölkəyə dəvət olunması qəbul edildi. Dəvət olunanlar sırasında görkəmli alimlər X.Fikrət, M.Tofiq və başqaları vardır. Onlar həm psixologiyadan dərs deyir, kitablar nəşr etdirir, həm də milli kadrların hazırlanmasına kömək edirdilər. ADR çox qısa müddət fəaliyyət göstərdi və qarşıya qoyulan məqsəd və vəzifələrin çoxu həyata keçirilməmiş qaldı.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulmasıyla təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsinə başlandı. Kadr hazırlığı məqsədilə 1921-ci ildə APİ, 1931-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu, 1936-cı ildə Kirovabad Dövlət Pedaqoji İnstitutu yaradıldı.

Qeyd etdiyimiz kimi ilk psixologiya kafedrasının müdiri A.O.Makovelski olmuş və bu vəzifədə 1930-cu ilədək çalışmışdır. Azərbaycanda psixologiya elminin təşəkkülü və inkişafında B.B.Komarovski, Ə.K.Zəkuyev, F.Ə.İbrahimbəyovun müstəsna rolu və xidmətləri olmuşdur. 1921-ci ildə B.B.Komarovski və Ə.K.Zəkuyev Bakıya dəvət olunurlar. Onlar V.İ.Lenin adına APİ-də, Azərbaycan Dövlət Universitetində psixologiyadan dərs demiş, elmi əsərlər yazmış, ixtisaslı kadrların hazırlanmasında yaxından iştirak

etmişlər. F.Ə.İbrahimbəyov isə respublikada ilk eksperimental laboratoriyanın yaradıcısıdır.

Azərbaycanda elmi psixologiyanın yaranması tarixi Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonraya təsadüf etdiyindən bizdə psixologiya elmi sovet psixologiya elminin ənənələri əsasında formalaşmağa başladı. Yalnız bir fərq özünü göstərirdi. Rusiyada elmi psixologiya hələ sovet hakimiyyəti qurulandan çox-çox əvvəl yaranmışdı. Dünyada ikinci psixologiya laboratoriyası 1885-ci ildə V.M.Bexterev tərəfindən yaradılmış və burada çox görkəmli psixoloqlar nəsli yetişmişdir. 1913-cu ildə Rusiyada Psixologiya İnstitutu fəaliyyətə başlamışdı. Elə buna görə də bir sıra elmi məktəblər, elmi istiqamətlər formalaşmışdı: "Lakin sovet hakimiyyətinin ilk illərindən başlayaraq psixologiya elmində yeni adlar, yeni problem və istiqamətlər meydana çıxdı. Onların başlıca məqsədi və vəzifəsi marksist psixologiya yaratmaq idi. P.P.Bolonski, K.N.Kornilov, M.Y.Basov, A.B.Zalkind, L.S.Vıqotski və başqaları psixologiya elminin başlıca məqsədinin marksist psixologiya yaratmaq olduğunu bildirir və buna çalışırdılar" (1,s. 340)

Sovet hakimiyyətinin qələbəsindən sonra, əsasən 1923-cü ildən başlayaraq materialist və idealist psixoloqlar arasında ideya mübarizəsi daha da kəskinləşdi. İdealistlər tərəfdə əsasən yaşlı nəslin nümayəndələri, materialistlər tərəfdə isə gənc psixoloqlar dayanırdı. Təbii ki, yeni formalaşmağa başlayan Azərbaycan psixologiya elmində də oxşar proseslər gedirdi.

"1923-cü ildən başlayaraq Azərbaycanda bütün psixoloji tədqiqatların, -əsər və məqalələrin əsas istiqamətlərini marksist psixologiyanın təşəkkül və inkişafı ilə əlaqədar məsələlər təşkil edir" (7, s. 35).

"Azərbaycan sovet psixologiyasında marksizm – leninzm təlimi uğrunda gedən ayrı-ayrı fərdi səylər, mübarizələr get-gedə ümumi kollektiv şəkil alır, vahid bir mərkəzdə birləşməyə başlayırdı. Bu səy və mübarizələrin ümumi xarakter alması 1930-cu il aprel ayının birində Sovet Azərbaycanında marksist pedaqoqlar cəmiyyətinin təşkil olunmasında özünü göstərdi" (7, s. 36-37).

20-ci illərin sonu, 30-cu illərin əvvəlində SSRİ-də ideoloji mübarizə daha da kəskinləşdi, pedaqoji tədqiqatlarda sinfilik prinsipinin vulqarlaşmasına təkan verdi. "1930-cu illərin əvvəllərindən elmi mübahisə və diskussiyalar kəskinləşməyə başladı. B.B.Komarovski, A.O.Makovelski, Ə.Seyidov, Ə.Zəkuzadə, F.İbrahimbəyov fiziki və mənəvi təzyiqlərdən qorunmaq məqsədilə özünütənqidə, etirafa başladılar".

1931-ci ildə F.Ə.İbrahimbəyov Umumittifaq psixotexnika yığıncağındakı məruzəsində test metodunu kəskin tənqid edərək bildirirdi ki, bu metod milli psixologiyanı öyrənmək sahəsində zərərli nəticələr verir. Halbuki həmin illərdə F.Ə.İbrahimbəyovun hazırladığı intellekt testləri çox böyük elmi əhəmiyyət kəsb edirdi. Bu testlərin oxşarı bir neçə il sonra ABŞ-da yaradıldı və böyük uğur qazandı.

30-cu illərdəki siyasi mühitin psixologiyaya təsiri bir sıra görkəmli psixoloqların fikirlərində də öz əksini tapır. Məsələn, 1931-ci ildə B.G.Ananyev

yazırdı ki, psixologiya elmində Marks – Engels – Lenin – Stalin məktəbindən başqa heç bir məktəb ola bilməz. Azərbaycanda da oxşar yanaşmalar, diskussiyalar, tənqid və özünütənqid, ifşa iclasları keçirilirdi.

Bu tədbirlərin hamısında pedaqoq və psixoloqların marksizm – leninizm ideologiyası ilə silahlandırılması başlıca yer tuturdu. A.O.Makovelski, F.Ə.İbrahimbəyov, Ə.K.Zəkuyev də tənqid və özünütənqidi məqalələrlə çıxış edirdilər. Bunanla belə 1932-ci il 25 oktyabr tarixdə F.Ə.İbrahimbəyov Azərbaycan Elmi – Tədqiqat Pedalogiya İnstitutunda tutduğu Psixologiya Laboratoriyasının müdiri vəzifəsindən azad olunur.

"İlk Azərbaycan psixoloqlarından olan A.O.Makovelski, Ə.K.Zəkuyev, pedaqoq B.B.Komarovski və başqaları haqqında "Kommunist tərbiyəsi uğrunda" jurnalında dərc olunmuş tənqidi məqalələr bu baxımdan diqqəti cəlb edir"(7, s. 38).

ÜİK (b) P MK-nın 1936-cı il 4 iyul tarixli "Xalq Maarif Komissarlıqları sistemində pedaloji təhriflər haqqında" qərarı ilə pedalogiya bir elm kimi ləğv olunur. MK-nın qərarında deyilirdi ki, müasir pedalogiya adlanan "elmin" həm nəzəriyyəsi, həm də təcrübəsi qondarma, elmə və marksizmə zidd olan müddəalara əsaslanır. Əslində isə bu qərarla yalnız pedalogiya deyil, faktiki olaraq psixotexnika və əmək psixologiyası da ləğv olunur. Halbuki, pedalogiya uşaqların kompleks tədqiqini aparırdı.

1936-cı il 4 iyul tarixli qərara əsasən Azərbaycanda da uyğun qərarlar, əmrlər verilir. Fikrimizi əsaslandırmaq üçün həmin dövrdə Elmi – Tədqiqat Pedalogiya İnstitunda verilən əmrə diqqət yetirək. Əmrdə yazılır:

1. Psixoloji – pedaloji şöbə bağlansın.
2. Psixoloji – pedaloji kabinet bağlansın.
3. Adları göstərilən pedaloqlar işdən azad edilsin.
4. Psixologiya bölməsi təsdiq edilsin. Prof. A.O.Makovelski, dos. Ə.K.Zəkuzadə və dos. F.Ə.İbrahimbəyov yüksək ixtisaslı psixoloqlar kimi işə götürülsünlər.
5. Psixologiya bölməsinin nəzdində psixologiya kabineti yaradılsın.
6. 1936-cı il sentyabrın 1-dən psixologiya bölməsinin tədqiqat mövzuları təsdiq edilsin.

1936-cı il 4 iyul tarixli qərardan sonra SSRİ-də eləcə də Azərbaycanda tədqiqatların istiqaməti dəyişdirilir, alınan nəticələr MK-nın qərarına uyğunlaşdırılır. "1936-cı ilin iyul ayında F.İbrahimbəyovun "Uşaqların əqli inkişafında zərərli nəzəriyyə" adlı məqaləsi çap olunur. Məqalədə pedalogiyanın marksizm-leninizm ideologiyasına zidd olduğu, məktəbə, təlim-tərbiyə işinə zərər vurduğu göstərilirdi. Məqalədə göstərilirdi ki, Bakı rayonlarının birində tamamilə normal şagirdlərin 40%-ni "müvəffəqiyyətsizlər", "kəmağıllar" kimi məktəbdən kənar etmişlər".

Ölkədə başlayan repressiya dalğası psixoloqlardan və ümumən psixologiya elmindən də yan keçmədi. Görkəmli psixoloq, psixologiya tarixçisi

M.Q.Yaroşevski yazır: "MK-nın bu qərarı ilə yalnız insanlar deyil, həm də psixologiya elminin özü repressiyaya uğradı" (8, s. 131).

30-cu illərdə dəyişmiş sosial şərait Azərbaycan psixoloqlarını məcbur etdi ki, nəzəri mövqelərinə yenidən diqqət yetirsinlər. Bu illərdə artıq elmi diskussiyalar deyil, kimin haqlı, kimin haqsız olması müzakirə edilirdi. Sovet psixoloqları faktiki olaraq on il müddətində elmin inkişafı ilə deyil, özlərini qorumaqla məşğul olmuşlar.

Tədqiqatların da istiqaməti dəyişdirilərək ideologiyaya uyğunlaşdırıldı. Əvvəlki aktual, sosial psixologiyanı, şəxsiyyət psixologiyasını əhatə edən tədqiqatlar aradan çıxdı.

Fikrimizi əsaslandırmaq üçün 1939-cu ildə psixoloqların Elmi-Tədqiqat Pedalogiya İnstitutunda apardıqları tədqiqat mövzularına nəzər salaq. Professor A.O.Makovelskinin tədqiqat mövzusu "Sinifdənxaric oxunu necə təşkil etməli?", dosent S.Hacıyevin mövzusu "Dərsdə şagirdlərin diqqətini necə təşkil etməli?", professor Ə.K.Zəkuzadənin mövzusu "Manqanın komplektləşdirilməsi" olmuşdur.

40-cı illərdə Azərbaycanda müxtəlif institutlarda psixologiya üzrə aspiranturaya qəbul keçirildi. Beləliklə 40-cı illərdə psixoloqların ikinci nəsli yetişməyə başladı. Onların sırasında M.C.Məhərrəmov, S.H.Hacıyev, M.R.Abbasov, M.Hacıyev, Z.M.Mehdizadə, M.N.Mustafayeva və başqalarının adını çəkmək olar.

Müharibədən sonrakı quruculuq illərində ölkə həyatında olduğu kimi, psixologiya sahəsində də bir canlanma əmələ gəlir, inkişaf başlayır, kadr hazırlığına diqqət artırılır. 1946-cı ildə ÜİK (b) P MK-nın xüsusi qərarı ilə yeni tədris ilindən başlayaraq orta məktəblərin buraxılış siniflərində məntiq və psixologiyanın tədris olunmasına dair qərar verilir. 1947/1948-ci tədris ilində Azərbaycan Dövlət Universitetində məntiq və psixologiya şöbəsi yaradılır. Sonralar görkəmli pedaqoq və psixoloq kimi tanınan Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, Ə.Ə.Qədirov, Ş.A.Mikayılov, Ə.Ş.Həşimov və başqaları məhz bu fakultəni bitirmişlər.

Orta məktəblərdə psixologiya fənninin tədrisi eləcə də psixologiya fakultəsinin yaranması psixologiya elminin inkişafına təkan verdi. Beləliklə, Azərbaycanda psixologiya elminin yeni mərhələsi başladı. Qeyd etmək istərdik ki, II Dünya müharibəsindən sonra SSRİ-də psixologiya elminin inkişafının yeni mərhələsi başlanmışdır.

1947/1948-ci tədris ilində V.İ.Lenin adına APİ-də dil - ədəbiyyat fakultəsinin nəzdində məntiq-psixologiya şöbəsi yaradılır. Bununla da psixologiya üzrə kadr hazırlığı xeyli güclənir. Görkəmli psixoloqlar M.Ə.Həmzəyev, A.U.Məmmədov və digərləri məhz bu institutun yetirmələridir.

Müharibədən sonra Azərbaycan ETPİ-də psixologiya üzrə kadr hazırlığı gücləndirilir. 1946-cı ilin 16 yanvarında Ə.K.Zəkuzadə pedaqoji psixologiya bölməsinə müdir təyin edilir. Muxtar Hacıyev, Mahtəban Mustafayeva aspiranturaya qəbul edildilər.

50-ci illərdə bir sıra görkəmli psixoloqlar namizədlik dessertasiyası müdafiə edirlər. Görkəmli alim S.H.Hacıyev 1951-ci ildə məşhur psixoloq A.Luriyanın rəhbərliyi ilə "Baş beynin alın hissəsinin zədənməsi nəticəsində fikri fəaliyyət prosesslərinin analizinə dair", M.M.Hacıyev "Təlim prosesi ilə əlaqədar olaraq I sinif azərbaycanlı şagirdlərdə söz ehtiyatının inkişafı" (1951), A.K.Abdullayev "İbtidai məktəblərin I-II sinif şagirdlərinin idrak maraqlarının inkişafı " (1953), Ş.S.Ağayev "Fikri məqsədin xarakterindən asılı olaraq görmə qavrayışının dinamikası" (1954), İ.Ə.Seyidov "Azərbaycan ibtidai məktəbində ana dilinin orfoqrafiyasının mənimsənilməsinə görmə qavrayışının təsiri məsələlərinə dair" (1954), S.Əbilov "Kiçik yaşlı məktəblilərdə əməksevərlik tərbiyəsi" (1954), M.Ə.Həmzəyev "İbtidai məktəbin II sinif şagirdlərində samitlər üzrə düzgün yazı vərdişlərinin təşəkkül etməsi və inkişafının psixoloji xüsusiyyətləri" (1955), M.C.Nəcəfov "İ.Pavlovun iki siqnal sistemi haqqında təliminin elmi psixologiyanın inkişafında roluna dair" (1958), Ə.S.Bayramov "Təfəkkürün müstəqillik və tənqidiliyinə görə III-IV sinif şagirdlərinin fərdi xüsusiyyətləri" (1959) mövzusunda namizədlik dissetrasiyaları müdafiə edirlər.

60-70-ci illər Azərbaycanda psixologiya elminin inkişafı və kadr hazırlığında daha məhsuldar dövr hesab oluna bilər. Bu dövrdə bir sıra namizədlik dissertasiyaları müdafiə olunur. Eyni zamanda bir neçə nəfər görkəmli psixoloqlar Ş.S.Ağayev (1967), Ə.S.Bayramov (1967), M.Ə.Həmzəyev (1968), M.S.Nəcəfov (1971), Ə.Ə.Qədirov (1974), Ə.Ə.Əlizadə (1975) doktorluq dissertasiyası müdafiə edirlər.

Qeyd etmək istərdik ki, 1995-ci ilədək 20 il müddətində Azərbaycanda doktorluq dissertasiyası müdafiə edilməmişdir.

Azərbaycanda elmi psixologiyanın inkişafı və formalaşmasında müttəfiq respublikaların, xüsusilə Rusiya psixoloqlarının müstəsna xidmətləri olmuşdur. Bununla belə 80-cı illərdə bu sahədə əlaqələr daha da genişlənmişdir. Moskva Dövlət Universiteti və Leninqrad Dövlət Universitetlərində təhsil alaraq yüksək ixtisaslı kadr kimi respublikamıza dönən gənc psixoloqlar bu gün ölkəmizdə psixologiya elminin aparıcı qüvvələrinə çevrilmiş, yeni psixologiya məktəblərinin yaradıcısı olmuşlar. Onların sırasında B.H.Əliyev, S.İ.Seyidov, S.M.Məcidova və başqalarını göstərmək olar. Bu universitetin yetirmələrinin bir çoxu elmlər doktoru olmuşlar. B.H.Əliyev isə AMEA-nın müxbir üzvü kimi yüksək ada layiq görülmüşdür.

Eyni zamanda 80-cı illərdə bir sıra psixoloqlar Moskva, Leninqrad, Kiyev, Tbilisi şəhərlərində namizədlik dissertasiyaları müdafiə etmişlər.

Respublikamız müstəqillik əldə etdikdən sonra psixologiya elminin inkişafında yeni mərhələ başlanmışdır. Dünyanın inkişaf etmiş ölkələrinin məşhur psixologiya məktəbləri və görkəmli alimlərin tədqiqatları, əsərləri, nəzəri ideyaları ilə yaxından tanış olmaq imkanı yaranmışdır. Sovet dövründə qadağan olunmuş və ya imkan verilməmiş sahələr, mövzular üzrə tədqiqatlar aparılmağa başlanmışdır. Xüsusilə sosial psixologiya və etnopsixologiya üzrə

maraqlı tədqiqatlar aparılmış, dissertasiyalar müdafiə olunmuş, monoqrafiyalar, məqalələr nəşr edilmişdir. 1995-ci ildən başlayaraq bugünədək müxtəlif sahələr və istiqamətlər üzrə 11 nəfər doktorluq dissertasiyası müdafiə etmişdir. Fərəhli haldır ki, onların sırasında 5 nəfər elmlər doktoru qadın da vardır. Halbuki sovet hakimiyyəti illərində hər bir nəfər olsun belə qadın psixologiya üzrə doktorluq dissertasiyası müdafiə etməmişdi.

Müstəqillik dövründə Ə.T.Baxşəliyev, S.İ.Seyidov, B.H.Əliyev, İ.M.Novruzlu, R.İ.Əliyev, İ.Ə.Məmmədov, G.K.Məmmədova, S.M.Məcidova, E.İ.Şəfiyeva, R.H.Qədirova, K.R.Əliyeva doktorluq dissertasiyaları müdafiə etmişlər.

Azərbaycanda uzun illər psixologiya üzrə dissertasiya şurası olmamışdır. Müstəqillik dövründə Bakı Dövlət Universitetinin nəzdində dissertasiya şurası yaradılmışdır. Dissertasiya şurasına bir neçə il professor, əməkdar elm xadimi Ə.S.Bayramov sədrlik etmişdir. Hazırda dissertasiya şurasına psixologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Bəxtiyar Əliyev sədrlik edir.

Psixologiya sahəsində önəmli uğurlardan biri də 1999-cu ildən başlayaraq “Psixologiya jurnalı”nın nəşr olunması ilə bağlıdır. Jurnalın baş redaktoru Bəxtiyar Əliyevdir.

Digər bir nailiyyət kimi BDU-da, ADPU-da, AMİ-də, NMİ-də və digər ali təhsil müəssisələrində yüksək ixtisaslı psixoloq kadrlarının hazırlanmasını göstərmək olar. Bundan başqa, psixologiyanın praktiki istiqamətdə inkişafını və fəaliyyətini qeyd etməyə bilmərik. Hazırda ümumtəhsil məktəblərində 1400-dən artıq praktik psixoloq çalışır.

Biz, əlbəttə Azərbaycanda psixologiya elminin bütün inkişaf sahələrini əhatə etmədik. Azərbaycan psixologiya elmi keçdiyi 90 illik bu dövrdə böyük nailiyyətlər əldə etmişdir. Azərbaycan psixoloqları bir sıra beynəlxalq konfrans və simpoziumlarda ləyaqətlə təmsil olunmuşdur. Onların bir sıra əsərləri xarici ölkələrdə, eləcə də keçmiş ittifaqda nüfuzlu jurnallarda nəşr edilmişdir. Biz bunların, eləcə də digər nailiyyətlərin üzərində dayanmadıq. Bu və digər məsələlər barədə müxtəlif dövrlərdə görkəmli psixoloqlar A.O.Makovelski, Ə.K.Zəkuzadə, F.Ə.İbrahimbəyov, Ə.S.Bayramov, M.C.Məhərrəmov. Ş.S.Ağayev və digərləri dövrü mətbuatda dəfələrlə çıxış etmişlər. Psixologiya elmləri doktoru, professor Ə.T.Baxşəliyevin demək olar ki, yaradıcılığı, elmi fəaliyyəti Azərbaycanda psixologiya elminin təşəkkülü və inkişafına həsr olunmuşdur. Onun “Sovet Azərbaycanında psixologiyanın inkişaf tarixindən” (1973) mövzusunda müdafiə etdiyi namizədlik, 1995-ci ildə müdafiə etdiyi “XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı” adlı doktorluq dissertasiyasında Azərbaycanda psixoloji fikrin, elmi psixologiyanın təşəkkülü və inkişafı geniş təhlil olunmuşdur. Onun yazdığı onlarla məqalə, kitab və kitabçalarda, monoqrafiya və dərsliklərdə də bu məsələlərdən bəhs edilmişdir.

## ƏDƏBİYYAT

1. Əliyev R.İ. Psixologiya tarixi. - Bakı: Nurlan, 2006, – 384 s.
2. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elm: Təşəkkülü, inkişafı və problemləri (1920-1991-ci illər) - Bakı: Bakı Universiteti, 1998. – 486 s.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. - Bakı: Maarif, 1989. – 540 s.
4. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları. Psixol. elm. dokt....... dissertasiya. - Bakı: 2004. - 270 s.
5. Bayramov Ə.S. "Kitabi-Dədə Qorqud" dastanında etnik-psixoloji xüsusiyyətlərin inikası. - Bakı: Nurlan, 2000. – 148 s.
6. Rzayev N.T. Azərbaycan Maarifçiliyin psixoloji konsepsiyası. Psixol.elm. nam..... dis. avtoref. - Bakı: 2004. – 26 s.
7. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin inkişafı. - Bakı : Maarif, 1991. – 292 s.
8. Эго-психология и связанные с ней направления в теории личности: Э Эриксон, Э.Фромм, К.Хорни ⁄ Теория личности. М: СПб.: Питер, 1997. - с. 214-246

**Günəş ƏFƏNDİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: gunes.efendiyeva1953@gmail.com**

# ŞƏXSİYYƏTİN İNKİŞAFINA DAİR BƏZİ NƏZƏRİYYƏLƏR VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* şəxsiyyət, fərdiyyət, nəzəriyyə, psixi inkişaf, bioloji amil, sosial amil,istiqamət, tələbat, motiv, özünüformalaşdırma

"İnsanı orqanizm, fərd və şəxsiyyət kimi xarakterizə etmək olar. ...hər bir canlı varlıq-bitki də, heyvan da, insan da orqanizmdir. Psixologiya insanı orqanizm kimi deyil, fərd və şəxsiyyət kimi öyrənir" (1, 128). Şəxsiyyətin nəzəriyyəsi -- bu şəxsiyyət və ya şəxsiyyətin inkişafının mexanizmləri haqqında yoxlanmış dəqiq nəticələr və fərziyyələrdir. Şəxsiyyət haqqında nəzəriyyə həm insanın bu və ya digər vəziyyətdə davranışını izah etməyə, həm də onun gələcəkdəki vəziyyətini qabaqcadan xəbər verməyə xidmət edir. Ümumiyyətlə, psixologiyanın inkişafında psixi inkişafın əsas mənbəyinin müəyyənləşdirilməsinə görə alimlər bir-birinə zidd olan biogenetik və sosiogenetik cərəyanlara bölünmüşlər. Biogenetik cərəyan tərəfdarları psixi inkişafda ətraf mühitin, təlim və tərbiyənin rolunu cüzi dərəcədə qəbul etsələr

də, bunları şəxsiyyətin təməlinə təbiətən qoyulmuş keyfiyyət və xassələrin meydana şıxmasına əlverişli şərait yaradan zəmin kimi qiymətləndirirlər. Sosiogenetik nəzəriyyə tərəfdarları inkişafın təbii əsaslarını anatomik –fizioloji zəminlərin mövcudluğunu tamamilə inkar edir, yalnız mühitin rolunu önəmli hesab edirlər. digər bir nəzəriyyədə isə hər iki amilin eyni dərəcədə rolu qeyd olunur. Bu nəzəriyyə alman psixoloqu V.Şternin yaratmış olduğu konvergensiya nəzəriyyəsidir. Konvergensiya nəzəriyyəsində hər iki amilin rolu qeyd olunur. Burada mühit və bioloji amillərin önəmi qeyd olunsa da, digər amillərdən bəhs olunmur.

Şəxsiyyət haqqında müxtəlif nəzəriyyələrin əsasını qoyan alimləri şəxsiyyətə müxtəlif aspektdən yanamalarına görə bir neçə qrupa bölmək olar: Şəxsiyyətin strukturuna diqqət yetirənlər (Z.Freyd, E.Erikson, R.Kettel, K.Rocers, E.Kreçmer, U.Şeldon); şəxsiyyətin və fərdi fərqlərin öyrənilməsiylə bağlı(A.Adler, A.Anastazi,A.V.Lubin); həmçinin şəxsiyyətin ümumi problemlərinin öyrənilməsiylə əlaqədar (Kelvun S.Xoll və Q.Lindsey, L.Xell və Z.Freyd, K.Rocers, A.Maslou, V.Skinner, A.Bandura və başqaları).

Şəxsiyyət haqqında müxtəlif fikirlər, yanaşmalar olsa da, şəxsiyyəti daha dərin araşdıran, psixoanalitik nəzəriyyəni yaradan Z.Freyd olmuşdur. “Bu nəzəriyyəyə görə insanın bütün cəhdləri, mədəni nailiyyətləri yalnız seksual meyllərlə bağlıdır” (2,səh 280). Z.Freydin nəzəriyyəsində insan şəxsiyyətinin təhlilində ictimai mənəvi tərəf onun bioloji tərəfinə nisbətən ön tərəfə çəkilmirdi. O, şüuru sonsuz coşan ehtirasların dünyasında kiçik şüurlu adacıq təsəvvür edilirdi və şüurun funksiyası əsasən yalnız senzurayla məhdudlaşdırılırdı, şüur yalnız uşaq cəhdlərinin konservasiyasının vasitəsi kimi şıxış edirdi (3, 57-60).

Şəxsiyyət haqqında klassik nəzəriyyələrdən biri K.Yunqun psixoanalitik nəzəriyyəsidir. K.Yunq şəxsiyyətin irqi və filogenetik əsaslarına böyük qiymət verirdi. Onun fikrincə insan varlıqları bəşəriyyətin sirli köklərinə gedən əvvəlki nəsillərin yığılmış təcrübəsiylə formalaşdırılmışdır və şəxsiyyətin əsasları primitivdir, təbiidir, şüursuzdur.

Şəxsiyyəti psixoanalitik istiqamətdə təhlil edən nəzəriyyələrdən biri Adlerin fərdiyyət nəzəriyyəsidir. Adler fərdin unikallığını vurğulayaraq şəxsiyyətə sosial sistemin ayrılmaz bir hissəsi kimi baxırdı. Adler qeyd edirdi ki, şəxsiyyəti bütövlükdə nəzərdən keçirmək lazımdır. Ona görə əsas tələb hər bir fərddə bu vahidliyi, tamlığı sübut etməkdir. Şəxsiyyətin bütövlüyü strukturunu Adler həyat tərzi kimi müəyyən etmişdir (5, 88-90). Sonralar Adler sübut etmişdir ki, insanlar yalançı, üzdə görsənən məqsədlərlə-- onların davranışını tənzimləyən indiki və gələcək hadisələr barədə şəxsi fikirlərlə motivlərşir. İnsanlar onların obyektiv real olub – olmamasından asılı olmayaraq özlərinin bu şəxsi mühakimələrinə əsasən hərəkət edirlər. Adler hər bir insanın unikallığını və onun anlanılmasının əhəmiyyətini vurğulayırdı ki, şəxsiyyət sosial sistemə qoşulmuş tamdır, vahiddir (6, 121-122).

Neofreydizm cərəyanının əsas simalarından biri olan K.Xorni şəxsiyyətin inkişafında sosial və mədəni amillərə diqqət verirdi. K.Xorni Freyddən və Yunqdan fərqli olaraq, münaqişələri qaçılmaz və insan təbiətinə məxsus hesab etmirdi (5, 60-62). "Xorniyə görə ziddiyət şəxsiyyətin öz daxilində deyil, şəxsiyyətlə cəmiyyət arasında baş verir. Onun həlli yolu isə başqalarının fikirləri ilə fərdin fikirləri arasında uyğunluğun tapılmasından ibarətdir. "(2,səh 299).

Digər bir nəzəriyyə E.Eriksonun nəzəriyyəsidir. O, Eqo-psixologiya konsepsiyası yaradıcılarından biri olmuşdur. Onun fikrincə, şəxsiyyətin inkişafı sosial aləmlə müəyyən edilir. Eriksonun konsepsiyasının nüvəsi səkkiz mərhələyə bölünmüş insan inkişafının modelini təşkil edir. Nəzəriyyəsində hər pillədəki müvəffəqiyyətin əvvəlki pillədəki uyğunlaşma və inkişafın tamamlanmasına bağlı olduğunu irəli sürməkdədir (4, 172- 174).

Erik Frommun nəzəriyyəsi dialektik humanist və ya humanist psixoanaliz nəzəriyyə adlanır. Bu nəzəriyyə onunla fərqlənir ki, burada insan şəxsiyyətinin sosial determinantları ətraflı surətdə təsvir edilmişdir. Frommun əsərlərinin ən əhəmiyyətli mövzusu-insanın anadangəlmə və başqa insanlar tərəfindən təcrid olunaraq özgələşməsi, yalqızlığıdır. Erik Fromm adamları bir şəxsiyyət kimi dörd yerə ayırır: mazoxist, sadist, conformist və tənha tip (4,171).

A.Maslou isə sağlam bir şəxsiyyətin inkişaf edə bilməsi üçün lazımlı olan ehtiyaclardan ibarət bir təlabatlar iyerarxiyası ortaya çıxarmışdı. A.Maslouya görə, insanların davranışlarını istiqamətləndirən onların təlabatlarıdır, ehtiyaclarıdır. A.Maslounun təlabatlar yerarxiyasında ən üst sırada duran özünüformalaşdırma anlayışına görə, insanın davranışlarını istiqamətləndirən əsas motiv özünüformalaşdırma istəyidir. Bu mənada özünüformalaşdırma heç şübhəsiz, insan üçün həyatı boyu davam edir(5,145-146).

Beləliklə, şəxsiyyətin inkişaf nəzəriyyəsini təhlil edərkən müşahidə etmiş olduq ki, şəxsiyyət haqqında bir-birinə zidd müxtəlif nəzəriyyələr olsa da, hər birinin məqsədi eynidir: şəxsiyyəti və onun kəşf edilməmiş tərəflərini müəyyən etmək.

ƏDƏBİYYAT

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Dərslik. - Bakı: "Çinar Çap", 2009. - 620 s

2.Əliyev R.İ. Psixologiya tarixi. - Bakı: 2006. - 381s.

3.Ümumi psixologiya. Prof. A.V.Petrovskinin redaktəsi ilə. Rus dilindən tərcümə. - Bakı: " Maarif" nəşriyyatı, 1982. - 496 s.

4.Xəlilov. H.Ə. Uşaq və yteniyetmələrin inkişafının sosial psixoloji məsələləri. " Şərq-Qərb" mətbəəsi. - Bakı: 2012. - 224s.

5.Келвин С.Холл, Гарднер Линдсей. Теории личности. КСП+. Москва: 1997.

6.Мухина В.С. Возрастная психология 6-е издание. Академия. - Москва: 2000. - 456 стр.

**Könül MƏMMƏDOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: mmmdovakonul391@gmail.com**

# PSİXOLOGİYADA ŞƏXSİYYƏT PROBLEMİ

*Açar sözlər:* şəxsiyyət, şəxsi ləyaqət, mənəvi keyfiyyətlər, şüursuz meyllər və şüurlu yönəlmə

Şəxsiyyət və onun psixologiyası dərin köklərə malikdir. Müasir dövrdə bu olduqca aktual problemlərdən biridir. Humanitar elmlərin bir çoxu şəxsiyyət mövzusunu xüsusi diqqət mərkəzində saxlayır.

Bu gün hamı tərəfindən qəbul edilən şəxsiyyət tərifi yoxdur. Müasir psixologiyada şəxsiyyətə çoxlu sayda yanaşma vardır. O, cümlədən Azərbaycan alimləri də şəxsiyyətə tərif vermişdirlər.

Şəxsiyyət bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək fərdin özünəməxsus simasının yaranması prosesidir (prof. B.Əliyev). Şəxsiyyət keçmişin şüursuz meylləri və gələcəyə şüurlu yönəlmənin qarşılaşdırılmasının imkan və təzahür vasitəsidir (prof. S.Seyidov). Bir sözlə şəxsiyyət yüksək düşüncəsi, öz hərəkət və davranışları üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə birləşdirən insandır. Şəxsiyyət – müstəqil, sosial, fəal olan adamdır.

J.Piaje öz çıxışlarından birində bildirirdi ki, cəmiyyətdə hər dəqiqə minlərlə vəhşi doğulur və sivilizasiya onlardan ictimai varlıq formalaşdırmalıdır. Burada məlum olur ki, insan həm bioloji, həm sosial varlıqdır. Yəni biososial varlıqdır.

Şəxsiyyətin bioloji əsasını sinir sistemi, vəz sistemi, maddələr mübadiləsi prosesi (aclıq, susuzluq, cinsi impuls, yetkinləşmə, orqanizmin inkişafı təşkil edir.

Şəxsiyyətin sosial mahiyyətini insanın tərbiyə aldığı və iştirak etdiyi ictimai quruluş mədəniyyət müəyyənləşdirir. Onun mahiyyətini onun üzvü olduğu müxtəlif ictimai qruplar (ailə, məktəb, yaşıdları və s.) icra etdiyi sosial rollar, öz "Məni" təşkil edir.

Psixoloqların əksəriyyəti hesab edirlər ki, insan şəxsiyyət kimi doğulmur, tədricən şəxsiyyət olur. Lakin müasir psixologiyada şəxsiyyətin inkişafı ilə bağlı vahid nöqteyi-nəzər, nəzəriyyə yoxdur... Məsələn, biogenetik nəzəriyyənin nümayəndələri (S.Holl, Z.Freyd və b.) şəxsiyyətin inkişafını orqanizmin bioloji yetişməsi prosesi, sosiogenetik nəzəriyyənin nümayəndələri (E.Trondayk, B.Skinner) ictimai quruluş, sosializasiya, ətraf aləmlə qarşılıqlı münasibətləri, psixogenetik nəzəriyyənin tərəfdarları isə (J.Piaje, Ç.Kelli və b.) həm bioloji, həm də sosial faktorların rolunu azaltmadan inkişafın əsası kimi fərdi psixi xüsusiyyətləri qəbul edirlər.

Şəxsiyyətin həyatda qazanılmış keyfiyyətləri anadangəlmə xüsusiyyətləri ilə müqayisədə daha qeyri-sabitdir. Bu da ona sosial şərait dəyişdikdə, müxtəlif həyat tərzinə uyğunlaşmaqda kömək edir.

Şəxsiyyət fəal varlıqdır. O, cəmiyyət deyilə bilir, təkmilləşdirə bilir, eyni zamanda özündə müsbət istiqamətdə dəyişərək təkmilləşir, özünənəzarətə sahib olur.

Bu da bir həqiqətdir ki, zamanla insan sahib olduğu imkanlar sayəsində öz mühitini formalaşdırır və həmin mühitə fəal şəkildə təsir edir.

ƏDƏBİYYAT

1.Əliyev B., Cabbarov R. Təhsildə şəxsiyyət problemi. – Bakı: Təhsil, 2008, – 134 s.

2.Александрович Р.А. Психология личности. – СПб.: «Издательский дом Питер», 2016. – 288 с.

3.Викторовна С.Т. Психология личности. Учебное пособие. – СПб.: Питер, 2017. – 448 с.

**İlhamə İsmayılova**
***Mingəçevir Dövlət Universitetinin***
***Pedaqogika və psixologiya kafedrasının baş müəllimi***
**E-mail: ilhameismayilova32@gmail.com**

*Açar sözlər:* istedadlı şagirdlər, məktəb, psixologiya

## PSİXOLOGİYADA İSTEDAD PROBLEMİ

Psixologiyanın ən mühüm məsələlərindən biri də istedadların aşkar olunması və onların vaxtında üzə çıxarılmasıdır. Məhz ona görə də XXI əsrin problemlərindən biri kimi istedad problemini önə çəkirlər. Şagirdlərin intellektual səviyyəsinin müəyyənləşdirilməsi, onun inkişafının izlənilməsi və inkişaf etdirilməsi müasir təhsil siyasətinin istiqamətlərindəndir.

İstedadın uşaqlara olan bugünkü qayğı sabahkı elmə, mədəniyyətə sosial tərəqqiyə olan qayğıdır. Hazırda istedadlı uşaqları aşkarlamağa, onlara öz imkanlarını reallaşdırmağa kömək etməyə yönəlmiş yeni üsullar işlənmiş və daha təkmilləri işlənməkdədir [1, səh 5].

İstedadlı uşaqlarlaa işləyən müəllimin elmi-bilik səviyyəsinin yüksək olması, onlarla işləmə bacarığının günün tələblərinə cavab verməsi də aktual problemdir. Bəlidir ki, istedad üçün şəraitin olması vacib məsələdir. Müəllim istedadlı uşaqlarla işləyərkən hansı vacib məsələlərə diqqət göstərilməlidir?Bu sualın cavabı hər bir müəllimi dərindən düşündürməlidir. Çünki istedadın aşkara çıxarılması vacib amildir.

Şagirdlərin intellektual səviyyəsinin inkişafında həm fizioloji-psixoloji yaş, həm də cinsi xüsusiyyətlərin nəzərə alınması böyük praktik əhəmiyyətə malikdir [ 2, səh 8].

Hər bir şagirdin istedadını inkişafı etdirmək üçün şəraitin təmin edilməsi müasir məktəbin qarşısında vacib vəzifə kimi durmalıdır. İstedadlı şagirdin öz bilik və bacarığından istifadə edə bilməsi, sosial bacarıq tələb edir. Ona görə vacib məsələlərdən biri uşaqlarda öz gücünə inam yaratmaq, ünsiyyət səviyyəsini artırmaq lazımdır.

İstedadlı uşaqların diaqnostikası və aşkara çıxarılması əhəmiyyətli məsələdir. Belə hesab edirəm ki, ilk növbədə istedadlı uşaqların psixi proseslərini, fərdi psixoloji xüsusiyyətlərini dərindən öyrənib, təhlil aparmaq lazımdır. Dahilərin həyat yolunu öyrəndikcə maraqlı faktlarla rastlaşırıq. Məsələn, Ryukle rəqəmləri daha yaxşı yadda saxlayırdı. O, 204 müxtəlif rəqəmi, yadda saxlayırdı, Sezar və İsgəndər özlərini 30 minə qədər əsgərini üzdən tanıyırdılar. Napalyon və Suvorov da qüvvətli hafizəyə malik idilər" [3, səh 113].

Mikayıl Müşfiq, Seyid Hüseyin, Abbas Səhhət, Aşıq Ələsgər, Heydər Əliyev fenomen yaddaşa malik olublar.

Maraqlı cəhət ondan ibarətdir ki, fenomen yaddaş məsələsində materialın növü və maraq da mühüm rola malikdir. Belə ki, məşhur alim Liney botanikaya aid materialı əla yadda saxlasa da dilçiyə aid materialı yadda saxlaya bilmirdi. V. Skott mahnı romans və səhnə əsərlərini asanlıqla yadda saxladığı halda, tarixi hadisələri yaxşı yadda saxlaya bilmirdi" [3, səh. 113].

İstedadlı uşaqları aşkara çıxarmaq üçün mühüm yollardan biri yaradıcılıq qabiliyyətinin yoxlanılmasıdır. Təbii ki, bu prosesdə əsas diqqət intellektuallığa və motivasiyaya müşahidə edilən əsas cəhətlərdən biri onlarda dərketmə qabiliyyətinin yüksək olmasıdır.

İstedadlı uşaqlarla işləyən hər bir müəllim həmin şagirdə fərdi yanaşmalı ona verilən tapşırıqları onların səviyyəsinə uyğun mürəkkəbləşdirməlidir. "Müəllim dərs zamanı bütün proqram materialını "çeynəyərək" şagirdə verməməlidir. Faktlar və məlumatlar şagirdlərin özləri tərəfindən tapılmalıdır [4, səh. 122].

İstedadlı uşaqların fəallığını artırmaq üçün onlarda maraq və həvəsin yaradılması mühüm məsələdir. Xüsusilə onlarda düşüncə qabiliyyətini artırmaq məqsədi ilə müxtəlif maraqlı tədbirlər həyata keçirmək, görkəmli adamların həyatından motivasiyayönümlü hadisələr danışmaq, müşahidə qabiliyyətini artırmaq lazımdır. Müəllim bilməlidir ki, təfəkkürü inkişaf etmiş adam hər hansı bir problemi həll etmək istədikdə həmişə onun ağlına sürətlə bu həllin bir neçə variantı, yolları gəlir və o, keçmiş biliklərinə əsaslanaraq bu variantlardan ən optimalını seçə bilir" [4, səh. 122].

İstedadlı uşaqları aşkara çıxarmaqda əqli-inkişaf testləri də əhəmiyyətli rol oynayır. Lakin bu testlərin tətbiqi, təhlili və analizi psixoloqdan səriştə tələb edir. Ümid edirik ki, istedadlı uşaqların vaxtında aşkara çıxarmaq üçün

məktəblərdə çalışan psixoloqlar öz üzərlərində çalışmaqla ən səmərəli yollar tapacaq və cəmiyyətimizə böyük töhfələr verəcəklər.

ƏDƏBİYYAT


1. Bəylərov E. Uşaqlarda istedadın müəyyənləşməsi və inkişaf etdirilməsi. İstedadın işçi kosepsiyası. ( Az. Respublikasının Təhsil Nazirliyin sifarişi ilə). – Bakı: Təhsil, 2008. – 222 səh.
2. Bəylərov E. İstedadın psixoloji diaqnostikası.( metodik vəsait). – Bakı: Aspoliqraf, 2008. – 299 səh.
3. Məmmədov A. Psixi proseslər. – Bakı: 2008. – 90 səh.
4. Rzayev B. İ. Məktəblilərdə idrak proseslərinin fəallaşdırılması. – Bakı: 2000. – 168 səh.



**Nüşabə MƏMMƏDOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun***
***Pedaqogika və psixologiya kafedrasının baş müəllimi***
**E-mail: Məmmədova.n61@gmail.com**


## STRESSİN YARANMASI VƏ PROFİLAKTİKASI

*Açar sözlər:* Stress, fiziki və kimyəvi stress, disstres, yeniyetməlikdə stress, eusstress, depresiya, terapiya

Stress orqanizmin gərgin vəziyyətə reaksiyasıdır. Bu zaman beyinin göndərdiyi siqnalların nəticəsində ifraz olunan külli miqdarda hormon bütün orqanizmdə dövr edir. Ürək döyüntüləri artır, qan təzyiqi yüksəlir, tənəffüs tezləşir, əzələlərdə gərginlik yaranır. Stressli vəziyyət keçib-getdikdə orqanizmin fəaliyyəti normallaşır. Stress orqanizmin çətin, yaxud təhlükəli vəziyyətlərə qarşı durmaq üçün təbii reaksiyasıdır. Reaksiya beyində başlayır. Müsbət stress insanı dərhal hərəkətə keçməyə, yaxud reaksiya verməyə təşviq edir. Müəyyən dərəcədə stress insana məqsədlərinə çatmağa, yaxud işini daha yaxşı görməyə, məsələn, imtahan vaxtı, iş müsahibəsində, idmanla bağlı tədbirdə daha uğurlu nəticə əldə etməyə kömək edə bilər.Lakin stress uzun sürərsə, şiddətli və ya xroniki olarsa, insan orqanizminə zərər yetirə bilər.

Fiziki stress işıqlandırma, səs, vibrasiya sistemlərinin pozulmasından, eləcə də elektromaqnit şüalarının gücündən irəli gəlir. Bunların normadan artıq olması daha çox şəhərlərdə ya da müəssisələrdə müşahidə edilir. Bu zaman insanın təbii adapyasiya həddini aşan şərait yaranır.

Kimyəvi stresslərin törədiciləri çox olur. Son illər biosferamıza yad olan 7000-dən çox zərərli maddələr aşkar olunub. Bunlara ksenobiotiklər deyilir. Təbiət bunları həll edib yox edə bilmir, çünki bunlar ona yad ünsürlərdir. İnsan orqanizminin də bunlara qarşı qoruyucu gücləri yoxdur.

Çağdaş dünyada stressə əsasən sosial yaşamın psixoloji amilləri gətirib çıxarır. Eyni zamanda bu kimi stresslər təkcə real yaşamda deyil, həmdə virtual məkanda baş verir. TV-lərdən, internetdən, radiolardan alınan çeşidli və çox sayda informasiyalar, onların tərkibi və xarakteri stresslərə səbəb olur.

Bir neçə stress mərhələləri vardır. Bunlardan birincisi həyəcan və səfərbərlikdir. O zaman sinir sistemi xarici mühitdən hansısa siqnallar alır, sinir mərkəzləri isə onları dəyərləndirir, sonra qana və limfaya ötürür. Bundan sonra mürəkkəb reaksiyalar gedir və əsasən böyrəküstü vəzilərdə "stress hormonları" yaranmağa başlarır.

İkinci mərhələ orqanizmin "stress hormonlarının" basqısı altında işə saldığı müqavimət gücüdür. Belə olanda bədənin bütün sistemləri yüksək yüklə işləməyə başlayırlar.

Digər mərhələnin isə çeşidləri çoxdur. Əgər orqanizm bu basqının altından çıxaraq daha yüksək səviyyələrə yüksələ bilibsə, bu kompensasiya, yəni eustress mərhələsi adlanır. Eustresslər təkrar olunursa, onlar orqanizmin daha da çox adaptasiyasına təkan verirlər. Bədən stressin öhdəsindən gələ bilibsə, onda yeni, daha yüksək səviyəyə addım atır.

Əgər keçirilən stress orqanizmin gücdən düşməsinə, xəstəliyə və ölümə gətitirib çıxarırsa, onda buna üzücü stress (distress) deyilir. Stressin nə ilə sonuclanması təkcə onun gücü və basqısından asılı deyil, orqanizmin onun qarşısında dura bilməsi özəlliyindən də asılıdır. Nə qədər orqanizm sağlam və adaptasiyaya açıqdırsa, onun sistemləri müvazinətdədirsə, bir o qədər də onun stressə güc gəlməsi ehtimalı artır

Orqanizm mütəmadi olaraq öz gücünü səfərbər edərsə, yaxud həmişə bu vəziyyətdə olarsa, bunun insana emosional, fiziki və əqli zərəri dəyə bilər. İnsanın davranışı, həmçinin başqaları ilə rəftarı dəyişə bilər. Xroniki stressdən əziyyət çəkən insan vəziyyətə tab gətirmək üçün siqaret çəkmək, narkotikdən istifadə etmək və sairə kimi zərərli vərdişlərə aludə ola bilər. Hətta depressiyaya qapıla bilər, insanda tükənmişlik sindromu, sui-qəsd barədə fikirlər yarana bilər.Düzdür, stress hər kəsə eyni cür təsir etmir, lakin bu, müxtəlif cür xəstəliklərə yol aça bilər. Stress bədənin, demək olar ki, bütün orqanlarına təsir edir.

**Sinir sistemi**–Sinir sistemi adrenalin və kortizol hormonunun ifrazına səbəb olur. Bu hormonlar ürəyin döyüntüsünü, qan təzyiqini artırır, qanda qlükozanın səviyyəsini qaldırır. Bunların sayəsində, insan təhlükəyə dərhal cavab verə bilir. Həddindən artıq stress növbəti fəsadlara səbəb ola bilər:

- əsəbilik, narahatçılıq, depressiya, baş ağrısı, yuxusuzluq

**Əzələ-sümük sistemi**–Əzələlər insanı zədədən qorumaq üçün gərginləşir. Həddindən artıq stress növbəti fəsadlara səbəb ola bilər:

- bədəndə ağrılar, kəskin baş ağrıları, əzələ spazmı

**Tənəffüs sistemi**–İnsan daha çox oksigen qəbul etmək üçün tez-tez nəfəs alır. Həddindən artıq stress növbəti fəsadlara səbəb ola bilər:

- hiperventilyasiya və nəfəs çatışmazlığı, həmçinin meyilli olanlarda panik ataklar

**Ürək-damar sistemi**–Ürək tez-tez döyünür, qanı bütün bədənə ötürmək çətinləşir. Qanı lazım olan nahiyəyə, məsələn, əzələlərə ötürmək üçün qan damarlarının bəziləri genişlənir, bəziləri isə daralır. Həddindən artıq stress növbəti fəsadlara səbəb ola bilər:

- yüksək qan təzyiqi, infarkt, insult

**Endokrin sistem**–Vəzlər adrenalin və kortizol hormonu ifraz edirlər və bu hormonlar orqanizmə stress zamanı cavab reaksiyası verməyə kömək edir. Qara ciyər orqanizmi daha çox enerji ilə təmin etmək üçün qanda şəkərin səviyyəsini qaldırır. Həddindən artıq stress növbəti fəsadlara səbəb ola bilər:

- diabet, immunitetin zəifləməsi, xəstəliklərin artması, dəyişkən əhval-ruhiyyə, artıq çəki

**Mədə-bağırsaq sistemi**–Həzm prosesi pozulur. Həddindən artıq stress növbəti fəsadlara səbəb ola bilər:

- ürəkbulanma, qusma, ishal, qəbizlik.

Stress yaradan sosial problemlərə aiddir:

1. **Əhatə dairəsi** – yaşadığınız ərazidə cinayətlərin, oğurluğun, havanın çirklənməsinin çox olması, səs-küylü olması
2. **İş yeri** – işindən narazı olmaq, işdə üzərinizdə həddən artıq yükün olması
3. **Sosial vəziyyət** – kasıbçılıq, tənhalıq, digər insanlar tərəfindən təklənmək və s.

Stressin təsirləri ilə mübarizə aparmaq üçün ənənəvi olaraq bir çox üsul işlənib hazırlansa da, davamlılığın qurulması ilə yaxından əlaqəli olan stresin qarşısının alınması ilə bağlı əhəmiyyətli tədqiqatlar da aparılmışdır. Stressin qarşısını almaq və davamlılıq yaratmaq üçün ilk növbədə koqnitiv davranış terapiyasının nəzəriyyəsi və praktikasına əsaslanan bir sıra özünə kömək yanaşmaları hazırlanmışdır. Stressin idarə edilməsinin fizioloji və immun faydaları var. Qeyri-farmakoloji müdaxilələrin kombinasiyası ilə müsbət nəticələr müşahidə olunur:

- qəzəb və ya düşmənçiliklə müalicə,
- autogenik təlim
- danışıq terapiyası (münasibətlər və ya ekzistensial problemlər haqqında)
- biofeedback
- narahatlıq və ya klinik depressiya üçün koqnitiv terapiya.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S , Əlizadə Ə.Ə. Psixologiya. – Bakı: Çinar-çap, 2002.- 622 s.
2. Əliyev. R “Psixologiya”. - Bakı: Nurlan, 2008. - 351 s.
3. Ümumi psixologiya. Prof. A.V.Petrovskinin redaktəsi ilə. Rus dilindən tərcümə. - Bakı: “ Maarif” nəşriyyatı, 1982. - 496 s.
4. Həsənli. S. Psixologiya. - Bakı: Elm və təhsil, - 2013. - 254 s.
5. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://az.m.wikipedia.org/wiki/Stress&ved=2ahUKEwiK49PVhtn6AhVQXfEDHbLTDEkQFnoECBIQAQ&usg=AOvVaw1T5tEXruc6jKbntxmP0ox6
6. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://www.jw.org/az/kitabxana/jurnallar/oyanin-1-2020-mart-apr/stress-nedir/&ved=2ahUKEwiK49PVhtn6AhVQXfEDHbLTDEkQFnoECBYQAQ&usg=AOvVaw3PHTcHp-t7CNs_xtpqDLQb
7. https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://immunitet.az/1667-stress-ndir.html&ved=2ahUKEwiK49PVhtn6AhVQXfEDHbLTDEkQFnoECCEQAQ&usg=AOvVaw0z13J1ibIvq_u-Xbnt8WoR

**Nigar Muradova**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının müəllimi***
**E-mail: muradovanigar983@gmail.com**

# ŞİZOİD ŞƏXSİYYƏT POZUNTUSU OLAN İNSANLARIN ÖZLƏRİNƏ VƏ ƏTRAFA MÜNASİBƏTLƏRİ

*Açar sözlər:* şəxsiyyət, davranış, münasibət

Şizoid şəxsiyyət pozuntusu olan insanların əsas diqqətə çarpan xüsusiyyətləri utancaqlıq, soyuqqanlılıqdır. Davranışlarında hərəkətsizlik və ətrafa qarşı marağın olmaması aydın nəzərə çarpır. Danışıqları sakit və monotondur. Nə davranışlarında nə də danışıqlarında təbii olmurlar. Kollektivə qarşı soyuqqanlı olurlar və tək başına olmağa üstünlük verirlər. İnsan içinə çıxmaqdan qaçırlar. Düşüncələrini toplamaqda çətinlik çəkirlər, düşüncələri qeyri-müəyyən xarakterli olur. Danışarkən bəzən əsas mövzudan uzaqlaşırlar. Məqsədləri qeyri müəyyən olur və qərarsız kimi görünürlər. Emosional olaraq gülməyi, əylənməyi bilməyən, soyuq, ətrafa qarşı maraqsız olurlar. Rəğbət və cəzaya qarşı etinasızdırlar. Başqaları ilə yaxın münasibət qura bilmirlər,

ətraflarındakı insanları anlaya bilmirlər. Özlərinə münasibətləri belədir: "Mən ətrafıma tərs düşən adamam buna görə də heç kimə ehtiyacım yoxdu. Heç bir şeyə marağım yoxdu". Dünyaya baxışları isə belədir. Yaşamaq çətin və zərərvericidir. Heç kimə güvənməməli və başqalarından uzaq durmaq lazımdır. Beləcə insan özünü qorumalıdır. Şizoid şəxsiyyət pozuntusu olan insanlar fikirləşirlər ki, özləri öz işlərini görməyə yetərlidir, başqaları onların işlərinə zorla qarışır.

Müstəqilliyimi əlimdən aldıqları üçün başqaları ilə münasibətə girməməliyəm. Şizoid şəxsiyyət pozuntusunun əsas əlaməti insanlararası yaxın münasibətlərdən uzaq durmaqları və bundan xoşlanmamaqlarıdır.

Bu şəxslər ümumiyyətlə başqalarına maraq göstərmədən təkbaşına yaşayırlar. Başqalarıyla olduqda özlərini rahat hiss etməzlər və göz kontaktı qurmazlar. Başqalarının yanında gərəksiz yerə çox ciddi ola bilərlər. Əsəbi olduqlarını göstərməzlər. Heyvanlara qarşı böyük bir bağımlılıq göstərə bilərlər.

Aşağıdakı əlamətlərdən dördünün olması diaqnoz qoymağa əsas verir.

1.Ailənin bir parçası ola bilmədiyi kimi nə yaxın münasibətlərə girmək istər nə də yaxın münasibətlərdən zövq alarlar.

2.Həmişə tək qalmağa meyl edərlər.

3.Başqa birisi ilə cinsi münasibət yaşamaq istəyi çox aşağıdır.

4.Çox az  fəaliyyətdən zövq alırlar.

5.Birinci dərəcəli qohumlarından başqa dostları və sirdaşları olmur.

6.Başqalarının fikirlərinin onlar üçün önəmi yoxdur.

7.Emosional soyuq olurlar.

Daha çox kişilərdə rast gəlinir. Şizofreniya xəstəliyi olan yaxınları olanlarda sıx rast gəlinir. Özlərinə uyğun məqsədləri və standartları olur. Çox vaxt evlənmirlər. Əsasən uşaqlıq və yeniyetməlik dövründən başlayır.

Bütün şəxsiyyət pozuntuları kimi uzun gedişata malikdir. Belə şəxslərin cəmiyyətdə özünü aparması, geyimi, mimikası, jestləri və s. özünəməxsus olur. Çox danışmağı sevmirlər, mimika və jestlərlə cavab verirlər. Uşaq yaşlarından həmyaşıdları ilə əlaqədə olmurlar. Ona görə də, yaş artdıqdan sonra yaxın saya biləcəklər insanlar olmur. Başqalarının probleminə şərik olmaq, qayğı göstərmək onlara olduqca yaddır. Həqiqəti dərk etməyə səy göstərmirlər.

## ƏDƏBİYYAT

1.Пономаренко В. Практическая характерология. Методика 7 радикалов. – Москва: ООО «Издательство АСТ», 2019. – 240 с.

2.Спирица Е. Вижу вас насквозь. Как "читать" людей. – СПб.: Питер, 2020. – 256 с.

**Fatma İSLAMLI**
***Naxcıvan Müəllimlər İnstitutunun***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: f.islamlii93@gmail.com**

# AİLƏ MÜNASİBƏTLƏRİNDƏ PSİXOLOGİYA

*Açar sözlər:* ailə, psixologiya, cəmiyyət, münasibətlər

Ailə şəxsiyyətin tərbiyəsi və inkişafının sosiomədəni mühitidir. Ailə insanın həyatında, onun formalaşmasında, cəmiyyətdə özünəməxsus yer tutmasında mühüm rol oynayır. Ailə həmçinin cəmiyyətin vəziyyətini özündə əks etdirə bilir. Yəni cəmiyyətin iqtisadi, siyasi, sosial, mədəni vəziyyəti necədirsə, ailə də ona uyğun tərzdə olur. Ailə ümumbəşəri prinsiplər əsasında qurulur. Ailə münasibətləri bütün dövrlər və cəmiyyətlər üçün aktual problemlərdən biri hesab olunur. Buna görə də ailə münasibətlərinə, ailə anlayışına daim maraq göstərilmişdir. Ailədaxili münasibətləri analiz etmək, problemləri ortaya çıxarmaq və aradan qaldırmaq üçün ilk olaraq bu münasibətləri psixoloji baxımdan mahiyyətini, ona təsir edən amilləri araşdırmaq lazımdır. Ailə ən vacib sosial dəyərdir. Cəmiyyətin hər bir üzvü sosial statusundan, etnik mənsubiyyətindən, mövqeyindən asılı olmayaraq doğulduğu andan həyatının sonuna qədər ailə və ailə vəziyyəti kimi bir xüsusiyyətə malikdir. Məlumdur ki, ailə sferası – insanın şəxsiyyət kimi formalaşması və psixi inkişafını müəyyən edən güclü mənbədir. Ailə psixologiyasını bilmək ailənin həyat fəaliyyətinin optimallaşdırılmasında, nikah və valideyn-övlad münasibətlərinin effektivliyinin artmasında, ailədə uşaqların tərbiyəsi problemlərinin həllində və.s cəhətlərdən böyük əhəmiyyətə malikdir.

Ailə 1960-1970-ci illərdən başlayaraq psixoloqların və digər elm sahələrinin mütəxəssislərinin tədqiqat predmetinə çevrilmişdir. Ailə psixologiyasına yaxşı bələd olmaqla insan özünün ailə mühitində inkişafını, ailədaxili qarşılıqlı münasibətlərin psixoloji xüsusiyyətlərini, ailəyə adaptasiyanın psixoloji mexanizmlərini bilmiş olur. Ailə sistemi psixoloji cəhətdən bütövlük, qarşılıqlı münasibətlərin təkrarlanan obrazları, xarici şəraitdən asılı olmadan şəxsi məntiqə əsaslanan subyektiv mühakimələr kimi xüsusiyyətlərlə səciyyələnir.

Ailənin psixoloji iqlimi ərlə arvadın, valideynlərlə uşaqların, uşaqlarla uşaqların qarşılıqlı münasibətlərinin xarakteri ilə müəyyən olunur və onları özündə əks etdirir. Əgər ailədə üzvlər arasında bir-birinə hörmət, güvən, qarşılıqlı anlayış, güzəştə getmək varsa, demək ki, o ailədə psixoloji iqlim əlverişlidir. Bu keyfiyyətlərdən hər hansı birinin olmaması, və ya əks keyfiyyətə çevrilməsi ailədəki münasibətlərdə soyuqluq yaradır. Ailə üzvlərindən hər hansı birinin arasında ötəri bir narazılıq əmələ gəldikdə ailənin psixoloji iqlimi də bu

və ya digər dərəcədə dəyişir. Ailə üçün gözlənilməz olan hər hansı bir hadisə və ya şərait onun psixoloji iqliminə öz-özlüyündə deyil, məhz ailədaxili münasibətlər vasitəsilə təsir göstərir. Ailənin psixoloji iqliminin mərkəzində məhz ailə münasibətləri dayanır. Ailədə münasibətlər möhkəm olduqda təsadüfən baş verən xoşagəlməz hadisə ailəni sarsıda bilmir. Düzgün, sağlam psixoloji mühit ailə üçün həyati əhəmiyyətə malikdir. Ailədə əlverişli, möhkəm psixoloji mühit xoş güzəran, mənalı ömür, psixi sağlamlıq, uşaqların sağlam düşüncədə böyüməsi deməkdir. Psixoloji mühit ailə üzvlərinin bir-birinə və ailəyə münasibətində özünü büruzə versə də, bununla məhdudlaşmır. Onlar zəruri surətdə insanların bütövlükdə dünyaya münasibətlərinə təsir göstərir. Ailədə psixoloji iqlim nə qədər sağlam olarsa, ailə üzvləri də bir-birini və özlərini o qədər yüksək qiymətləndirə bilərlər. Ailədə bir-birindən daha çox özünə tənqidi yanaşma ailənin uğurlu olmasına gətirib çıxarır. Uğursuz ailələrdə isə tənqidi yanaşma səhvi, qüsuru özündə deyil qarşısındakında axtarmaqla nəticələnir. İnsan psixologiyasına, xüsusən də ailə psixologiyasına yaxşı bələd olmaq uğurlu, xoşbəxt bir ailənin təməl daşıdır. Buna görə də ailə üzvləri ailənin ümumi mənafeyi ilə yaşamalı, özünə başqa adamların, birinci növbədə ailə üzvlərinin gözü ilə baxmağı bacarmalıdır. Yalnız bu zaman ailənin təməl sütunları olan hörmət, güvən və anlayış heç bir zaman yox olmaz.

## ƏDƏBİYYAT

1.Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat. IX sinif şagirdləri üçün dərs vəsaiti / Tərtib ed.: Ə.Ə.Əlizadə, A.N.Abbasov. - Bakı: "Maarif", 1989. – 232 s.
2.Azərbaycan Respublikasının Konstitusiyası və hüququn əsasları. – Bakı: Mütəcim, 2010. – 196 s.
3.Əlizadə Ə., Abbasov A. Ailə. - Bakı: "Maarif" nəşriyyatı, 1989. – 312 s.

**Səbinə CƏFƏROVA**
***doktorant,***
***Bakı Slavyan Universitetinin***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: *sabina_16_86@mail.ru***

# MÜASİR DÖVRDƏ AİLƏLƏRİN PSİXOLOJİ İQLİMİ

*Açar sözlər:* ailə, cəmiyyət, şəxsiyyət, tərbiyə, mühit, dünyagörüşü

Tərbiyəni müəyyən edən vacib amillərdən biri də ailədir. Ailə uşağın inkişafına böyük təsir göstərir, bu səbəbdən onun rolu digər sosial institutların rolundan daha mühüm və yüksəkdir.

Ailə anlayışı hər kəsə məlumdur. Bir çoxları ailəni bir evdə yaşayan və ümumilikdə onu idarə edən ər-arvad və uşaqlardan ibarət sosial vahid kimi görür. Lakin bu tərif çox məhdud tərifdir. Bəzi alimlər ailəni ər-arvad və onların uşaqları deyil, qohumluq əlaqəsi ilə birləşən qan qohumları kimi başa düşür. Bəzi sosioloqlar isə ailəyə ənənəvi olaraq qohumluq və nikah əlaqələri ilə bağlı olan və ya birlikdə yaşayan, iqtisadi əməkdaşlıq, uşaqlara qulluq edən sosial qrup kimi baxırlar. Lakin bu tərif bir o qədər də doğru deyil. Bu sahəni tədqiq edən görkəmli pedaqoq professor A.N.Abbasov ailəyə belə bir tərif vermişdir ailə, yaxın qohumların birlikdə yaşadıqları qrupdur [3, 189].

Ailə şəxsiyyətlə cəmiyyətin qarşılıqlı əlaqəsini təmin edən əsas vasitələrdən biridir. Məhz ailədə böyüklər uşaqlara dünyagörüşünün əsasını təşkil edən həyati dəyərlər haqqında təsəvvür formalaşdırır. Bu, onlara gələcək ideyaların həyata keçirilməsində, təcrübələrin formalaşmasında köməklik göstərir, ətrafdakı insanlarla ünsiyyət qurmağa, əxlaqi dəyərlər və qəbul edilmiş normaları, qaydaları öyrənməyə imkan verir. Uşaqlıqda yaxşılıq - pislik, dürüstlük - yalan, ədalət - ədalətsizlik və s. haqqında təsəvvürlər daha dərindən formalaşır.

Ailə tərbiyəsi dedikdə, arzu olunan nəticələrə nail olmaq üçün valideynlər və digər ailə üzvləri tərəfindən uşaqlara tərbiyəvi təsirlər sistemi başa düşülür. Ailənin insanların həyatına, ailədaxili münasibətlərin insan şəxsiyyətinin formalaşmasına təsiri böyükdür. Uşaqların cəmiyyətə gərəkli şəxsiyyət kimi yetişməsində ailələrin qarşısında mühüm vəzifə durur. Qeyd etmək lazımdır ki, uşaqların ailələrinə sevgi-məhəbbət hissinin formalaşması, əxlaqi hisslərinin aşılanması, estetik zövqünün inkişafında valideynlərin böyük rolu var. Ailə tərbiyəsi ilk növbədə uşaqlar və valideynlər arasında sabit və emosional münasibətlər zəminində düzgün formalaşır. Ailədə böyüklərlə ünsiyyət prosesində uşaq həyati təcrübəni, davranış nümunələrini, yaşlı nəsillərin mədəniyyət səviyyəsini öyrənmək imkanı əldə edir.

Bu cəhətdən uşaqların tərbiyəsi təkcə valideynlərin şəxsi işi deyil, eyni zamanda sosial cəmiyyətin də işi hesab edilir. Ailə tərbiyəsi sosial tərbiyənin bir

hissəsidir, çünki birincisi, ailə dünyagörüşünün əsasını təşkil edir, ikincisi, ailə tərbiyəsi davamlı xarakter daşıyır və şəxsiyyəti hərtərəfli inkişaf etdirməyə imkan verir.

Ailə tərbiyəsinin özünəməxsus xüsusiyyətləri ola bilər, lakin ailənin əsas vəzifəsi hamı üçün eynilik daşıyır:

- uşaqların böyüməsi və inkişafı üçün optimal şəraitin yaradılması;
- uşaqlarda milli dəyərlər, vətənə, adət-ənənəyə hörmət və sevgi hissinin aşılanması;
- sosial-iqtisadi və psixoloji mənada uşaqların qorunması;
- uşaqlara özünəxidmət və başqalarına yardım bacarıqları öyrətmək;
- uşağın özünə hörmətinin artırılması.

Bu günkü müasir dövrün uşaqları bir nəsil əvvəlkindən fərqlənir və onların daha çox sevgi və ünsiyyətə ehtiyacı olduğunu qəbul etmək vacibdir. Bir çox valideynlər düşünürlər ki, ailədə heç bir əskliyi olmayan uşaq məktəbə gedirsə, yaxşı geyinirsə bununla da onlar öz valideynlik borcunu yerinə yetirmiş olurlar. Lakin bu tip valideynlərin uşaqların tərbiyəsində emosional iştirakı aşağı səviyyədə olur və belə valideynlər övladlarına ana-ata diqqətsizliyi, sevgi əksikliyi yaşadırlar. Valideyn və övlad arasında sevgi bağları uşaqlarda təhlükəsisz həyata, qərarlar qəbul edərkən əmin addımların atmasına şərait yaradır. Uşaqlar böyüklərdən, xüsusən də valideynlərindən dəstək gözləyirlər. Uşağa sevgi, diqqət, qayğı - valideyn səlahiyyətinin ilk təməl daşıdır. Valideynlər övladlarında yüksək əxlaqi keyfiyyətlər, mədəniyyət, erudisiya, intellektual inkişaf, məharət və s. “kəşf etdikcə” uşağın gözündə daha da zirvələrə ucalır.

Valideynlər - erkən uşaqlıq dövründə övladları üçün Ata və Ana arxetiplərinin canlı təcəssümü olmaqla, övladının daxili dünyasının formalaşmasına əvəzsiz töhfələr verir və gələcək nəsillərin psixoloji sağlamlığının əsasını qoyur. Təbiət özü şəxsiyyətinin tərbiyəsi və inkişafı üçün əsas məsuliyyəti valideynlərə həvalə edib. Bu səbəbdən ailədə valideynlər düzgün ailə mühiti formalaşdırmalıdırlar, bunun üçün də aşağıda sadalanan məsələləri nəzərə almalıdırlar:

*Sevgi və qarşılıqlı hörmət mühiti.* Kiçik yaşlarından özünə qarşı kifayət qədər sevgi, diqqət, hörmət görməyən uşaq doğmalarına, dostlarına, Vətəninə hörmət etməyi bacarmayacaqdır.

*Yüksək əxlaqlı tərbiyəvi mühit.* Bu cür mühitdə övladını yetişdirən valideyn uşağı düşünməyə, dürüst olmağa, səmimi olmağa öyrədir. Bu rolu ana və ya ata yüksək məharətlə yerinə yetirməlidir.

*Uşağın yanında ictimai faydalı iş mühiti.* Böyüklərin işini seyr edən uşaq onu oyunda təkrarlamağa başlayır və nəticədə onun özü də əmək prosesinə daxil olur. Bu da onda əməyə, əmək adamlarına hörmət və sevgi hissləri aşılayır.

*Uşağın bütün qabiliyyətlərinin ahəngdar və hərtərəfli inkişaf etdirilməsi mühiti.* Uşaqda zehni, fiziki, əmək, estetik fəaliyyətin formalaşmasına şərait yaratmaq.

Müasir dövrdə ailə tərbiyəsinin daha da inkişafı etməsinə aşağıda qeyd olunanların məsələlərin təsiri böyükdür:

1) ailəyə dövlət qayğısı;

2) maddi rifahın yüksəldilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması;

3) ailənin və məktəbin tərbiyə vəzifələrinin vəhdəti;

4) valideynlərin övladları qarşısında mənəvi, vətəndaşlıq məsuliyyətinin artırılması.

Beləliklə, uşağın şəxsiyyətinin formalaşması, ailədə düzgün inkişafı və ailə mühitinin birmənalı olaraq düzgün təşkili valideyn-övlad münasibətlərindən asılıdır.

ƏDƏBİYYAT

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası. - Bakı: Mütərcim, 2015. – 324 s.
2.Cabbarova S.R. Müasir dövrdə ailə tərbiyəsinin xüsusiyyətləri və təşkili yolları ped. üz.fəls.dok. disser. avtoreferatı. - Naxçıvan: 2021. – 28 s.
3.Əlizadə Ə.Ə., Abbasov A.H. Ailə. Bakı: Maarif. - 1989. – 256 s.

**Aynur EYVAZZADƏ**
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının doktorantı***
**E-mail: Aynur.babazade.1993@mail.ru**

## PEŞƏ STRESSİNİN VƏ PEŞƏ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* stress, sosial-iqtisadi, sosial-psixoloji, özünütəyinetmə, emosional sfera, stressin simptomları

Peşə sahəsində özünütəyinetmə - gələcək həyat yolununmüəyyən edilməsi çoxcəhətli bir prosesdir. Peşə sərvətləri mühtəlif sosial-iqtisadi və sosial-psixoloji amillərlə şərtlənir. Peşə insanın xüsusi hazırlıq, nəzəri biliklər və təcrübə vərdişlər tələb edən əmək fəaliyyətidir.

Peşə biliyi ilə bağlı Ceyms və Peloyl tərəfindən aparılmış tədqiqatlar nəticəsində belə nəticəyə gəlmişlər ki, fərdin peşəkar inkişafında sahib olduğu bilik, bacarıq,təcrübə və yanaşmasından ibarət olan fərdə məxsusxüsusiyyətləri və texniki qaydaları var. Nəzəri bilik praktiki biliyə görə üyrənilməsi dana çətin olanbilik formasıdır, çünki nəzəri biliyin praktikaya köcürülməsi peşəkarlaşma baxımından vacib məsələdir.

Peşə biliyi texniki və mənəvi yetkinliyə sahibdir. Texniki bilik isə fərdin sahib olduğu nəzəri biliyin, praktik təcrubədə müvəffəqiyyət qazanmasıdır. Mənəvi yetkinlik isə peşəkarın fərdi və sosial iş sahələri ilə əlaqədər bütün sahələrdə sahib olduqları yetkinlikdir.

Mühtəlif nəsillərin sərvət meyillərini Amerika psixoloqları müqaisəli araşdirarkən belə nəticəyə qəlmişlər ki, əvvəlki nəsillər üçün fəlsəfi və ictəmai problemlər önəmli idi, indi isə gənclər maddi firavanlıq qayğısına qalırlar, ictimai problemlər barəsində isə az qötür-qoy edirlər. Psixoloqların fikrincə sərvət meyillərində əmələ qələn dəyişikliklər iqtisadiyyatın və işçiqüvvəsinə tələbatın qeyri-sabit inkişafı ilə şərtlənir.

Bu meyllər ABŞ-nın ali məktəblərin həyatında nəzərə çarpan, humanitar fakültələrdə tələbələrin sayi xeyli azaldığı halda shibkarlığa, mühəndis ixtisaslarına, elektronikaya maraq artır.

Bizim respublikamızda da sahibkarlıq peşələrin biznes, marketinq, menecment, qömrük sahələrinəmeyil güclənib. Mühəndis ixtisasları, elektronika, robot texnikası iqtisadiyyatın qələcəkdə inkişafı həyati əhəmiyyətə malikdir.

İnsanlar peşələrini müxtəlif iş yerləndə reallaşdırırlar. İş insan həyatının əsas hissəsi olub, enerjisinin çoxunu şərf etdiyi məkandır. Peşə insanların yaradıcılığını zəkasını, qərarvermə qabiliyyətini istifadə etməyə imkan verir.

Stress anlayışı ilk dəfə Kanada fiziologu Hans Şelye tərəfindən işlənilən, əlverişsiz təsirə cavab olaraq orqanizmin qeyri spesifik reaksiyası kimi istifadə olunmuşdur. Stress ekstremal təsirlərə cavab olaraq insanda yaranan fiziki və psixi gərginlik vəziyyətini ifadə edən termindir.

Muxtəlif peşə nümayəndələri üçün xarakterik olan peşə stresi və peşə fəaliyyətinin xüsusiyyətlərindən yaranan qarşılaşa bələcəyi psixoloji stressin bir növüdür [1]. Rəhbər işçilərin stressi, təhsil işçilərin stressi, tibbi işçilərin stressi və s. Peşə stressin növlərinə aid bütün sahələrinin işçilərində stresin yaranma imkanının olduğunu ğöstərir. Müxtəlif peşələrdə stressin yaranma riski də müxtəlifdir. Çünki, stress reaksiyalarının inkişafı mürəkkəb, çoxfaktorlu xüsusiyyətlərə malikdir. Stressin inkişaf dinamikası ilə əlaqəli əmək fəaliyyətində stresin mənbələri kimi çıxış edən amillər üç qrupda birləşdirilir: təşkilati xüsusiyyətlər, fərdi xüsusiyyətlər və peşənin xüsusiyyətləri [3].

Təşkilatı xüsusiyyətlərə : idarəetmə, qərarların qəbul olunmasında iştrak, kadr siyasəti, əmək haqqı, iş rejimi, sağlamlığın qayğısına qalmaq, fəaliyyətin qiymətləndirilməsi, xidmət üzrə irəliləyiş kimi amillər daxil edilir. 2-ci qrup amillər işin xüsusiyyətləri ilə bqğlıdır – işin həcmi, tapşırığın çətinliyi, məsuliyyət, risk, işin içra edilməsi üsulları; müvəqqəti məhdudiyyətlər, sosial məsuliyyət aiddir.

Fərdi xüsusiyyətlərə - bilik səviyyəsi; peşə ilə bağlı təcrübə; peşəkar məsuliyyət; emosional reaktivlik, riskə meyillilik və s. aiddir.

Peşə fəaliyyəti ilə bağlı yaranan stressin simptomları psixikanın bütün sferalarında rast qəlinir. Məsələn: emosional sferada – həyacan hissi, koqnitiv sfera – mövcud vəziyyəti təhlükəli kimi qiymətləndirmək, motivasiya – mobilizasiya və demobilizasiya davranış – adət olunmuş fəaliyyət tempində dəyişiklik.

Beləliklə, stress insanın fiziki və psixi sağlamlığına ciddi təsir ğöstərir. Stressin neqativ nəticələrinə iş qabiliyyətinin azalması, işin kəmiyyət ə keyfiyyət göstəricilərinin aşağı düşməsi, orqanizmin adaptasiya imkanlarının aşağı düşməsi, şəxsiyyət pozulmaları, depressiya, xroniki yorğunluq, somatik xəstəliklər aiddir. Bütün bunlar isə təşkilat daxilindəki mühitə, təşkilatin rəqabət qabiliyyətinin işçilərin məhsuldarlığına, mliyyə inkişafinin aşağı düşməsinə səbəb olur.

İnsanın həyat və sağlamlığında müsbət və ya mənfi təsirinin təyinini stressin nəticələrinin qiymətləndirilməsinin köməyi ilə müəyyənləşdirilir. Hans Şelyenin fikrincə, stress, onun nəticəsindən asılı olaraq faydalı və ya zərərli ola bilər. Faydalı (eustress) orqaizmin işini "canlandirir" və qoruyucu güclərin səfərbərliyinə imkan yaradır [3].

Peşə fəaliyyətində stress problemi ilə rastlaşan mütəxəssis təcrübəsinin, psixoloji biliklərin yetərincə olmamasi, stress zamanı özününizamlama üsullarını bilməməsi çətin vəziyyətdən çıxmağa mane olur. Belə neqativ halla rastlaşmamaq üçün mütəxəssislərin peşəyə psixoloji cəhətdən hazirliğına diqqət yetirilməli, onların psixoloji sağlamlığının qorunması istiqamətində işlər aparilmalıdır.

ƏDƏBİYYAT

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 1989.

2.Бодров В.А. Информационный стресс: Учебное пособие для вузов. Москва: ПЕРСЭ, 2000.

3.Щербатых Ю.В.; Психология стресса и методы коррекции. Питер: 2008.

**İlahə NOVRUZOVA**
**Xəzər Universitetinin Klinik psixologiya**
**ixtisası üzrə I kurs magistrantı**
**E-mail: nevruzova@yahoo.com**

## ASILILIQ SPEKTRİNİ NEYROPSİXOLOJİI PERSPEKTİVDƏN ANLAMAQ

*Açar sözlər:* asılılıq, neyropsixoloji perspektiv, psixi sağlamlıq, fiziki sağlamlıq

Asılılıq anlayışı latınca addicere (qul etmək mənasını verir) sözündən götürülərək, insanın öz üzərində nəzarətini və davranışlarını kontrol edə bilmə qabiliyyətini anbaan itirilməsi kimi xarakterizə olunur.

Asılılıq insanın psixi və fiziki sağlamlığının əsas göstəricilərinin orta normallıqdan uzaqlaşaraq patoloji səviyyədə təzahür etməsidir. İnsanın davranışlarının norma daxilində inkişaf göstəricisi daxili və xarici motivasiya

qaynağının və emosiyaların regulasiyasının insanın öz kontrolunda olması kimi başa düşülə bilər. Motivasiyanın dəyişməsi və emosiyaların idarə olunmasında kontrol etmə qabiliyyətinin itməsi asılılıq davranışlarının yaranmasına gətirib çıxardır. Motivasiyanın dəyişməsinin sağlam və ya patoloji səviyyədə təzahür etməsinin ölçü meyarı insanın davranışlarıdır. Beləliklə, addiktiv davranışların əsasına baxdıqda, insanı həyatda qalmağa təhrik edən adaptativ xarakterli motivasiyanın dezadaptativ, destruktiv davranışların formalaşmasına səbəb olan sağlam olmayan motivasiya ilə əvəzləndiyini görmək olar.

Asılılığa gedən yol yanlızca tək bir maddənin sui-istifadəsindən keçmir. Asılılıq yaratmaq potensialına malik müxtəlif kimyəvi tərkibli maddələrin (opioid, kannabinoid, hallusinogenlər, inhalantlar, amfetamin, metamfetamin, depresantlar) uzun müddətli repititiv olaraq olaraq sui-istifadəsi zamanı müşahidə edilən həm fiziki,həm də psixi kliniki simptomların kəskinlik dərəcəsinə görə asılılıq spektrini müəyyən etmək olar. Asılılıq spektrinin çox geniş bir anlayış olmasının səbəbi, insanların müxtəlif kimyəvi tərkibə malik olan maddələrdən istifadə etməsi ,bu maddələrin kliniki simptomlarının fərqli olması, eyni zamanda kliniki simptomların differensiallığının digər bir səbəbi kimi istifadə edilən maddənin farmakokinetikasının fərqli olması ilə açıqlana bilər.

Sağlamlığın əsas şərti kimi, asılılıq da fiziki və psixi asılılıq olaraq izah edilir. Asılılıq dedikdə, həm fiziki, həm də psixi asılılıq bir arada başa düşülür. Belə ki, yanlızca fiziki asılılığın olması ilə yanaşı psixi asılılığın olmaması asılılıq anlayışının göstəricisi hesab edilə bilməz. Digər bir ifadə ilə izah etsək,asılılıq,dual (ikili, yəni həm fiziki,həm psixi) xarakterlidir.

⇒ **Fiziki asılılıq,** bir gecedə yaranmır. Müxtəlif hər hansı maddənin uzun müddətli istifadəsi zamanı yaranan fiziki asılılıq tolerantlıq və abstinensiya simptomları ilə əlaqələndirilir.İstənilən maddənin uzun müddətli,kompulsiv olaraq sui-istifadə edilməsi fiziki asılılığa səbəb olur, ancaq bəzi maddələrin(məsələn, heroin, fentanil, morfin və s.) digər maddələrə(məsələn,marixuana,metamfetamin vəs) nisbətən fiziki asılılığa daha tez səbəb olmasına görə yüksək risk qrupuna aiddirlər. Fiziki asılılığa tolerantlıq və abstinensiya halı aid edilir.

**Tolerantlıq,** uzun müddət istifadə edilən maddənin hissedilən yüksək təsir effektinin itməsi və ya azalması ilə müşahidə edilən insanın istifadə etdiyi maddəyə fiziki olaraq verdiyi cavab reaksiyasıdır. Bu zaman insan maddədən eyni təsir effektini hiss etmək üçün maddənin miqdarını və istifadə sıxlığını artırmağa başlayır.

**Abstinensiya** isə istifadə edilən maddədən imtina edildikdə və ya müəyyən zaman intervalında qəbul etmədikdə bədənin fiziki simptomlarla müşahidə edilən maddə defisitinə bağlı cavab reaksiyasıdır.Yoxsunluq(abstinensiya) sindromunun **fiziki simptomları** bunlardır:

-Ağrı,acı,abdominal sancı

-Tremor(əl və ya ayaq titrəməsi), əzələ spazmı,epileptik tutmalar

-Burun axması,diareya,ürəkbulanması,qusma
-Tempratur,piloereksiya,tərləmə,üşütmə
-Narahatlıq halı,depressiv əlamətlər,qıcıqlanma,paranoya,insomniya
-Qan təzyiqinin qalxması və ya düşməsi,ürək döyüntüsü

Abstinensiyaya bağlı kliniki simptomların kəskinliyi istifadə edilən maddənin miqdarı, istifadə müddəti ilə yanaşı eyni zamanda istifadə edən şəxsin yaşı,xarakterik xüsusiyyətindən asılı olaraq dəyişə bilər.

⇒ **Psixi asılılıq**, beynin dopamienerjik sisteminin aktivləşməsinə bağlı olan mükafat mərkəzinə stimulativ və ya sedativ təsir göstərən müxtəlif maddələrin istifadəsi zamanı insanda koqnitiv (düşüncə) və emosional sferada pozulmanın nəzdində yaranan kompulsiv və destruktiv davranışların təzahürü kimi xarakterizə olunur.

İstifadə edilən maddələrin müxtəlifliyindən asılı olmayaraq hər bir maddə beyində birbaşa dofamin səviyyəsinə təsir göstərir ki, bu da öz növbəsində mükafat mərkəzini aktivləşdirir. Mükafat mərkəzinin aktivləşməsi insanda istifadə etdiyi maddənin repititiv (təkrar-təkrar) qəbuluna səbəb olur.Repititiv olaraq maddə istifadəsi beynin çalışma mexanizminin dəyişməsinə gətirib çıxardır. Beynin çalışma mexanizminin dəyişməsinin təsiri özünü insanda koqnitiv aspektdə pozulma ilə biruzə verir. Koqnitiv qabiliyyət dedikdə, səbəb-nəticə əlaqəsinin qurulması, mühakimə etmək qabiliyyəti, məntiqi əlaqə qura bilmək, düzgün qərar verə bilmək vəs.aid edilir. Koqnitiv funksiyaların pozulmasını qısaca izah etsək, rasional düşüncənin irrasional düşüncə ilə əvəzlənməsi kimi başa düşmək olar. Rasional düşünə bilməmək, yəni məntiqi analiz əlaqəsini qura bilməmək özünü simultant olaraq insanın verdiyi cavab reaksiyalarında,emosiyalarında,davranışlarında göstərir. Beləliklə, koqnitiv sferada pozğunluq insanda emosional requlasiyanın dəyişilməsində mənfi təsirə malik olur. Emosional disrequlasiya da davranışların qeyri-adekvatlığı ilə özünü göstərir. Qeyri-adekvat davranış dedikdə, insanın öz davranışının zərərli, təhlükəli nəticəsinin ola biləcəyinin fərqində olduğu halda təkrar eyni davranışı etməsidir.

**Psixi asılılıq**, insanda maddə istifadəsindən imtina etmək istədiyi halda kompulsiv davranışı üzərində kontrolu itirdiyi zaman başlayır. Maddəyə qarşı istək obsessiv bir hal aldığı üçün maddə istifadəsi kompulsiv bir davranış kimi formalaşmağa başlayır. Psixi asılılığın əsas göstəricisi kimi, insanda kəskin səviyyədə maddəyə qarşı istək, arzu duyğusu adekvat davranışın patoloji səviyyədə (kompulsiv,deviant) təzahür etməsinə səbəb olur.

Psixi asılılığın ümumi simptomları bunlardır:

- maddənin təsiri nəticəsində işləmək qabiliyyətinin artdığı inancı
- maddəyə qarşı şiddətli istək,arzu
- gündəlik işlərə qarşı marağın itməsi
- daima maddəni tapmaq və onu təkrar qəbul etmək haqqında düşünmək

Neyropsixologiya idrak və davranışının beyinin sinir sistemi ilə əlaqəsini öyrənən psixologiyanın bir sahəsidir. Eyni zamanda,insanın gündəlik

produktivliyinə, funksionallığına təsir göstərən beynin müxtəlif sahələrinin əlaqələrini müəyyən edərək beyində gedən bioloji proseslərin psixoloji proseslərlə assoasiyasını öyrənməyə imkan verir.

İndividual olaraq uzun müddət maddə istifadəsindən əziyyət çəkən şəxsdə neyropsixoloji pozulmalar müşahidə edilir. Neyropsixoloji pozulmalar dedikdə,buraya icra nəzarətinin itməsi, hafizə ilə bağlı problem,mühakimə qabiliyyətinin itməsi,analitik düşünə bilməmək, bir sözlə, prefrontal korteksin və eyni zamanda insanın motor hərkətləri ilə duyğu bölgələri arasında əlaqəni təmin edən sahənin- bazal qangliyanın disfunksionallığı aiddir.

Maddə asılılığı spektrini neyropsixoloji perspektivdən anlamağa çalışmaq iki mərhələdə(asılılığa qədər və maddə sui-istifadəsinə bağlı neyropsixoloji pozuntular) mümkündür.

Maddə asılılığının yaranmasına qədər olan neyropsxiloji zəifliklərə premorbid,komorbid və sinir sisteminin inkişafı aiddir.

1. Premorbid neyropsixoloji zəiflik

-Ailə keçmişi( longitudinal analizlər nəticəsində uşaqlarda ailə keçmişində hər hansı bir valideynin maddə istifadəçisi olması həmin uşaqların gələcəkdə maddə sui-istifadə riskini artırır.)

-İnsanın davranışlarının regulasiyasına bağlı defisit

- Emosiaların idarə olunmasında çətinlik

-Stressor faktorlara qarşı tolerant ola bilməmək

-Hər hansı baş-beyin travması

2.Komorbid neyropsixoloji pozulma

- Hər hansı psixiatrik diaqnozun olması(depressiya, şizofreniya vəs.)

-Şəxsiyyət pozuntuları(bipolyar, antisosial, şizotipal vəs.)

3.Sinir sisteminin inkişafı insanın özü üzərində nəzarət edə bilmə qabiliyyətinin,emosialarını idarə edə bilmə bacarıqları ilə əlaqəlidir. Maddə sui-istifadəsinə başlama yaşı, xüsusilə, yeniyetməlik dövründə çox əhəmiyyətlidir. Beləki,yeniyetməlik dövrü sinir sisteminin inkişafı üçün kritik perioddur.Yeniyetməlikdən yetkinliyə qədər olan müddət ərzində beynin frontotemporal hissəsi inkişaf dəyişikliyinə məruz qalır.Bu inkişaf dəyişikliyi insanda koqnitiv,emosional,sosial sferada özünü göstərir.

Daha gənc yaşlarda maddə sui-istifadəsinə başlamaq prefrontal korteksin inkişafına tormozlayıcı təsir göstərdiyi üçün bu da özünü insanın davranışları üzərində kontrolunu itirməsi,emosiaların disregulasiyası və analitik düşünməyə bağlı defisit ilə göstərir. Eyni zamanda müxtəlif maddələrin (marixuana,kokain,heroin,metamfetamin vəs.) sui-istifadəsi premorbid neyropsixoloji pozuntuları daha da gücləndirə bilər.

Neyropsixoloji inkişafın istiqamətinin təyin edilməsində insanın davranışları mühüm əhəmiyyətə malikdir. Buna səbəb , davranış, beyin və zehnin ölçülə bilən əsas meyarıdır.

Maddə asılılığında neyropsixoloji pozulmanı insanın repititiv halda müşahidə edilən addiktiv davranışlarında görmək olar. Neyropsixoloji

funksiyaların maddə sui-istifadəsinə bağlı pozulması insanın bütün həyat fəaliyyətinə bilavasitə mənfi təsir göstərir.

Eyni zamanda maddə istifadə pozğunluğunun nəticəsində müşahidə edilən neyropsixoloji disfunksionallığı da qeyd etmək lazımdır. Neyropsixoloji pozulmanın kəskinlik dərəcəsi maddə sui-istifadəsinə başlama yaşı,istifadə edilən maddənin miqdarı və farmakokinetikası ,komorbid psixiatrik xəstəliklər, polimaddə istifadəsi və s. multi faktorlara bağlı olaraq dəyişir.

## ƏDƏBİYYAT

1.Психофизиология. Учебник для вузов / Под ред. Ю.И.Александрова. – СПб.: Питер, 2001. – 496 с.: ил.

2.Старшенбаум Г.В. Аддиктология. Психология и психотерапия зависимостей. – Москва: Когито-Центр, 2006. – 288 с.

3.Цветкова Л.С. Нейропсихологическая реабилитация больных. Учебное пособие. – М.: Изд-во Московского психолого-социального института; Воронеж: Изд-во НПО «МОДЭК», 2004. – 424 с.

## III BÖLMƏ
## İnkişaf və yaş psixologiyası

**Elnur RÜSTƏMOV**
***Fəlsəfə üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Milli Elmlər Akademiyası***
***Fəlsəfə və Sosiologiya İnstitutunun Sosial***
***psixologiya şöbəsinin elmi işçisi***
**E-mail:** ***elnur013@yahoo.com***

# 44 GÜNLÜK MÜHARİBƏDƏ QƏLƏBƏ-MÜASIR AZƏRBAYCAN GƏNCLİYİNİN VƏTƏNPƏRVƏRLİK VƏ MİLLİ İDENTİKLİYİNİN FORMALAŞMASI AMİLİ KİMİ

*Açar sözlər:* qələbə, vətənpərvərlik, milli identiklik, gənclik, münaqişə

Əlverişli geostrateji mövqeyə malik olan Cənubi Qafqaz dünyanın ən mühüm regionlarından biridir. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Cənubi Qafqaz qədim zamanlardan Şərqlə Qərb arasında tranzit ticarətinin fəal iştirakçısı olmuşdur. Digər tərəfdən, Cənubi Qafqaz ölkələrinin Avropa dövlətləri ilə həmişə sıx siyasi, hərbi, iqtisadi və mədəni əlaqələri olub. Mürəkkəb sosial-iqtisadi, milli-ərazi, konfessional və etno-mədəni ziddiyyətlərin düyünü olan Cənubi Qafqaz, demək olar ki, həmişə müxtəlif dövlətlərin, həm onların ən yaxın qonşularının geosiyasi maraqlarının kəsişməsi və qarşıdurma zonası olub. Bu reqionda baş verən münaqişələrin bütün regional münasibətlər sisteminə təsiri də danılmaz faktdır. Həm böyük dövlətlər, həm də həmsərhəd ölkələr tərəfindən regiona artan maraq yalnız burada nəhəng təbii faydalı qazıntı ehtiyatlarının, ilk növbədə, neft və qaz ehtiyatlarının olması ilə deyil, həm də onun bu regionda rəqabət aparan qüvvələrin geosiyasi bölgüsündə əsas mövqeyi ilə bağlıdır. Məhz postsovet məkanının bu regionunda dünyanın aparıcı ölkələrinin həyati əhəmiyyətli maraqları toqquşur. Burada mürəkkəb siyasi, sosial, milli, dini və etnik ziddiyyətlər, hər hansı səviyyədə hərbi güc tətbiq etməklə nəticələnə biləcək amilər vardır ki, bu da 90-cı illərdə Qarabağ münaqişəsində əyani şəkildə nümayiş olundu. Xüsusilə qeyd etmək lazımdır ki, postsovet məkanında millətlərarası münaqişələr xalqların milli şüurunun oyanmasına xidmət etmişdir [1].

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Qarabağ ətrafındakı münaqişə siyasi və humanitar fəsadlarına görə postsovet məkanındakı regional münaqişələr arasında ən erkən və miqyaslı münaqişələrdən biridir. Qarabağ münaqişəsi keçmiş Sovet İttifaqı çərçivəsində millətlərarası münasibətlərin destabilləşməsinin özünəməxsus detonatoru kimi dünya tarixində miqyas və əhəmiyyətindən başqa, klassik konfliktologiya

baxımından bir sıra spesifik cəhətləri ilə fərqlənir. Uzun illər onun dinamikası müxtəlif formalar alırdı: münaqişə tərəflərinin gah gizli, gah açıq qarşıdurması baş verirdi. Problemin mövcud olduğu bütün dövr ərzində münaqişəni, o cümlədən beynəlxalq hökumət təşkilatlarının köməyi ilə həll etmək cəhdləri uğursuz olmuşdu. Qarabağ böhranının öz genezisi, uzun inkişaf tarixi var. Qarabağ münaqişəsi və Ermənistanın Azərbaycana qarşı müharibəsi 1988-ci ildə ittifaqdaxili toqquşmalar kimi başlamış, SSRİ-nin süqutundan sonra isə beynəlxalq status almışdır. Əgər birinci halda vəziyyəti daxili üsullarla həll etmək mümkün idisə, 1991 - ci ildən sonra bu, BMT-nin və ATƏT-in vəzifəsinə çevrilmişdir. Beləliklə, Qarabağ münaqişəsi təkcə regional deyil, həm də qlobal miqyas almışdı. Bir dövlətin iki hissəsi - iki beynəlxalq hüququn subyektləri, BMT, ATƏT, digər beynəlxalq və regional təşkilatlar arasında münaqişəyə çevrilmişdi. SSRİ dağıldıqdan sonra Cənubi Qafqazın bütün dövlətlərində onların ümumqafqaz makro regionuna daxil edilməsi prosesi başlanmışdır. Regional identikliyin bərpası ağır, bəzən ağrılı prosesdir [1].

GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ - DÖVLƏT GƏNCLƏR SİYASƏTİNİN PRİORİTET SAHƏSİ KİMİ

Milli identiklik və vətənpərvərlik insanın ən əhəmiyyətli, daimi dəyərlərindən və ən mühüm mənəvi sərvətlərindən biridir. Müasir cəmiyyətin birləşməsində əsas məqam olan vətənpərvərlik, eyni zamanda çoxmədəniyyətli cəmiyyətin mədəni özünəməxsusluğunun qorunmasına şərait yaradır. Bu, vətən sevgisi, öz maraqlarını ölkənin mənafeyinə tabe etməyə hazır olma, xalqının mənafe lərini müdafiə etməyə çalışma kimi sosial hisslərlə müəyyən edilir. Struktur cəhətdən vətənpərvərlik bir-biri ilə əlaqəli, bir-birindən asılı və dialektik cəhətdən birləşən üç komponentdən - vətənpərvərlik münasibəti, vətənpərvərlik şüuru və vətənpərvərlik fəaliyyətindən ibarətdir. Vətənpərvərliyin formalaşması prosesinin əsasını insanın vətənə münasibətini necə dərk etməsi təşkil edir. Bu dəyər universaldır, lakin hər kəs üçün fərdidir və öz konkret təzahürlərində müxtəlif ola bilər. Milli maraqların mahiyyətini öz maraqları çərçivəsində anlamaq vətənpərvərlik şüurunun formalaşmasının ən vacib şərtlərindən biridir. Bundan əlavə, gənclərin vətənpərvərlik tərbiyəsinin müasir forma və metodlarının səmərəliliyini artırmaq üçün, müasir informasiya və internet resurslarından, innovativ interaktiv texnologiyalardan istifadə etmək lazımdır. Şəxsiyyətin formalaşması insanın irsiyyətin, mühitin və məqsədyönlü pedaqoji fəaliyyətin təsiri altında inkişafının nəticəsidir. Bu zaman tərbiyə geniş mənada insanın sosiallaşması, yəni insanın bu cəmiyyətə xas olan dəyərləri, qurğuları, davranış norma və nümunələrini mənimsəməsi prosesidir [2].

Araşdırmalar göstərir ki, insanın dünyagörüşünün sabitliyi onun şüurunda formalaşmış dünya obrazının bütövlüyündən asılıdır. Bu obrazın mərkəzində Vətən obrazı dayanır. Milli identiklik hər bir xalqın layiqli yaşamasını təmin etmək məqsədi daşıyır. Bu, millətin həyat fəaliyyətini müəyyən edən təbii və sosial amillərin təsiri altında formalaşaraq, iki qarşılıqlı cəhəti özündə birləşdirir: milli xarakter və milli mentalitet. Məhz Vətən müdafiəçilərinin indiki

dövrdə mənimsənilmiş mənəvi təcrübəsi müasir dünyada nəsillərin sabitliyinin əsasına çevrilir. Böyük qələbə ənənələri Vətənin müdafiəsi dəyərlərinin qorunub saxlanmasının və nəsildən-nəsilə ötürülməsinin xüsusi formasıdır, özündə sanki müdafiə sahəsində toplanmış təcrübəni ehtiva edir. Milli xarakter milli ehtiyaclar, maraq və dəyərlər əsasında yaranan və obyektiv-zəruri fəaliyyətin təsiri altında formalaşan, millətin mövcudluğunun təbii və sosial şərtləri ilə müəyyən edilən normalardan ibarətdir. Sosial şərait həmin millətə xas olan sosial orqanizmlərin (ailə, əmək kollektivi, cəmiyyətin və dövlətin növü) xüsusiyyətləri ilə müəyyən edilir. Xarici şəraitdən irəli gələn obyektiv fəaliyyət xalqda müharibənin ağır fəsadlarına dözümlüyün psixofizioloji və əmək keyfiyyətlərini formalaşdırır. Döyüş insanın fiziki və mənəvi güclərinin yüksək gərginliyini tələb edir, həm də gündəlik cəbhə və arxa cəbhə işlərində səbirli olmağa, yorğunluğun və insana xas olan zəifliklərin daim aradan qaldırılmasına ehtiyac duyur [5].

Əsrlər boyu milli identikliyin formalaşmasının əsas amillərindən biri ailədir. İnsanın özünü ailəsi ilə eyniləşdirməsi onun xalqla böyük bir ailə kimi özünü eyniləşdirmə imkanını artırır. Böyük bir ailədə həyat kollektivizm və məsuliyyət hissini inkişaf edir, onun rifahı üçün özünü qurban vermək hazırlığını gücləndirir. Vətənin gələcəyi obrazı kontekstində insanın öz gələcək obrazını formalaşdırmaq problemi müasir vətənpərvərlik tərbiyəsinin müasir nəzəriyyəsi və praktikasının mərkəzi problemidir. Bu gün yaşayan konkret insanın öz gələcəyini necə görə bilməsi onun həyat mövqeyindən, gözləntilərindən və özünü inkişaf etdirmək istəyindən asılıdır. Arzu olunan gələcəyin obrazı idealların, dəyərlərin, mənaların sintezi kimi təhsil standartlarının əsasını təşkil edir. Bununla yanaşı, vətənpərvərlik tərbiyəsinin konstruktivliyi keçmişin relevant obrazına əsaslanmalıdır. İctimai şüurda ən çox diqqət çəkən 44 günlük II Qarabağ müharibəsində qazanılan Qələbə obrazıdır, ona görə də, vətənpərvərlik tərbiyəsi, ilk növbədə, böyük qələbə obrazının formalaşması ilə bağlıdır, bu da bütün sosiallaşma institutlarının fəaliyyət predmetini təşkil edir [3].

İdrak prosesində insan informasiyanı mənimsəyir, biliyi formalaşdırır, öz dünyagörüşü şəklində simvolik təcrübə toplayır. Bununla da böyük qələbə obrazı Qarabağ müharibəsi hadisələrinin rəmzi reprezentasiyasını öz təcrübələri vasitəsilə nümayiş etdirir. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında qazanılmış bu tarixi qələbə milli qürur, mübarizə, Azərbaycan xalqının vahid ideya naminə dəmir yumruq kimi birləşmiş əzmkarlığının bariz nümunəsidir. Vətən müharibəsində qələbəmiz müasir Azərbaycanın milli identikliyinin formalaşmasında əsas amilə çevrilmişdir. Tarixi ədalətin, beynəlxalq hüququn, ərazi bütövlüyünün və milli ləyaqətin bərpası təkcə Azərbaycanın milli ruhunun qələbəsi deyil, həm də son iki əsr ərzində təfəkkürdə kök salmış komplekslərin tamamilə məhv edilməsi, yeni mənəvi dönüş nöqtəsidir [2].

Vətənpərvərlik milli identikliyin formalaşmasının əsas amillərindən biridir, eyni zamanda "vətəndaşlığın" təzahürü kimi çıxış edir və vətən rifahına yönəlmiş fəaliyyətlərdə öz ifadəsini tapır. Vətənpərvərlik müasir cəmiyyətin birləşməsində əsas məqam olmaqla bərabər, multikultural cəmiyyət şəraitində məhz həmin cəmiyyətin mədəni kimliyinin qorunub saxlanmasına kömək edir. Sosial-mədəni dəyər kimi vətənpərvərlik, həmçinin, cəmiyyəti birləşdirə bilən sistemyaradıcı, şəxsiyyət formalaşdıran qüvvə kimi çıxış edir. Vətənpərvərlik şüurunun formalaşmasının ən mühüm şərtlərindən biri milli maraqların şəxsi mənafelərlə bağlı dərk edilməsidir. Vətən sevgisi, əksər hallarda, böyüməkdə olan nəsillə konkret işlər və hərəkətlər ilə sübut olunur. Son illər gənclərin ictimai fəallığı yüksəlmiş, idarəetmədə rolu yüksəlmişdir. Vətənpərvərlik yönümlü tədbirlərə və təşkilatlara maraq göstərən gənclərin sayının artması tendensiyası müşahidə olunur. Azərbaycan gəncliyi ölkədə gedən proseslərin önündə dayanaraq ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, idmançılarımızın qələbələri sayəsində Azərbaycan bayrağı dəfələrlə xarici ölkələrdə dalğalanmışdır. Nəticədə, ölkəmiz müxtəlif dövlətlərdə, beynəlxalq strukturlarda daha da tanınıb, onun tarixi, mədəniyyəti və bu günü haqqında geniş məlumatlar verilib. Xarici ölkələrdə təhsil almış azərbaycanlı gənclər və məzunlar Azərbaycan diasporunun formalaşmasında, lobbiçilik fəaliyyətinə cəlb olunurlar [3].

Gənclərin inkişafı dövlətin sosial siyasətinin mühüm tərkib hissələrindən biridir. Gənclərin dinamik inkişafı üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, dünyada baş verən qlobal dəyişikliklər və çağırışlar Azərbaycanda yeni gənclər siyasəti strategiyasının hazırlanması və qəbul edilməsi zərurətini diktə etmişdir. 2020-ci ilin sentyabrın 27-də başlayan və noyabrın 10-da başa çatan ikinci Qarabağ müharibəsi Cənubi Qafqazın geosiyasi mənzərəsini tamamilə dəyişdi. 44 günlük müharibənin iştirakçıları, şəhidlər, qazilər azərbaycanlıların yeni nəsli nəinki Vətənə təmənnasız xidmət etməyə, həm də düşmən qarşısında geri çəkilmədən onun uğrunda həlak olmağa hazır olduqlarını sübut etdilər. Məhz gənclər bizim hərbi qələbələrimizi şərtləndirmiş, azad edilmiş şəhər və kəndlər üzərində Azərbaycan bayrağını qaldırmışlar. Ölkəmizin hər bir vətəndaşı, xüsusilə gənc nəsil üçün sınaq olan 44 günlük müharibə, Azərbaycana hərbi şöhrəti qaytardı. İkinci Qarabağ müharibəsinin nəticələri Cənubi Qafqazda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün geniş perspektivlər açmışdır. Bu, onunla bağlıdır ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası indi sadəcə hüquqi prinsip deyil, müəyyən edilmiş faktdır. 30 ildən sonra region ölkələri arasında həqiqi təhlükəsizlik və əməkdaşlıq qarşısındakı maneələrin aradan qaldırılması, Cənubi Qafqazda sülhün bərpası və möhkəmlənməsi üçün zəmin yaradır [4].

Müharibə təcrübəsinin xarakteri və məzmunu bu hadisələrin iştirakçıları ilə qarşılıqlı dialoq mühitinin xüsusiyyətlərinin gənc nəsilə təsirini müəyyənləşdirir. Nəsillərarası dialoq yeni qalib nəsillərin formalaşması və inkişafı üçün mühüm resurs kimi kortəbii şəkildə, ayrı-ayrı sosial qrupların və

ya institutların təşəbbüsü səviyyəsində üzə çıxa bilməz. Buna görə də qalib xalqın müasir nəsillərinin vətənpərvərlik tərbiyəsinin inkişafı sosiallaşma institutlarının inteqrasiyası prosesindən ayrı qala bilməz. Qələbəmiz bir simvol kimi, ölkəmizdə böyük ictimai və tarixi məsələlərin həlli üçün cəmiyyətimizin maksimum sıx birləşməsinin başlıca şərtidir. Qələbənin qazanılmasında əsas psixolji amillərə vətənə, vətəndaş və hərbi borcuna sədaqət, fədakarlıq, mərdlik, qarşılıqlı yardım aiddir. Xüsusilə milli ideallar, vətən müdafiəçilərinin qəhrəmanlıq keyfiyyətləri 44 günlük müharibə zamanı özünü göstərən hərbi şücaətin əsasını təşkil etmişdir. Vətən müharibəsinin qəhrəmanlıq ənənələri əsasında vətənpərvərlik tərbiyəsinin psixoloji məntiqi qələbə obrazının yaranmasına səbəb olur. Bu tarixi yaddaşın və arzu olunan gələcək haqqında təsəvvürün formalaşması və indiki zamanda psixikanın faktiki əhəmiyyətli bir hərəkətdə fəal iştirak etməyə hazırlığı vasitəsilə baş verir. Adətən, təxəyyüllə bağlı yaddaş obrazları və motivləri gələcək fəaliyyətin məqsəd və planlarına çevrilir. Beləliklə, 44 günlük Vətən müharibəsinin qəhrəmanlıq ənənələrinin uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin sosiomədəni dominantlığı olduğu bir sıra aspektləri müəyyən etmək olar;

1. Vətən müdafiəçilərinin qəhrəmanlıq ənənələri müasir cəmiyyətimizin sosial birləşməsində önəmli amildir.

2. Bu ənənələr müharibə iştirakçılarının və müasir gənclərin nəslinin identikliyini və dəyər varisliyini təmin etməklə keçmişlə bu gün arasında əlaqə rolunu oynayır.

3. Qələbə nəsillərin qarşılıqlı münasibətləri sistemini bütövlükdə əlaqələndirməyə, qarşılıqlı fəaliyyətə yeni keyfiyyət – sosiomədəni vərəsəlik verməyə imkan verir.

4. Vətənpərvərlik ruhunda tərbiyə fərdin sosiallığının dərinləşməsi prosesidir. Qələbənin nümunəsində vətənpərvərlik tərbiyəsi bir sıra sosial-mədəni funksiyaları yerinə yetirir: müxtəlif nəsillərin dəyər varisliyini stimullaşdırır; informasiyanın və dəyərlərin saxlanılması və nəsildən-nəsilə ötürülməsi üsullarını müəyyən edir; uyğun davranış nümunələrinin və dəyərlərin seçilməsində selektiv funksiyanı yerinə yetirir. Qələbəmizin zəngin qəhrəmanlıq ənənələri müasir gəncliyin emosional və psixoloji dünyasına nüfuz edərək, müəyyən ümidlər, həyat motivləri və məqsədləri, arzuları, şəxsi hüquq və azadlıqlarının həyata keçirilməsi ilə əlaqələndirilməlidir [8].

Müasir informasiya məkanında sosiallaşma institutlarının fəaliyyəti inteqrasiya olunmasa, bunu etmək kifayət qədər çətinləşə bilər. Son illərdə televiziya və internet sosial münasibətlər sistemində müəyyənedici mənbələrə çevrilərək kütləvi sosiallaşma institutuna çevrilmişdi. Kütləvi informasiya vasitələrinin köməyi ilə yayımlanan informasiya cəmiyyətdə dominant xarakter alır: insan qlobal “məlumat bazası”nın bir hissəsinə çevrilir və onun davranış və hərəkətləri ekranın təqdim etdiyi görüntülərlə müəyyən edilir. Qələbənin mənəvi irsi milli mənlik şüurunun, milli qürurun formalaşmasında ən güclü vasitə olmaqla, son nəticədə müstəqilliyin möhkəmləndirilməsi üçün ümumbəşəri

mənəvi əsasdır. O, əxlaqı, qanunu, ənənələri, sənəti və tarixin dərslərini - müasir azərbaycanlı gəncin sarsılmaz dəyərlərini təşkil edən hər şeyi cəmləşdirir. Qələbənin mənəvi irsi xalqın dünyagörüşünün və münasibətinin vəhdətini, sosial-psixoloji quruluşunu, həyat tərzini və mentalitetini əks etdirən obrazlar, ideallar, dəyərlər və əxlaqi ideyalar sistemidir. Vətənpərvərlik tərbiyəsində onun mənimsənilməsi cəmiyyəti birləşdirir, öz təkrarsızlığını və unikal mənəvi xüsusiyyətlərini dərk etməyə kömək edir. Qələbə fenomeni əlamətdar hadisə kimi bilavasitə ifadə edilməmiş məkan-zaman formasına malikdir, onun sayəsində bu hadisə ilə bağlı bütün proseslər və münasibətlər diqqəti onun tarixi mənasının xüsusiyyətlərinə yönəltməyə kömək edir [6].

Böyük Qələbə obrazında təcrübənin sonrakı nəsillərə ötürülməsi prosesini əhatə edən və dünyagörüşünü formalaşdıran kompleks mövcuddur. Yaddaş məkanını strukturlaşdırmağa imkan verən mühüm dayaq nöqtələri -bu hadisələrin iştirakçısı və şahidləridir. Hadisənin ruhunu ancaq həmin hadisənin iştirakçısı çatdıra bilər. Bununla belə, miqyasına və nəticələrinə görə tarixi əhəmiyyətli hadisə olan Vətən müharibəsinin öyrənilməsi çox mürəkkəb bir hadisəyə çevrilir. Qələbə kütləvi qəhrəmanlıq, fədakarlıq, düşmən üzərində qələbə qazanmaq üçün öz gücünə böyük inam yaradan maksimum reallaşdırılmış vətənpərvərlik məkanı olub və olaraq da qalmaqdadır. Etiraf etmək lazımdır ki, müasir cəmiyyətin həyatına bu vətənpərvərlik resursunun təsirinin dərk edilməsi və mənimsənilməsi, ilk növbədə, tarixin, keçmişin və müasirliyin vəhdəti kimi kifayət etmir. Uzun zaman gözlənilən qələbə müasir gənclərin mənəvi identikliyinin reallığını formalaşdıran və qoruyan amilə çevrilib, müasir Azərbaycanın dirçəliş mənbəyidir. Ölkəmizin əldə etdiyi və yaşadığı Qələbə təcrübəsi potensial olaraq cəmiyyətin bütövlüyü obrazını ehtiva edir, yəni nəsillərin mənəvi identikliyinin daha geniş və dərin obrazlarının formalaşmasına təkan verir [2].

Qələbənin mühüm mənəvi və dəyərli səfərbəredici amil kimi dərk edilməsi vətənpərvərliyi cəmiyyətin vahid şəxsiyyətinin formalaşması mənbəyinə çevirir. Böyük Qələbə obrazı və qaliblər nəslinin fəaliyyəti vətənpərvərliyin yaradıcı mahiyyətini xeyli artırır və onu cəmiyyətin bütövlüyünün formalaşması üçün sistem formalaşdıran əsasa çevirir [5]. Eyni zamanda, uşaqların və gənclərin vətənpərvərlik tərbiyəsi təkcə dövlətin, dövlət təhsil sisteminin işi ola bilməz. Vətən hissi uşaqda ailəyə, ən yaxın insanlara – anaya, ataya, nənəyə, babaya münasibətdən başlayır. Bunlar onu doğma evinə və yaxın ətrafına bağlayan köklərdir. Ailədə əldə edilən təəssüratlar vətənpərvər şəxsiyyətinin formalaşmasında böyük rol oynayır. Uşaqların tərbiyəsi və inkişafı, böyüməkdə olan nəslin sosiallaşması ailə institutunun ən mühüm funksiyalarıdır, burada uşaqlar xeyirxahlıq, mərhəmət, vətənpərvərlik və vətəndaşlıq dərsləri alırlar. Uşaqların tərbiyəsində yaşlı nəslin – nənələrin, babaların iştirakı nəticəsində ailələrin tərbiyə potensialının gücləndirilməsi daha da artır. Onlar nəsillərin topladığı sosial təcrübənin özünəməxsus ötürücüsü kimi xidmət edirlər. Cəmiyyətin mənəvi normaları əvvəlcə uşağın qarşısında ailənin

həyat tərzində təcəssüm edilir və mümkün davranış üsulu kimi mənimsənilir. Məhz ailədə vərdişlər, həyat prinsipləri və prioritetlər, şəxsiyyətin mənəvi mədəniyyətinin əsası qoyulur, etnik, daha sonra isə milli özünüdərkin daşıyıcısı formalaşır. Gənc nəslin vətənpərvərlik şəxsiyyətinin formalaşdırılması funksiyasını tam şəkildə həyata keçirmək üçün müasir mərhələdə bütün sosial institutlarla təmsil olunan təhsilin iki qolu - ailə və ictimai qurumlar vəhdətdə fəaliyyət göstərməlidir [4].

NƏTİCƏ

Vətənpərvərlik və identiklik nəsillər arasında xüsusi əlaqələr olmadan düşünülə bilməz. Burada tərbiyəvi prosesin ümumi qanunauyğunluğu özünü göstərir və onun əsasını kollektivdə şəxsiyyətin məqsədyönlü şəkildə formalaşması təşkil edir. Vətənpərvərlik tərbiyəsində kollektivizmin və ümumi işin tərbiyə prinsipi kimi rolu xüsusilə böyükdür. Şəxsi maraqların ictimai maraqlara tabe olması, yoldaşlıq əməkdaşlığı, qarşılıqlı fəaliyyət və qarşılıqlı anlaşmaya hazır olması vətənpərvərlik özünüdərkin zəruri şərtləridir. Vətənpərvər şüur həm də kollektiv identikliyin yüksək inkişaf səviyyəsini - özünü insanların xalq, ölkə, dövlət kimi mədəni-siyasi birlikləri ilə eyniləşdirilməsini nəzərdə tutur. Vətənpərvərlik davranış nümunələri daha yüksək dəyər statusuna malik olduğundan, davranış nümunələri kult xüsusiyyətlərini əldə etdikcə, məsuliyyət hissləri bir o qədər çox üstünlük təşkil edir. Vətənpərvər identikliyi böyük kütlələrin birgə davranışını ələqələndirməyə qadirdir [7]. Sosial bir proses olaraq vətənpərvərlik tərbiyəsi cəmiyyətdə qəbul edilən mədəni davranış nümunələrindən, bu nümunələrin gənclərə nə dərəcədə uyğun olmasından asılıdır. Əgər belə təsəvvürlər cəmiyyətin baza mədəniyyətinə kök salıb, onun mənalarında, obrazlarında parlaq şəkildə təcəssüm olunursa və müxtəlif nəsillər tərəfindən davamlı qəbul edilirsə, şəxsiyyətin vətənpərvərlik keyfiyyətlərinin özünü tərbiyə etməsi üçün etibarlı mexanizm yaranır. Bu zaman vətənpərvərlik tərbiyəsi və şəxsiyyətin formalaşması prosesləri bir-birini tamamlayır.

## ƏDƏBİYYAT


1. Allahverdiyev K. Dağlıq Qarabağ münaqişəsi retrospektiv etnoqeosiyasiya kontekstində // Mərkəzi Asiya və Qafqaz. 2009. № 1. S. 73.
2. Bjezinski Z. Böyük şahmat taxtası. M.: 1998; Xəzər regionunun geosiyasəti. M.: 2003.
3. Gənclər siyasəti haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU http://www.e-qanun.az/framework/1619
4. 44 gün sürən Vətən Müharibəsi (II Qarabağ müharibəsi) https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi

5. Основные подходы и цели гражданско-патриотического образования обучающихся
https://dussh-2.ru/ve-files/0000440.pdf
6. Кара-Мурза С.Г. Кризисное обществоведение. М.: 2012.
7. Новые методы подготовки кадров для организации и проведения воспитательной работы по развитию патриотизма с использованием компьютерных технологий в воинских коллективах, учреждениях образования и культуры. Методическое пособие. М., 2010.
8. Эриксон Э. Идентичность: юность и кризис. М.: 1996.

**Sevinc ORUCOVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Pedaqogika və psixologiya kafedrasınnın dosenti***
**E-mail: s.orucova.71@gmail.com**

## UŞAQLARDA İRADƏNİN İNKİŞAFI VƏ TƏRBİYƏ EDİLMƏSİ

*Açar sözlər:* iradə, inkişaf, tərbiyə, valideyn, müəllim

Müasir şəraitdə uşaqların möhkəm iradəyə malık olması üçün zəmin yaradılması ümumilıkdə şəxsiyyətin ahəngdar inkişafını təmin edən problemlərdən sayılır. Yüksək iradi keyfiyyət tərbiyəsi şəxsiyyət strukturunda xüsusi yer tutur və insan amilinin fəallaşdırılmasında həlledici vasitəyə çevrilir. Lakin iradənin inkişaf yollarını bilmədən uşaq şəxsiyyətinin yetkinliyindən və onun təlim-tərbiyə işində şəxsi keyfiyyətlərinin müsbət istiqamətdə inkişafından danışmaq olmaz.

İradi hərəkətlərin formalaşması uşağın oyuncaqlarla və əlçatan əşyalarla ixtiyari hərəkətləri mənimsədiyi erkən uşaqlıq dövründən başlayır. Əslində iradi davranış uşağın çətinlikləri aradan qaldırması ilə əlaqəli elementar hərəkətləri, eləcə də zərurliyi diktə edilən hərəkətləri yerinə yetirərkən, ilk dəfə olaraq istədiyini deyil, lazım olanı yerinə yetirməli olduqda formalaşmağa başlayır. Burada böyüklərin ardıcıl tələb və göstərişləri böyük əhəmiyyət kəsb edir. Böyüklər məharətlə uşaqları müxtəlif, əlbəttə ki, mümkün maneələri və çətinlikləri aradan qaldırmaq və iradi güc təzahür etdirmək ehtiyacı qarşısında qoyurlar.

Məktəbəqədər yaşlı uşaqların iradəsi kollektiv oyunlarda oyunun qaydalarına tabe olmaq və səmimi niyyətlərini cilovlamaq lazım gəldikdə inkişaf etməyə başlayır. Öz davranışını oyunun qaydalarına tabe etdirmək uşağın iradi hərəkətləri üçün mühüm məktəbdir. Məktəbəqədər yaşda uşaq öz davranışlarını şüurlu surətdə idarə etməyi bacarır. Hərəkətlərini böyüklərin nəzarəti altında icra edir, tərbiyəçilərin sözlərinə əməl edir, oturuşlarına – duruşlarına nəzəarət edirlər. İradi hərəkətlər bəzən niyyətsiz. İmpulsiv yerinə

yetirildiyindən şəraitdən doğan arzu, istək həmin hərəkətləri icra etməyə həvəs yaradır. İradi keyfiyyətlərin formalaşması yaşdan asılı olaraq davranış motivlərinin dəyişməsindən asılıdır.

Uşaqlarda iradi hərəkətlərin inkişafını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Hərəkətlərin məqsədyönlü inkişafı
2. Hərəkətlərin məqsədi ilə onun motivləri arasında əlaqənin bərpa olunması
3. Hərəkətlərin icrasının nitq vasitəsilə tənzim edilməsi.

Məqsədyönlü hərəktlərin yerinə yetirilməsinə kiçik yaşlarda təsadüf edilir. Məktəbə daxil olmaqla uşağın iradəsinin inkişafında yeni mərhələ başlayır. Məktəblinin iradi fəaliyyəti əhəmiyyətli dərəcədə təlim fəaliyyətinin təsiri altında inkişaf edir ki, bu da uşağı yeni və daha ciddi tələblər qarşısında qoyur. Təlim fəaliyyəti, ilk növbədə, şagirddən öz psixi fəaliyyətini idarə etməyi bacarmağı tələb edir: bilikləri mənimsəmək, lazımlı, lakin maraqsız materialları yadda saxlamaq üçün zehni səy göstərmək, işi axıra kimi yetinə yetirməklə sona çatdırmaq və s. İkincisi, təlim fəaliyyəti şagirddən öz davranışına nəzarət etməyi tələb edir. Bu isə o deməkdir ki, şagird istədiyini deyil, ondan tələb olunanı yerinə yetirməlidir. Uşaq təlim işləri naminə əyləncəli oyunlardan, gəzintidən, maraqlı televiziya verilişlərindən imtina etməyi bacarmalıdır.

İradə tərbiyəsində böyüklərin rəhbərliyi həlledici əhəmiyyət kəsb edir. Şagirdin iradəsini tərbiyə etmək, onun inkişafına təkan vermək üçün ilk növbədə müəllim, sonra isə valideynlər və uşağın ətrafındakı böyüklər müəyyən üsul və vasitələr tətbiq etməyə başlayırlar. İradə yalnız çətinliklərin aradan qaldırılması prosesində tərbiyə olunur, buna görə də uşaqların həyat yolundakı çətinliklərin valideynlərin aradan qaldırmaq istəyi uşaqda güclü iradi səyin, çətinlik və maneələrin dəf edilməsi qabiliyyətinin təzahürünə şərait yaratmır.

Uşaqların fərdi xüsusiyyətlərini öyrənmək və onlarla düzgün, qarşılıqlı münasibət yaratmaq iradə tərbiyəsinin mühüm vasitələrindən biridir. İradi davranışa təsir göstərən amillər çox və müxtəlifdir. Onları daxilli və xarici amillər kimi qruplşdırmaq olar. Daxili amillərə uşağın hissi idrak sahəsi, dərketmə qüvvəsi, meyli, marağı, xarakteri, hərəkətə təhrikedici mənəvi motivləri, tələbatı və s. xüsusiyyətləri aiddir. Zahiri amillərə isə makro və mikro mühitin təsirləri daxil edilə bilər.

Müşahidələr göstərir ki, başladığı işin sona çatdırılması üzərində valideynlərin ciddi nəzarət qoyması onlarda iradəliliyi tərbiyə etməyin ən yaxşı üsullarından biri olmuşdur. Ailədə keçirilən ilk uşaqlıq illərində valideyn öz təsiri ilə övladına intizam, mədəni vərdişlər, yoldaşlıq, əməksevərlik və s. müsbət keyfiyyətlərin bəsit ünsürlərini də tərbiyə edə bilər, əksinə, onda xudpəsəndlik, ərköyünlük, əməyə və hər cür tapşırığa laqeyd münasibətin ilk rüşeymlərini də aşılaya bilər. Keyfiyyətlə sona çatdırılan işə valideynlərin verdiyi müsbət qiymət uşaqları daha səylə, daha təkidlə çalışmağa ruhlandırır.

Uşaqların iradəsinin güclü olmasına təsir göstərən amillərdən biri də gün rejimidir. Ailədə gün rejimi tapşırıqların icrasını, yeməyi, istirahəti, əyləncəni,

yatmağı və uşaq həyatının digər sahələrini əhatə etməlidir. Rejim ailə ənənələri əsasında müəyyənləşdirilmiş qaydalara tam əməl edilməsi ilə şərtlənməlidir. Rejimlə bağlı qaydaların yerinə yetirilməsi uşaqlarda intizamlılığı, dözümlülüyü, özünü ələ almaq bacarığını, iradəni daha da inkişaf etdirir. Rejim uşaqları müəyyən şəraitə salır, öz arzularını idarə etməyə məcbur edir.

Uşaqlarda iradənin tərbiyə edilməsində böyüklərin, ilk növbədə müəllim və valideynlərin şəxsi nümunəsi böyük əhəmiyyət kəsb edir. Uşaqlarını möhkəm xarakterli, iradəli görmək istəyən valideynin çətinliyə dözümlü münasibəti, özünün şəxsi davranışı ilə fərqlənməsi, mərdlıyi və s. uşaq üçün nümunəvi təsirə malikdir. Bu baxımdan əsas amillərdən biri də valideynlərin şəxsi nümunəsi, öz işinə sədaqəti və hər bir uşağın inkişafına müsbət təsir göstərməsidir. Uşaqları tərbiyə etmək üçün valideyn ilk növbədə onların hər birində iradənin mənfi və müsbət keyfiyyətlərini öyrənməli və onlara istinad etməlidir. Uşağın qüvvəsinə inamsızlıq, ondan həmişə edilən narazılıq uşağın zəif iradəli olmasına səbəb olur. Uşağa işin mahiyyətini başa salmadan və onun şüuruna təsir etmədən ona bir şey öyrətmək olmaz. Çox zaman ailədə uşağa həddindən artıq qayğı bəslənildiyinə görə, tədricən bütün arzularının dərhal yerinə yetirilməsinə adət edir. Ərköyünləşdirilmiş uşağın şıltaqlarına dözən, dərhal onun tələblərini yerinə yetirməyə çalışan böyüklər səhvə yol verməkdə davam edirlər. Ərköyün uşaq artıq ətrafdakılara hörmət etmir, kobud və qəddar olurlar. İlk vaxtlarda o, möhkəm kök salmış adətin təsiri altında şıltaqlıq edir, hamıya əmr edir, özünü yaşıdlarının yanında aparmağı bacarmır.

Bəzən uşaq ailədə hər cür zəhmətdən azad edilir, bunun da nəticəsində o, əzgin, tənbəl və iradəsiz olur. Böyüklərin daim himayədarlıq etməsi uşagın öz fəaliyyətini ləngidir, onun təşəbbüsünü sıxışdırır. Uşaq gec-tez həyat çətinliklərinə rast gəlir, lakin həmin çətinlikləri aradan qaldırmağa hazır olmadığına görə öz tələbatını və şıltağını təmin etmək üçün yüngül, asan yol axtarır. Qeyri-düzgün tərbiyə nəticədə xudbinliyə, fərdiyyətçiliyə, əməyə hazır olmamaq hallarına səbəb olur. Ona görə də uşağı erkən yaşlarından öz yaşıdlarının kollektivinə daxil etmək, özünəxidmətə və gücü çatan ev işlərinə öyrətmək, yaşıdlarına və özündən böyüklərə hörmət etməyi və onlara qarşı həssas olmağı ondan tələb etmək, onda dostluq, yoldaşlıq, kollektivçilik hissi tərbiyə etmək lazımdır.

ƏDƏBİYYAT


1. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. - Bakı: 2002.
2. Əmrahlı L., Rzayeva N. Uşaq psixologiyası. - Bakı: 2015.
3. Vəliyev M., Mustafayev A. İnkişaf və yaş psixologiyası. - Bakı: 2015.

**Zərifə NƏSRULLAYEVA**
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının dosenti***
**Samirə ORUCOVA**
***BDU-nun Psixologiya ixtisası üzrə***
***IV kurs tələbəsi***
**E-mail: Zerifenesrullayevaa@gmail.com**

## UŞAQLIQ DÖVRÜNDƏ İNKİŞAF VƏ BÖYÜMƏ PROBLEMİ

*Açar sözlər:* psixi inkişaf, uşaq psixologiyas,ı kəmiyyət dəyişmələri, keyfiyyət dəyişmələri

Şübhəsiz ki, hər bir insanın həyatıında ən əhəmiyyətli məqsədlərindən biri uşaqlarını həyata hazırlamaq, onlara yaxşı bir gələcək təmin etməkdir. Uşaqlar bizim gələcəyimiz olduğundan bu gələcəyə qoyulmuş zəhmət həm də bizm öz gələcəyimiz üçün, geniş mənada cəmiyyət üçün uğurlu nəticələr vəd edir.

Onları pozitiv gələcəyə hazırlamaq və gələcəkdə uğur qazanmasını təmin etmək tamamilə bizim əlimizdədir. Ancaq unutmaq olmaz ki, uşağın psixi inkişafı gözəgörünməz bir sürətlə hərəkətdədir. Burada buraxılmış hər hansı səhvlərin sonradan düzəldilməsi olduqca çətin və əziyyətli prosesdir. Bəzən izə bu mümükün olmur.

XX əsrin 50-ci illərindən etibarən Azərbaycanda psixoloqların yeni nəsli yetişməyə başlamışdır. Böyük alim, istedadlı psixoloq prof.Ə.Əlizadə çağdaş Azərbaycan psixologiya elminin korifeyidir. Onun fundamental tədqiqatlarında uşaq psixologiyasınm elmi- nəzəri və praktik problemləri üzvi bir vəhdət təşkil edir. Professor Ə.Ə.Əlizadətıin tədqiqatları içərisində «Uşaqlarda diqqətin tərbiyə edilməsi» (1962), «Uşaqlarda kollektivçilik hissinin tərbiyə edilməsi» (1963), «Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyəsi» (1986) və s. onlarla monoqrafiyaları öz elmi dəyəri ilə diqqəti cəlb edir.

Bu il 90 illiyini qeyd etdiyimiz Əbdül Əlizadənin əsərlərində də biz uşaqlıq dövründən inkişafda olan nəslin tərbiyəsi məsələlərinə rast gəlirik. Həmçinin bu əsərlərdə şagirdlərin psixi inkişafı onlarda baş verən kəmiyyət və keyfiyyət dəyişmələri eləcə də psixi funksiyaların tərbiyə oluna bilən funksiyalar olduğu diqqətə cəlb olunur. Ali psixi funksiyalar kimi bu psixi proseslərin inkişafı diqqət mərkəzinə çəkilir.

Uşaqlıq dövrünün əsas spesifik xüsusiyyətləri onunla bağlıdır ki, onlar tez-tez dəyişir və həmişə inkişafda olurlar. Uşaq nə qədər kiçik yaşlı olursa, inkişaf bir o qədər intensiv olur. Uşaq yalnız böyümür, həm də inkişaf edir. Bu baxımdan biz burada uşaq psixologiyasının iki vacib: inkişaf və böyümə anlayışlarına aydınlıq gətirməlliyik.

Böyümə-artıq mövcud olan hər hansı konkret funksiyanın və ya keyfiyyətin kəmiyyət dəyişilməsi və ya təkmilləşməsidir. Bu zaman uşağın çəkisi, boyu

artır, predmetlərlə manipulyasiya zamanı zəruri olan hərəkətlərin sayı artır, daha çox söz öyrənir və s. Bütün bunlar isə öz növbəsində böyüməni göstərən hadisələr, eyni zamanda kəmiyyət dəyişilmələridir. Əgər biz uşağa bioloji varlıq kimi baxsaq onun həyat yolu yalınız kəmiyyət dəyişilmələrindən ibarət olcaqdır. Başqa sözlə desək böyümə əvvəllər mövcud olanın şəklini dəyişməsi və ya təkmilləşməsi prosesidir. Burada yeni heç nə yaranmır.

Böyümədən fərqli olaraq inkişaf keyfiyyət dəyişilmələri ilə səciyyəvidir və burada yeni psixi funksiyalar özünü göstərir. Məsələn bir həftə əvvələ uşaq oyuncaqlara tamamilə laqeyd münasibət göstərirdisə, bu gün o artıq yeni oyuncaqlar tələb edir. Və yaxud əgər əvvəllər uşaq başqalarının verdiyi qiymətə fikir vermirdisə və ya bu onun üçün maraqlı deyildisə, artıq bu gün o başqalarından etdiyi hərəkətin müqabilində mükafatlandırılmağı tələb edir. Deməli onun psixi həyatında başqalarına və özünəmünasibətdə yeni nəsə yarandı, hansısa keyfiyyət dəyişilmələri baş verdi. Davranışda köhnələr arxa plana keçdi və yenilər dominatlıq təşkil etməyə başladı. Bu o deməkdir ki, uşağın psixi həyatında, o cümldən psixi proseslərin strukturnda keyfiyyət dəyişilmələri baş verdi.

Nəzərə almaq lazımıdır ki, uşaqlıq insanın psixi inkiaşfının ən sürətli və dinamik dövrüdür. İnsan özünün heç bir yaş dövründə bu qədər zəngin və dəyişikliyə məruz qalan mərhələlərindən keçmir. İlk 5-6 ildə uşaq köməksiz bir varlıqdan lazımii qədər formalaşmış və bir sıra psixoloji xüsusiyyətləri mənisəmiş varlığa çevrilir. Uşağın daima irəliyə doğru hərəkəti, yeni müstəqil davranış formalarının yaranması uşağın inkişafını səciyyələndirən faktlardan hesab oluna bilər. Uşaq psixoloqları məhz bu faktlara istinad edərək uşağın psixi inkişafının mexanizmlərini şərh etməyə çalışırlar.

Eyni yaş dövründə olan uşaqların fərqli cəhətlərinə baxmayaraq hər bir yaş dövrü özünəməxsus spesifik xüsusiyyətlərə malikdir. Məsələn 3-4 aylıq cağa valideyinləri ilə yalnız emosional ünsiyyətdə olursa, artıq bir yaşında oyuncaqlarla oynamağa üstünlük verir, iki yaşdan isə danışmağa başlayır. Bu dəyişikliklər təsadüfi xarakter daşımır. Çünki bu dəyişikliklər qanunuyğun proseslərdir. Əgər bu və ya digər uşaqda bu dəyişikliklər başqa cür özünü təzahür etdirirsə, artıq biz burada müxtəlif səbəbləri olan patologiyadan və ya inkişafdan sapmalardan danışırıq.

Bütün uşaqlar özünün inkişafında psixi həyatın spesifik xüsusiyyətləri ilə səciyyələnən yaş dövrlərindən və mərhələlərindən keçirlər. Deməli uşağın psixi inkişafının qanunauyğunluqlarının öyrənilməsi uşaq psixologiyasının əsas predmetini təşkil edir. Onun əsas vəzifəsi hər bir yaş mərhələsində uşağın psixi həyatının xüsusiyyətlərini təsvir və şərh etməkdir. Məhz bu baxımdan uşaq psixologiyası yaş psixologiyasının tərkibinə daxil olan elmlərdən biridir. Ancaq yaş psixologiyası insanın bütün yaş dövrlərində baş verən psixi dəyişilmələri öyrənirsə, uşaq psixologiyası inkişafın daha erkən, intensiv və sürətli dövrü olan 0-7 yaş dövründə uşağın psixi fəaliyyətinin istiqamətlərini öyrənir.

## ƏDƏBİYYAT


1. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. B., 2000.
2. Qədirov Ə.Ə., İ.N.Məmmədov . “Yaş psixologiyası”. B., “Maarif”, 1986.
3. Quliyev E.M. Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri. B., ADPU,1995.
4. Mehdizadə Z.M. “Uşaq psixologiyası” I hissə,B., APİ 1982.
5. Mehdizadə Z.M. “Uşaq psixologiyası” II hissə,B., APİ 1982.
6. Mehdizadə Z.M. “Uşaq psixologiyası”. III hissə, B., APİ 1982.
7. Muxina V.S. Psixoloqiə doşkolğnika. M., Prosvehenie 1975.
8. Muxina V.S. Detskaə psixoloqiə. M., Prosvehenie 1985.
9. Nemov R.S Psixoloqiə (kniqa 2). M., «Vlados», 1999.
10. Nemov R.S Psixoloqiə M., Prosvehenie, 1990.



**Rəna QASIMOVA**

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***

***Ümumi psixologiya kafedrasının baş müəllimi***

**E-mail: rnqasimova@gmail.com**


# İNTELLEKTUAL İNKİŞAFDAN GERİ QALAN UŞAQLARIN İDRAK PROSESLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* klassifikasiya, oliqofren uşaqlar, idrak prosesləri

İntellektual inkişafdan geri qalan uşaqların idrak fəaliyyətinin xüsusiyyətlərinin öyrənilməsi bizə belə əsas verir ki, erkən məktəbəqədər yaş dövründə onlarda hətta, sadə idrakı funksiyalar belə formalaşmışdır.

Tədqiqatlar göstərir ki, əqli cəhətdən geri qalan saqların görmə qavrayışının ləng tempi psixi inkişafı bütövlükdə ləngidir. Oliqofren uşaqlar insanın emosional vəziyyətini qavramaqda çətinlik çəkirlər. Süjetli şəkillər, onların izahı, emosional vəziyyətin şərh edilməsi onlar üçün çətinlik yaradır. Oliqofren uşaqlarda hərəki, zaman, məkan qavrayışının özünəməxsus lənigimələri mövcuddur. Nəticədə bu ləngimələr ətraf aləmin cisim və hadisələrin düzgün qavranılmasına mane olur, bu da öz növbəsində oliqofrenlərin təlim fəaliyyətinin müvəffəqiyyətli təşkilinə imkan vermir.

Təfəkkürün konkret xarakteri – intellektual inkişafdan geri qalan uşaqların dərketmə fəaliyyətinin əsas qüsurudur.

Oliqofren uşaqların təfəkkür xüsusiyyətlərini aşağıdakı kimi izah etmək mümkündür:

- Ümumiləşdirmənin zəifliyi;
- Təfəkkürün requlyasiya funksiyasının zəifliyi;
- Fikirlərin ardıcıl olmaması;

- Təfəkkür prosesinin zəifliyi və qeyri-dinamik olması.

Intellektual inkişafdan geri qalan uşaqlarda nitqin inkişafı da ləng gedir. Belə uşaqlarda passiv və fəal lüğətin zəifliyi müşahidə edilir. Oliqofrenlərdə nitqin qrammatik quruluşu zəif inkişaf edir. Mürəkkəb cümlələr bu uşaqlarda çətinlik yaradır. Belə uşaqlar öz fikirlərini izah etmək üçün sözlərdən istifadə etməyə çətinlik çəkirlər.

Apardığımız müşahidə və yoxlamalara əsasən xüsusi məktəb təcrübəsi nəticəsində bir qrup metodistlərin (S.A.Zikev, A.İ.Levina, V.İ.Beltyukov və b.) fikri ilə razılaşmaq olar. Xüsusi məktəb şagirdlərinin nitqini inkişaf etdirmək, onların nitqini başa düşmək və fikrini başqasına anlatmaq bacarıq və vərdişlərini aşılamaq işin birinci cəhəti olmalıdır. Oxu, diaktil vasitəsi və yazı məsələsi ikinci plana çəkilə bilər.

İntellektual inkişafdan geri qalan uşaqlar şifahi nitqin dinlənilməsindç çətinlik çəkir. Bu zaman nitq prosesi bir qədər dəyişir. Şifahi nitq eşitmə analizatoru vasitəsilə aparılır, oxu görsə və yaddaş fəaliyyəti olur.

Prof. A.S Zıkov oxunun psixoloqu cəhətindən danışaraq yazır ki, mətnin dərk edilməsi onun qavranması keyfiyyətindən asılıdır. Qavramada olan səhvlər, məsələn, formaca oxşar sözlər işlədilməsi, sözlərin düzgün oxunması mənanın düzgün başa düşülməsi isə söz formasının və s. yanlış qavranılmasına səbəb olur.

Oliqofren uşaqlarda yeni şərti əlaqələrin formalaşmasının və dəyişkənliyinin ləngliyi müşahidə olunur.

Tədqiqatlar göstərir ki, oliqofrenlər hər bir yeniliyi ləng mənimsəyirlər, qavranıan materialı tez yaddan çıxarırlar və əldə edilən bilik və bacarıqlardan vaxtında istifadə edə birmirlər (X.S.Zamski). Baş beyin qabığının bağlayıcı funksiyasının zəifliyi, yeni şərti əlaqələrin formalaşma tempinin zəifliyi və az həcmi özünü büruzə verir. Daxili fəal tormozlaşmanın zəifliyi, dərs materialının yadasalma prosesləri bu uşaqlarda fərqlənir və qeyri-dəqiq olur.

Təfəkküürn zəifliyindən irəli gələn əlaqələrin zəifliyi, hafizənin keyfiyyətini kəskin zəiflədir. İradi hafizənin pozulmasının 2 səbəbi var:

1. Əgər uşaq hansına bir psixi əməliyyatı müstəqil intellektual fəaliyyət kimi mənimsəyibsə;

2. Əgər uşaq onun mümkün olan intellektual əməliyyatı yadda saxlamaq məqsədi ilə işlədə bilmirsə.

Məsələn, uşaqlar klassifikasiya əməliyyatını müstəqil halda mənimsəmədiklərindən, onlar bu priyomu yadda saxlamaq üçün işlədə bilmirlər. Bundan əlavə assosiasiya və vasitə ilə ifadə olunmuş yaddaş da ziyan çəkir.

Oliqofren uşaqlarda məqsədyönlü əzbərləmənin və yadasalmanın qeyri-mümkünlüyü xarakterikdir. Xüsusi məktəb şagirdlərinin məqsədyönlü fəaliyyətinin zəifliyi əzbərlənən materialın yadasalınmasının zəifliyi ilə büruzə verilir.

Mənaca yaddasaxlamanı inkişaf etdirmək üçün əvvəlcə uşaqlara klassifikasiya priyomları, sonra isə əks əməliyyat, yəni ümumi anlayışa konkret anlayışlar seçmək qabiliyyəti öyrədilməlidir.

Oliqofren uşaqların diqqəti də zəif inkişaf edir.

Diqqətin qeyri-kafi olmasının əsas əlamətləri aşağıdakılardan ibarətdir:

- Dəyişkənlik;
- Yüksək yayınıqlıq;
- Obyekt üzərində mərkəzləşməməsi.

Diqqətin qeyri-sabitliyi bu tipli uşaqlarda qavrama prosesinə də mənfi təsir göstərir.

Yuxarıda deyilənləri nəzərə alsaq, intellektual inkişafdan geri qalan uşaqların idrak proseslərini inkişaf etdirmək mütəxəssislərinin qarşısında duran önəmli vəzifələrdən biri olmalıdır.

İ.P.Pavlov göstərir ki, həmişə sükunətdə olan təsirə düşməyən heç bir şey yoxdur. Lazımi şərait yaratmaqla istənilən yaxşı nəticə almaq mümkündür.

Əqli inkişafdakı qüsuru olan uşağın düzgün öyrənilməsi və vaxtında məqsədəuyğun təlim-tərbiyə müəssisəsinə gətirilməsi, onu daha da hərtərəfli öyrənməyə, sonradan çatışmazlıqları müəyyən qədər aradan qaldırmağa daha geniş imkan verir.

ƏDƏBİYYAT

1. Qasımov S. Xüsusi məktəblərdə ana dilinin tədrisi metodikası. – Bakı: 2002.
2. Hüseynova N.T., Aslanova S.R. Xüsusi psixologiya. - Bakı: 2018, I cild.
3. Рубинштейн С.Я. Психология умственного отсталого школьника. - Москва: 1986.

**Rəna QASIMOVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: rnqasimova@gmail.com**

## YETKiNLİK YAŞINA ÇATMAYAN UŞAQLARDA OLAN DAVRANIŞ POZUNTULARI VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI

*Açar sözlər:* deviant davranış, assosiallıq, korreksiya

Bu gün cəmiyyətimizdə baş verən dəyişikliklər, bir sıra problemləri gündəmə gətirir Bu problemlərdən biri də yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntusu və onun korreksiyasıdır. Davranış pozuntularının səbəbi kimi çox zaman siyasi, sosial, iqtisadi və ekoloji qeyri-sabit cəmiyyət,

ailə-məişət problemləri, davranış üzərində nəzarətin olmaması, valideynlərin həddindən artıq məşğul olması, boşanmaların çoxalması göstərilir.

Yetkinlik yaşına çatmayan davranış pozuntusu olan uşaqların narahatedici simptomları assosial konfliktli və aqressiv davranışlarda, destruktiv hərəkətlərdə, təlimə marağın olmamasında və s.-də özünü göstərir. Davranış pozuntusuna səbəb kimi valideyn və müəllimlərin uyğunsuzluğu, valideynlərin öz övladlarına səhv yanaşmağını, onları düzgün tərbiyə etməməyini və s. bu kimi amilləri göstərmək olar.

Deviant davranışın xüsusiyyətləri ilə əlaqədar xarici ölkə psixologiyasında müəyyən tədqiqat işləri, kitab və məqalələr mövcuddur. Bunlara Amerika və Qərbi Avropa alimlərindən Jan Piaje, Melvin Rouz və başqalarıinn tədiqqatlarını göstərmək olar.

Rusiya alimlərinin tədiqqatlarında da davranış pozuntusu fenomen kimi tədqiq olunur (S.A.Beliçeva, A.S.Belkin, N.V.Vasilyeva, E.L.Qriqorenko, L.M.Zurbin və b.).

Azərbaycan psixologiyası elmində deviant davranışın psixoloji xüsusiyyətləri A.İbrahimov, H.Xəlilov və b. tədqiqatlarında araşdırılır.

Psixo-pedaqoji tədqiqatlar göstərmişdir ki, yetkinlik yaşına çatmayan bir çox uşaqların müxtəlif problem və çətinlikləri olur. Bu problem və çətinliklər içərisində davranış pozuntusu və ya deviant davranış aparıcı yeri tutur.

Psixiatrik ədəbiyyatlara əsasən, davranış özünü aparmanın psixi və fiziki qaydasıdır. Bununla bağlı deviant davranışa təkrarlanmış dayanıqlı hərəkətlər və davranışlar kimi baxılır və əsasən qeyri-sabit davranışın aqressiv və destruktiv hərəkətlərini özündə ehtiva edir.

Yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntusunun əsas diaqnostik meyarları oğurluq, evdən qaçma, yalan söyləmə, dərsdən yayınma halları, vandalizm, insanlara hücum, başqalarının əmlakına ziyan yetirmək, fiziki və seksual zorakılıq, insanlara və heyvanlara qarşı qəddarlıq hesab olunur.

Psixoloji ədəbiyyatda deviant davranışın qeyri-patoloji və patoloji növlərini ayırd edirlər. Qeyri-patoloji deviant davranış – sağlam insani davranışında olan psixi pozuntudur. Deviant davranışın patoloji forması – şəxsiyyətin patologiyası ilə bağlı olub, uşaq və yeniyetmə psixiatriyasında daha çox rast gəlinən problemdir.

Yetkinlik yaşına çatmayan uşaqlarda davranış pozuntularına təsir edən sosial-psixoloji amillər aşağıdakılardır: iradəsizlik, inadkarlıq, vahimə, qorxu, həyəcan və s.

Tədqiqatlar göstərir ki, davranış pozuntusu olan məktəblilər assosiallığı ilə fərqlənir. Həmin uşaqlarda introvertlik, qapalılıq müşahidə olunur.

Yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntularını aradan qaldırmaq üçün aşağıdakı müxtəlif üsul və vasitələrdən istifadə olunmalıdır: onlarda adekvat özünüqiymətləndirmənin formalaşmasına nail olmaq; öz qabiliyyət, şəxsi keyfiyyətlərini dərk etməyə imkan yaratmaq; stress və

aqressivliyin səbəblərini müəyyənləşdirilib, müəyyən tədbirlər görmək; uşaqlarda olan fobiyaların səbəblərini aradan qaldırmaq.

Yuxarıda deyilənləri nəzərə alaraq valideyn və müəllimlər yetkinlik yaşına çatmayan uşaqlarda olan deviant davranışı aradan qaldırmaq üçün bütün səylərini göstərməlidirlər.

ƏDƏBİYYAT

1. Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. – Bakı: Şərq-Qərb, 2012.
2. "Yansıtma" jurnalı. № 4, 2005.
3. Беличева С.А. Основы превентивной психологии. М.: 1993.

**Kifayət ƏHMƏDOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun***
***Pedaqogika və psixologiya kafedrasının baş müəllimi***
**E-mail: kifayet.ehmedova11@gmail.com**

## AİLƏ MÜHİTİ, UŞAQLARIN TƏRBİYƏSİ VƏ QARŞILIQLI HÖRMƏT

*Açar sözlər:* ailə, uşaq, tərbiyə, mühit

Cəmiyyətimizdə ailənin böyük rolu vardır.Cəmiyyətin sosial strukturu özündə yalnız bir-biri ilə qarşılıqlı əlaqədə olan sosial qrupları deyil, həm də sosial institutları və onlar arasındakı münasibətləri də əks etdirir.Sosial institut dedikdə, cəmiyyətdə müəyyən funksiyaları yerinə yetirən insanların birgə fəaliyyətinin təşkilinin tarixən formalaşmış dayanıqlı formaları başa düşülür. Ailə belə vacib sosial institut formalarından biridir və o, bəşər cəmiyyətinin formalaşması gedişində meydana gəlmiş və onunla birgə inkişaf etmişdir.Ailə ər-arvad cütlüyünü və onların övladlarını özündə birləşdirən cəmiyyətin sosial birliyinin ilkin formalarından biridir. Bir qayda olaraq yaxşı, səmimi ailənin üzvləri əməksevər, insanpərvər, öz vəzifələrini ləyaqətli yerinə yetirən adamlar olurlar. Beləliklə, ailə cəmiyyəti son nəticədə yüksək əmək məhsuldarlığına kömək edən amildir.Təbiətin insanlara bəxş etdiyi nemətlərdən, səadətlərdən biri də dünyaya övlad gətirmək, valideyn olmaqdır. Lakin iş bununla bitmir. Ailənin cəmiyyətimiz üçün yeni insan tərbiyə etməkdə xüsusilə böyük əhəmiyyəti vardır. Əlbəttə, burada məsələ ailənin təkcə cəmiyyət üçün yeni üzvlər böyütməsi və onun fiziki inkişafı qayğısına qalmasından ibarət deyildir.

Uşaqlar cəmiyyətdə yalnız demoqrafik kateqoriya, yəni yaşca kiçik, böyüməkdə olan nəsil deyil, həm də sosiallaşma prosesində ictimai münasibətlərə daxil olan xüsusi sosial qrupdur.

Uşağı dünyaya gətirməklə və onu yedirib-içirib ərsəyə çatdırmaqla valideynin işi bitmir. Ən başlıca məsələ uşağı düzgün tərbiyə etməkdir. Ailə münasibətlərinin xarakteri uşaqların təlim-tərbiyəsinə də həlledici təsir göstərir. Böyük sovet pedaqoqu A.S.Makarenko valideynlərə müraciət edərək göstərirdi ki, uşaqları tərbiyə etmək həyatınızın mühüm sahəsidir. Bizim uşaqlar ölkəmizin və dünyanın gələcək vətəndaşlarıdır. Uşaqlarımız böyüyüb gözəl vətəndaş, yaxşı ata və ana olmalıdırlar. Valideynlər həmişə tərbiyə işinin böyük əhəmiyyətini və bu iş üçün daşıdıqları böyük məsuliyyəti yadda saxlamalıdırlar. Elə buna görə də A.S.Makarenko valideynlərə müraciətlə deyirdi ki, siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız öz sevinciniz üçün tərbiyə etmirsiniz. Sizin ailənizdə və sizin rəhbərliyiniz altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir.

Ailə işlərini ictimai işlərdən ayırmaq olmaz. Valideyinlərin cəmiyyətdə, işdəki fəallığı ailədə də öz əksini tapmalı, hiss olunmalıdır. Ailə başçısının vətəndaşlıq siması onun ailəsində də görünməlidir. Cəmiyyətimizdə baş verən yenilik, hər bir nailiyyət ailə başçısının fikir və hissi ilə ailəyə də çatmalıdır. Ailə üzvləri ailə başçısının nailiyyətləri, cəmiyyət qarşısındakı xidmətləri ilə fəxr edirlərsə, ailə başçısı öz borcunu ləyaqətlə yerinə yetirir. Ailə başçısı ailəyə xəyanətə yol verməməklə ailənin səmimiyyətini qorumağa, uşaqların düzgün tərbiyəsi üçün zəruri olan sağlam məişət yaratmağa məcburdur. Öz-özündən aydındır ki, ailə qarşısında öz borcunu yerinə yetirməyən, zərərli adətlərə, xəyanətə yol verən, birinci növbədə öz ehtiyaclarını ödəməyin qayğısına qalan, evdə dava-dalaş salan adam inkişaf etməkdə olan gələcək nəsil üçün düzgün nümunə sayılmır. Ugursuz həyat tərzi uşaqlar üçün davamlı vərdişlərin və stereotiplərin mənbəyi kimi sonralar dəf edilməsi xeyli çətin olan fərdi davranış üslubuna çevrilir.Belə ki, yetkinləşən övladların öz valideynlərinin davranış stereotiplərini təkrarlaması və ya çox zaman buna uygun hərəkət etmələri bir qayda olaraq, ailədaxili konfliktlərin mənbəyinə çevrilir.Övladına diqqət və qayğı göstərməyi bacarmayan, emosional, mənfi təmayüllü həyat tərzi keçirərək ardıcıl səhvlərə yol verən valideynlər bunun ağrı-acısını öz övladlarının timsalında çəkməli olurlar. Təsadüfi deyil ki, insanların qarşısında yaxşı işləmək, oxumaqla bərabər, özünün ailə qarşısındakı vəzifələrini nümunəvi yerinə yetirmək tələbi də qoyulur. Çünki, yalnız ailə qarşısında öz borcunu ləyaqətlə yerinə yetirən valideynlər cəmiyyət üçün faydalı adamlar tərbiyə edə bilərlər.

Müasir ailə, müasir sosial- iqtisadi münasibətlər sistemi müqayisəyə gəlməyəcək dərəcədə inkişaf etmiş və xeyli mürəkkəbləşmişdir.Kiçik yaşlarından uşaqlara elə bir fikir aşılamaq lazımdır ki hər bir uşaq öz əməyinin cəmiyyətin əsas vəzifələri ilə bağlı olduğunu bilməli,cəmiyyətin xeyrinə olan sərvətlərin qoruyucusu olmalıdır.Belə olduqda, o, yalnız öz ailəsi,məktəbi vəya kəndi miqyasında düşünməyi deyil,habelə öz müvəffəqiyyətini, öz vəzifəsini və nöqsanlarını dövlət və ümumxalq nöqteyi-nəzərindən qiymətləndirməyi də bacarar.Bu zaman uşaqlar şəxsi naliyyətlərini artırmaq üçün ciddi səy göstərər, qüsurlarını aradan qaldırmağa çalışar, işgüzar və təşəbbüskar olar.Belə uşaqlar insan əməyi ilə yaranan hər şeyə qayğı göstərər,təbii sərvətlərin qədrini bilərlər.

Ailə dedikdə biz yalnız valideynləri deyil, həm də uşaqları nəzərdə tuturuq. Artıq təcrübədə çoxdan sübut olunmuşdur ki, ailənin cəmiyyəti təkcə valideynlərdən deyil, övladlardan da asılıdır. Ona görə də ailənin tərbiyə sahəsindəki işlərindən danışarkən övladın da borclarını xüsusi olaraq qeyd etmək lazımdır.

Hər bir insan öz varlığı, həyatı üçün birinci növbədə öz valideynlərinə borclu olur. Valideyn övlada həyat vermək və bu həyatı qorumaq üçün öz həyatının ən şirin, ən səmərəli vaxtlarını ona sərf edir. Valideyn gecələrini yuxusuz keçirmək, çox vaxt özünü könlü istəyən dünya nemətlərindən məhrum etməklə övladını böyüdür. İnsan üçün dünyada ən yaxın, ən mehriban, ən əziz şəxs anadır. Analıq-yüksək sosial sərvətdir, insan nəslinin davam etdirilməsinə yönəlmiş təbii tələbat, qadının ən böyük qismətidir. Fiziki cəhətdən sağlam, mənəvi cəhətdən saf və zəngin uşaqlar böyütmək, onlara əməksevərlik, vətənpərvərlik aşılamaq analığın böyük vəzifəsidir. Ana nəciblik, təmənnasızlıq, dözümlülük və müdriklik mücəssəməsidir. O öz övladını bircə saatlıq əzabdan qurtarmaq üçün bir illik şadlığını verməyə, övladını bəladan xilas etmək üçün öz həyatından keçməyə belə hazırdır. Bu haqda nə qədər rəvayət və əfsanələr vardır. Ana və ata, dövlət, xalq qarşısındakı əmək vəzifələrini yerinə yetirərkən bir an belə öz övladını unutmur. Onları övladın şadlığı on qat artıq şadlandırır. Övladının dərdi onu hədsiz dərəcədə kədərləndirir. Övladına olan qayğı, məhəbbət namuslu ana və atanı heç vaxt tərk etmir. Təsadüfi deyil ki, bizdə çox uşaq böyütmüş analara qəhrəman ana adı verilir. Çünki həqiqətən ananın əməyi qəhrəmanlıq nümunəsidir. Ona görə də hər bir övlad öz ana və atası qarşısında bütün həyatı boyu borcludur. Heç bir xidmət, ana və ataya olan borcun əvəzi ola bilməz.

## ƏDƏBİYYAT

1. Əfəndiyev, T. Əxlaq necə yaranmışdır / T.Əfəndiyev – Bakı: Azərnəşr, – 1965. – 95 s.
2. Çələbiyev, N. Z. Ailə psixologiyası / N.Z. Çələbiyev. - Bakı: Mütərcim,- 2015. - 424 s.
3. Əlizadə, Ə.Ə. Abbasov, A.H. Ailə / Ə. Ə. Əlizadə, A.H. Abbasov. - Bakı: Maarif nəşriyyatı, 1986. - 276 s.

**Ayxan HÜSEYNLİ**
***doktorant,***
***Naxçıvan Müəllimlər İnstitutunun müəllimi***
**E-mail: aykhanhuseyn99@gmail.com**

## Kiçikyaşlı dizartriyalı uşaqlarda nitqi qüsurların yaranma səbəbləri

*Açar sözlər:* Dizartriya, məktəbəqədər təhsil, nitq inkişafı, qüsurlu tələffüz, nitqin pozulması, nitqin patalogiyası

Azərbaycanda uğurla həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə şəxsiyyətin formalaşması cəmiyyətin ictimai sosial-iqtisadi və siyasi inkişafı baxımından yüksək dəyərləndirilir.

Azərbaycan Respublikasında şəxsiyyətin sağlamlığı, psixi inkişafı, intellektual inkişafı, təlim-tərbiyəsi dövlətin xüsusi diqqət yetirdiyi məsələlərdən birinə çevrilmişdir. Təsadüfi deyil ki, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nun 18.1. maddəsində yazılır: "Məktəbəqədər təhsil, təhsilin ilk pilləsi olmaqla, ailənin və cəmiyyətin maraqlarına uyğun olaraq, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətin formalaşmasını təmin edir". Göründüyü kimi, məktəbəqədər yaşlı uşaqların psixi inkişafı problemi yalnız valideynlərin və tərbiyəçilərin işi deyil, bütövlükdə cəmiyyətin əsas vəzifəsidir. Bu vəzifələrin həlli həm də ona görə zəruri sayılır ki, məktəbəqədər yaş dövrlərində uşaqlarda özünü göstərən çatışmazlıqlarının, o cümlədən nitq qüsurlarının aradan qaldırılması onların məktəbə hazırlanması işini asanlaşdırır. Bunun üçün məktəbəqədər yaş dövrlərində özünü göstərən nitq qüsurlarının məqsədyönlü, planlı və mütəşəkkil olaraq islah olunması belə uşaqların məktəbəhazırlıq işlərini təmin etmiş olur.

Bütün sahələrdə qloballaşmanın, elmlərə təcrübi müddəaların bir-birinə inteqrasiyası tərbiyə problemini o yerə gətirib çıxarıb ki, müasir insanın zamanla

ayaqlaşa bilməsi, yaşadığı cəmiyyətin, dövrün faydalı insanı olması üçün kompleks tərbiyələnməsi vacib məsələlərdən biridir.

İnkişafda olan cəmiyyətdə şəxsiyyət və onun mənəvi keyfiyyətləri təhsili, mədəniyyəti qarşısında qoyulmuş tələblər müntəzəm sürətdə artır. Gənc nəslin formalaşmasına təsir göstərən, onların düşüncələrini zənginləşdirən amillərin sayının getdikcə artmasına gətirib çıxarır.

Nitq insanın ən vacib psixi funksiyalarından biridir. Nitq danışanın şəxsiyyətyönümlü inkişafında mühüm rol oynayır.

Məktəbəqədər dövrdə özünü göstərən nitq qüsurları dizartriya kimi qiymətləndirilir. Bir neçə səbəbdən yaranan dizartriya ünsürləri məktəbəqədər yaşlı uşaqlarda ilk növbədə nitq inkişafını ləngitmiş olur. Təcrübə və müşahidələr göstərir ki, məktəbəqədər yaş dövründən etibarən uşaqlarda dizartriya əlamətlərinin məqsədyönlü şəkildə müəyyənləşdirilmədiyi üçün belə uşaqların məktəb təhsilindən yayınmalarına səbəb olur. Bunları nəzərə alaraq, məktəbəqədər yaş dövrlərindən etibarən dizartriyalı uşaqların nitq qüsurlarının müəyyənləşdirilməsi və onların aradan qaldırılmasını, bir aktual problem kimi işlənilməsini məqsədəmüvafiq hesab etmişik. Bunun üçün ilk növbədə məktəbəqədər yaş dövründən etibarən dizartriyalı uşaqlarla korreksiya işlərini başlamaq lazımdır. Ona görə ki, dizartriya problemi loqopediya nəzəriyyə və təcrübəsində ən mürəkkəb problemlərdən biridir. Məktəbəqədər yaş dövründə, bu nitq qüsuru kommunikativ bacarıqların aşılanmasını çətinləşdirir, şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir. Dizartriya bəzən özünü daha çox, bəzən isə nisbətən az büruzə verə bilər.

Dizartriyanın müxtəlifliyi, xüsusiyyətlərinin dəyişkən olması korreksiyaedici təlim zamanı çətinliklər yaradır. Məktəbəqədər yaşda dizartriyanın daxili psixi əsası hələ formalaşmadığından korreksiya işinin metodikalarının da müəyyənləşdirilməsində çətinliklər özünü göstərir.

Təcrübə və müşahidələr göstərir ki, korreksiyaedici məşğələlərə başladıqdan sonra, bir çox dizartriyalı uşaqların nitqi kifayət qədər yaxşılaşır. Ona görə də, korreksiya işlərinə qədər dizartriyalı uşaqları ciddi şəkildə müşahidə etmək lazımdır. Doğrudur, uşaq nitqə yiyələnməklə ətraf aləmin ümumiləşdirilmiş gerçəkliyini, qavramağı öz fikir və fəaliyyətlərini düzgün planlaşdırmağı çox sevir. Lakin nitq pozğunluqları bunlara mane olur.

Nitqin pozulması uşağın həm əqli, həm psixi inkişafında müəyyən çətinliklər törədir. “Düzgün və səlis nitqin olmaması uşaqları utancaq, özünə qapanmış, aqressiv edir. Belə uşaq özünü çox narahat hiss edir.

Bu sahədə, tədqiqat aparan V.İ.Broka, L.İ.Vemike., İ.P.Pavlov öz əsərlərində dizartriyalı uşaqların sinir sisteminin vəziyyətinin nəzərə alınmaması ucbatından, nitq qüsurlarının öyrənilməsini çətinləşdirən səbəblərin nəzərə alınmasını həmişə tövsiyə etmişlər. Çünki, həm doğuş zamanı, həm müxtəlif xəstəliklər nəticəsində sinir sisteminin zədələnməsi dizartriya ünsürlərinin yaranmasına səbəb olur.

Bu sahədə, tədqiqat aparanlardan B.M.Qext göstərir ki, beynin göstərilən sahələri, yalnız nitq fəaliyyəti ilə əlaqədar olan beyinin müxtəlif sahələrinin çoxsaylı əlaqələrinin yerləridir ki, buna görə də onların zədələnməsi kobud nitq qüsurlarına gətirib çıxarır.

Əzələlərin kobud zədələnməsi sinir sisteminin periferik hissəsində qüsurlar yaradır. Yaxud, döş qəfəsinin əzələlərini sinir toxumları ilə təmin edən tərəflərinin zədələnməsi nəticəsində, dizartriya və anartriya kimi ağır nitq qüsurları yaranır. Yaranan belə qüsurlar nəzərə alınmadıqda, onların korreksiyası da çətinləşir.

Nəzərə almaq lazımdır ki, Azərbaycanda Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında inkluziv təhsilin yeni məzmununun yaradılması bu sahədə görülən işlərin aktuallığını artırmış olur. Dizartriyalı uşaqlarla aparılan işlərin məktəbəqədər yaş dövrlərindən başlanılması onların məktəbə hazırlıq işlərinin aktuallığını artırmış olur.

Yeni metodların tətbiqi və psixi inkişaf qanunauyğunluqlarının nəzərə alınması fonunda uşağın psixi inkişafı istiqamətləndirilə və cəmiyyətə gərəkli insan kimi formalaşdırıla bilər. Bu baxımdan, problem müasir dövr üçün olduqca aktualdır.

Aparılmış tədqiqatlar göstərir ki, uşağın sağlam böyüməsi ilk növbədə ailədən, ailə daxili münasibətlərin düzgün qurulmasından, bu münasibətlərin möhkəmliyindən asılıdır. Uşaqların inkişaf və tərbiyəsində əsas sosial institut olan ailənin funksiyası hazırda getdikcə inkişaf etməkdə olduğu halda, bəzi amillərin təsiri bu dinamik inkişafın qarşısında sədd çəkir.

Son onilliklərdə qloballaşmanın yaratdığı bir sıra demokratik amillərin təsiri nəticəsində, ailənin zəifləməsi prosesi gedir. Valideyn itkisi, boşanma, xəstəlik kimi hadisələr uşaqların psixikasına pis təsir edir. Bu kimi amillərin yaratdığı sosial şəraitdə uşaqların ünsiyyət təlabatının ödənilməməsinin nəticəsidir ki, məktəbəqədər yaşlı uşaqlar və kiçikyaşlı məktəblilər arasında zəif psixikaya malik olan uşaqların sayı artmaqdadır.

Bu sahələrdəki problemlərin aradan qaldırılması, təhsil müəssisələri ilə ailənin qarşılıqlı münasibətlərinin düzgün tənzimlənməsi, uşaqların psixi inkişafında əlverişli nəticələr əldə etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Təcrübə və müşahidələr göstərir ki, məktəbəqədər yaş dövründən etibarən uşaqlarda nitq qüsurları ilk müraciət formalarında, fonetik yanaşmalarında və üsniyyətə girmə məqamlarında daha çox müşahidə edilir. Hansı ki, həmin müşahidə faktlarını vaxtında qeydə almaqla, dizartriyalı uşaqlara məqsədyönlü şəkildə təsir göstərmək mümkündür. Təsir göstərmək deyəndə, dizartriya ünsürlərinin müşahidə amillərini qurplaşdırmaqla, həmin amillərə qarşı məqsədyönlü, planlı, mütəşəkkil işlərin aparılması nəzərdə tutulur. Əsasən, 3 yaşlı uşaqlarda müşahidə edilən dizartriya ünsürləri, bütün məktəbəqədər dövr ərzində onları narahat edir, bu narahatçılıq isə onların nevroloji xəstəliklərə düçar olmasına yol açır. Unutmaq olmaz ki, nitq prosesi hər şeydən əvvəl,

fizioloji-psixoloji prosesdir. 3 yaşlı uşaqlar sərbəst danışmağa can atarkən, dizartriya ünsürləri səbəbindən, onlarda ilkin nitq qüsurları özünü bariz şəkildə göstərməyə başlayır. Yenicə ünsiyyətə girən belə uşaqlar, dizartriya amilləri səbəbindən çətinliklə danışır, həm saitlərin, həm də samitlərin tələfüzündə ciddi qüsurlara yol verirlər. Belə məqamlarda isə, ətraf mühitdə duyduqlarını yaxşı qavrasalar da, onları hafizələrində saxlamağa müvəffəq olur, lakin təfəkkür süzgəcindən keçirərək, nitq vasitəsilə ifadə etməkdə çətinlik çəkirlər. Bu zaman, onların ali sinir sistemində gərginlik yaranır. Belə gərginlik, onların əsəb sisteminin pozulmasına səbəb olur. Əsəbilik halları isə dizartriya ünsürlərinin çoxalmasına yol açır.

Beləliklə, dizartriyanın ilkin yaranması səbəbindən nitq qüsurlarının həm formasında, həm də məzmununda patologiyalar yaranır. Ətraf mühitlə ünsiyyət saxlamağa can atan, ailə üzvləri ilə, valideynləri ilə danışmağa, ünsiyyət saxlamağa cəhd göstərən belə uşaqların arzuları ürəyində qalır. Unutmaq olmaz ki, nitq insanın ilkin ünsiyyət vasitəsi olmaqla, onun cəmiyyətə adaptasiya vasitəsi kimi bənzərsiz rola malikdir.

## ƏDƏBİYYAT

1.Dostuzadə D.Ə. Dizartriya. Dərslik. /D.Ə.Dostuzadə, F.B.Sadıqov – Bakı: ADPU, - 2017. – 206 s.
2.Əlizadə H.Ə. Tərbiyənin demokratik problemləri / H.Ə.Əlizadə - Bakı: Maarif, - 1993. - 232 s.
3.Kazımov N.M. Pedaqogika / N.M.Kazımov, Ə.S.Haşımov - Bakı: Maarif, - 1996. - 373 s.
4.Sadıqov F.B. Korreksiya pedaqogikasına giriş / F.B.Sadıqov - Bakı: ADPU, - 2017. – 199 s.
5.Sadıqov F.B. Korreksiya pedaqogikası / F.B.Sadıqov - Bakı: Maarif, - 2018. – 300 s.

**Sülhanə BƏŞİROVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Xüsusi təhsil kafedrasının müəllimi***
**E-mail: Sulhanebesirova17@gmail.com**

# EŞİTMƏ POZULMALARI OLAN UŞAQLARDA TEXNİKİ TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASI

*Açar sözlər:* eşitmə pozulmaları,texniki təfəkkür,Bennet metodikası,texniki inkişaf.

Müasir dövrümüzdə elm və texnologiyanın sürətli inkişafı İnformasiya Kommunikasiya Texnologiyalarının(İKT)həyatımızın bütün sahələrinə sirayət etməsinə səbəb olmuşdur. İKT vasitələrindən isifadənin bir sira müsbət tərəfləri vardir:informasiya aləminə qoşulmaq,asan yolla məlumat əldə etmək,informasiya mübadiləsi qurmaq və s. Bu vasitələrdən düzgün istifadə işimizi asanlaşdırır, həmçinin işimizin keyfiyyətini yüksəldir. Psixi və fiziki inkişafı normada olan şəxslər üçün informasiya vasitələrindən istifadə etmək, onların iş prinsipini bilmək çox asandır.Ancaq sağlamlıq imkanları məhdud şəxslər və onların daxilində xüsusi bir kateqoriyanı təşkil edən eşitmə pozulmaları olan uşaqlar üçün bu heç də asan bir proses deyildir.

**Eşitmə**-səslərin insan tərəfindən fərqləndirilməsi,qavranılması və həqiqətin səslənmə formasında əks olunması qabiliyyətidir.Eşitmə pozulmaları olan şəxslər iki qrupa ayrılır: 1.Eşitməsini tam itirənlər(karlar) və 2. Zəif eşidənlər.

Son dövrlərdə bu şəxslərin təliminin səviyyəsini yüksəltmək,idrak proseslərini,dərketmə fəaliyyətini xüsusilə, texniki təfəkkürünü formalaşdırmaq üçün bir sira yeni metodikalar işlənib hazırlanmışdır.Bu metodikalardan bir neçəsinə qisaca nəzər salaq:

1. LEQO DAKTA konstruktoru
2. Bennet metodikası -Texniki təfəkkürün diaqnostikası,formalaşdırılması və inkişafı.
3. İnformasiya Komunikasiya Texnologiyaları.

LEQO DAKTA konstruktoru eşitmə pozulmaları olan şəxslərin texniki təfəkkürünün inkişafında xüsusi rol oynayır. Sözügedən konstruktor müxtəlif rəngli,ölçülü və həcmli, parlaq detallardan ibarətdir.Bu konstruktorun elementlerindən istifadə etməklə müxtəlif kompozisiyalar düzəltmək mümkündür ki,bu da eşitmə pozulmaları olan şəxslərin intellektinin,təfəkkür proseslərinin,texniki təfəkkürünün inkişafına imkan yaradır. LEQO dəstləri inkişaf pozulmaları olan,xüsusilə də kar və zəif eşidən yuxarı məktəbəqədər yaşlı və kiçik məktəb yaşlı uşaqların istifadəsi üçün çox əlverişlidir. Bu konstruktorun detallarının parlaq, çox rəngli, həcmcə böyük,bir-birindən

formaca fərqli olması uşaqlara bu hissələrdən daha çox və müxtəlif əşyalar düzəltmək imkanı verdiyindən onların böyük marağına səbəb olur. LEQO konstruktor dəstinin ən müsbət xüsusiyyətlərindən biri odur ki, o kar və zəif eşidən kiçik yaşlı uşaqların idrak fəaliyyətini aktivləşdirir,yaradıcı-məhsuldar fəaliyyətini formalaşdırır,korreksiya-öyrədici təlimin imkanlarını daha da genişləndirir. Onun köməyi ilə çətin təlim vəzifələri maraqlı,əyləncəli,yaradıcı oyun vasitəsi ilə həll edilir.

BENNET metodikası-Texniki təfəkkürün diaqnostikası (ilkin səviyyə),formalaşdırılması və inkişafına dəlalət edir.Bu metodikaya 70 sual daxil edilmişdir.

Bu metodika kar və zəif eşidən uşaqların texniki təfəkkürünün inkişaf səviyyəsini qiymətləndirməyə,o cümlədən onların çertyojları oxuya bilməsini,texniki qurğuların sxemlərindən,onların işlənmə prinsiplərindən məlumatlı olmaq,sadə fiziki-texniki məsələləri həll edə bilmələrini müəyyənləşdirməyə istiqamətlənmişdir.

Bu testdə sınaqdan keçirilənlərə müvafiq tapşırıqlarla müşaiət edilən 70 ədəd texniki rəsm və onların mümkün həll variantları təklif edilir.Sınaqdan olunanların vəzifəsi hər bir şəkildə təsvir edilmiş məsələyə dair düzgün həlli tapmaqdan ibarətdir.Bütövlükdə test üzərində işləmək üçün 25 dəqiqə vaxt müəyyən edilir.Davamında nömrələri 1-dən 70-ə qədər olan tapşırıqlar,şəkillər və onlara müvafiq suallar verilir. Hər bir sualın altında ona mümkün cavablar qismində üç variant təklif edilir.Bu cavablardan yalnız biri düzdür.Sınaqdan keçirilənlər doğru cavabı tapmalı və onu göstərməlidirlər. Testlər əsasən 10-13 yaşlarından başlayaraq 16-18 yaşa qədər kar və zəif eşidən uşaqlar arasında,kiçik qruplarla 6-8 nəfər arasında aparılmışdır. Daha kiçikyaşlı uşaqlarla isə fərdi olaraq tədbiq olunmuşdur.

İKT-nin əhəmiyyəti:

- Kar və zəif eşidən uşaqlarda fərdi təlim imkanları yaradır ;
- Müstəqil informasiya almaq,onu təhlil etmək bacarıqları formalaşdırır ;
- Verilmiş məsələlərin həlli idrak proseslərinin inkişafını şərtləndirir;
- Həyatda rastlaşmadığı situasiyaları kompüterdə modelləşdirməyə imkan verir ;
- Kar və zəif eşidən uşaqlarda yaradıcı və texniki təfəkkürü inkişaf etdirir.

Xüsusi məktəblərin proqramlarında kar və zəif eşidən uşaqlarda texniki təfəkkürün formalaşdırılması və inkişafı üzrə iş 3 mərhələdə həyata keçirilir.

*I mərhələ:* I-IV sinifləri əhatə edir.

İlkin məqsədlər:

- İdrak fəaliyyətinin fəallaşdırılması;
- Sözlü ünsiyyətə qoşulma;
- Əməyə marağın və əmək bacarıqlarının formalaşdırılması;
- Özünə inamın və şəxsiyyət keyfiyyətlərinin formalaşdırılması.

*II mərhələ:* IV-IX sinifləri əhatə edir.

- Korreksiya-tərbiyə işi davam etdirilir;

- İdrak proseslərinin inkişafı və korreksiyası ardıcıl və sistemli şəkildə tətbiq edilir;
- Yaradıcı və texniki təfəkkürün inkişafına yönəlmiş kompleks tədbirlər həyata keçirilir.

*III mərhələ*: IX-XI sinifləri əhatə edir.

- Peşəyönümü və peşə seçimi istiqamətində ardıcıl və sistemli təlim işi aparılır;
- Praktik olaraq müasir texniki vasitələrdən istifadə qaydaları öyrədilir;
- Aparıcı peşə sahələrinin əsasını təşkil edən mürəkkəb əməliyyatlar sistemi mənimsədilməklə texniki təfəkkürün sürətlə inkişafı təmin edilir.

Xüsusi məktəblərin proqramlarına daxil edilən Texnologiya,İnformatika, Fizika, Kimya və s.kimi fənlərin tədrisi eşitmə pozulmaları olan şagirdlərin texniki təfəkkürünün inkişaf etməsinə təkan verir.

## ƏDƏBİYYAT

1.Ağayeva T.H. Eşitmə qüsurlu uşaqların psixokorreksiyası.Bakı 2015.

2.Астафева В.М. Социальная адаптация и интеграция детей с нарушениями слуха Москва.: АРК и ПРО, 2000.

3. Bayramov Ə.M., Əlizadə Ə.Ə. Psixologiya Bakı: Çinar- çap nəşriyyat, 2009.

4.Bəşirova S.S.“Kar və zəif eşidən uşaqlarda texniki təfəkkürün formalaşdırılması”adlı dissertasiya işi. Bakı-2016.

5. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri Bakı: Pedaqogika nəşriyyat Qızıl Şərq mətbəəsi, 2004.

**Almaz MƏMMƏDOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: m.almaz12@mail.ru**

## SEREBRAL İFLİCLİ UŞAQLARDA ŞƏXSİYYƏTİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* serebral iflic, uşaq, şəxsiyyət

Uşaq serebral iflici olan uşaqların atipik inkişaf növləri arasında psixoloji infantilizm növündə inkişaf ləngiməsinə rast gəlinir. Psixolojii infantilizmin əsasında intellektual və emosional-iradi sferanın yetişməsində olan disharmoniya durur. Bundan başqa gec formalaşmış beyin sistemlərinin mövcudluğu, yəni inkişafsızlığı dayanır. Ümumilikdə infantilizmə psixoloji inkişafın ayrı-ayrı psixi funksiyalarının qeyri-bərabər yetişməsi xarakterikdir.

Bu uşaqlarda infantilizm sadə və mürəkkəbləşməmiş olmaqla fərqləndirilir. Eyni zamanda harmonik infantilizmi də qeyd etmək lazımdır. Bu zaman psixi kallıq uşağın bütün fəaliyyət sahələrində, xüsusilə də emosional –iradi sferada təzahür olunur. İradi fəaliyətlərin ali inkişafsızlığı psixoloji infantilizmin əsas əlaməti hesab olunur. Uşaqlar öz hərəkətlərində əsasən zövq emosiyasını və həqiqi anın arzusunu əks etdirirlər. Onlar eqosentrikdirlər, yəni öz istəklərini başqalarının maraqları ilə uyğunlaşdırmağı və kollektiv qaydalarına tabe olmağı bacarmırlar. Uşaqların emosional fəaliyyətində zövqalma emosiyasının üstünlüyü öz təzahürünü tapır. İntelektual maraqları zəif inkişaf etmişdir: serebral iflicli uşaqlar üçün məqsədyönlü fəaliyyətin pozulması xarakterikdir. Bütün bu xarakterik xüsusiyyətlər ümumi təhsilin birinci mərhələsində qarşıya çıxan "məktəb kallığı" fenomenini təşkil edir.

Baş beyinin alın payı qabığı və onun insanın davranış və fəaliyyətindəki mürəkkəb funksiyaların təşkilindəki rolu, eyni zamanda psixi infantilizm zamanı kliniki xüsusiyyətlər haqqında məlumatlar verən M.S.Pevzner qeyd edirdi: psixi infantilizmin əsasında baş beyin yarımkürələri qabığının alın və diensefal-alın sistemlərinin inkişafsızlığı durur. Uşaq serebral iflici zamanı hələ formalaşmamış vəziyyətdə olan baş beyinin zədələnməsi bununla nəticələnir ki, beyinin qabıq sahələri, xüsusən də gec formalaşan alın şöbələri qeyri-bərabər və ləngimiş tempdə inkişaf edir. Bu da öz növbəsində psixi infantilizm fonunda şəxsiyyət dəyişmələrinə səbəb olur. Doğru tərbiyənin olmaması, nitq və hərəki məhdudiyyət ilə əlaqədar olan fəaliyyət və ünsiyyətin kifayət qədər olmaması psixi infantilizmin səbəbiyyət verir. Serebral iflicli uşaqların emosional-iradi sahələrinin kallığı hətta yuxarı məktəb yaşında da özünü göstərməkdə qalır. Onların məktəb təliminə, əmək və sosial adaptasiyasına bir sıra maneələr törədir. Bu beyin funksiyaların yetişməməsi disharmonik xarakter daşıyır. Psixikanın kallığı ilə eqosentrizm xüsusiyyətlərinin birliyi müşahidə olunur, bəzi hallarda isə heç bir məqsədyönlü fikir, düşüncə olmur və ya məqsəd olmadan öz-özünə danışmaq hallarına meyillilik də müşahidə olunur. Bir sıra uşaqlarda emosional-iradi sferanın yetişməməsi erkən cinsi təzahürlər ilə birgə müşayiət olunur. Yuxarı məktəb yaşlı uşaqlarda emosional –iradi sferanın xüsusiyyətləri, oyun fəaliyyətinə yüksək marağın olması, iradi cəhtlərin zəifliyi, məqsədyönlü intellektual fəaliyyətlər, özünü inandırmada təzahür edən tam formalaşmamış əlamətləri daha erkən yaşlı uşaqlara nisbətən fərqli bir çalarlara malikdir. Burada emosional cəhətdən dayanıqsız olma, oyun fəaliyyətində monotonluq və kasadlıq, hərəki yorğunluq olduqca çox müşahidə edilir.

Serebral iflicli məktəb yaşlı uşaqlarda mürəkkəbləşmiş psixi infantilizmin 3 növü qeyd edilir:

Birinci, mürəkkəbləşmiş psixoloji infantilizmin nevropatoloji variantı - özlüyündə psixi infantilizmlə yanaşı nevropatik təzahürlər əks etdirir. Nevropatiya və ya anadangəlmə uşaq nevrozu üçün yüksək oyanıqlıq və sinir sisteminin vegetativ funksiyalarının əsaslı dərəcədə qeyri-sabit olması xarakterikdir. Nevropatiyalı uşaqlar müxtəlif qıcıqlara qarşı yüksək həssaslıq,

tükənmə, emosional oyanıqlıq, istənilən yenilik qarşısında qorxaqlıq ilə seçilirlər. Psixi infantilizmin nevropatoloji forması zamanı serebral iflicli uşaqlar müstəqilliyin olmaması, yüksək özünü inandırmanın tormozlanması, öz gücünə inamın olmaması və qorxaqlıq ilə xarakterizə edilirlər. Onlar bir qayda olaraq anaya çox bağlı olurlar, yeni şəraitə olduqca çətinliklə adaptasiya olurlar, məktəbə gec öyrəşirlər. Məktəbdə onların çoxunda cəsarətsizliyə meyillik, yeniliklərə təşəbbüsün olmaması, utancaqlıq, bəzən də qeyri-adekvat özünü aşağı qiymətləndirmə olması halları müşahidə edilir. Şəxsiyyətin bütün bu cür xüsusiyyətləri məktəbə və ümumilikdə sosial ətrafa qarşı adaptasiya prosesinin pozulmasına səbəbiyyət verir. Həmyaşıdları tərəfindən qəbul olunmadıqları, nəzərə alınmadıqları vaxt bu uşaqlar öz daxili dünyasına, fantaziyalarına dalır, onlarda yalnızlıq hissi ortaya çıxmağa başlayır. Bütün bu sadalananlar şəxsiyyət inkişafında daha böyük və ciddi disharmoniyaların yaranmasına səbəb olur. Ətraf aləmdən gələn uzun müddətli mənfi təsirlər nəticəsində fəaliyyətsizlik halı daimi xarakter daşımağa başlaya bilər. Bu da öz növbəsində tormozlamalara, geriləmələrin formalaşmasına təkan verəcəkdir. Psixoloji infantilizmin nevropatik forması zamanı "Qeyri-adekvat affektlik"l müxtəlif cür özünü göstərir. Məhz etiraz reaksiyası da bu formalardan biri hesab olunur. Bu reaksiyalar özlüyündə affektiv narahatçılıq səbəbindən əmələ gələn davranışların keçici pozulmalarını təşkil edir. Məsələn, mənliyin təhqir edilməsi ilə bağlı inciklik hissi və.s. Etiraz reaksiyaları üçün müəyyən qədər seçicilik və istiqamətlilik xarakterikdir. Serebral iflicli uşaqlarda psixi infantilizmin nevropatik forması zamanı passiv etiraz reaksiyaları üstünlük təşkil edir. Bu reaksiyalar qidadan imtina edən zaman, müəyyən insanlarla şifahi şəkildə ünsiyyətə girməkdən imtina edilməsində (seçici mutizm) biruzə verir. Etirazlar bəzən ayrı –ayrı samotovegitativ pozulmalar halında təzahür edir: qusmalar, enurezlər (sidiyin saxlanıla bilməməsi), enkoprezlər (nəcisin saxlanıla bilməməsi) və s. Özünə qəst etmə davranışları da çox nadir halda passiv etirazların nəticəsi ola bilər. Serebral iflicli uşaqlarda müəllimlərin və ya tərbiyəçilərin tapşırıqlarını və göstərişlərini icra etməkdən imtina etmək halları da passiv etirazın daha çox təzahür edən forması kimi hesab edilir. Tərbiyə prosesinin yalnış aparılması şəraitində isə hətta valideynlərin tələblərini yerinə yetirməkdə belə etirazlar müşahidə edilir. Bu zaman şəxsiyyətin ayrı-ayrı mənfi xüsusiyyətləri möhkəmləməyə davam edir. Serebral iflicli uşaqlarda hiperqəyyumluq tipdə tərbiyə olunma özünə inamsızlıq, küsəyənlik, qorxulara meyillilik kimi xarakterik xüsusiyyətlərin əmələ gəlməsinə əhəmiyyətli dərəcədə təkan verir. Bu tip tərbiyə olunma uşağın təbii fəallığının azalmasına, onun müstəqilliyə olan cəhdlərinin aşağı enməsinə gətirib çıxarır. Beləliklə, serebral iflicli uşaqlarda tədricən şəxsiyyətin davamlı xüsusiyyəti kimi passivlik, böyüklərdən asılılıq, özünə inamsızlıq, cəsarətsizlik hissi möhkəmlənməyə başlayır.

-Serebral iflicli məktəblilərdə psixoloji infantilizmin ikinci variantı elmi ədəbiyyatlarda ağırlaşmış infantilizmin serebral – astenik variantı kimi qeyd

olunur. Bu tip uşaqlarda emosional- iradi sferanın kallığı yüksək emosional oyanıqlıq, işgüzarlığın aşağı səviyyədə olması, diqqətin pozulması, bəzən də yaddaşın pozulması ilə birgə müşayiət olunur. Bu uşaqlar yüksək qıcıqlanma və özünü idarə edə bilməməklə seçilir; bu onlarda davranışın həddindən artıq psixoloji yorğunluğu, psixoloji gərginliyi qaldıra bilməməsi kimi hallarla müşayiət edilir. Bu uşaqların təlimdəki çətinlikləri təkcə emosional-iradi sferanın inkişafsızlığı ilə deyil, həm də onların yüksək həddə psixi yorğunluğu, fəal diqqətin tez yorulması ilə də əlaqəlidır. Onların əhval ruhiyyəsi olduqca qeyri-sabitdir, bəzən narazılıq və qıcıqlanma ilə özünü göstərir. Belə uşaqlar özlərinə qarşı daima diqqət və öz fəaliyyətlərinin təstiqini tələb edirlər. Əks halda qəzəb və narazılıqlar yaranır ki, bu hallar da bir qayda olaraq göz yaşı ilə nəticələnir. Bu qrupu təşkil edən uşaqların həmyaşıdları ilə qeyri – düzgün münasibətlərinin olması müşahidə olunur. Bu da onların gələcək şəxsiyyət inkişafına öz mənfi təsirini göstərir. Əgər uşaq öz həmyaşıd kollektivində özünə yer tapa bilmirsə bu zaman onda küsəyənlik, qəzəb, özünə qapanıqlıq, inciklik, bəzən də aqressiv davranışlar kimi müxtəlif affektiv reaksiyalar əmələ gəlməyə başlayır.

- Serebral iflicli məktəblilərdə mürəkkəbləşmiş infantilizmin üçüncü variantı bir qayda olaraq rus psixiatorlar tərəfindən təsvir edilmiş üzvi infantilizmə aid edilir. Üzvi infantilizmin əsasında yetişməmiş emosional – iradi sferanın və intellektual fəaliyyətin pozulmasının birgə təzahürü dayanır. Bu uşaqlarda çox zaman öz hərəkətləri və davranışlarına tənqidi münasibətin təhlil səviyyəsi azalmış vəziyyətdə olur. Onlarda özünü inandırmanın yüksək dərəcəsi tərsliyin təzahürləri, diqqətin bir prosesdən digərinə keçirilməsindəki şətinliklərlə birgə müşahidə edilir. Digər variantlarla müqaisədə bu uşaqlarda diqqət və yaddaş pozulması, həmçinin işgüzarlıq səviyyəsinin aşağı enməsi halları daha da kəskin xarakter alır. Üzvi infantilizm serebral iflicli uşaqların atonik – astatik formasında daha çox təzahür edir. Belə hallar alın – beyincik strukturların inkişafsızlığı və ya zədələnməsi zamanı baş verir. Bu, alın qabığının motivasiya və məqsədyönlü fəaliyyətinin inkişafı zamanı oynadığı rol ilə, yəni şəxsiyyətin nüvəsinin inkişafıçün vacib olan psixi inkişaf dərəcəsi ilə əlaqəlidır. Üzvi infantilizm zamanı emosional- iradi sfera pozulmaları böyük disharmoniya ilə xarakterizə olunur. Onlarda impulsivliyin elementləri inertliyin təzahürləri ilə birlikdə müşayiət edilir. Bu uşaqlarda özünüqiymətləndirmə və iddia dərəcəsi çox vaxt yüksəldilmiş olur. Uşaqlar hərəki baxımdan narahat, qıcıqlandırıcı və impulsiv olur, vəziyyəti adekvat şəkildə qiymətləndirməyi bacarmır, öz davranışlarına tənqidi yanaşmırlar.

Müxtəlif beyin strukturlarının patoloji prosesə qoşulması ilə əlaqədar olaraq hərəki pozulmanın spesifikası da həmçinin serebral iflicli uşaqların şəxsiyyətinin inkişafına müəyyən qərər öz təsirini göstərir.

ƏDƏBİYYAT


1. Hüseynova N.T., Aslanova S.R. Xüsusi psixologiya. - Bakı: 2018.
2. Архипова Е.Ф. Коррекционная работа с детьми с церебральным параличом. - М.: 1989.
3. Семенова К.А., Мастюкова Е.М., Смуглин М.Я. Клиника и реабилитационная терапия детских церебральных параличей. - М.: 1972.



**Aygün İSMAYILOVA**
***Mingəçevir Dövlət Universitetinin***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: aygun.ismayilova.87@inbox.ru**


# UŞAQ BAĞÇASI VƏ KÖRPƏLƏR EVİNİN TƏRBIYƏÇİSİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* Tərbiyəçi, məktəbəqədər təhsil müəssisəsi, uşaq

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində tərbiyəçi əməyinin rolu böyükdür. Tərbiyəçi uşaq üçün anadır, müəllimdir, həkimdir. Ona görə klassik pedaqoqlar tərbiyəçi şəxsiyyətini yüksək qiymətləndirmişlər.

Görkəmli rus pedaqoqu K.D.Uşinski yazırdı: "Tərbiyə tərbiyəçinin şəxsiyyətinə əsaslanır" [2,150] Yalnız tərbiyəçi şəxsiyyəti uşaqlarda istənilən xarakteri tərbiyə edə bilər. Hər bir uşaqda xarakter, əxlaq və inam yaratmaq tərbiyəçinin işidir. Cəmiyyətin sosial sifarişini yerinə yetirmək üçün tərbiyəçi öz ixtisasının ustası olmalıdır.

Tərbiyəçinin peşəkar mütəxəssis olması üçün onun daim öz üzərində işləməsi, zəhmət çəkməsi lazımdır.Tərbiyəçi ilk növbədə özünə qarşı tələbkar olmalıdır.

Görkəmli tənqidçi və pedaqoq N.A.Dobralyubov yazırdı: "Əvvəllər mənim tərbiyə işi haqqında biliyim çox səthi idi; lakin mən pedaqoq adını aldıqdan sonra bu qənaətə gəldim ki, mənim uşaqlara bilik vermək üçün sözüm, onları sevmək üçün ürəyim var. Tanrının verdiyi bu hədiyyə mənim üçün kifayətdir". [3,214]

Bu sözlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Tərbiyəçi uşaqları və sənətini sevməlidir. Tərbiyəçi öz işini plan əsasında qurmalı, uşaqların həyatının qorunmasında məsuliyyət daşıyan şəxsiyyətdir. Tərbiyəçi uşağın fiziki sağlamlığının qoruyucusudur.

O, rejim momentlərinin dəqiq yerinə yetirilməsi üçün cavabdehdir.

Tərbiyəçi uşaqların əqli inkişafı üçün proqram əsasında nəzərdə tutulan məsələləri onların anlayacağı səviyyədə şərh etməlidir.

Tərbiyəçi uşaqların nitqini inkişaf etdirir, lüğət ehtiyatını zənginləşdirir. Ətraf aləmdə baş verən hadisələri əlaqələndirməyi, ümumiləşdirmələr aparmağı nəticəyə gəlməyi öyrədir.

Tərbiyəçi uşaqlar arasında heç bir fərq qoymamalıdır. Tərbiyəçi yüksək əxlaqi keyfiyyətə malik olmalıdır. O, hərəkət, davranış və mədəni səviyyəsinə görə nümunə olmalıdır. Uşaqlar təqlidçi olduqlarından, həmişə tərbiyəçilərin hərəkətlərini, davranışlarını müşahidə edərək onlara oxşamağa çalışırlar. Onlar tərbiyəçinin səsini, yerişini, bağça işçiləri ilə söhbətini, münasibətini təqlid edərək öz oyunlarında, yoldaşları ilə rəftarında ona oxşamağa çalışırlar (xüsusən də qız uşaqları evdə də tərbiyəçi kimi davranırlar). Ona görə də tərbiyəçi öz hərəkətlərinə, danışığına nəzarət etməlidir. Yaxşı müəllim, yaxşı tərbiyəçi uşaqlar tərəfindən heç vaxt unudulmur.

Tərbiyəçi sadə, təvazökar olmalıdır. O, uşaqlarla mehriban davranmaqla yanaşı həm də onlara qarşı tələbkar olmalıdır.

Tərbiyəçi ilə uşağın ünsiyyəti fəaliyyət prosesində yaranır. Tərbiyəçinin şəxsi keyfiyyətləri uşaqlarla ünsiyyət zamanı özünü göstərir. Ünsiyyət iki nəfərin iştirakından yaranır. Tərbiyəçi uşaq-yəni tərbiyə verən və tərbiyə olunan. Bunların birgə fəaliyyəti sayəsində gələcək vətəndaş yetişir.

Pedaqoji fəaliyyətlə məşğul olan şəxs xüsusi hazırlıq keçdikdən sonra yetişməkdə olan nəslin tərbiyəsinə çevrilir. Tərbiyəçi pedaqoji biliklərə müvafiq hərəkət edir. Pedaqoji iş-fəaliyyət nəticəsində tərbiyəçi uşaqlara ancaq bilik vermir, həm də bacarıqların həyata tətbiqini öyrədir. Tərbiyəçi ictimai həyatla uşaqlar arasında əlaqə yaradır.

Tərbiyəçi uşaqların taleyinə cavabdehdir. Elə bir fəaliyyət növü təsəvvür etmək olmaz ki, ondan uşaqların taleyi asılı olmasın. Uşaq bağçasında tərbiyəçinin pedaqoji fəaliyyətinin ən başlıca məqsədi uşaqların fiziki sağlamlığının təmin edilməsi ilə yanaşı həm də onların təlimi, inkişafı və şəxsiyyətin formalaşması proseslərini düzgün istiqamətləndirməkdir.

Özünəməxsus pedaqoji fəaliyyətin mahiyyəti onun əsaslandığı obyekt üzərində aparılan işlə yekunlaşır.

Tərbiyəçi öz vəzifələrini nə qədər dərindən dərk etsə, uşaqlarda bir o qədər fəallıq, hadisələrə münasibət, müstəqil fikirləşmək, ümumiləşdirmələr aparmaq, kollektivçilik və s. kimi keyfuyyətlər tərbiyə edəcəkdir. Tərbiyəçi öz pedaqoji biliyi ilə peşəkarlığa dərindən yiyələnir, özünün başlıca funksiyasını dərk edir. Uşaqlarda öyrənmək meyli və bacarığı, müstəqillik, təşəbbüskarlıq, məktəb təliminə hazırlanma kimi qabiliyyətlər və keyfiyyətlər tərbiyə edilir. Peşəkar tərbiyəçilər uşaqlarda fakt və hadisələrə münasibətə dair fikirləşmək, başqa sözlə fikri fəallıq tərbiyə edirlər.

Tərbiyəçinin əsas vəzifəsi aparacağı pedaqoji işlə əlaqədar qarşıya məqsəd qoymasıdır. Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyə və təlim prosesinin qurulması, aparılması və idarə olunması işi uşaqların inkişaf səviyyəsinə, dərketmə imkanlarına, tərbiyəçinin dünyagörüşünün səviyyəsinə əsaslanır.

Uşaq bağçasında və ailədə tərbiyə və təlim şəraitini bilmədən onu düzgün dəqiqləşdirmədən nə məqsədi dəqiq müəyyənləşdirmək, nə də ona nail olmaq üçün üsul və vasitələr seçmək mümkün deyildir.

Tərbiyəçi uşaqların inkişafında və tərbiyəsində cəmiyyətin sosial mədəniyyəti ilə uşaq arasında vasitəçidir. Tərbiyəçinin rolu onun vasitəçiliyi-müasir tələblərə uyğun nəsil yetişdirilməsinə şərait yaratmaqdır. Tərbiyəçi uşaqlarda ilkin qabiliyyətlər yaradır, onu dünyəvi dəyərlərə diqqət yetirməyə istiqamətləndirir. Məktəbəqədər tərbiyənin konsepsiyasının məqsədini əldə rəhbər tutaraq tərbiyəçi məktəbəqədər yaşlı uşaqlara yaradıcı şəxsiyyət kimi yanaşmaqdır. Belə ki, o, pedaqoji fəaliyyətin modelini qurmalı, müəyyən olunmuş şəraitdə və vaxtda məqsədə nail olmaq üçün metod və vasitələr seçməyi bacarmalıdır. Məktəbəqədər pedaqogikanın xüsusiyyəti və əmək obyekti pedaqoji fəaliyyətin özünəməxsusluğu ilə şərh edilir. Burada tərbiyəçi subyekt kimi çıxış edir, hansı ki, öz diqqətini, istedadını, qabiliyyətini, bacarığını uşaqların tərbiyəsinə istiqamətləndirir.

ƏDƏBİYYAT


1. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. 14 aprel 2017-ci il.
2. Abdullayeva S. Tərbiyəçinin stolüstü kitabı. - Bakı: Nərgiz nəşriyyatı, 2008. - 212 s.
3. Cəfərova L. Məktəbəqədər təhsil: Tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab. - Bakı: Letterpress, 2019. - 316 s.
4. Mursalqulova R. Rüstəmova N. Məktəbəqədər pedaqogika. - Bakı: ADPU nəşriyyatı, 2012. - 432 s.



**Gülnar MƏMMƏDOVA**

***Mingəçevir Dövlət Universitetinin müəllimi***

**E-mail: gulnar.hasanova.82@mail.ru**


## GƏNCLƏRİN ƏXLAQİ-MƏNƏVİ SFERASINDA YARANAN DEPRESSİV POZUNTULAR

*Açar sözlər: əxlaq, davranış, depressiv pozuntular, əhvallar, stres*

Əxlaq insanların öz davranışlarında rəhbər tutduqları prinsip, forma və qaydaların məcmusu və onların həyatda bir-birinə ailəyə, əmək kollektivinə, millətə, bütövlükdə cəmiyyətə olan münasibətlərinin ifadəsidir. Psixoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, əxlaqi bilik və anlayışların mənimsənilməsi prosesi mürəkkəb xarakter daşıyır. Gənclərdə əxlaqi bilik və anlayışların inama çevrilməsi üçün həmin bilik və anlayışların davranış

motivləri və onlara uyğun əxlaqi adətlər sistemində möhkəmləndirilməsi tələb olunur.

Gənclərin əxlaqi mənəvi sferası onların emosional vəziyyəti ilə bilavasitə əlaqədardır. Psixoloqlar gənclərin davranış təcrübəsini, praktik fəaliyyətini onların emosiyaları ilə əlaqələndirməyi vacib hesab edirlər. Emosional sferada baş verən problemlər əxlaqi hisslərin formalaşmasına mənfi təsir göstərir.

Depressiya müasir dövrümüzdə gənclər arasında yayılmış emosional problemlər arasında xüsusi mövqeyə malikdir. Araşdırmalar və təcrübələr göstərir ki, depressiya gəncləşmiş xəstəliklər sırasındadır [2].

Keçmiş dövrlərdən bu günə kimi depressiya tədqiq olunan ən geniş yayılmış psixi pozuntudur. Depressiya dedikdə, ruh-düşkünlüyü, yüksək halsızlıq, gərəksizlik hissi, intihara dair fikirlər, iştahanın azalması, yuxusuzluq, psixomotor tormozlanma və ya həyəcan, həmçinin müxtəlif somatik simptom gənclərdə müşayiət olunan, əhval-ruhiyyənin enməsi ilə səciyyələnən psixi pozuntu nəzərdə tutulur [1].

Bugünə kimi hesab edilirdi ki, depressiyadan yalnız yaşlı insanlar əziyyət çəkirlər. Belə ki, depressiv pozuntular yalnız yaşlılara aiddir. Uşaq və yeniyetmələrlə işləyən mütəxəssislər də belə bir fikrə gəlmişdilər ki, hər hansısa bir davranış dəyişilməsini patologiya adlandırmaq olar [4]. Bu işin nəticəsində isə hər bir yaş dövrünün xüsusiyyətləri ayrı-ayrılıqda öyrənilmiş və təsvir olunmuşdur.

Depressiyanın əsas əlamətləri bunlardır:

- Pasiyent üçün qeyri-normal hesab edilən səviyyəyədək uzun müddət əhvalın enməsi
- Adətən pasiyent üçün xoş olan məşğuliyyətə aydın formada marağın və alınan zövqün azalması
- Demək olar ki, hər gün müşahidə edilən yorulma və güc tükənməsi.

Depressiyanın əlavə əlamətləri:

- Özünəinamın və özünüqiymətləndirmə hissinin enməsi
- Səbəbsiz özünütənqid və ya qeyri-adekvat günahkarlıq hissi
- Təkrarlanan ölüm və ya özünütənqid fikirləri və ya intihar davranışı
- Düşünmə və fikir cəmləmə qabiliyyətinin azalması
- Tormozlanma və ya həyəcanla müşayiət olunan psixomotor fəallığınn pozulması (subyektiv və ya obyektiv)
- İstənilən növ yuxu pozuntusu (yuxusuzluq və ya yuxuculluq-süstlük)
- Çəki dəyişkənliyi ilə müşayiət olunan iştahanın dəyişməsi (artması və ya azalması) [4].

Tədqiqatlar göstərir ki, depressiyanın yaranmasına bir və ya bir neçə faktorlar səbəb ola bilər. Məsələn, uşaqlıq dövründə qızlarda və oğlanlarda müşahidə olunan davranış problemləri yeniyetməlik dövründə depressiyaya çevrilə bilər. Eyni zamanda uşaqlarda rast gəlinən depressiv əlamətləri, yaş, yaranmış olan maniakal pozuntular və ayrılıq dərəcəsi ilə təyin etmək lazımdır. Bütün depressiv pozuntuları kontinum kimi təsəvvür eləmək olar. Ən yüngül depressiv

reaksiyalar adaptasiya pozuntularına aiddir və onlar yalnız stress nəticəsində baş verir. Digər depressiv pozuntular isə distimiyadır, hansıki bir ildən artıq davam edən yüngül depressiv simptomlarla keçir. Böyük depressiyalar isə ən ağır depressiv pozuntudur, hansıki bu zaman ruh düşkünlüyü ilə bərabər beş əlavə simptomlar da olmalıdır. Digər ağır pozuntu bipolyar affektiv pozuntudur və burada biz həm depressiv epizodları, həm də maniakal epizodları müşahidə edə bilərik.

Baxmayaraqki, yeniyetməlik dövründə gənclərdə əhval-ruhiyyənin dəyişilməsi tez-tez baş verir, bəzi gənclərdə isə depressiv əlamətlər aşkar edilir. Gənclərdə olan depressiya onların ətrafdakılarla olan ünsiyyət və münasibətlərinə təsir göstərir. Bu gənclər ailə üzvləri ilə, dostları ilə, partnyorları ilə düzgün münasibət qurmaqda çətinlik çəkirlər. Həmçinin məktəb prosesində mənimsəmə qabiliyyətləri aşağı düşür, bu zaman onlar öz enerji və təşəbbüsünü itirirlər.

Enerji imkanlarının azalması, iş qabiliyyətinin tükənməsi, tez-tez yorulma halları fonunda motivasiya sferasında da əsaslı dəyişikliklər müşahidə edilir. Depressiya əlamətləri sırasında qeyd olunan ətraf aləmə, əvvəllər onlar üçün maraqlı olan mənbələrə marağın azalması bu xəstələrdə də rast gəlinir. Bir obyektdə uzunmüddətli diqqətin cəmlənə bilməməsi, qərar qəbul etməkdə çətinliklər, yuxusuzluq kimi simptomlar özünü qabarıq şəkildə biruzə verir və bu simptomlar motivlərin iearxiyasında da müvafiq təzahürlər meydana çıxarır. Emosional sferada baş verən bu tip düşkünlük, laqeydlik halları suisidal meylin yaranmasına da səbəb ola bilir.

Depressiyalı gənclər öz xarici görünüşlərinə fikir vermirlər və tez-tez səliqəsiz və çirkli geyimdə gəzirlər, onalrın hərəkətləri çox yavaş və səsləri monoton olur. Özlərini aşağı qiymətləndirdikləri üçün onlar etirazlara qarşı çox həssas olurlar. Belə gənclərdə tez-tez özləri ilə bağlı bu kimi ifadələri eşitmək olar: mən pisəm, mən yaxşı deyiləm, məni başa düşmürlər, mənə inanmırlar, qəbul etmirlər, məni izləyirlər, heç kəs məni sevmir, mən axmağam və s. Nəhayət, pis qiymətlər alanda onlar laqeyid münasibət bəsləyirlər, sanki fərqinə varmırlar və ya varmaq belə istəmirlər. Bundan başqa məktəbdənkənar fəaliyyətlərə də onlar yetərincə həvəs və maraq göstərmirlər. Adi gənclərdən fərqli olaraq depressiyalı gənclər nəinki gündüzləri, həmçinin axşamları da erkən yatırlar. Demək olar ki, günlərini daha çox yatmağa həsr edirlər. Müəyyən tədbirlərdən qabaq (bayramlar, ad günləri və s.) tez-tez onlar baş ağrısı, halsızlıq, orqanizmində narahatlıq və mədə ağrısından şikayətlənirlər. Eyni zamanda bu gənclərdə riskli davranışlar müşahidə olunur, onlar spirtli içkilər və psixo-aktiv dərmanlardan istifadə edə bilirlər, bunu isə onlar belə izah edirlərki bu müalicəvi məqsəd üçündür.

Depressiv simptomlar arasında yuxu pozuntusu və iştaha pozuntusu bəzən yanlış olaraq izah edilir. Belə ki, əsasən bu şəxslərdə iştahanın azalması, qidadan imtina xüsusi vurğulanır. Lakin qeyd etmək lazımdır ki, qida meylinin artması da mümkündür. Bəzən də yuxu rejiminin pozulması ilə meydana çıxan həddən

artıq yatma halları ilə yanaşı, heç cür yata bilməmə halları da göstərilməlidir. Yuxusuzluq da depressiyanın əlavə simptomları sırasına daxildir.

Alınan nəticələrin müzakirəsi

- Tədqiqat nəticələrinə əsasən demək olar ki, depressiya kişilərdə, qadınlara nisbətən daha çox müşahidə olunur və bu onların mənəvi aləmində fərqli problemlərə səbəb olur.
- Depressiv əlamətlər daha gəncləşmiş xarakter daşıyır. 22-27 yaş arası gənclərdə isə depressiv pozuntular daha qabarıq ifadə olunduğundan onların mənəvi-əxlaqi sferasında, dünyagörüşündə, həyata baxışlarında da fərqlər olduğu aşkara çıxır.
- Əmək fəaliyyəti gənclərdə tərbiyəedici istiqamətdə həlledici əhəmiyyətə malikdir. İş rejimi öz növbəsində bir sıra psixoloji problemlərə təkan verməsi səbəbindən işləyən gənclərin həyata baxışları və sərvət meylində müvafiq fərqlər üzə çıxır.
- Gənclərin mənsub olduğu şəhər və ya kənd mühitini ictimai şüuru onların fərdi şüurunda da öz əksini tapdığından demək olar ki, kənd və şəhərdə yaşayan gəncləri əxlaqi-mənəvi sferasında fərqlər yaşanır.
- Psixi sağlamlıq, şəxsiyyətlərarası münasibətlər, hansısa bir psixi pozğunluğun olması gənclərin əxlaqi şüurunun ifadəsində vacib təsirə malikdir. Buna görə də demək olar ki, yüksək əxlaqi-mənəvi şüura malik gənclərin formalaşması üçün ilk növbədə onların psixi statusunda problemlərin yaşanmaması şərti ödənilməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Depressiyanın diaqnostika və müalicəsi üzrə klinik protokol.( Bakı 2009), 60 səhifə
2. Hamilton M: A rating scale for depression. J Neurol Neurosurg Psychiatry 1960; 23: 56-62
3. Həmzəyev M.Ə. “Pedaqoji psixologiya”. Bakı, 2003. 280 səh.
4. Kovacs M, Feinberg TL, Crouse-Novak MA, et al. et al Depressive disorders in childhood I: A longitudinal study of characteristics and recovery. Arch Gen Psychiatry 1984;41:229–37
5. Luby JL, Mrakotsky C, Heffelfinger A, et al. Characteristics of depressed preschoolers with and without anhedonia: Evidence from melancholic depressive subtypes in young children. Am J Psychiatry 2004;161:1998–2004.
6. Meade M, Luby JL. Preschool depression. Child Adolesc Psychiatric Clinic N Am 2006;15:899–917.

**Təranə TƏHMƏZLİ**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Korreksiyaedici təlimin metodikası***
***və metodologiyası ixtisası üzrə II kurs magistrantı***
**E-mail ünvanı: Tehmezliterane0@gmail.com**

# DAUN SİNDROMUNUN DİAQNOSTİKASINDA KORDOSİNTEZ ÜSULU

*Açar sözlər:* daun sindromlu uşaqlar, kordosintez, diaqnostika, hamiləlik dövrü

Daun sindromu diaqnostik testlər, hamiləlik dövründə aparılan müntəzəm müayinə testləri ilə aşkar edilə bilər. Daun sindromunun ilk əlaməti hamiləliyin 11 ilə 14 həftələri arasında ultrasəs müayinəsi və qan müayinəsi zamanı görünür. Bu dövrdə diaqnoz körpənin boyu və ənsə qalınlığı kimi anomaliyaları aşkar etmək və ya qanda PAPP-A və Beta hCG zülallarını aşkar etməklə edilə bilər. Daun sindromu skrininqi, hamilə qadının Daun Sindromlu uşaq dünyaya gətirməsini təyin etmək üçün aparılan test və görüntüləmə metodlarına verilən ortaq addır. Bu testlər ikili test, üçlü test, dördlü test və kombinə testlərdir. Hamiləlik sırasında bu testlərdən sadəcə birinin istifadəsi uyğundur. Bunlardan ən çoxu məlum olanı ikili və dördlü testlərdir. Bu testlərin yüksək riskli çıxdığı hamilələrə tətbiq edilən xorion xovlarının biopsiyası, amniosintez, kordosintez (birbaşa göbək ciyəsindən qan nümunəsinin alınması) kimi diaqnoz məqsədi ilə edilən müdaxilələrlə dəqiq diaqnoz qoyulur.

Kordosintez xüsusilə yüksək riskli hamiləliklərdə körpənin göbək bağından qan alınması və körpəyə qan verilməsi kimi bir prosedurdur. Belə bir prosedur yalnız universitetlər, təhsil və tədqiqat xəstəxanaları kimi lazımi avadanlıqların və bu sahədə mütəxəssis olan təcrübəli həkimlərin olduğu yerlərdə həyata keçirilə bilər. Kordosintez üçün müraciət etməzdən əvvəl amniyosintezdə olduğu kimi valideynlərin qan qrupunu bilmək vacibdir. Bundan əlavə, xəstə əvvəlki müayinələrini və nəticələrini özü ilə gətirməlidir.

Kordosintez, ümumiyyətlə hamiləliyin 19-cu həftəsindən sonra xromosom anomaliyaları riski olan döllərin diaqnozu üçün tətbiq edilən 9-15 sm iynələrlə dölün kordon damarından 2-3 ml-dən çox qan alınması prosesinə verilən addır. Ağrı ehtimalını azdır və adətən əlavə uyuşma tələb olunmur. Ultrasəs müayinəsindən sonra dəri təmizlənir və steril iynə dölə zərər verməyəcək hissədən qarın təbəqələrinə aparılır. Steril bir şprisdən istifadə edərək, lazım olduqda döl qanı aspire edilir və laboratoriyaya göndərilir. Nəticə vermək üçün standart vaxt adətən 7-10 gün arasında dəyişir. Kordosintez əməliyyatından sonra dölün itirilməsi riski 1% təşkil edir. Həmçinin yüngül qanaxma və ya qanaxma və vaxtından əvvəl doğuş riski 2% ola bilər. Prosedurdan sonra pelvik və ya sistemik infeksiyanın inkişafı riski nadirdir. Ümumiyyətlə, bu riskli dövr prosedurdan sonrakı ilk dörd həftəni əhatə edir. İlk cəhddən sonra kifayət qədər

nümunə alınmazsa, eyni seansda və ya gələcəkdə eyni cəhdi təkrarlamaq lazım ola bilər.

Kordosintez aşağıdakı hallarda aparılmır:

1. Abortla hədələnmiş və ya başlamışdır.
2. Kəskin yoluxucu patologiya.
3. Hər hansı kəskin patoloji proses.
4. Xroniki xəstəliyin kəskinləşməsi.
5. Prosedur yerində dəridə səpgilər.

Laboratoriyaya gələn fetal qan nümunəsinin körpəyə, yoxsa anaya aid olduğunu öyrənmək üçün APT testi aparılır və 10 dəqiqə ərzində nəticə verir.

## ƏDƏBİYYAT

1. Prenatal Tanı Amacıyla Kordosentez Uygulanan 172 Olgunun Değerlendirilmesi Mahmut Erdemoğlu, Ahmet Kale, Nurten Akdeniz Dicle Tıp Dergisi, 2007
2. https://bahceci.com/blog/kordosentez-nedir-ne-zaman-yapilir/
3. https://www.acibadem.com.tr/hayat/kordosentez-nedir-nasil-yapilir/

**Aydan YARALIYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Korreksiyaedici təlimin metodikası***
***və metodologiyası ixtisası üzrə II kurs magistrantı***
**E-mail ünvanı: aydan.yaraliyeva@mail.ru**

## Görmə pozulması olan uşaqlarda sensor-motor çatışmazlıqların Aradan qaldırılmasında oyunların rolu

*Açar sözlər:* görmə pozulması, oyunlar, senso–motor, məktəbəqədər uşaq, analizator

Senso–motor sahə uşaqların intellektual inkişafına, onların gələcək həyatda uğur qazanmasına, yazı və digər əl bacarıqlarını mənimsənilməsinə, ən əsası isə onların psixo – emosional inkişafına yardım edir.

Kinestetik hisslər xarici mühitdən gələn stimulların qavranılması dad, temperatur, ağrı və bədən səthində yerləşən reseptorların işi ilə sıx bağlıdır. Kinestetik xüsusilə də dəri hisslərinin, görmə, eşitmə, vestibulyar və digər analizatorlar insan həyatında mühüm rol oynayır.

Görmə pozulması olan məktəbəqədər yaşlı uşaqların onu əhatə edən cisim və hadisələri, dünyanı dərk etməsində toxunma və yaxud təmasın xüsusi, özünəməxsus rolu böyükdür. Toxunma vasitəsilə ətraf mühit ilə qarşılıqlı əlaqədə əldə olunan məlumatların qəbulu və emalı aktiv idrak xüsusiyyəti daşıyır. Həmçinin bu oyunlarda da özünü göstərir. Görmə pozulması olanlar məhz toxunma sayəsində ətrafında olan cisimlərin səthi, quruluşu, forma, ölçü və çəkisi haqqında əsas məlumatları ala bilirlər.

Görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlar ətraf aləm haqqında məlumatların alınmasında oyunların rolu əvəzsizdir. Bu kateqoriyadan olan məktəbəqədər yaşlı uşaqlarda senso - motor bacarıqları inkişaf etdirmək üçün istər ailə şəraitini, istərsə də uşaq müəssisələrində müxtəlif xüsusi oyunlardan istifadə edilməsi tövsiyyə olunur. Belə xüsusi oyunlara "Əlin ilə hiss et, ayağın ilə təyin et!", "Toxunmaqla müəyyən et", "Bu nədir?", "Hiss et və tap", "Bir cütü seçin" və s. kimi aiddir.

"Əlin ilə hiss et, ayağın ilə təyin et!" oyunun əsas məqsəd görmə pozulması olan kiçik yaşlı uşağın toxunduğu obyektin keyfiyyət və xüsusiyyətlərini şifahi olaraq təyin etməyi öyrətməkdir. Bu oyundan istifadə etməklə görmə pozulması olan, xüsusilə də kor uşaqlarda əlin, əl barmaqlarının hissiyyatı artırılır və onların vasitəsi ilə əşyaların tanımması başlanır. Uşaq əlinin barmaqlarını sərbəst və yavaş - yavaş bu və ya digər əşyaya ( kağız, taxta və ya maye) toxundurur və onu hiss edir. Sonrakı mərhələdə ayaqlarla obyektlərin tanınması və keyfiyyətinə görə fərqləndirməsi prosesinə keçilir.

"Toxunmaqla müəyyən et" oyunun uşaqlara müxtəlif materiallardan hazırlanmış əşyalar təqdim olunur və toxunaraq müəyyən etməsi tələb edilir. Oyun zamanı həndəsi fiqurlardan da istifadə oluna bilər. Bu oyunda təqdim olunan əşyalar uşaqların yaşına uyğun olmalıdır..

"Bu nədir?" oyununun əsas məqsədi kinetik və kinestetik analizatorlarının qarşılıqlı əlaqəsini, senso – motor bacarıqlarını, məkan oriyentasiyasını, iradı davranış bacarıqlarını inkişaf etdirmək və ünsiyyət qurma vərdişini mənimsətməkdir.

Digər oyunlarda olduğu kimi "hiss et və tap" oyununda da toxunma, əşyaların keyfiyyət xüsusiyyətlərini şifahi olaraq fikrini ifadə etmə, ünsiyyət bacarıqlarını inkişaf etdirməsinə kömək edir.

"Bir cütü seçin" oyunun məqsəd görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlara çoxsaylı əşyalar təqdim etməklə daha çox ətraf aləm haqqında təssəvvürlərin yaradılmasıdır..

Qeyd edilən bu oyunlar görmə pozulması olan məktəbəqədər yaşlı uşaqlarda senso – motor çatızmazlıqların zəiflədilməsi, əşyalar haqqında daha dolğun təsəvvürləri yaratmağa imkan verən mexanizmləri inkişaf etdirir. Həmçinin uşaqlara müstəqil idrak fəaliyyətinə senso – motor bacarıqlara aktiv formada daxil etməyə imkan verir.

ƏDƏBİYYAT

1.Ağayeva T.H. Görmə funksiyalarının pozulmaları və onların psixo-korreksiyası. Bakı: 2017
2.Dostuzadə D.Ə. Quliyeva İ. Tiflopedaqogika. Bakı: 2012
Dostuzadə D.Ə. Sağlamlıq imkanları məhdud uşaqlarla işə dair ibtidai məktəb və məktəbəqədər tərbiyə jurnalı. Bakı: 2004

**Aytac XƏLİLOVA**
***Bakı Slavyan Universitetinin***
***Azərbaycan filologiyası fakültəsinin tələbəsi***
**E-mail: a_xllova@mail.ru**

## YENİYETMƏLİK YAŞ BÖHRANI VƏ ONUN ARADAN QALDIRILMASI

*Açar sözlər:* böhran, yaş, yeniyetmə, yetkinlik, mühit

Yeniyetməlik yaş dövrü böhranı ilə bağlı müxtəlif fikirlər vardır. Bu problem XIX əsrin ortalarından etibarən bir çox alimlərin, psixoloqların tədqiqat obyektinə çevrilmişdir. Yeniyetməlik yaş böhranından danışmazdan öncə bu yaş dövrünün xüsusiyyətlərinə nəzər salaq. Bu yaş dövrü müxtəlif amillərin təsiri nəticəsində yaranır. Yetkinlik yaş dövrü özünə məxsus yaş dövrüdür ki, 12-16 yaş aralığında uşaqlardan məsuliyyət tələb edilir, onlar müəyyən çətinliklərlə qarşılaşırlar. Ümumiyyətlə yeniyetməlik yaş dövründə uşaq yeni mühitə düşərək, qəliz dərs materialları ilə qarşılaşır, müxtəlif qayda-qanunlar çərçivəsində hərəkət etməyə məcbur olurlar. Eyni zamanda onlar ətraflarında olan dost-tanış çevrəsi, valideynləri, müəllimləri ilə düzgün münasibət formalaşdırmalıdırlar. Yeniyetmələr zaman irəlilədikcə müstəqil olmağa, öz arzuladıqları həyat tərzini yaşamağa can atırlar.

Bu cür müstəqil həyat tərzi, düşüncələr yeniyetmələrə ətraflarındakı insanlarla, valideynləri ilə ünsiyyətin qəlizləşməsinə və fikir ayrılıqlarının yaranmasına səbəb olur. Nəticədə yeniyetməlik yaş böhranlarının qığılcımları bu fikir ayrılıqlarını daha da alovlandırır. Həm valideynlər, həm yeniyetmələr üçün qəliz olan bu dövrdə nələr baş verir və böyüklərin öhdəsinə hansı məsuliyyətlər düşür?

Qeyd etmək lazımdır ki, bu dövr uşaqlıq dövrü ilə yeniyetməlik dövrü arasında olan böhran, çətin yaş dövrü adlandırılır. Bu dövrdə bir çox psixoloji və bioloji dəyişikliklər yaranır və qabarıq şəkildə özünü göstərir. Biz bioloji

dəyişiklik dedikdə bilirikki, insanın bədəninin daxili və xarici dəyişikliklər nəzərdə tutulur.

Yeniyetməlik psixologiyasının tədqiq edən Stenli Holl bu problemi daha ətraflı araşdıraraq, onu rekapitulyasiya nəzəriyyəsinin əsas ideyaları vasitəsilə nəzərdən keçirir. Yeniyetməlik dövrünü səciyyələndirən Stenli Hall hesab edirdi ki, bu dövr romantizm dövrünə - uşaqlıq dövrü - ovçuluq və yığıcılıq dövrü ilə yetkinlik dövrü - qabaqcıl sivilizasiya dövrünə uyğundur. Yeniyetməlik yarıbarbar heyvan meyllərinin sosial həyatın tələbləri ilə toqquşduğu bir xaos dövrüdür. Bu yaş dövründə böhran qaçılmaz hesab olunur. Belə ki, bu yaş dövründə qeyri-sabitlik, həvəs, çaşqınlıq, təzadlar qanunu hökm sürür.

S.Hall yeniyetməlik dövrünü “fırtına və stress” dövrü adlandırıb. Yeniyetməlik böhranının əsas məzmunu, insanın "fərdilik hissi" əldə etdiyi özünüdərk böhranıdır.

Yeniyetməlik yaş böhranı digər aşağı yaş böhranlarından əhəmiyyətli dərəcədə fərqlənir. Uşağın şəxsiyyətinin formalaşmasında dönüş nöqtəsini qeyd edən bütün yaşa bağlı böhranlarla müqayisədə bu yaş böhranı ən kəskin və ən uzunmüddətli hesab edilir.

E.Şprangerə görə oğlanlarda yeniyetməlik yaş dövrü 14-21 yaş, qızlar üçün isə 13-19 yaş aralığıdır. Şpranger yeniyetməliyin mədəni və psixoloji konsepsiyasını işləyib hazırlamışdır ki,bu da, mədəniyyətin daha da yüksəldiyi dövr hesab edilir. O, yeniyetmələrin özünüdərkinin, dəyər oriyentasiyalarının, dünyagörüşünün sistemli şəkildə öyrənilməsinin əsasını qoyub.

Şarlotta Bülerin yeniyetməlik böhranının öyrənilməsinə yanaşması da maraqlıdır. Psixoloq hesab edirdi ki, yeniyetməlik – yəni yetkinlik dövrü insanın cinsi yetkinləşdiyi mərhələ əsasında müəyyən edilir. S. Büler yetkinlik dövrünə qədər olan dövrü insanın uşaqlığı, yetkinlik dövrünün son hissəsini isə gənclik dövrü adlandırır.

S.Bülerə görə, yetkinlik mərhələsi, yetkinləşmə insanda xüsusi psixi hadisələrdə rast gəlinir ki, müəllif bunu psixi yetkinlik adlandırır, hətta onun xəbərçisi kimi fiziki yetkinlikdən əvvəl də meydana çıxır və ondan sonra da uzun müddət davam edir. Öz növbəsində psixoloqa görə, fiziki yetkinlik oğlanlarda orta hesabla 14-16 yaş arasında, qızlarda isə 13-15 yaş arasında baş verir.

Bu yaş dövründə özünə nifrət və ətraf mühitə qarşı düşmənçilik yeniyetməni intihar düşüncələrinə sürükləyə bilər. Bütün bunlara bir sıra yeni daxili "gizli, qadağan olunmuş, qeyri-adi, adi və gündəlik həyatın hüdudlarından kənara çıxmamaq kimi qadağalar aid edilir. Eyni zamanda yeniyetmə ata anadan ayrı bir fərd olduğunu anlamaqda, ailənin ayrılmaz bir parçası olduğunu zənn etməkdədir. Yaxşı və pis olan şeyləri təxmin edə bilir, ancaq bu sifətlər özünün deyil eyni zamanda ata ananın düşüncəsinə əsasən formalaşır. 12 yaşına gəlmiş bir insan ona verilən tapşırıqları yerinə yetirir, xarakterin əsası qoyulur, yaxşı və pisi bir birindən ayıra bilir. Tapşırıqları yerinə yetirməyəndə necə cəzalanacağını ön görür. Konkret təfəkkür formalaşır, məntiqə əsaslı düşüncə formalaşır.

Yeniyetməlik dövrü isə insanın inkişaf mərhələləri arasında həm fiziki, həm hormonal, həm zehni cəhəti ilə ən çox dəyişikliyə məruz qalan və eyni zamanda çox sürətlə baş verən bir çox dəyikliyi əhatə edir.

Yeniyetməlik mərhələsi öz daxilində 3 hissəyə ayrılır, erkən yeniyetməlik, orta yeniyetməlik, gec yeniyetməlik. Hər bir dövrün özünə məxsus xaraakterik cəhətləri vardır. Yeniyetməliyin başlanğıcında hormonal proseslərin dəyişməsi ilə insanın xarici görünüşü dəyişir, qızlarda qadın bədən quruluşu formalaşır, menstural siklus başlayır, oğlanlarda səs dəyişməsi, kişi bədən quruluşu formalaşmağa başlayır. Bu zaman ətrafların eyni zamanda bədənin simmetriyası pozulur, hərəkətlərdə kobudluq olaraq ortaya çıxır. Bu dəyişiklik eyni zamanda zehni dəyişikliklərlə birgə baş verir. Öz cinsinə aid davranışlar qabarmağa başlayır, əks cinsə qarşı maraq yaranır. Şəxsiyyət formalaşmağa başlayır. 16 yaşlarına çatan birisi artıq yetkin insanlar qədər, yaxşı pisi bir birindən ayırd edə bilir, kədərin sevincin nə olduğunu, nifrətin sevginin nə olduğunu anlayır. Yeniyetməliyin sonuna doğru isə artıq öz hisslərinə hakim olmağı, lazım gəldiyində onları cilovlamağı bacarır. Bu proseslər beyinin orqanik inkişafının təzahürü olaraq ortaya çıxır. Bütün burada sadaladığım proseslər və sadalamaqda kitabların belə yetərsiz qaldığı məqamlar nəticə etibari ilə bir insanın fərd olaraq formalaşmasına səbəb olur. Bu dövür və eyni zamanda bura qədər olan mərhələrdə genetik faktorların üzərinə formalaşan ailə daxili münasibətlər, baxça, məktəb, məhəllə, universitet mühiti kimi faktorlar bir şəxsiyyətin formalaşmağında mühim rola malikdirlər. Əgər təkrar mərhələlərə göz atacaq olarsaq, məktəbə qədər dövürdə uşaqların çox təriflənməsi, etdiyi-istənilən davranışların üzərində çox dayanılması, sevilməyən davranışlarının görməzdən gəlinməsi, eyni zamanda təqlid qabiliyyətləri inkişaf etdiyinə görə nümunə olunması bu mərhələni normal başa vurmağa kömək olacaqdır. Məktəb dövrü uşaqlıq zamanı isə bir öncəki sadalananlarla yanaşı cəza tətbiq edilməsi, ancaq bu cəzanın uşağın özünə qarşı olmadığını sadəcə etdiyi yanlış davranışa görə verildiyinin vurğulanması vacibdir. Təbii ki, cəza yaşa uyğun verilməlidir.

Yeniyetməlik yaş dövrünün əsas xüsusiyyətlərindən biridə onların təkliyə meyilli olmasıdır. Özünə qapanmağı, təkliyi sevməkləri valideynlər tərəfindən səhv başa düşülür. Onlara elə gəlir ki, övladlarının nəsə bir problemi var və buna görə həm narahatlıq keçirirlər həmdə övladlarına təzyiq edirlər. Əslində istisnaları çıxmaq şərti ilə bu onların özlərini daha yaxşı tanımağa, arzu, istəklərini düşünməyə şərait yaradır. Onlarda adətən “mənin” formalaşması dövrüdür bu dövr. Fikir versək bu dövrdə onlar mən, mənim kimi sözlərdən sıxca istifadə edirlər.

Yeniyetməlik yaş dövrü elə bir dövrdür ki, adətən gələcək həyatlarının necə olacağının yaşayacaqlarının təməli qoyulur desək, yerinə düşər. Onlar üçün ətraf mühit çox önəmlidir. Bu zaman həm yeniyetmə, həmdə onların valideynləri çox diqqətli və ehtiyatlı olmalıdır. Kimlərlə dostluq edirlər, kimlərlə münasibət qururlar, hansı mühitlərdə zamanların keçirdirlər. Bunlara fikir vermək çox vacibdir. Çünkü həmin uşaqlar tez təsir altına düşür, manırlar

(deyilənlərə, vədlərə). Valideynlər bəzən övladlarına yanlış davranırlar. Və bu əks nəticə verə bilir. Həmin yeniyetmələrin bu davranışdan xoşları gəlmir və o ailədən uzaqlaşmağa başlayır. Və yanlış mühitə doğru gedirlər. Yeniyetmələr bu dövrdə özləri haqda yüksək düşündükləri üçün onların təriflənməsi, xoş söz deyilməsi xoşlarına gəlir. Ailədən bunu görmədikdə adətən ətraf mühitdə ona bu cür davranan insanlara meyil edirlər.

Bu yaş dövründə yeniyetmələr depressiyaya meyilli olurlar, lakin tez zamanda çıxa bilirlər. Ancaq bunun əksi olarsa intihara yönəlmə halları da baş verir. Buna səbəb onlarda özgüvənin qırılması, sevgi uğursuzluğu, məktəb və ətraf yoldaşları ilə arasında münasibət pozulmaları, pis rəftar, maddi vəziyyət və s ola bilər. Valideynlər əksər hallarda onların seçimlərini bəyənmir və bunu sərt şəkildə dilə gətirirlər. Əslində isə bu səhf yoldur. Valideyn övladına daha mülayim, anlayışlı səviyyədə bunu izah etməyə çalışmalıdır. Çox valideynlər düşünürki, övlada sevgini bildirmək, dilə gətirmək lazım deyil və uşaq bu halda ərköyün olurlar. Ancaq hər bir yaş dövründə ailə sevgisinə, ata, ana nəvazişinə bütün övladların ehtiyacı var. Sevgi ilə böyüyən, sevgidən yoxsul olmayan uşaqlar daha gözəl yetişir, ətrafa, insanlara qarşı daha anlayışlı, mülayim, mərhəmətli olurlar.

## ƏDƏBİYYAT

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya.2-ci nəşri. – Bakı: 2002. –620 s.

2.Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemleri. –Baki:1998. – 255 s.

3.Бодалев А.А. Психология Личности. – Москва: 1988. –188 с.

# IV BÖLMƏ
## Sosial və pedaqoji psixologiya. Pedaqogika

**Çapay QULİYEV**
***Psixologiya üzrə fəlsəfə doktoru,***
***Naxçıvan Müəllimlər İnstitutunun***
***Tədris və tərbiyə işləri üzrə prorektoru***
**E-mail: chapay1981.cq@gmail.com**

## MÜASİR DÖVRDƏ PEDAQOJI KADR HAZIRLIĞINDA İXTİSASA VƏ PEŞƏYƏ MÜNASİBƏTİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

*Açar sözlər:* psixologiya, kadr hazırlığı, münasibət, psixoloji yanaşma, ixtisas, peşə

Müasir dövrdə pedaqoji kadr hazırlığının əmək bazarının tələbləri səviyyəsində aparılması bu prosesə təsir edən amillərin öyrənilməsi əsasında mümkündür. Çünki, təlim prosesində təhsilalanlarda mövcud bilik və bacarıqlarla yanaşı baza təhsil proqramlarının tələblərinə uyğun ömürboyu inkişafı şərtləndirən kompotensiyaların formalaşdırılması bilavasitə bu amillərdən asılıdır. Bu baxımdan təhsilalanların təhsil aldıqları ixtisasa və peşəyə münasibətinin psixoloji məsələlərinin öyrənilməsi mühim amil kimi olduqca aktualıq kəsb edir.

Düzdür düşünə bilərik ki, ixtisas və peşə seçiminin əsası ümumtəhsil məktəblərində qoyulur və abituriyentlər seçimlərinə uyğun olaraq istiqamətləndirilir. Digər tərəfdən əgər burada müəyyən problemlər varsa hələ abituriyent vaxtı aradan qaldırılmalıdır. Yəni, ali təhsil müəssisəsinə gələnə qədər həll edilməlidir. Lakin bu bir gerçəklikdir ki, ümumtəhsil məktəblərində çox hallarda bu məsələlər o qədər də diqqətdə saxlanılmır. Eyni zamanda ixtisas və peşə seçimi zamanı abituriyentlərə kənar təsirlər çox olur. Məsələn valideynlərin təsiri, müəllimlərin təsiri, yoldaşların təsiri və s. Yəni, abituriyentə onun mövcud potensiyalı və bu potensiyala uyğun istəkləri əsasında düzgün pedaqoji-psixoloji dəstək göstərilməsi əvəzinə başqa məsələlərin təsiri altında ixtisasa və peşəyə maraq formalaşdırılır. Eyni zamanda Dövlət İmtahan Mərkəzinin abituriyentlərə hər qrupda 15 ixtisas seçimi etmək imkanı verməsi də ixtisasa və peşəyə münasibətin dəqiqləşməsində təsiredici amillərdən biridir.

İxisas və peşəseçimi bir çox elmlərin maraq darəsində olsa da, həllinə görə pedaqoji-psixoloji problem kimi hazırki dövrdə yeniləşməyə daha çox ehtiyac duyulan vacib problemlərdən birinə çevirilmişdir. 19 iyun 2009-cu ildə respublikamızın prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Təhsil Haqqında Qanunu”nda öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarıqlarının təmin edilməsi ümumi orta

təhsilin, təhsilalanların istedad və qabiliyyətlərinin reallaşdırılması, müstəqil həyata və peşəseçiminə hazırlanması tam orta təhsilin başlıca məqsədlərindən biri kimi təsbid olunmuşdur [2, s. 39].

Pedaqogika elmləri doktoru, professor Müseyib İlyasov ümumtəhsil məktəblərində peşəyə və ixtisasa istiqamətləndirmə sahəsində apardığı tədqiqatlara istinadən qeyd edir ki, "etiraf edək ki, şagirdlərin peşəseçməyə haqırlanması yönümündə bu gün məktəblərimizdə aparılan işlər heç də qənaətbəxş deyildir. Təlim prosesində müəyyən mövzuların öyrənilməsi zamanı şagirdlərin aldıqları peşə məlumatlarından əlavə, demək olar ki, onlara bu sahədə elmi şəkildə əsaslandırılmış peşəyönümü işləri aparılmır. Bunun da nəticəsində seçilən peşə, ixtisas çox vaxt gənclərin ya bacarıq və qabiliyyətlərini, ya da peşə tələbatlarını, maraqlarını və motivlərini bütövlükdə əks etdirə bilmir. Peşə seçimi yalnız fənn müvəffəqiyyətinə görə aparılır ki, bunu da tam müvəffəqiyyətli seçim kimin qiymətləndirmək doğru olmazdı". [1, s.89]

Deməli göründüyü kimi ali məktəblərə qəbula qədər ixtisas və peşə seçimində həll edilməmiş və dəqiqləşdirilməmiş bir çox çatışmazlıqlar özünü göstərir. Bu çatışmazlıqlar isə ali məktəblərdə pedaqoji kadr hazırlığına təsir edən ciddi amillər kimi dəyərləndirilməlidir.

Bu amillərin təsir məsələlərini nəzərə alaraq ixtisas və peşəyə münasibətin pedaqoji kadr hazırlığına təsirinin psixoloji məsələlərinin tədqiq edilməsinə və yeni psixoloji mexanizmlərin müəyyənləşdirilməsinə ehtiyac var.

Bu tədqiqatların aparılmasının məqsədi həm hazırda bu məsələnin orta məktəblərdə həyata keçirilməsi vəziyyətini aşkarlamaq, eyni zamanda pedaqoji kadr hazırılığında ixtisasa və peşəyə müsbət münasibəti formalaşdıracaq psixoloji işin təşkili mexanizmlərini və təsir vasitələrini müəyyən etməkdir.

Tələbələrlə və pedaqoji kadr hazırlığını həyata keçirən professor-müəllim heyəti ilə apardığımız söhbətlər, anket sorğuları və onların müqaisəli təhlili göstərdi ki, tələbələrin bir qrupunda öyrənmə, özünütəhsil motivləri, fənlərə münasibət müsbət xarakter daşısa da, böyük əksəriyyətində qeyd olunan məsələlər bir o qədər də ürəkaçan deyil. Bu isə kadr hazırlığı işinin səmərəli təşkilində əsaslı çətinliklər yaradır. Bütün bunların aradan qaldırılması ciddi elmi-psixoloji yanaşmalar tələb edir.

Fikrimizcə ixtisasa və peşəyə müsbət münasibətin formalaşdıracaq psixoloji işin təşkili və həyata keçirilməsi üçün aşağıdakı mühüm mərhələli addımlar ardıcıl və sistemli şəkildə təmin edilməlidir.

- Tələbələrin seçdikləri ixtisasa və peşəyə münasibəti öyrənilməli;
- Səbəblər və təsir edən amillərin psixoloji xarakteristikası və təsir imkanları araşdırılmalı;
- Öyrənilən psixoloji məsələlər əsasında ixtisasa və peşəyə müsbət münasibəti formalaşdıracaq psixoloji mexanizmlər müəyyənləşdirilməli;

- Həmin mexanizmlərin tətbiqi üçün formalaşdırıcı psixoloji təsirləri özündə ehtiva edən təlim blokları hazırlanmalı;
- Təlim bloklarının tətbiqi və həyata keçirilməsi üçün uyğun mühit yaradılmalıdır.

Psixoloji əsaslara istinad edərək aparılacaq işlər günümüzdə pedaqoji kadr hazırlığının daha səmərəli və uğurlu təşkili üçün ixtisasa və peşəyə müsbət münasibət formalaşdırmaqla mövcud çətinliklərin aradan qaldırılmasında olduqca əhəmiyyətlidir.

Digər tərəfdən pedaqoji kadr hazırlayan professor-müəllim heyətinə bu istiqamətdə ciddi elmi-psixoloji tədqiqatlar əsasında müəyyən edilmiş formalaşdırıcı mexanizmlərin verilməsi, təhsilverənlərin həmin mexanizmlərin tətbiqini özündə ehtiva edən təlim blokları haqqında biliklərinin təkmilləşdirilməsi, konkret yanaşmaları təmin edəcək psixoloji materiallarla təmin edilməsi, tələbələrdə ixtisasa, peşəyə və bu əsasda tədris olunan fənlərə müsbət münasibətin formalaşdırılması işinin səmərəli təşkilinə zəmin yaradacaq. Təhsilverənlər hər biri bu sahədə öz növbəsində etibarlı psixoloji yanaşmanı təmin edə biləcək. Nəticədə pedaqoji kadr hazırlığında ixtisasa və peşəyə mənfi münasibətin yaratdığı çətinliklərin müxtəlif psixoloji təsir mexanizmləri əsasında aradan qaldırmaq mümkün olacaq.

## ƏDƏBİYYAT

1.İlyasov M.İ. Peşəyönümünün əsasları. Dərs vəsaiti. - Bakı: ADPU, 2011, 324 səh.
2.”Təhsil Haqqında” Azərbaycan Respublikasının Qanunu // 1992-ci ildə qəbul edilmişdir. 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanunla qüvvəyə minmişdir. - Bakı: Qanun, 2009.- 108 s.

**Salatın HACIYEVA**
***Naxçıvan Dövlət Universitetinin dosenti***
**E-mail: salatinmehri7298@gmail.com**

# BİRİNCİ SİNİF ŞAGİRDLƏRİNİN MƏKTƏB HƏYATINA ADAPTASİYASI PROBLEMİ

*Açar sözlər:* birinci sinif, şagird, adaptasiya, məktəb, müəllim

Uşağın məktəbə daxil olması onun həyatında yeni mərhələnin başlanğıcını təşkil edir. Oyun uşağın həyatında mühüm yer tutsa da öz aparıcı rolunu itirir, təlim əsas fəaliyyətə çevrilir. Davranış motivləri əsaslı şəkildə dəyişilir. Uşaq məktəbdə onun üçün tamamilə yeni olan şəraitə düşür, ünsiyyət mühiti dəyişilir. Şagirdlər üçün qaydalara əməl etmək, dərsdə sakit oturmaq, sinfə daxil olmaq və ordan çıxmaq müəllimdən icazə istəmək, müəllimin bütün

göstəriş və tapşırıqlarını yerinə yetirmək kimi məsələlər uşaq şəxsiyyətinə ciddi rəsmi tələblər verir. Uşağın məktəbə daxil daxil olması onun həyat və fəaliyyətində ciddi dəyişikliklər əmələ gətirməklə bərabər, məktəblinin cəmiyyətdəki sosial mövqeyini, öz yaşıdları və yaşlılarla ünsiyyət formaları və qarşılıqlı münasibətlərinin də dəyişilməsini tələb edir. Təcrübə göstərir ki, uşaqların hamısı buna hazır olmurlar. Birinci sinif şagirdlərindən bəziləri, hətta yüksək intellektual inkişaf səviyyəsinə malik olanlar belə məktəbin tələblərinə çox çətinliklə adaptasiya olurlar.

Məktəb həyatına adaptasiya – uşaq şəxsiyyətinin sosiallaşması, yeni münasibətlər və ictimai əlaqələrə daxil olması, yeni sosial şəraitə fiziki və psixoloji cəhətdən uyğunlaşması və sistemli məktəb təliminə keçid prosesidir. Adaptasiya prosesinin müddəti bir çox amillərdən asılıdır və bu proses orta hesabla 3-6 ay davam edə bilər. Bu müddət uşağın xarakterindən, onun psixoloji hazırlıq dərəcəsindən, məktəbin tipindən, bilik əldə etməyin çətinlik dərəcəsindən, müəllimin intellektindən və şəxsi keyfiyyətlərindən asılıdır.

Məktəb ilk günlərdən uşağın qarşısına onun intellektual və fiziki gücünün səfərbər edilməsini tələb edən bir sıra vəzifələr qoyur. Düzgün təşkil edilən adaptasiya prosesi təlim prosesinə müsbət təsir göstərir, uşağı yeni biliklər əldə etməyə motivasiya edir, yeni kollektivə asanlıqla daxil olmağa, yeni dostlar qazanmağa imkan verir.

Adaptasiya prosesi brinci sinif şagirdlərinin yeni sosial şəraitə düzgün daxil olması məqsədi daşıyır. Adətən adaptasiya, uşağın məktəb həyatının şətrlərinə alışması prosesi hesab edilir. Əsasən burada şagirdin sosial xüsusiyyətlərinə diqqət yetirilir: müəllimlərlə əlaqə yaranır, uşaq öz məsuliyyətini dərk edir və məktəbin tələblərinə əməl edir, sinif yoldaşları ilə münasibətləri yoluna düşür, mühüm təlim bilik və bacarıqlarına yiyələnir, şagird sinifdə münaqişəli vəziyyət yaratmır.

Yeni təhsil standartlarına görə, ibtidai siniflərdə təlim- tərbiyə prosesinin təşkili zamanı şəxsiyyət yönümlülük, sistemlilik prinsiplərinə xüsusi diqqət yetirmək lazımdır. Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaq və şagirdləri eyniləşdirən metodikadan, hər bir şagirdin "Mən – konsepsiyası"nı aça bilən metodikaya keçmək lazımdır. Bu tələblərə uyğun olaraq, birinci sinif şagirdlərinin adaptasiyası prosesinə yenidən istiqamət verilməli və adaptasiyada daha iki komponentin rolu nəzərə alınmalıdır:

Fiziki adaptasiya gündəlik əhval ruhiyyə, iş qabiliyyətinin səviyyəsi, yuxu, iştaha, xəstəliyin olması, xroniki xəstəliklərin kəskinləşməsi və s. parametrlərlə qiymətləndirilir. Psixoloji adaptasiya birinci siniflərin təlimə və məktəbə motivasiyası, psixi proseslərin inkişaf səviyyəsi, əhval – ruhiyyə, məktəbə hazırlıq və özünüqiymətləndirmə və s. parametrlərlə qiymətləndirilir. Yuxarıda sadalanan meyarlara görə, adaptasiya prosesi uşağın həyatının bütün sahələrini əhatə edir. Birinci sinif şagirdlərinin adaptasiya səviyyəsini aşağıdakı kimi xarakterizə etmək olar:

Yüksək səviyyə - uşağın məktəbə sürətli alışması xarakterizə edilir.

Müsbət təlim motivasiyasına malik olur və təlim materiallarını asan və sürətli mənimsəyirlər, mürəkkəb məsələləri müstəqil həll edir, ösünütəhsil fəaliyyəti ilə məşğul ola bilirlər, müəllimin tələblərinə məsuliyyətlə yanaşırlar, sinifdə çoxlu dostları olur, sağlamlıqla bağlı problemləri olmur.

Orta səviyyə - uşaq məktəbə kifayət qədər uzun müddətə (2-3 aya) alışır, lakin məktəbə gedərkən mənfi hisslər keçirmir. Bəzən səbəbsiz əhval düşkünlüyü, yorğunluq müşahidə olunur. Müəllimin əyani izahını yaxşı başa düşür, dərs proqramının əsas materialını mənimsəyir, müxtəlif tipli tapşırıqları yerinə yetirirlər, səbrli və diqqətlidirlər. Müəllimin tapşırıqlarını onun nəzarəti altında könüllü yerinə yetirirlər. Sinif yoldaşlarının əksəriyyəti ilə dostluq münasibətlərinə malikdirlər.

Aşağı səviyyə - uşaq məktəb həyatına alışmaqda olduqca çətinlik çəkir, məktəbə mənfi münasibət bəsləyir. Intizamı poza bilir, dərslərə maraq göstərmir, materialı hissə - hissə mənimsəyir. Çox vaxt əhval-ruhiyyəsi aşağı olur və bundan şikayətlənirlər, sinif yoldaşları ilə az ünsiyyətdə olur, demək olar ki, çoxunun adını bilmirlər.

Müəllimlər tərəfindən xüsusi təşkil edilmiş təlim prosesi və psixoloji dəstək olmadıqda uşaq məktəbə yalnız orta səviyyədə alışa bilər. Təhsil standartlarına uyğun olaraq uşağın sağlamlığı üçün əlverişli mühit yaratmağa yönəlmiş və şəxsiyyətin hərtərəfli ahəngdar inkişafına xidmət edən pedaqoji – psixoloji şərait yaradılmalıdır.

Birinci sinif şagirdlərinin məktəb həyatına uğurla alışmaları üçün bəzi şərtlərin yerinə yetirlməsi təmin edilməlidir:

-təlim- idrak fəaliyyətinin 6 yaşlıların yaş xüsusiyyətlərinə uyğun təşkili;
- əlverişli ünsiyyət şəraitinin yaradılması;
- sağlamlıqla bağlı profilaktik işlərin aparılması;
-sanitar – gigiyenik tələblərə əməl edilməsi;
- dərsədn kənar asudə vaxtın təşkili;
-şagirdin yeni statusuna ailənin müsbət münasibətinin formalaşması;
-adaptasiya səviyyəsinin davamlı monitorinqinin keçirilməsi.

Bütün bu göstərilənlərin səmərəli şəkildə həyata keçirilməsində pedaqoqların peşəkarlıq səviyyəsi mühüm rol oynayır. Müəllimlərin pedaqoji ustalığı, interaktiv metodların tətbiqi adaptasiyanın formalaşmasına kömək edir. Müəllilin ünsiyyətliliyi, xüsusilə demokratik mövqe tutması adaptasiyanın yaranmasına kömək edir.

Birinci sinif şagirdlərinin məktəbə adaptasiyası bütün təhsil sistemi üçün aktualdır. Adaptasiya mərhələsində valideynlərlə aparılan iş onların pedaqoji savadının yüksəldilməsinə yönəldilməli, bu məqsədlə valideyn toplantıları keçirilməli, adaptasiya çətinlikləri ilə bağlı məsləhətlər hazırlanmalı, fərdi məsləhətlər təşkil edilməlidir. Bu mərhələdə həll edilməli əsas məsələ, uşağın fərdiliyini qorumaq, dəstəkləmək və inkişaf etdirməkdir.

ƏDƏBİYYAT

1. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. – Bakı: 2002.
2. Əmrahlı L., Rzayeva N. Uşaq psixologiyası. – Bakı: 2015.
3. Həmzəyev M. Pedaqoji psixologiya. – Bakı: 1991.

**Cəfər İBRAHİMOV**
***Gəncə Dövlər Universitetinin***
***Psixologiya kafedrasının dosenti***
**E-mail: ibrahimov-cefer@list.ru**

# TƏLİM PROSESİNDƏ MÜƏLLİM - ŞAGİRD ƏMƏKDAŞLIĞI VƏ PRODUKTİV TƏFƏKKÜRÜN İNKİŞAF DİNAMİKASI

*Acar sözlər:* təhsil, innovasiya, yeni pedaqoji təfəkkür

Məlumdur ki, yüksək peşəkarlığa və təhsilə malik kadrlar olmadan cəmiyyətdə ictimai – iqtisadi və mədəni tərəqqi mümkün deyildir. Ona görə də cəmiyyətdə olduğu kimi təhsildə də innovasiyalar cəmiyyətin özünün və ona məxsus təhsil sisteminin yenidən qurulmasının həm nəticəsi, həm də səmərəli vasitəsidir.

Müasir mərhələdə elmi informasiya çox sürətlə köhnəlir, hətta bəzən bu gün dərsliyə daxil edilən məlumat bir neçə ildən sonra sıradan çıxmalı olur. Elə hallar da müşahidə edilir ki, uzun əsrlər boyu dünya alimlərinin aksiom kimi qəbul etdikləri biliklər indi faktlarla təsdiqlənmir və rədd edilir. Ona görə də, prof. Ə.Əlizadə haqlı olaraq müəllimləri nəzəri cəhətdən daha çox silahlandırmağı təhsil islahatının, yeni pedaqoji təfəkkür hərəkatının həll edilməsi problemi hesab edir. Hazırda fənn müəllimlərinin mükəmməl biliyə malik olması, bunun üçün onların daha çox elm, bilik axtarması, metodikalarında mövcud cəhətlərə əlavələr edə bilmək barədə düşünmələri, necə deyərlər, yenilik (innovasiya) sorağında olmaları da yeni pedaqoji təfəkkürdür.

Müəllim öz işini nəzəriyyədən təcrübəyə, təcrübədən nəzəriyyəyə doğru apara bilmək istiqamətlərində qurursa, şagirdlərdə analitik – sintetik düşüncə - keyfiyyət göstəricisinə cevrilir. Bu keyfiyyətlər şagirdlərə təsir göstərə bilirsə, deməli fikir üst qatdadır ki, üst qat da həmişə yeni sayılır. Prof. Ə.Əlizadəyə görə, üst qatlardan külçəyə aparan yol nəzəriyyələrə, qanunlara, ideyalar toqquşmasından çıxan şimşəklərdir ki, zülmət gecələri parçalayıb bizi aydın səhərlərə doğru aparır.

Müəllim yeni pedaqoji təfəkkürlə işləmək istəyirsə, dəqiq elmlərə də, pedaqoji – psixoloji elmlərə də, pedaqogika və psixologiyada olan klassik və müasir cərəyanlara da bələd olmalıdır.

Müasir psixologiyada başqa adamı anlamağın xüsusiyyətləri – identifikasiya, rolun qəbul olunması, nöqteyi nəzərin və mövqenin dəyişdirilməsi və s. təsvir olunmuşdur. Onlardan fərqli olaraq empatiya başqa adamın hisslərinə nüfuz etməyi nəzərdə tutur, özünün bu xüsusiyyətlərinə görə müəllimin şagirdi anlamasında daha mühüm rol oynayır.

Müasir təhsil konsepsiyası didaktik və təşkilatçılıq qabiliyyətlərinin əhəmiyyətini qətiyyən azaltmadan bu gün, təhsilin hümanistləşdirilməsi şəraitində kommunikativ və perseptiv, ekspressiv və konstruktiv qabiliyyətlərin əhəmiyyətini xüsusi vurğu ilə dəyərləndirir. Müəllimin şagirdlərlə qarşılıqlı münasibətlərinin inkişafı baxımından bu qabiliyyətlər, ilk növbədə kommunikativ qabiliyyətlərin xüsusi yer tutduğunu göstərir.

Aydındır ki, məktəb şagirdlərdə müstəqil,yaradıcı təfəkkür qabiliyyəti formalaşdırır, vətənin müqəddəratı üçün onların məsuliyyət hissini gücləndirir. Bu vəzifələr tədris edilən fəndən asılı olmayaraq bütün müəllimlərə eyni dərəcədə aiddir. Təlim məqsədləri, sinifdənxaric işlər bu vəzifənin yerinə yetirilməsinə istiqamətlənməlidir. Burada müəllimin tətbiq etdiyi təlim metodlarının, xüsusən müstəqil iş metodlarının rolu böyükdür.

Təlimin başlıca vəzifələrindən biri şagirdlərə öyrənməyi öyrətmək, onların biliklərə şüurlu yiyələnmələrini təmin etməkdir. Təhsilin keyfiyyəti təlimin yeni müasir texnologiyasını və tədris prosesini bilavasitə reallaşdıran müəllimin yaradıcı potensialından, öz üzərində işləməsindən, peşəsini ürəkdən sevməsindən asılıdır. Şagirdlərin ümumi inkişafında əsas məqsəd hərtərəfli inkişaf etmiş, hümanist yönümlü şəxsiyyət yetişdirməkdən ibarətdir. Bu isə yeni texnologiyalar şəraitində hər bir şagirdə fərdi xüsusiyyətləri nəzərə almaqla yanaşmağı tələb edir.

Təlim metodları dövrün tələblərindən asılı olaraq daim yeniləşir və müasirləşir. Hazırda,interaktiv təlim metodlərından istifadəyə geniş yer verilir. Bu sahədə psixoloji – pedaqoji ədəbiyyatda bir çox fikirlərə rast gəlirik. Müəllimlərimiz həmin ideyalardan bəhrələnərək öz işlərini yeni tələblər səviyyəsində qura bilərlər.

## ƏDƏBİYYAT

1.Əlizadə Ə. Şagirdin yaxşı oxuya bilməsi və yaxşı oxumaq istəməsi üçün şəraitin yaradılması. "Azərbaycan məktəbi", № 6, 2000, s. 3-17.

2.Qəmbərov A. Yeni təlim texnologiyalarından istifadə etməklə şagirdlərin müstəqil işlərinin təşkili təcrübəsindən. "Azərbaycan məktəbi", № 3, 2008, s.109-112.

**Gültəkin İSMAYILOVA**
***Azərbaycan Milli Elmlər Akademiyası***
***Fəlsəfə və Sosiologiya İnstitutunun Sosial***
***psixologiya şöbəsinin elmi işçisi***
**E-mail: gulya.alibekova@rambler.ru**

*Açar sözlər:* qələbə, vətənpərvərlik, müharibə, ekstremal situasuya, sərhəd vəziyyətlər, kollektiv motivasiya

Hər bir dövlətin qüdrətini şərtləndirən amillər arasında iqtisadi yüksəliş və güclü ordu böyük rol oynayır. İftixar hissi ilə demək olar ki, ölkəmiz nəinki iqtisadi və siyasi uğurlara nail olmuşdur, eyni zamanda, ordu quruculuğu prosesində böyük nailiyyətlər əldə etmişdir. 44 günlük müharibə və sonrakı aylarda baş verən proseslər, əhalinin və müharibə iştirakçılarının bütün ziddiyyətlərini, yaş sərhədlərini aradan qaldırdı. Bu, onların hamısının vahid məkanda olduğu, vahid qaydalara tabe olduğu, vahid məqsədə can atdığı üçün baş verdi. Vətən müharibəsi cəmiyyəti xüsusi sosial-psixoloji xüsusiyyətləri ilə seçilən və eyni əhval-ruhiyyə ilə birləşən vahid bir cəbhəçi nəslinə birləşdirdi, insanların özünüdərk və özünüidentifikasiyası meyarına çevrildi.

Əfsanəvi "Müharibə Sənəti" traktatının müəllifi Qədim Çin strateqi Sun Tzu müharibənin beş əsas şərtini belə ifadə etmişdi. "Birincisi-yol, ikincisi-göy, üçüncüsü-yer, dördüncü-komandir, beşinci-qanun. Bu yol xalqın fikirlərinin hökmdarın fikirləri ilə eyni olmasıdır. İnsanlar onunla birlikdə ölməyə hazır olduqda isə, heç bir qorxu, heç bir şəkk-şübhə olmur. Göy işıq və zülmət, soyuq və istidir, bu zamanın nizamıdır. Yer uzaq və yaxın, qeyri-bərabər, geniş və dar, ölüm və həyatdır. Komandir ağıl, qərəzsizlik, insanlıq, mərdlik, sərtlikdir. Qanun hərbi sistem, əmr və təchizatdır. Bu beş amili mənimsəyən şəxs qalib gəlir”. Yəni müharibəni uğurla aparmaq üçün xalqın və hökmdarın yekdilliyi, onun vaxtının uyğun gəlməsi, məkan uyğunluğu, düzgün rəhbərliyi, bacarıqlı ordusu, habelə mütəşəkkilliyi və intizamlılığı lazımdır. Müasir dövrdə buna informasiya təbliğatını da əlavə etmək olar. Bütün bu amillər səmərəli rəhbərliyi ilə xalqın birliyini, ordu və cəmiyyətin müharibəyə hazır olmasını təmin edən savadlı lider tərəfindən həyata keçirilir. Keçmiş zamanlarda müharibələrdə “Yanmış torpaq” adlı taktikadan istifadə olunurdu. İşğalçı ordu geri çəkilmək məcburiyyətində qalanda infrastrukturu dağıdıb talayıb, götürə bilmədiklərini isə yandırırdı. Bu həm də ona görə edilirdi ki, yerli əhali – torpağın əsl sahibləri daha bu yerlərdə məskunlaşa bilməsinlər. 1977-ci ildə Cenevrə Konvensiyasının 1 saylı Protokolunun 54-cü maddəsi yandırılmış torpaq taktikasını qadağan edərək, belə hərəkətləri müharibə cinayəti kimi tanımışdı [5].

Ermənilər XXI əsrdə bütün sivil dünyanın gözü qarşısında barbarlara xas olan bu taktikadan istifadə etmişlər. Buna görə də döyüş əməliyyatları başa çatdıqdan dərhal sonra dağılmış Qarabağ şəhər və kəndlərinin bərpası üzrə planların icrasına başlanıldı. Müharibədən sonrakı il bərpa proqramları ilə

başlasada, qələbə eyforiyası üstünlük təşkil edirdi. Dəyişikliklərin gözləntiləri müharibədən sonrakı illərin xüsusi psixoloji əhval-ruhiyyəsini, onların özünəməxsus koloritini yaratmaqda davam edir. Bundan sonra yeniliklərə münasibət sosial davranışın əsas motivinə çevrilir. Bu hadisənin böyük tarixi əhəmiyyəti vardır və Azərbaycan xalqının vətənpərvərliyini, təcavüzkar xarici təzyiq şəraitində düşmən qarşısında birlik potensialını göstərdi. Azərbaycan ordusu nəinki əzəli torpaqlarını işğaldan azad etdi, həm də öz tarixində tamamilə yeni bir səhifə açdı. 44 günlük II Qarabağ müharibəsinin nəticələrini təhlil edərkən onun hərbi-texniki ölçüsü ilə kifayətlənmək olmaz. Azərbaycan hərbçilərinin şəxsi şücaəti, məsələn, Azərbaycan Ordusunun Şuşaya qəhrəmancasına atılması, ağır texnikasız dağ və meşə massivləri ilə hərəkət edərkən hərbçilərimizin öz üzərlərində silah-sursat daşıması hərbi tarixinə düşə biləcək bir nümunədir. Hərbi güc dövlət uğurunun göstəricilərindən yalnız biridir, onun iqtisadi inkişafı və siyasi qətiyyətindən xəbər verir. Müharibədən sonrakı müasir cəmiyyətin vəziyyətini araşdırarkən(ictimai-siyasi mühit, ictimai fikrin formalaşması və fəaliyyət mexanizmləri, insanların əhval-ruhiyyəsi), adətən "müharibə fenomeni" anlayışından istifadə olunur. İkinci Qarabağ müharibəsi fenomeni dedikdə, onun insanların mənəvi-psixoloji və əxlaqi-siyasi münasibətlərinə müstəsna təsiri başa düşülür. Bu konsepsiya tariximizin yeni dərk edilməsi üçün bir növ metodoloji açara çevrilmişdir. Nəsillərin şüurunda həkk olunmuş müharibə fenomenini dərk etmədən bütün müharibədən sonrakı tarixi, sosial davranış mexanizmlərini, insanların hiss və əhval-ruhiyyələrindəki dəyişikliyi başa düşmək mümkün deyil [8].

Qalib obrazının tərbiyəvi potensialı Qələbənin tarixi əhəmiyyəti ilə müəyyən edilir- Qələbə daha çox Vətəni qorumaq borcunun mənəvi missiyasının dərk edilməsi sayəsində əldə edilmişdir; Vətən müdafiəçilərinin şəxsiyyətində fərdin və cəmiyyətin vəhdəti müharibənin ədalətli məqsədlərinin həyata keçirilməsinə əsaslanır. Bu, müharibə zamanı, hətta qələbəyə qədər əsgərin mətanətini, cəsarətini və fədakarlığını təmin edir. Ordu ilə xalqın, arxa cəbhənin birliyinə sonsuz inam, Vətənin müdafiəçisinin yüksək mənəvi ruhu; əsgər və sıravi vətəndaşların qəhrəmanlıq hərəkətinə,şücaətə hazır olması cəbhədə və arxa cəbhədə kütləvi qəhrəmanlıq fenomeninin yaranmasına gətirib çıxarmışdı, bu da müasir gənclərin mənəviyyatının və vətənpərvərliyinin formalaşmasında çox vacibdir.

Daha bir mühüm amil gənc nəslin yetişdirilməsi ilə bağlıdır. Əgər vətəndaşlarımız torpaq uğrunda, Vətən uğrunda mübarizədə öz gücünü göstərməsəydilər, nə sursatın, nə güclü iqtisadiyyatın, beynəlxalq aləmdə uğurun, bütün başqa amillərin heç bir əhəmiyyəti olmazdı. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə işlərinə dövlət səviyyəsində çox böyük diqqət göstərilmişdir və bu məsələ həm ölkədə, həm də xaricdə bütün tədbirlərdə bütün tribunalardan qaldırılmışdır. Azərbaycan Ordusunun qələbəsini bütün bu amillərin vəhdəti şərtləndirmişdi. Birinci Qarabağ müharibəsindən sonra, Azərbaycan torpaqlarını geri qaytarmaq üçün bütün qüvvələrini iqtisadiyyatın və

ordunun sürətlə bərpasına yönəltmişdi. "Məğlubiyyət kompleksi" milli şüura təsir etsə də, Azərbaycan xalqını sındırmadı, əksinə, onu aktiv fəaliyyətə sövq etdi. Yuxarıda qeyd edilən Sun Tzunun dediyi kimi: "İnsanların düşüncələri hökmdarın düşüncələri ilə eyni olduqda yol qət olunur". Öz torpaqlarının qaytarılması məsələsində xalqın və onun liderinin - İlham Əliyevin birliyi danılmaz bir faktdır. Bütün cəmiyyətimiz, gənc nəsil, bütün vətənpərvər insanlar tarixi ədalətin bərpası ideyası ilə yaşayırdılar. Dünyanın aparıcı hərbi analitiklərinin qiymətləndirməsinə görə, Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqaz regionunda ən güclü silahlı qüvvələr hesab olunur. Bununla yanaşı, Azərbaycan uzun illər məsələni sülh yolu ilə ardıcıl surətdə həll etməyə çalışıb [2].

Mənəvi identikliyin formalaşması böyük müharibə tarixi ilə bağlı hadisələrin, tərbiyəvi işlərin modelləşdirilməsi ilə baş verir. Debatlar, diskussiyalar, rekonstruksiyalar gənclərin hisslərinə təsir edərək, onların mənəvi-əxlaqi birliyinə töhfə verir, şəxsiyyətin ictimai şüurunu, kollektivizm və qarşılıqlı məsuliyyət ruhunu formalaşdırır. Şəxsiyyətin tarixi şüurunun vətənpərvərlik davranışının vəhdətinin təmin edilməsində həlledici rol onun mənəvi-iradi fəaliyyətinə aiddir. Elmi nöqteyi – nəzərdən döyüşçülərin fəallığı və nəticə etibarilə qələbənin əldə edilməsini bir çox amillər müəyyən edir. Bu, məsələn, döyüş əməliyyatlarının intensivliyi və müddəti, silah növü, əsas qüvvələrdən təcrid olunma dərəcəsi, düşmənin informasiya təsiri və s.. Əlverişsiz ekoloji şərait, psixofizioloji faktorlar (həddindən artıq fiziki yüklənmə, yorğunluq, yuxusuzluq) da əsgərlərin vəzifələrini əhəmiyyətli dərəcədə çətinləşdirə bilər.

Psixoloji və xüsusilə sosial-psixoloji amillər isə, əksinə, Qələbənin hazırlanmasında müsbət rol oynamışdır. Psixoloji amillərə döyüşə hazırlıq, stressə qarşı müqavimət, döyüşçülərin davranış motivləri, onların emosional və iradi münasibəti, ekstremal vəziyyətlərdə müəyyən mübarizə strategiyalarının seçilməsi, psixi özünütənzimləmə üsullarına yiyələnmə daxildir. Ordunun psixoloji vəziyyəti üçün qorxu, qeyri-müəyyənlik hissi, düşmən hücumunun gözlənilməzliyi böyük əhəmiyyət kəsb edir. Sosial-psixoloji amillər əsgərlərin döyüş davranışı və münasibətləri üçün geniş sosial motivlərin formalaşmasının əsasıdır. Bunu bütün müharibələr və hərbi sənət tarixi sübut edir. Qələbəmizin ən vacib şərti Azərbaycan hərbçilərinin ruhunun qüvvəsi idi. Uzun və faciəli məğlubiyyət dövründən sonra bu gücün formalaşması xalqın müharibəyə münasibətindən, kütlələrin şüurunda müharibənin əhəmiyyətindən çox asılı idi: müharibənin məqsədi, müdafiə və ya azadlıq xarakter daşıması və s. Bu və digər məsələlər ordunun hərbi fəaliyyətinə bir məna verir. İnsanların şüurunda müharibə obrazı döyüş əməliyyatlarının nə qədər uğurla və kimin ərazisində aparılmasından, eləcə də ölkə əhalisinin hansı hissəsinin fiziki və psixoloji cəhətdən onlarda iştirak etməsindən asılı olaraq bu və ya digər emosional rəng alır [3].

## DÖYÜŞ ŞƏRAİTİNDƏ ƏSGƏRİN PSİXİKASINA TƏSİR EDƏN AMİLLƏR

Döyüş stressi ekstremal vəziyyətdən çıxmaq üçün bədənin, immun, qoruyucu, sinir, psixi sistemlərin bütün mövcud imkanlarının səfərbər edilməsi prosesidir. İnsan döyüş şəraitində sağ qalmaq üçün döyüş tələblərinə uyğun olaraq bütün varlığını yenidən qurmalıdır -sayıqlıq və aktivlik səviyyəsi, reaksiyaların sürəti, davranış tərzi və s.  Müharibənin stress amillərinə uyğunlaşma prosesi döyüş stressi adlanır. Ordunun döyüş fəaliyyətinin müvəffəqiyyəti, əsasən, əskərlərin kollektiv motivasiyası, psixoloji statuslarından məmnunluq kimi amillərin inkişaf səviyyəsi ilə müəyyən edilir. Hərbi kollektivdə qarşılıqlı münasibətlər əsgərlərin döyüşə hazırlığının nəticələrinə, qruplaşmanın səviyyəsinə, mənəvi-psixoloji ab-havaya birbaşa təsir göstərir. Döyüş hərəkətlərinin güclü motivatoru və əsgərlər üçün ən təsirli "psixoterapevt" hərbi kollektivdir. Kollektivizm münasibətləri, hərbi hissənin birliyi ayrı-ayrı hərbçilərin yüksək psixoloji sabitliyinin və fəallığının qorunması üçün bir növ əsas kimi çıxış edir. Bir-birini yaxşı tanıyan hərbçilərdən (qohumlar, həmyerlilər və s.) ibarət qruplar, bir qayda olaraq, böyük fəallıq, təşəbbüskarlıq, mətanət nümayiş etdirirlər. Qrupun etibarını itirmək, qorxaqlıq üzündən mənəvi cəhətdən təcrid olunmaq qorxusu cəsarətli işlər görməyə sövq edir [7].

Kollektiv motivasiya döyüşçülərin öz hərəkətlərini əlaqələndirmək, yoldaşların əldə etdiyi uğurun qarşılıqlı dəstəklənməsi və inkişaf etdirilməsi cəhdidir. Bu, şəxsiyyətin kollektivizminin praktiki təzahürüdür. Əskərlərin kollektiv fəaliyyət göstərmək, bir-birinə kömək etmək cəhdləri həm də onların qarşılıqlı asılılığını dərk etmələrinin, kollektivin uğurlarına öz şəxsi uğurlarına tabe olmalarının zərurətindən irəli gəlir. Bununla da onlar bir-birini ümumi təhlükədən qoruyur və təhlükəsizliyə təminat verirlər. Döyüş koordinasiyası hərbi komandanın vahid orqanizm kimi istənilən vəziyyətdə hərəkət etmək bacarığıdır. Döyüş ahəngdarlığı xidmətin dəqiq təşkili, mükəmməl hazırlığı, hər bir hərbi qulluqçunun çalışqanlığı, onların taktiki düşünmə qabiliyyəti, komandirin planını başa düşməsi, fəal işləmək istəyi ilə əldə edilir. Döyüş şəraitində əsgərin psixikasına təsir edən amillər- sərhəd vəziyyətindəki qorxu problemi və onun dəf edilməsi, döyüş mühitində fatalizm və xurafat, döyüşçünün davranışının motivləri onun sağ qalmasında mühüm rol oynayır. Bu zaman insan həyatla ölüm arasında sərhəd vəziyyətinə düşür. "Sərhəd vəziyyəti" anlayışı ekzistensialistlər M. Haydegger və K. Yaspers tərəfindən alman fəlsəfəsində ifadə edilmişdir. K. Yaspersin sözlərinə görə, ekzistensiyanın, yəni özünü mövcud olan bir şey kimi dərk etmək qabiliyyətinin aşkarlanması baxımından, sərhəd vəziyyətləri xüsusilə vacibdir. İnsanın müharibə təcrübəsi sərhəd vəziyyətinin ən bariz nümunəsidir. Cəbhədə insan həyatı bir-birini əvəz edən və tədricən daimi amilə çevrilən sərhəd vəziyyətləri ilə son dərəcə zəngindir. Döyüş psixologiyası çoxşaxəlidir: müharibə bütün insan keyfiyyətlərinə toxunur, döyüşdə əvvəllər gizlənmiş çox sayda fərdin keyfiyyətləri özünü göstərir. Həyat və sağlamlıq üçün daimi təhlükə, döyüş şəraitinin daim dəyişməsi, çox vaxt insan imkanlarının həddini aşan

uzunmüddətli yüklənmələr, döyüş yoldaşlarının itkisi döyüşçülərin psixikasına böyük təsir göstərir. Müharibədə şücaət həm insanın şüurlu könüllü seçimi, fədakarlığa hazır olması, həm də şüursuz bir impulsun nəticəsi ola bilər.[6]

Dağıdıcı xarakterinə baxmayaraq, müharibənin adekvat qavrayışı, yeni real təcrübənin mənimsənilməsi ilə artır. Ölüm təhlükəsinin, çətinliklərin, daimi fiziki və əsəb gərginliyinin təsiri altında həm müsbət, həm də mənfi keyfiyyətlər önə çıxır. Müharibənin ən fəlakətli və əsas psixoloji problemlərdən biri — müharibə şəraitində öldürmə vərdişinin əldə edilməsidir. Ekstremal döyüş vəziyyətində, ölüm gündəlik həyatın adi elementinə çevrilir, insan başqasının və öz ölümünün mümkünlüyünə dair düşüncələrə alışır, özünü qoruma hissləri zəifləyir. Özünü qoruma instinkti və təhlükəyə təbii psixoloji reaksiya nəticəsində yaranmış qorxu müharibənin ayrılmaz hissəsidir. Ölüm qorxusundan tamamilə qurtulmaq mümkün deyil, çox vaxt insanın cəbhədə uzun müddət qalması, həddindən artıq yorğunluq, gücün tükənməsi qorxu hissini azaldır. Əsgərləimizi döyüşə aparan əsas motivlər bir tərəfdən düşmənə qarşı nifrət, vətənpərvərlik, digər tərəfdən isə hərbi intizam, qəhrəmanlıq nümunələri və simvolları, yoldaşlarının qarşısında öz şücaəti və mərdliyi ilə fərqlənmək istəyi idi. Cəbhədə baş verən hadisələr barədə vaxtında aldığı müsbət məlumatlar da əskərlərin döyüş qabiliyyətinə və mənəvi ruhuna mühüm təsir göstərmişdir. [3]

Hücum əməliyyatları döyüşçülərin davranış fəaliyyətinə güclü təsir edir, onun enerjisi, dinamikası döyüşçülərin kütləvi qəhrəmanlığının, döyüş təşəbbüsünün inkişafına kömək edir. Bu, əsasən psixi təqlid prosesi vasitəsilə baş verir. Onlar məlum psixoloji qanunauyğunluğun əsasını təşkil edir: ümumi döyüş uğurları, kütləvi döyüş həvəsi fonunda hətta qətiyyətsiz insanlar fəallıq və sərbəstlik nümayiş etdirirlər. Müharibə və digər silahlı münaqişələr təcrübəsi göstərir ki, döyüşçülərin hücuma üstünlük vermələri ilk döyüşlərin və əməliyyatların uğurlu keçməsi və qələbəyə inamın psixoloji effekti ilə bağlıdır. Hücuma keçid əskərlər arasında sosial-psixoloji əlaqələrin nəzərəçarpacaq dərəcədə güclənməsi və fəallaşması, hərbi bölmələrin birləşməsi, onların idarəolunması, nizam-intizamın yüksəlməsi ilə müşayiət olunur. Kollektivizm, qarşılıqlı yardım münasibətləri, psixoloji baxımdan döyüşçüləri daha az psixoloji səylərlə mürəkkəb və təhlükəli məsələlərin həllinə sövq edir.

Hərbçilər, ümumiyyətlə, cəmiyyətdə hökm sürən əhval-ruhiyyəni mənimsəyir, döyüş davranışı üçün müvafiq münasibət və motivləri formalaşdırır. Tədqiqatçılar belə bir psixoloji qanunauyğunluğu təsdiqləyirlər: qalibiyyət döyüşçünün və bütün xalqın ürəyinə yaxın olan ideyalara əsaslanır. Döyüşçülərin mənəvi-psixoloji durumu xalqın öz ordusuna münasibətinin nə dərəcədə müsbət olmasından asılıdır. Ordunun döyüş ruhunun mühüm amili xalqın rəqibə olan münasibətidir. Beləliklə, müharibə şəraitində cəmiyyətin və onun ordusunun psixologi vəziyyəti arasında qarşılıqlı əlaqəni əks etdirən özünəməxsus sosial - psixoloji qanuna əsasən, döyüşən ordunun mənəvi-psixoloji vəziyyətinin əsas mənbəyi təkcə onun daxilində deyil, həm də maraqlarını müdafiə etdiyi cəmiyyətdədir. Sosial amillər sırasında döyüş

əməliyyatları aparılan ərazilərdə əhalinin münaqişə tərəflərinə münasibəti önəmli rol oynayır. Məsələn, müsbət əhval-ruhiyyəli əhali "özününkülər"i psixoloji, maddi və fəal dəstəkləyir. Dezinformasiya isə orduda çaşğınlıq yaratmaq iqtidarındadır [5].

Liderə və ordu komandanlığına etimad sosial-psixoloji fenomen kimi əsgərlərin döyüş qabiliyyəti üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan əsgərlərinin ruhunun güclənməsi və ordunun döyüş qabiliyyətinin möhkəmləndirilməsi üçün təşviqat və təbliğat, ideologiya geniş istifadə edilmişdir. Lakin istənilən rasional ideologiya, təbliğat yalnız şüurun, emosional sferanın müvafiq xarakteristikalarına, fərdlərin və qrupların təhtəlşüur quruluşlarına əsaslandıqda səmərəli olur. Qələbəyə, öz haqq işinin uğuruna inam, döyüşçülərin özünüqoruma motivasiyası ilə birlikdə yaradıcı təfəkkürün səfərbər olunmasına, insanı faciə və ölüm üzərində yüksəldən təşəbbüskarlığın fəallaşmasına səbəb olmuşdur. Motivasiya və onunla bağlı olan cəsarət anlayışı əsrlər boyu dünyanın bütün ordularında yetişdirilən ənənəvi fədakarlıq şücaəti ilə müqayisədə aşkar üstünlüklərə malikdir. Nəticədə döyüşən ordunun yeni istiqamətlərə gətirib çıxaran psixoloji dönüş prosesi qorxunun aradan qaldırılmasından, insanın öz üzərində etdiyi səylərdən başlayır. Qorxu insanı ruhdan salır, iradəsini iflic edir, onu laqeyd, hərəkətsiz edir. Effektiv qarşıdurma qabiliyyəti isə yalnız müharibədə sağ qalma, çətinlikləri və sınaqları dəf etmək üçün müsbət təcrübə toplandıqca formalaşır. Bu təcrübədə üç əsas element var: birincisi, hərbçi həyatına uyğunlaşma; ikincisi, döyüşçülərin, eləcə də döyüşçü və komandirlərin bir-birinə inamının yaranması və möhkəmlənməsi; üçüncüsü, döyüşdə davranışın rasionallaşdırılması, mürəkkəb və qeyri-standart şəraitdə vəzifələrin müstəqil həlli. Uyğunlaşmanın vacib anı döyüşçülər və komandirlər arasında, döyüş meydanında düşməni məğlub etmək bacarığında özünə inamın gücləndirilməsidir [2].

Uyğunlaşma silahdaşları ilə sabit münasibətlər qurmaq bacarığında özünü göstərir, bu münasibətlər ordu kollektivizminin ən mühüm əsası olan etimad mühitindən kənarda qeyri-mümkündür. Gərgin döyüş əməliyyatları şəraitində cəbhə həyatının müxtəlif mühəndislik, maddi-texniki, təsərrüfat və digər işlər yalnız birlikdə uğurla yerinə yetirilə bilər. Əskərlərin şəxsi keyfiyyətləri, onların üstünlükləri, çatışmazlıqları və zəif tərəfləri ünsiyyətdə tez aşkar olunur və dərhal əlaqələndirilməli, şəraitə uyğunlaşdırılmalı, ehtiyaca tabe olmalıdır.Müharibədə insanın xarakterinin xüsusiyyətləri kimi ünsiyyətdə açıqlıq və şəxsi etimad yalnız sağ qalmaqın şərti deyil. İnsanların münasibətlərində onlar daha dərindən təzahür edirlər: qarşılıqlı yardım, sınaqlarda birlik, yoldaşlıq, məşhur cəbhə dostluğu və qardaşlığı kimi. Səngərlərdə olan yoldaş və komandirlərə inam, tutduqları mövqeləri tərk etməyəcəklərinə əminlik, çaşqınlıq təzahürlərinin qarşısını alır [4].

Burada təkcə əsgərin şəxsi inkişaf potensialı və psixoloji üstünlükləri deyil, həm də müharibənin ilk günlərində baş vermiş, müharibədə qələbənin təmin edilməsində önəmli rol oynamış psixoloji dönüşün nəticəsi ortaya çıxır.

İdeologiya və təbliğatın müharibə iştirakçılarının şüuruna nüfuz etməsinin dərinliyi və səmərəliliyi, düşmən üzərində qələbənin təmin edilməsində rolu onların kütləvi və fərdi psixologiya ilə qarşılıqlı əlaqəsi nəzərə alınmaqla qiymətləndirilməlidir. Bir çox müharibə şahidlərinin vurğuladığı ruhun gücü müharibə və bütövlükdə böyük qələbə zamanı həlledici amillərdən biri idi. Ancaq hər hansı rasional ideologiya və təbliğat yalnız onlara uyğun olan şüurun obrazlı təbəqəsinə, emosional fona, fərdlərin və qrupların şüuraltı köklərinə düşdükdə təsirli olur. Əsgərlər arasında "həyat cəsarəti" anlayışının formalaşması, öz səyləri ilə qələbəni yaxınlaşdırmaq, hərbi gündəlik həyata tədricən uyğunlaşma yolu ilə qorxuya qalib gəlmək, yoldaşlarına və komandirlərə inamla yaradılır. Buna döyüş vəziyyətlərinin, düşmənin hərəkətlərinin daimi rasional təhlili də daxildir. Bütün bu psixoloji komponentlərin əsgərlər arasında formalaşması Azərbaycan ordusunun döyüşçülərinin və komandirlərinin əhval-ruhiyyəsinin əsaslı şəkildə dəyişməsinə səbəb olmuşdu. Azərbaycan informasiya müharibəsi sahəsində də Ermənistan üzərində qələbə qazanmasında və yalan xəbərlərin vaxtında təkzib edilməsində, video sübutlarla təqdim olunmuş obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması mühüm rol oynamışdı [1]. Amma nə effektiv siyasi sistem, nə də güc komponenti ölkəyə əsas amil- güclü və uzaqgörən lider olmadan hərbi qələbəyə apara bilməz. Müharibə son nəticədə yekun imtahana bənzəyir, hər bir dövlətin davamlılığı üçün həlledici sınaqdır. Bu, Azərbaycan üçün xüsusilə aktual idi: dövlətimiz müstəqilliyinin ilk günlərindən dövlət narrativinin bir hissəsi, milli mifin bir hissəsi olmuş ağır ərazi münaqişəsinə bürünmüşdür. Onun həlli, öz növbəsində, bir çox hallarda milli ideyaya çevrilmişdi. İkinci Qarabağ müharibəsi nəticəsində işğal olunmuş torpaqlarının geri qaytarılması Azərbaycanın milli tarixin yeni mərhələsinə qədəm qoydu. Artıq bu münaqişə başa çatdıqdan sonra demək olar ki, Azərbaycanın qələbəsi əvvəlcədən müəyyən edilmişdi: iki dövlətin iqtisadi və hərbi potensiallarının fərqi müqayisə olunmaz idi, lakin hərbi xərclərin artırılması və onların savadlı bölüşdürülməsi məhz siyasi liderin, dövlət başçısının vəzifəsidir. Siyasi lider hərbi əməliyyatların aparılması üçün iqtisadi və hərbi şəraiti təmin etməklə yanaşı, regionun və dünyanın nüfuzlu dövlətlərinin ən azı neytral, maksimum dərəcədə isə onun tərəfində olmasının qayğısına qalmalıdır. Qələbələrə, məğlubiyyətlərə, uğurlara və uğursuzluqlara görə liderlər məsuliyyət daşıyır. Məhz siyasi liderlərin şərəfinə dövrlər adlandırılır, onların soyadları milli tarixin işıqlı və ya qaranlıq səhifələrinə yazılır. İkinci Qarabağ müharibəsinin Azərbaycan üçün Vətən müharibəsinə çevrilməsi, prezident və Ali Baş Komandan kimi İlham Əliyevin zamanın bütün çağırışlarına uğurla cavab verməsi, dəmir iradə və dözümlülük göstərməsi, Cənubi Qafqaz tarixini və bu regionun gələcəyini də dəyişdi. Azərbaycan suverenliyini və müstəqil qərarlar qəbul etmək qabiliyyətini saxlamaqla özünü regionun nüfuzlu dövləti kimi göstərdi. Ordunun yenidən silahlanmasında da özünü göstərən iqtisadi artım Azərbaycana Cənubi Qafqazın

hərbi lideri olmağa və ölkənin ərazi bütövlüyünü bərpa etmək kimi əsas vəzifələrdən birini sürətlə həll etməyə imkan verdi.

NƏTİCƏ

44 günlük müharibə beynəlxalq münasibətlərə təsiri ilə bərabər,regionun iqtisadiyyatına, nəqliyyatına, regionlararası inteqrasiyaya təsir göstərib, Cənubi Qafqazın geosiyasətində ciddi dəyişikliklərə səbəb olmuşdur. Azərbaycanın qələbəsi nəticəsində Qafqaz uğrunda mübarizə yeni mərhələyə qədəm qoyur. Regionda şəksiz lider dövlət olan Azərbaycanın qələbəsindən sonra Cənubi Qafqazda yaranmış vəziyyətin yalnız obyektiv qiymətləndirilməsi, eləcə də məsuliyyətin və səmərəli əməkdaşlığın zəruriliyinin dərk edilməsi Cənubi Qafqazın geosiyasəti məsələlərinin həllinə müsbət təsir göstərməlidir.

ƏDƏBİYYAT


1. Азербайджан и Армения: региональный конфликт с глобальными последствиями http://casp-geo.ru › azerbajdzhan-iarmeniya-regionaln
2. Политика США на Южном Кавказе: Армения, Грузия и Азербайджан https://carnegie.ru › 2018/02/13 › ru-pub-75514
3. https://www.azerbaijan-news.az/index.php/posts/detail/zefer-salnamesi-1611952574 Zəfər salnaməsi-Azərbaycan qəzeti.
4. Суньцзы. Искусство войны. Издательство: АСТ, 2014 Жанр: Восточная философия https://artsakhlib.am/wp-content/uploads/2020/02/Сунь-Цзы-Искусство-войны.pdf
5. Тактика выжженной земли: как это было на Второй мировой https://russian7.ru/post/taktika-vyzhzhennoy-zemli-kak-yeto-bylo-n/
6. Ясперс К. Смысл и назначение истории.М.: Политиздат, 1991.—527 с.Серия Мыслители XX в.
7. Хайдеггер М. Время и бытие: Статьи и выступления / Серия Мыслители XX в.М.: Республика, 1993.— 447 с.
8. 44 gün sürən Vətən Müharibəsi (II Qarabağ müharibəsi) https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi

**Sona ƏLİYEVA**
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin***
***Ümumi psixologiya kafedrasının baş müəllimi***
**E-mail: sonasi83@mail.ru**

# VALİDEYN – UŞAQ MÜNASİBƏTLƏRİ: TƏRBİYƏNİN PSİXOPEDAQOJİ MƏSƏLƏLƏRİ

*Açar sözlər:* ailə, şəxsiyyət, yeniyetmə, tərbiyə, ailədaxili münasibətlər

Ailə ərlə arvadın ittifaqında başlasa da, onun əsasını, məzmununu övladlar və onların tərbiyəsi təşkil edir. İki sevən adamın bir – birinə qovuşması böyük xoşbəxtlikdir, lakin bu hələ tam ailə deyil. Tam ailə övladlar meydana gələndən sonra başlayır.

Uşaq ailənin ab – havasını dəyişir. Uşaq ailəyə sevinc və həyəcan gətirir, rahatlıq və narahatlıq gətirir. İndiyənədək yalnız bir – birini sevən, bir – birinin qayğısı ilə məşğul olanların sevgisi indi tamam yeni bir istiqamətə yönəlməli olur. İndi kişi üçün qadın yalnız arvad deyil, eyni zamanda onun övladlarının anasıdır. İndi qadın üçün kişi yalnız ər deyil, eyni zamanda onun əziz balasının atasıdır. Ər – arvad münasibətləri hiss edilmədən dəyişir, yeni məzmun, yeni keyfiyyət kəsb edir. Özlərini psixoloji, mənəvi və fiziki cəhətdən valideyn olmağa hazırlayan ər – arvadlar uşaq meydana gələndə çaşbaş olmur, bir sıra çətinlikləri səbirlə dəf edə bilirlər.

Uşaq şəxsiyyətinin formalaşmasında ailə xeyli müddət ərzində əsas rol oynayır. Məlumdur ki, insanın xarakterinin, əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır.

Uşaqların formalaşmasında ailənin rolu son dərəcə misilsizdir. Ailədə uşaq sosial münasibətlərə – ailədaxili münasibətlərə qoşulur, onların vasitəsilə insan, dünya, mənəvi sərvətlər haqqında anlayışlara yiyələnir, cisim və hadisələrə qiymət verməyi, başqa adamları başa düşməyi, yaşlılara, qadın və kişilərə, kiçik uşaqlara hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrənir. Ailədə ata – ana, ata – uşaqlar, ana – uşaqlar, ana – qayınana, bacı – qardaş, bacı – bacı arasındakı paralel münasibətlər – bunların hamısı böyük tərbiyəvi əhəmiyyətə malikdir. Uşaqların tərbiyəsi baxımından ailədə kiçik məsələ yoxdur. A.S.Makarenko göstərirdi ki, ata, hətta qəzeti necə oxuması ilə uşaqları tərbiyə edir.

Valideynlər uşaqlara onların yaşına müvafiq tələblər verməli, nəinki həmin tələblərə əməl olunmasına diqqət yetirməli, həm də onlara müstəqillik verməli, ailə problemlərinin müzakirəsinə cəlb etməli, uşaqları narahat edən məsələləri onlarla birlikdə müzakirə etməlidir. Valideynlər bu yolla uşaqlarda iradə və xarakterin inkişafı, məsuliyyəti hissinin formalaşması üçün şərait yaradır, öz övladlarına əmək adətləri aşılayırlar.

Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından biridir, valideynlərin isə ən mühüm vəzifələrindəndir. Ailə münasibətlərinin uşaqların tərbiyəsində roluna xüsusi diqqət yetirilməlidir. Ailədə böyüməkdə olan nəslin tərbiyəsi prosesində də validenlərin istifadə etdikləri ən mükəmməl tərbiyə üsulları belə, uşaqların min bir tellə bağlı olduğu ailə münasibətlərinin tərbiyəvi səmərəliliyini əvəz etmir və edə də bilməz.

Ailə münasibətləri hər şeydən əvvəl uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s. formalaşır. Müasir dövrdə valideynlərin pedaqoji savadı və mədəniyyətinin yüksəldilməsi xüsusi aktuallıq kəsb edir. Onlar ailə tərbiyəsinin nəzəri – əməli məsələləri ilə yaxından tanış olmalıdırlar.

Ailə tərbiyəsində müxtəlif üsullardan istifadə olunur. Tərbiyə işi onların düzgün tətbiq olunmasından bilavasitə asılıdır. Ailə həyatı şəxsiyyətin inkişafına bütövlükdə təsir göstərir. Bu cəhət, birinci növbədə, uşağın emosional aləmində əks olunur. Son zamanlar psixoloqlar həmin məsələyə xüsusi diqqət yetirir, uşağın emosiya və hisslərinin inkişafında ananın roluna son dərəcə böyük əhəmiyyət verirlər.

Valideynlərin uşaqlarla münasibətləri nəinki məktəbəqədər və kiçik məktəbli yaşı dövrlərində, həm də yeniyetməlik və gənclik yaşı dövrlərində də onların bir şəxsiyyət kimi inkişafının başlıca əsasını təşkil edir. Bu baxımdan təkcə onu qeyd etmək kifayətdir ki, gənclərin ictimai – siyasi inkişafına valideynlər mühüm təsir göstərirlər.

Valideynlərin uşaq və yeniyetmələrlə sosial – siyasi mövzularda söhbətləri də böyük tərbiyə əhəmiyyətinə malikdir. Valideynlər – uşaqlara ən yaxın adamlardır; uşaqlar, bir qayda olaraq, onlara hamıdan çox inanır, etibar bəsləyir. Valideynlərin əməyə münasibəti, öz biliyini, istedadını və ilhamlı əməyini Vətənimizin çiçəklənməsinə həsr etməsi, düzgünlüyünü və prinsipiallığı, səmimiliyi, təvazökarlığı uşaq və yeniyetmələrin şəxsiyyətinin formalaşmasına mühüm təsir göstərir.

Xoşbəxt övlad böyütmüş ana və ata özü də xoşbəxtdir; həm valideyn kimi, həm də vətəndaş kimi xoşbəxtdir. Ailə salnaməsi təkcə ər və ya arvadın, ata və ya ananın, oğul və ya qızın deyil, bütün ailə üzvlərinin birlikdə yazdıqları ömür kitabıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycanda qadınlar və kişilər 2009 [Mətn] /Azərb. Resp. Dövlət Statistika Komitəsi.- Bakı: [s.n.], 2009.- 315, [1] s.: cədv., şək.
2. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə. – Bakı: «Maarif» nəşriyyatı, - 1989. – 312 s.
3. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş: problemlər, ilkin araşdırmalar. – Bakı: “RENESSANS” nəşriyyatı, - 2003. – 263 səh.
4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. –Bakı: Araz, - 2000. –196 s.

**Pərvanə MƏMMƏDOVA**
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının baş müəllimi***
**E-mail: pervane_memmedova_1974@mail.ru**

# MÜASİR DƏRS VƏ ŞAGİRDLƏRDƏ NƏZƏRİ TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASI PROBLEMİ

*Açar sözlər:* müasir dərs, yeni pedaqoji təfəkkür, inkişafetdirici təlim, nəzəri təfəkkür, kiçikyaşlı məktəbli

Müasir dərs dövlətin və cəmiyyətin sosial sifarişi əsasında qurulmalıdır. Müasir dərs elmi-nəzəri səviyyəsinə, psixoloji-pedaqoji konsepsiyasına, yeni pedaqoji təfəkkür ölçülərinə görə müasir olur. Yeni pedaqoji təfəkkürə görə müasir dərs inkişafetdirici və tərbiyəedici təlim prinsipləri əsasında qurulmalıdır. Professor Ə.Əlizadənin fikrincə, bu prinsiplər şəxsiyyətin formalaşmasında Arximed lingi kimi böyük əhəmiyyət daşıyırdı.

Pedaqoji psixologiyada inkişafetdirici təlim prinsipi XX əsrin 80-ci illərində bərqərar olmuşdur. Inkişafetdirici təlim texnologiyası şagirdlərdə nəzəri təfəkkürün formalaşdırılmasına yönəlmişdir. Bu təlim sistemində biliyi qazanmağa yönəlmiş əqli iş üsulları bu biliyin özündən daha əhəmiyyətlidir.

Nəzəri təfəkkürün formalaşması problemi çoxsahəli və çoxfaktorlu problemdir. Onun müxtəlif aspektlərini bir çox alimlər tədqiq etmişdirlər.

Bu problemin fəlsəfi tərəfi N.S.Rozov, P.V.Kopnin, L.K.Naumenko, V.S.Şvıryov, E.V.İlyenkov, V.L.Ştroff və başqalarının tədqiqat işlərində öz əksini tapmışdır. Ümumpsixoloji aspektlər, eləcə də, əqli inkişaf nəzəriyyələri L.S.Vıqotskinin, S.L.Rubinşteynin, V.V.Davıdovun, E.N.Kabanova-Mellerin, A.V.Bruşlinskinin, A.N.Leontyevin, İ.Y.Lernerin, N.A.Mençinskayanın, Q.Şedrovitskinin və başqalarının elmi əsərlərində əks olunmuşdur. Pedaqoji psixologiyada və yaş psixologiyasında bu problemlə J.Piaje, V.V.Davıdov, D.B.Elkonin və başqaları məşğul olmuşdurlar.

İbtidai təhsilin təşəkkülü təlimin məzmununun və metodlarının yenilənməsini ehtiva edir. Aydındır ki, bu iş kiçik məktəb yaşı dövrünün psixoloji problemlərinin araşdırılmasına, o cümlədən uşaqların əqli inkişaf şəraitinin müəyyənləşdirilməsinə, onun inkişafını obyektiv xarakterizə etməyə imkan verən kriteriyaların təyin olunmasına əsaslanmalıdır.

Kiçik məktəb yaşı dövründə nəzəri təfəkkürün təşəkkülü və inkişafının qanunauyğunluqlarını dəqiq müəyyənləşdirilməsi aşağıdakı vəzifələlərin ardıcıl həll olunması ilə əlaqədardır:

- Nəzəri təfəkkürün prosessual xarakteristikasını öyrənmək: məsələ həllinin gedişində onun keyfiyyət dəyişikliklərini aşkar etmək, onun şərtlərini müəyyənləşdirmək, fərdi fərqləri xarakterizə etmək.

•Kiçik məktəb yaşı dövründə nəzəri təfəkkürün inkişaf mərhələlərini öyrənmək: onun məzmununu təyin etmək, yaş xarakteristikasını müəyyənləşdirmək, dəyişmə şəraitini aşkar etmək, fərdi variantları xarakterizə etmək.

•Nəzəri təfəkkürün inkişafı ilə ibtidai məktəb təliminin məzmunu arasındakı əlaqəni öyrənmək: müxtəlif tədris proqramları üzrə təlim zamanı yaş dinamikasının xarakterini təyin etmək.

•Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün diaqnostikası məsələlərini işləmək: onun məzmununu təyin etmək, nəzəri təfəkkürün əsas komponentlərinin formalaşma səviyyəsinin təyini üçün konkret metodikalar hazırlamaq.

•Kiçikyaşlı məktəblilərdə nəzəri təfəkkürün təşəkkülü məsələlərini işləmək: metodları təyin etmək, sistematik məşğələlər üçün dərsdənkənar xarakterli materiallar hazırlamaq.

Nəzəri təfəkkür – üç genetik ardıcıl əvəzlənən formada təhlil və refleksiya proseslərinin köməyilə həyata keçən idrak fəaliyyətidir: 1) məsələ həllinin ümumi prinsipinin tapılması ilə bağlı olan analitik üsul; 2) məsələ həllinin xüsusi prinsipinin ayırd edilməsi ilə bağlı olan refleksiv üsul; 3) məsələ həllinin ümumi və xüsusi prisiplərinin tamlığının kəşf edilməsi ilə bağlı olan sintezedici üsul.

Ümumi münasibətlər aşkar olunduqda (verilən məsələ sinfi üçün ümumi prinsip) nəzəri təfəkkür təhlilin əsas, refleksiyanın köməkçi rol oynadığı üsulla ("analitik" üsul) reallaşır. Ümumilikdə münasibətlərin xüsusi forması ayırd edildikdə (verilən məsələ sinfinə daxil olan altsinif məsələlərin həlli üçün spesifik prinsiplər) nəzəri təfəkkür refleksiyanın müstəqil istiqamət aldığı üsulla reallaşır ("refleksiv" üsul). Ümumi münasibətlərin və onların xüsusi formalarının tamlığı açıldığı zaman təhlil və refleksiyanın mürəkkəb qarşılıqlı əlaqəsi ilə xarakterizə olunur ("sintezləşdirmə" üsulu). Kiçik məktəb yaşı dövründə nəzəri təfəkkürün inkişafı onun üsullarının ardıcıl mənimsənilməsindən ibarətdir.

Uşaqların məsələ həlli zamanı onun şərtinə nəzəri təfəkkürün bu və ya digər üsulu vasitəsilə bələdləşməsi məsələ həllinin təklif olunan formasından asılıdır. Əşyavi-əməli formada məsələ həllinə münasibətdə iki inkişaf mərhələsində reallaşır: birinci mərhələdə (I-II siniflər) empirik təfəkkürə əsaslanan məsələ həllindən nəzəri təfəkkürün analitik üsulu ilə məsələ həllinə keçid baş verir. Ikinci mərhələdə (III-IV sinif) analitik üsulla məsələ həlli refleksiv üsulla məsələ həlli ilə əvəzlənir. Əyani-obrazlı formada məsələ həlli ilə münasibətdə nəzəri təfəkkürün birinci inkişaf mərhələsi reallaşır. Empirik təfəkkürün nəzəri təfəkkürün analitik üsulu ilə əvəzlənməsi III-IV sinifdə baş verir. Sözlü-işarəli formada məsələ həllinə münasibətdə empirik təfəkkürün nəzəri təfəkkürlə əvəzlənməsi ibtidai məktəb təlimi prosesində baş vermir.

Uşaqların D.B.Elkonin və V.V.Davıdov rəhbərliyi ilə işlənilmiş eksperimental proqramla təlimi, nəzəri təfəkkürün üsullarına daha intensiv yiyələnmələrini təmin edir.

Son dövrlərdə nəzəri təfəkkürün formalaşdırılmasına dair işlərin kiçik məktəb yaşı dövrü ilə yanaşı, həm də orta məktəb yaşı çərçivəsində aparılmasına kəskin ehtiyac hiss olunur, çünki bu proses kiçik məktəb yaşı dövründə tamamlanmır (V.V.Davıdov, V.V.Repkin). Kiçik yeniyetməlik yaş dövrü əsası ibtidai siniflərdə qurulmuş nəzəri təfəkkürün işlərinin keyfiyyətinin yoxlanılması (L.İ.Bojoviç, A.B.Vorontsov) və bu işlərin tamamlanması üçün (K.N.Polivanova, Q.A.Tsukerman) münasib dövrdür. Bu dövrün əsas psixi yenitörəmələrindən biri nəzəri təfəkkürün əsaslarıdır (A.K.Dusavitski, D.B.Elkonin).

Pedaqoji prosesdə real vəziyyət belədir ki, orta məktəb proqramı çox zaman kiçik yeniyetmənin hafizəsinə dayanır, ona görə də onun təfəkkürü praktik olaraq öz-özünə inkişaf edir, təfəkkürün kifayət qədər inkişaf etməməsi orta məktəbin təlim nəticələrində az əks olunur (K.P.Polivanova). İdrak işlərinin kifayət qədər formalaşmaması ilə bağlı problemlər təlimin növbəti mərhələlərdə sistematik kursların öyrənilməsində yaranır. Belə ki, o vaxta qədər şagirddə təfəkkürün müəyyən stili möhkəmlənir, müxtəlif məsələlərin həllində həmin üsul və vasitələrdən istifadə edir. Təfəkkürün bu stili heç də həmişə effektiv olmur, lakin artıq onu dəyişmək çətindir. Ona görə, kiçik yeniyetmələrin nəzəri təfəkkürün əsaslarına yiyələnməsi onun yuxarı siniflərdə inkişafı üçün vacibdir (E.B.Finkeliteyn).

Orta məktəb yaşlı uşaqlarda nəzəri təfəkkürün əsaslarının formalaşması təfəkkürlərinin inkişaf səviyyəsinin qeydiyyatı aparılmadan əşyavi məsələlərin həlli üzrə məşqlərlə məhdudlaşdırılmışdır. Burada artıq formalaşmış idrak işləri məşq edilir və mövcud aşağı səviyyə inkişaf etdirilmir, bu isə öz növbəsində təlimin sonrakı mərhələlərində yüksək nəticə əldə etməyə mane olur.

Beləliklə, kiçik məktəb yaşı dövründən başlayaraq nəzəri təfəkkürün inkişaf qanunauyğunluqlarının dəqiq müəyyənləşdirilməsi orta məktəblərin ibtidai siniflərində uşaqların təliminin təşəkkül tapması üçün ciddi sosial-mədəni məna daşıyır.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S. Şagirdlərdə təfəkkürün inkişafı. – Bakı: 1962. – 83 s.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. - Bakı: Ozan, - 1998. - 368 s.
3. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. Psixopedaqoji araşdırmalar. - Bakı: Adiloğlu, - 2001. - 162 s.
4. Qədirov Ə.Ə. Kiçikyaşlı məktəblilərdə mücərrədləşdirmənin inkişafı. – Bakı: 1973. - 72 s.

5. Давыдов В.В. Проблемы развивающего обучения: опыт теоретического и экспериментального психологического исследования. - М.: Педагогика, - 2006. - 240 с.
6. Зак А.З. Развитие умственных способностей младших школьников. - М.: Просвещение, - 2013. - 318 с.
7. Эльконин Д.Б. Детская психология. - М.: Просвещение, - 2016. - 256 с.

**Alvina BABAYEVA**
***Gəncə Dövlət Universitetinin***
***Psixologiya kafedrasının baş müəllimi***
**E-mail: alvina.babayeva1953@inbox.ru**

# SİYASİ MƏDƏNİYYƏTİN ŞƏXSİYYƏTİN SİYASİ SOSİALLAŞMASINA TƏSİRİ

*Açar sözlər:* siyasi mədəniyyət, sosiallaşma, subyekt iştrakçısı, inteqrasiya, adaptasiya, maddi tələbatlar

Cəmiyyət insanların dünyasıdır. Bu dünyada doğulan insan, burada yaşayır, inkişaf edir, şəxsiyyətə çevrilir. Onun vasitəsilə müəyyən biliklər, bacarıqlar, davranış normalarını, mədəniyyətini mənimsəməyə başlayır, öz xüsusiyyətini qazanır, cəmiyyətə daxil olur, başqa insanlar arasında özünü təsdiq edir. Bu proses iki istiqamətdə gedir: 1) insan sosial münasibətlər sisteminə daxil olub ictimai təsirin obyektinə çevrilir; 2) insan sosiallaşaraq cəmiyyətin işlərində və onun mədəniyyətinin gələcək (işlərində) inkişafında fəal iştrak edir. İnsan artıq sosial münasibətlərin subyekti iştrakçısına çevrilir. Burada şəxsiyyətin adaptasiyası fərdiləşməsi və inteqrasiyası başlayır, qrup üçün səciyəvi olan şəxsiyyətə məxsus keyfiyyətlər formalaşır. Onların vasitəsilə yeni nəsillər cəmiyyətin sosial-siyasi və mənəvi problemlərin həllinə cəlb olunur.

Siyasi mədəniyyətin cəmiyyətin siyasi sistemində siyasi rejimindəki rolunu Q.Almond və S.Verba “Vətandaş mədəniyyəti” əsərində yüksək qiymətləndirərək belə nəticəyə gəlmişlər ki, demokratiyanın inkişafı və demoqrativ rejimin meydana gəlməsi və formalaşması yüksək siyasi mədəniyyət tələb edir. İctimai həyatın tamlığını, birliyini ümummilli mədəniyyət təmin edir və onun tərkib hissəsi olan siyasi davranış prinsipləri, norma və idealları ilə cəmiyyətin siyasi sferasının tamlığı təmin edir. Bu prosesin gedişində ictmai dəyər və normalar mənimsənilir və şəxsiyyətin dəyərlər sisteminə çevrilir, siyasi təfəkkürünün və siyasi şüurunun əsasını təşkil edir. Siyasi sosiallaşma

gedişində şəxsiyyət cəmiyyətin əsas nailiyyətlərini mənimsəmək prosesi baş verir. Siyasi sosiallaşma şəxsiyyətin ictimai fəaliyyətinin nəticəsidir. Siyasi sosiallaşmaya maraq ilkin olaraq ailədən başlayır, sonra təhsil dövrünü əhatə edir, daha sonra bu maraq həmfikir mühit və ya sosial qruplarda möhkəmlənir, nəticədə insan siyasi proseslərdə fəal iştrakçıya çevrilir.(3, s. 263-283)

Cəmiyyətin hər bir üzvünün fəal iştrakı onun fəal həyat mövqeyindən asılıdır. İnsanın əsas xüsusiyyətlərindən biri firavanlığa can atması və cəmiyyətdə yüksək yer tutmaq istəyidir. Bu isə insanın maddi tələbatının ödənilməsidir. Maddi tələbatların ödənilmədiyi halda onun ictimai-siyasi proseslərə meyilliyinin güclənməsi çətinləşir. Fərdiyyət bilməlidir ki, onun üçün iqtisadi çətinliklər arxadadır və dövlət hər zaman onu qorumağa hazırdır. (2, s.75)

Görkəmli prof. Bəxtiyar Əliyev “Demokratik cəmiyyətin qurulmasında fəlsəfi-psixoloji məsələlər” əsərində yazırdı: “Gündəlik yaşayış qaydalarından başqa heçnə görə bilməyən, hər bir şey haqqında düşünə bilməyən vətəndaşı demokratik dəyərlər düşündürə bilməz. Onun şəxsiyyətinin motivasiya sahəsinə demokratik dəyərlər tələbat daxil deyil. Demokratik dəyərlərin gerçəkləşməsi üçün onun şəxsi əhəmiyyət, məna kəsb etməsi zəruridir. Fərdin maddi tələbatlarının minimum səviyyəsi ödənilmədiyi bir şəraitdə onun sosial normalara meyilliyinin güclənməsi və şəxsi mənalandırılması, dərk edilmiş zərurətə çevrilməsi olduqca çətindir. Əlbətdə, yüksək inellektual inkişaf səviyyəsinə malik şəxsiyyətlər bəzi hallarda istisna təşkil etsələrdə, əksəriyyəti üçün bunu demək olmaz.”(1, s.12)

## ƏDƏBİYYAT

1. Əliyev B.H. Demokratik cəmiyyətin qurulmasında fəlsəfi-psixoloji məsələlər // Psixologiya jurnalı, - Bakı: 2007, № 3.
2. Mirzəyeva S.S. Milli dövlət quruculuğunda şəxsiyyətin rolunun sosial-psixoloji cəhətləri (sosial-psixoloji təhlil). Bakı: 2013.
3. Дружинин В.Н. Психология. Социально-психологические теории личности. - М.: Питер, - 2000.

**Ülviyyə VERDİYEVA**
***Gəncə Dövlət Universitetinin dissertantı,***
***Mingəçevir Dövlət Universitetinin müəllimi***
**E-mail: pedaqoq1984@mail.ru**

# N.GƏNCƏVİ "XƏMSƏ"SİNDƏ TƏBİƏTİ MÜHAFİZƏ VƏ EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

*Açar sözlər:* Xəmsə, ekoloji tərbiyə, canlılar aləmi, kəlam, təbiət

Məktəbəqədər təhsil müəssisələrində dahi Nizaminin hikmətli kəlamlarına istinad etmək baxımından geniş imkan yaradan mövzulardan biri də "Ekoloji tərbiyənin ümumi məsələləri"dir. Dahi şair yaradıcılığında ekoloji tərbiyə məsələlərinə geniş yer vermiş, şərhini asanlaşdırmaq, əyaniləşdirmək və əsaslandırmaq məqsədilə atalar sözlərinə, Məhəmməd peyğəmbərin müdrik kəlamlarının roluna xüsusi diqqət yetirmişdir. Ekologiya bir elm kimi XIX əsrin II yarısında meydana gəlmiş, problem kimi XX əsrin əvvəllərindən başlayaraq diqqəti cəlb etmişdir. Ekoloji problemin törədici faktoru birmənalı olaraq insan götürülür. Yarandığı ilk vaxtlardan təbiətə aqressiv münasibətdə bulunan insan, zaman--zaman ona öz təsirini göstərmişdir.

Təsadüfi deyil ki, ətraf mühit tədqiqatçıları ekoloji amil sırasında insanı xüsusi qeyd edirlər. Onlardan birincisi abiotik, yəni cansızların (iqlim, su, hava, torpaq), biotik, yəni canlıların (bitki, heyvan, mikroorqanizmlər) və antropogen (insan), yəniİlk baxışda adama elə gəlir ki, "ekologiya" və "ekoloji problem" anlayışı son dövrün məhsuludur və orta əsrlərdə, xüsusən N.Gəncəvinin yaşadığı illərdə mövcud ola bilməzdi. Doğurdan da, hələ kimya elminin kifayət qədər inkişaf etmədiyi, texnikanın mövcud olmadığı bir zamanda – ətraf mühiti çirkləndirən mənbələr yox ikən, hansı ekoloji problemlərdən danışmağa dəyərdi? Lakin maraqlıdır ki, bu gün bəşəriyyətin üzləşdiyi ekoloji təhlükəsizlik probleminə Ḱizaminin əsərlərində geniş toxunulur, onun həlli yolları araşdırılır. Qəzəl və qəsidələrindən tutmuş, "Xəmsə"-yədək bütün əsərlərində ətraf mühit problemləri ilə qarşılaşırıq.

Nizaminin yaradıcılığında ətraf mühit məsələlərinin təqdimi və təhlili o qədər elmi şəkildə verilib ki, müəllifə təbiəti əla mənimsəmiş və onun qayğısına qalan alim kimi yanaşmalı olursan. O, canlı orqanizmlərə təsir edən faktorları dəqiqliklə çatdırır. Məsələn, orqanizmi təbiətdə əhatə edən və ona təsir göstərən elementləri verməklə ekoloji amilləri göstərmiş olur.

Əncirin budağı bom-boş qalardı yayda,
Ənciryeyən olsaydı, bütün quşlar dünyada.

Nizami haqlı olaraq demək istəyir ki, təbiət öz-özünü tənzimləyən bir kompleksdir. Əgər bütün quşlar əncirlə qidalansaydılar, onda bu bitkinin kökü kəsilərdi. Yalnız quşların müəyyən növü əncir meyvəsi ilə qidalandığından onun məhvolma ehtimalı yoxdur. Təbiətin qorunması Nizami dövrünün səciyyəvi qaydalarından olmuşdur. Şairin əsərlərində buna aid misallar çoxdur.

şair hələ XII əsrdə havanın çirklənməsinin acı nəticələri barədə insanları xəbərdar etmişdir. Şair bütün poemalarında canlıların (bitki və heyvanların) məhv edilməsinə qarşı etiraz səsini ucaldır, "həyəcan təbili" çalır. Məsələn:

Bar verən belə bir ağacı gerçək,
Rəvamı baltanın ağzına vermək.

Humanist şair canlıları məhv edən insanları "vəhşi", "yırtıcı" adlandırır, onların əməllərinə qarşı öz etiraz səsini ucaldır:

Hər maral ovçunun zülmündən qaçar,
Yırtıcı vəhşidir hələ insanlar.
Çöldə şux bir ceyran düşməyir ələ,
Insandan sığınır dağa, köhülə.

Belə misralardan dərsdə ekoloji tərbiyənin vasitəsi kimi, həm də Azərbaycanda ekoloji mühitin inkişaf tarixini öyrənmək məqsədilə istifadə edilə bilər. Məlumdur ki, Azərbaycanın çöllərində (Kür-Araz ovalığında) qədim zamanlarda (Heradotun, Strabonun dövründə) ceyran-cüyür sürüləri kifayət qədər olmuşdur. Lakin zaman-zaman insafsız ovçuların zülmü nəticəsində bu təbiət gözəlliklərinin sayı get-gedə azalmış, müasir dövrdə isə kökünün kəsilməsi təhlükəsi yaranmışdır. Şairin yuxarıdakı misraları göstərir ki, bu proses hələ XII əsrdən başlamışdır. Azərbaycanın nadir təbiət inciləri olan ceyranların, cüyürlərin, maralların mühafizəsi məsələlərinə dahi humanist şairin "Sirlər xəzinəsi", "Leyli və Məcnun" poemalarında daha geniş yer verilmişdir. Belə ki, "Sirlər xəzinəsi"ndə bu məsələyə "İnsanın ülviyyəti", "Firidunla ceyranın hekayəti"ndə, "Məcnunun ahuları azad etməsi", "Məcnunun ceyranı azad etməsi" və s.hekayələrdə xüsusi yer ayırmış, insanları bu təbiət gözəlliklərini qorumağa çağırmışdır.

## ƏDƏBİYYAT


1. Apoyev B. N.Gəncəvi irsindən pedaqoji prosesdə istifadə işinin sistemi. - Bakı: Mütərcim, 2012.
2. Əliyev R. Nizami Gəncəvi və onun "Sirlər xəzinəsi" poeması // Nizami Gəncəvi, Sirlər xəzinəsi. – Bakı: "Yazıçı", 1981.
3. Talıbov Y.R. Nizami Gəncəvinin pedaqoji görüşləri // Nizami Gəncəvi, 1994, № 1 – 2
4. Sarovlu A. Dahilər dahisi – ensiklopedik zəka // Həsənzadə S. Dünyadan əziz dünya (Nizaminin təbii – elmi görüşləri). – Bakı:, "TUNA", 2011.
5. Talıbov Y.A., Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Dərs vəsaiti. – Bakı: 2000.
6. Roma şəhərində Nizami Gəncəvinin abidəsi ucaldılır. – "Ayna" qəzeti, 14 aprel 2012 – ci il.
7. https://diriliqurbanimeclisi.wordpress.com/2013/07/06/nizaminin-ekoloji-dunya-gorusu/

**Aynurə MƏMMƏDOVA**
***Naxçıvan müəllimlər İnstitutunun***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: aynur.nuri94@gmail.com**

# MÜASİR DÖVRDƏ TƏLƏBƏLƏRİN TƏHSİL MARAQLARININ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

*Açar sözlər:* maraq, tələbələr, təhsil

Maraqlar insanın idrak tələbatlarının emosional təzahürləridir. Onların təmin olunması biliklərdəki çatışmazlıqları aradan qaldırmağa, əhəmiyyət kəsb edən faktlara yaxşı bələd olmağa, onları anlamağa, insanın özü üçün- idrak prosesinin kəsb etdiyi müsbət, emosional tonda, onun haqqında daha çox bilmək, onu başa düşmək, əhəmiyyət kəsb etmiş obyektlə dərindən bələd olmaq arzusunda təzahür edir. Başqa sözlə desək, maraq şəxsiyyətin gerçək həyatının müəyyən bir sahəsinə, müəyyən bir fəaliyyətə, bu və ya digər biliyi əldə etməyə az və ya çox yönəlməsində ifadə olunan fərdi psixi xüsusiyyətdir. Maraqlar şəxsiyyəti onda əmələ gəlmiş bilmək və başa düşmək cəhdini təmin etmək üçün fəal sürətdə yollar və vasitələr axtarmağa məcbur edir. Sabit əhəmiyyətə malik obyektə marağın təmin olunması, adətən, marağın sönməsi ilə nəticələnmir, əksinə onu daxilən yenidən qurmaq, zənginləşdirmək və dərinləşdirmək yolu ilə idrak fəaliyyətinin daha yüksək səviyyəsinə cavab verən yeni maraqların əmələ gəlməsinə səbəb olur. İnsanın həyat və fəaliyyət proseslərində maraqların rolu əhəmiyyətli dərəcədə böyükdür. İnsanın maraq dairəsi müntəzəm olaraq dəyişir. Maraqlar bir çox səbəbdən fərddən fərdə dəyişir. Fərdin əhatəsində olduğu mühit, yaş, cinsiyyət, fiziki imkanlar, qabiliyyətlər, ailə və sosial mühit bu səbəblərə daxildir. İnsanın həyat və Fəaliyyət proseslərində maraqların rolu əhəmiyyətli dərəcədə böyükdür.

Maraqlar təlim fəaliyyətində də xüsusi əhəmiyyət kəsb edir. Məktəbə getdikdə şagirdlər nə iləsə dərindən maraqlandıqda, yerinə yetirdiyi iş, dinlədiyi dərs onun üçün maraqlı olduqda həmin sahələrdə yüksək müvəffəqiyyət qazanır. Əksinə, onlara qarşı marağı olmadıqda həmin işlər cansıxıcı olur, şagirdi cəlb etmir. Müşahidələr göstərir ki, bu və ya digər əmək yaxud təlim fəaliyyətinə marağın əmlə gəlməsi həmin fəaliyyətə olan qabiliyyətlərin oyanması ilə sıx surətdə bağlıdır və bu maraq qabiliyyətin inkişafına təkan verir. Hötenin təbirincə desək, “Bizim arzularımız gizli qabiliyyət qabaqcada hiss edilməsi, görə biləciyimiz işlərin parçısıdır.” Yeniyetmələr və gənclərə xas olan bu müxtəlif və çox vaxt tez sönən maraqlar inkişaf edən şəxsiyyətin qabiliyyətlərinin üzə çıxarılmasında mühüm rol oynayır. Pedaqoji baxımdan, bir cəhət də çox mühümdür. Müəllim yeniyetmə və gənclərin maraq sahəsinə elə münasibət göstərməlidir ki, onların idrak tələbatı genişlənsin və dərinləşsin.

Digər tərəfdən, müəllim yeniyetmələrin maraqlarının çox vaxt davamsız, ötəri olmasından qəzəblənməməlidir.

Orta məktəblərdə görülən bu problemlər eyni zamanda ali təhsil müəssisələrində də müşahidə edilir. Orta məktəblərdə təhsil maraqlarının aşağı formalaşdırılması ali təhsil sahəsində də müəyyən işlərin görülməsini zəruri edir.

Bu sahədə tədqiqat aparılmış və tədqiqat nəticəsində müair dövrdə tələbələrin təhsil maraqlarına təsir edən amillər öyrənilmişdir. Məlum olmuşdur ki, tələbələrin ali təhsilə gəlməsi əsasən onların öz istəyi ilə deyil, valideynlərinin və müəlimlərinin yönləndirməsi ilə olmuşdur. Təhsilə yönləndirilən tələbələrin isə əksəriyyətinin müəyyən peşə marağı olmuşdur. Valideynlər isə uşaqlarının peşə maraqlarına müsbət münasibət bəsləmədikləri və onları ali təhsilli gənc kimi görmək istədikləri üçün ali yönləndirmişlər. Bu isə öz növbəsində tələbələrin təhsilə olan münasibətində özünü aydın şəkildə göstərmişdir. Belə olduqda tələbələr dərslərinə maraqsız yanaşır, oxuduqları ixtisas onlar üçün əhəmiyyət kəsb etmir və onlar özlərini təhsillə maraqlanmır, öxlərini inkişaf etdirmək üçün nəsə etmirlər. Buna baxmayaraq, öyrənilmişdir ki, təhsilə özü gələn tələbələrin də əksəriyyəti özünü təhsillə maraqlanmırlar. Çünki təhsilə özü gələn tələbələrin də əksəriyyəti təhsili yaxşı iş üçün çıxış yolu kimi görür və ya sadəcə ali təhsillərinin olmasını istəyirlər. Bunun üçün də təhsilə özü yönələnlə, təhsilə yönəldilən tələblərin özünü təhsilə münasibətində ciddi fərqlər görülmür.

Aparılan tədqiqatlardan sonra yaranan problemi aradan qaldırmaq üçün müəyyən metodikalar üzrə iş aparmağı məqsədəuyğun hesab etdik. Orta məktəbələrdə olduğu kimi ali təhsil müəssisələrində də təlim maraqlarının yaradılması təlim motivlərinin formalaşdırılmasından asılıdır. Təlim motivləri isə kortəbii şəkildə formalaşmır, tədris-idrak motivləri tədris fəaliyyətinin özünün gedişində formalaşır. Burada isə motivasiya mərhələsinin qurulması xüsusi əhəmiyyət kəsb edir. Motivasiya mərhələsi ali təhsildə çox önəmli mərhələdir. Motivasiya mərhələsində həm orta məktəb müəllimi, həm də ali məktəb müəllimi dərslərini həvəsləndirici, motive edici istiqamətdə təşkil etməlidir. Bunun üçün dərs zamanı və ya dərsdənkənar işlərin görülməsi müsbət təsir göstərir. Apadığımız tədqiqatda bir neçə qrup tələbə üzərində eksperiment aparılmışdır. Onlar diskussiyalara, kitab müzakirəsinə, intellektual yarışlara, dərsdənkənar işlərə cəlb edilmiş, eyni zamanda onlarla dərs zamanı İKT vasitələrindən istifadə edilmişdir. Bundan başqa boş vaxtlarını səmərəli keçirmək üçün onların təhsillərini artırmaqlarına xidmət edən tətbiqlərdən istifadə etmələri və ixtisaslarına uyğun olaraq maarifləndirici verilişlər izləmələri məsləhət görülmüşdür. Nəticədə yenidən sorğu keçirdiyimiz zaman müəyyən edilmişdir ki, tələbələrin əksəriyyətində özünütəhsilə maraq artmış və dərslərinə daha həvəslə yanaşmağa başlamışlar.

## ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə.Ə.Ə. Psixologiya (dərslik). - Bakı: Çinar-çap, 2002., - 620 s.
2. Əlizadə Ə., Əlizadə H. Pedaqoji psixologiya (dərslik). - Bakı: 2010. – 600 s.
3. Kazımov N. Məktəb pedaqogikası (dərslik). - Bakı: 2011. – 458 s.

**Nurlanə MƏMMƏDOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun***
***Pedaqogika və Psixologiya kafedrasının müəllimi***
**E-mail: nurlanem50@gmail.com**

## PEDAQOJİ TEXNOLOGİYALARIN TƏHSİL SİSTEMİNDƏ ROLU

*Açar sözlər:* təhsil, ibtidai təhsil, texnologiya, pedaqoji texnologiya, təhsil sistemi

Azərbaycan Respublikasında mədəniyyətlərin qovuşması və müasir iqtisadi yüksəlişlərin fonunda təhsil, tərbiyə və mədəni inkişaf sahəsində uğurlu nailiyyətlər əldə edilmişdir. Bu nailiyyətlərin əsası ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın öz müstəqilliyini əldə etməsi ilə qoyulmuşdur. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun qüvvəyə minməsi ilə təhsil sahəsində bir sıra mütərəqqi yeniliklər həyata keçirildi. Təhsilin mövcud struktur, forma və məzmun məsələləri bir də nəzərdən keçirildi. Tədris fənlərinin bəzilərinin adı və məzmunu dəyişdirildi və dərs saatları yenidən formalaşdırıldı. Həyata keçirilən yenilənmə prosesləri zamanı dərsdə istifadə olunan tədris metod və formaları da dəqiqləşdirildi və yeni optimal metodların istifadəsinə rəvac verildi. Bütün bu proseslər təhsilin dünya təhsil məkanına inteqrasiya olunması vacibliyini yaratdı və bir sıra xarici ölkələrlə tədris-təcrübə mübadiləsi həyata keçirildi. Bu mübadilə prosesi zamanı xarici ölkələrin tədris təcrübələri mənimsənildi və yeni pedaqoji texnologiyalar Azərbaycan tədris sisteminin mərkəzinə gətirildi. Bu baxımdan pedaqoji texnologiyaların təhsil sistemində rolu və onun tətbiq üsulları günümüzdə xüsusi aktuallıq kəsb etdi. Tədris planına daxil edilən yeni fənlərdən biri də texnologiya fənnidir. Texnologiya sözünün mənası aydınlaşdırılan zaman hər şeydən öncə onun hərfi mənası açıqlanmalıdır. “Texnologiya” yunan sözü olub (techne (bacarıq)+logos (öyrənmə)) məhsulun hazırlanması bacarığı, istehsal proseslərinin yerinə yetirilməsi üçün üsul və vasitələr haqqında biliklər toplusu deməkdir (3). “Texnologiya” sözü tədqiqatçıların qarşısına daha çox dəqiq elmlərin termini

kimi çıxsa da, son illərdə ümumilikdə təhsil prosesinin və humanitar elmlərin də məzmununda bu sözə sıx-sıx rast gəlinir. Çünki texnologiya və texnoloji proseslər həyatımızın bütün hissələrinə nüfuz etmişdir və onu asanlaşdırmışdır. Bu mənada, texnologiya dedikdə hər hansı bir prosesin öyrənmə ardıcıllığı və ümumilikdə, prosesin özünün mahiyyəti başa düşülür. Bu əməliyyatlar komplekti nə qədər optimal olsa, insan həyatını bir o qədər asanlaşdırar. İnsanlar yaşamın, fəaliyyətin asanlaşdırılması və optimallaşdırılması baxımından fərqli texnologiyalar axtarışında olduqlarından daim yeni texnoloji sistemlər yaradır və onu tətbiq edirlər. Bu baxımdan texnologiya dedikdə, fəaliyyətin optimallaşdırılması başa düşülür. Lakin nəzərə almaq lazımdır ki, hətta çətinəməliyyatların da özünün texnologiyası vardır və texnologiya hər hansı bir fəaliyyətin prosedural mahiyyətidir. Texnologiya anlayışından bəhs edərkən onun növlərinə nəzər salmaq və təhsil prosesində istifadə olunan texnoloji fəaliyyətləri, eləcə də pedaqoji texnologiyaları araşdırmaq lazım gəlir. Texnologiyalar istifadə olunduğu sahələrdən asılı olaraq bir neçə növdə təsnif oluna bilər. Məsələn, informasiya texnologiyaları, pedaqoji texnologiyalar, hesablama texnologiyaları və s. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” sənədində göstərilir ki, təhsil prosesində texnologiyalara əsaslanmadan təhsilin optimal qurulması mümkün deyil və texnologiyalardan istifadə edilərək təlimin təşkil olunması dövlət siyasətinin mühüm tərkib hissəsidir. “Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir (1). Araşdırma sahəmiz təhsil olduğundan texnologiyaların pedaqogikaya aid olan növü – pedaqoji texnologiyalar bizim daha çox diqqətimizi cəlb edir. Pedaqoji texnologiyalar müxtəlif alim və tədqiqatçılar tərəfindən araşdırılmışdır. Azərbaycanda pedaqoji texnologiyalar geniş tədqiqata cəlb olunmuş, dərsin pedaqoji texnologiyalara əsasən qurulması və tədrisin fəallaşdırılmasının mühüm amil olduğu vurğulanmış və müəyyən edilmişdir ki, “öyrənənlərin təlim prosesinin mərkəzinə gətirilməsi; tədris təlim prosesinin qurulmasında öyrənənin şəxsiyyətin bütövlüyünün nəzərə alınması (ekzistensiallıq); inkişafetdiricilik; inteqrativlik; fundamentallıq” pedaqoji texnologiyalara əsasən qurulmuş dərsin əsas prinsipləridir. Göründüyü kimi, bu tədqiqatlarda dərsə və pedaqoji texnologiyalara bütöv bir komponent kimi yanaşılmış və onun hərtərəfli olduğu nəzərə çatdırılmışdır. Tədris prosesinin yeknəsəqlikdən qurtarmasının yolunu pedaqoji texnologiyaların tətbiqində görən alimlər bu qənaətə gəldilər ki, “Standart dərslərin yaratdığı yorğunluq xofunun, problemlərin həllinə yönəldilmiş qeyri-standart, fəal, yaxud konstruktiv dərs modellərindən istifadə olunmasının müsbət və ya mənfi tərəfləri barədə müzakirələr keçirilməli, təkliflər verilməlidir. Müxtəlif improvizələrdən, pedaqoji yanaşmalardan istifadə etməklə dərslərini şagirdlər üçün sehrli aləmə çevirə bilən müəllimlərin fikirləri dinlənilməli, təcrübələri müzakirə obyektinə

çevrilməlidir". Pedaqoji texnologiyalardan istifadə tədris prosesini canlandırır və onu şagirdlərin daha çox maraq göstərdiyi bir obyektə çevirir. Əgər tədris prosesində pedaqoji texnologiyalardan və informasiya-kommunikasiya texnologiyalarından istifadə təmin olunmasa tədrisin keyfiyyəti arzuolunan dərəcəyə yüksələ bilməz. Belə ki, hazırda məzmun standartları elə təşkil olunmuşdur ki, onu texnologiyalardan istifadə etmədən reallaşdırmaq qeyri-mümkündür. Pedaqoji texnologiyalardan istifadə təhsil sisteminin inkişafını təmin edən əsas amillərdəndir. Müəllimin əməyini yüngülləşdirən, şagirdin zehni inkişafını və təfəkkür proseslərini formalaşdıran pedaqoji texnologiyalar daim tədris prosesində istifadə olunmalı və ümumilikdə təhsil sisteminin inkişafını təmin etməlidir. Pedaqoji texnologiyalar arasında daha çox istifadə olunanlar fərqli tədris üsullarıdır. Dərslərin keçirilmə texnologiyası, öyrətmə üsulları, məzmun standartlarının reallaşdırılma strategiyaları müəllimlər Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən fərqli yollarla tətbiq olunur. Yaradıcı müəllimlər mövcud texnologiyaları öz təcrübələri ilə zənginləşdirirlər. Tətbiq olunan pedaqoji texnologiyaların metodikasına müəyyən dəyişiklik edib onu mövcud tədris sisteminə uyğunlaşdıran yaradıcı müəllimlər zaman keçdikcə özləri də müəyyən öyrətmə texnologiyaları ilə işləyirlər və onu həmkarları ilə bölüşürlər. "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nda deyildiyi kimi təhsil, gənc nəsli həyata hazırlamalı, cəmiyyətin hər bir üzvünü əsl vətəndaş kimi formalaşdırmalıdır. Bu baxımdan təhsilin və təlim-tərbiyə prosesinin demokratikləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması, fərdiləşdirilməsi və inteqrasiyası məsələləri XXI əsr təhsilinin başlıca şərtlərindən hesab olunur.

Məktəblər hazırda bu vəzifənin öhdəsindən asanlıqla gəlirlər. Regionlarda olan tədris müəssisələrinin də hazırda maddi-texniki baza təminatı formalaşdırılmaqdadır. Müəllimlər müxtəlif öyrədici kurslarda iştirak edərək öz peşəkarlıqlarını inkişaf etdirirlər. Elektron lövhələrdən, fəal təlim metodlarından istifadə təhsilalanların səriştəli şəxsiyyət kimi formalaşmasını təmin edir. Şəxsiyyətyönlü təhsil məzmununun yaradılması "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində nəzərdə tutulan əsas strateji hədəflərdən biridir.

Tədris-təlim prosesində yeni texnologiyaların tətbiqi, pedaqoji prosesin idarə edilməsində yeni yanaşmalardan istifadə, keyfiyyətli sinif-dərs sisteminin qurulmasına geniş imkanlar açır. Sinif-dərs sisteminin keyfiyyət təminatında ənənəvi dərslərdən fərqli olaraq, müasir dərsin təşkili həlledici rol oynayır.Araşdırmalar nəticəsində təsdiq olundu ki, pedaqoji texnologiyalardan istifadə olunması təhsili inkişaf etdirən əsas amillərdən biridir. Eyni zamanda pedaqoji texnologiyalardan yerli-yerində istifadə olunmalı və o, inkişaf etmiş təhsil-tədris prosesinin vasitələrindən biri olmalıdır. Pedaqoji texnologiyalardan istifadə həm təhsilalanların, həm də təhsilverənlərin keyfiyyət göstəricilərindən biridir və texnologiyalar daim tədris prosesinin mərkəzində dayanmaqla onun inkişafını təmin edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // Azərbaycan məktəbi, 2013, №5.
2. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. – Bakı: 2014.
3. Quliyeva S., Qafarova N., Ağayeva N. və b. İnformatika. Dərs vəsaiti. - Bakı: Çaşıoğlu, 2011.
4. Mehrabov A. Müasir dərs: onun təşkili və gedişinə qoyulan əsas tələblər. "Təhsil problemləri" qəzeti, 2013, 31 iyul.

**Mətləb BAYRAMOV**
***Odlar Yurdu Unıversitetinin müəllimi***
**E-mail: metleb.bayramov.94@mail.ru**

# MÜASİR MƏKTƏBİN "ÇƏTİN" UŞAQLAR PROBLEMİ VƏ ONLARLA APARILAN İŞİN PSİXOLOJİ VƏ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

*Açar sözlər:* "çətin" uşaqlar, "çətin" uşaqların yaranma səbəbləri, "çətin kiçik məktəblilər"

Kütləvi informasiya vasitələrinin və onların mənbələrinin çoxalması, müasir dünyada gedən qloballaşma, svilizasiyalararası inteqrasiya prosesləri respublikamızda da sosial, ictimai və mənəvi proseslərə güclü təsir göstərməkdədir. İnformasiya əsri olan XXI əsrin öz yeni problemləri meydana çıxmış, psixoloq və pedaqoqların "zəmanə uşaqları" adlandırdıqları yeni nəsil yetişmişdir. Fəal sosiodinamik proseslərin fonunda cəmiyyətdə "çətin" və ya mürəkkəb davranışlı uşaqların sayının artması faktı filosof, psixoloq və pedaqoqları ciddi surətdə düşündürür, bütün orta və yaşlı nəsli isə narahat edir.

Psixoloji və pedaqoji ədəbiyyatda tez-tez "çətin" uşaqlar sözünə rast gəlmək olar. Müəllim və tərbiyəçilər çox vaxt bəzi uşaqların "çətinliyindən" şikayətlənirlər. Əksər hallarda çətin uşaqlar sırasına sözə baxmayan, şıltaq, tərs, intizamasız, kobud, tənbəl, yalançı və s. uşaqları daxil edir və bunları asosial və antisosial uşaqlar kimi xarakterizə edirlər. Psixoloqlar belə bir fikri əsaslandırmışlar ki, nə asosial davranış tərkibi, nə də bu cür davranış faktlarının spesifik keyfiyyəti "anadangəlmə mexanizmlə" şərtlənmir. Necə deyərlər,

"çətin" uşaqlar pedaqoji cəhətdən baxımsız uşaqlardır. Onların şəxsiyyətinin əxlaqi deformasiyası pedaqoji baxımsızlıqdan irəli gəlir.

"Çətin" uşaqlar birinci növ təyini söz birləşməsidir. "Çətin" sözü sifətdir və məktəb təcrübəsində uşaqları səciyyələndirmək üçün özünəməxsus təsnifat meyarı kimi səslənir. Bu təsnifatda uşaqları istər-istəməz iki böyük qrupa bölürlər: "çətin" və "asan" uşaqlar. Onlardan hər birinin müxtəlif tiplərini ayırd edirlər.

Müəyyən fiziki və psixi çatışmazlıqlarla doğulmuş xəstə uşaqları nəzərə almasaq, görəsən, sağlam uşaqları bir növ Pruskov lojasının sərt ölçüləri ilə iki yerə - çətin və asan uşaqlara ayırmaq nə dərəcədə məntiqi olardı?

"Çətin" uşaq problemini aradan qaldırmaq üçün ilk növbədə "çətin" uşaqların kimlər olduğunu bilmək lazımdır. "Çətin" uşaq polis üçün dələduz, müəllim üçün sinif yoldaşlarına mənfi təsir edən şagird, bağça tərbiyəçisi üçün isə səs-küylü, çevik, idarəolunmaz uşaqdır. Valideynlər üçün isə hər bir ailənin öz "çətin" uşaqları var.

Davranışda olan sapmalar bir ailədə problem hesab olunsa da, başqa bir ailədə həyatın norması hesab olunur. Uşaq, kiçik məktəbli, yeniyetmə, böyükməktəbli və gənclərin bir çoxunda yaş böhranının təzahürü olan psixi çətinliklərə, eləcə də, müvəqqəti emosional və davranış pozulmalarına rast gəlmək mümkündür. Pedaqoji terminologiya "çətin" uşaq adlandırılan həmin uşaqlara hər bir məktəbdə təsadüf olunur. Cəmiyyət, xüsusi ilə müəllimlər və valideynlər uşaqların tərbiyəsindəki bu "əyilmə" hallarını aradan qaldırmaq üçün çox böyük enerji və qüvvə sərf etməli olurlar.

*Görkəmli Azərbaycan psixoloqu professor* Ə.Əlizadə qeyd edir: "Məktəb reallığını nəzərə alsaq, bu gün doğurdan da, çətin uşaqlar var. Lakin bir cəhət şəksizdir: bu normal uşaqlar anadan çətin və ya asan doğulmurlar. Onlar ancaq müəyyən şəraitdə "çətin" uşaqlar olublar, atalar sözləri ilə desək, mərdi ("asan" uşağı) qova-qova namərd ("çətin" uşaq) ediblər. Psixoloji mənada "çətin" və "asan" uşaqlar yoxdur, düzgün tərbiyə olunmamış uşaqlar vardır.Çox maraqlıdır ki, hər hansı bir məktəbdə və ya sinifdə "çətin" uşaq kimi ad çıxarmış şagirdləri başqa məktəbə və ya sinfə köçürələndə, onların çoxu köklü surətdə dəyişirlər. Bu cəhəti nəzərə alaraq "çətin" uşaqlar söz birləşməsində çətin sözünü bir qayda olaraq dırnaq içərisində yazırlar.

Müasir məktəb, xüsusi şəhər məktəbləri "çətin" uşaqlar problemi ilə rastlaşıb. Bu problem artıq adi bir psixoloji və pedaqoji problem çərçivəsindən kənara çıxıb köklü sosial-siyasi problemə çevrilib. Uşaq cinayətkarlığının kökləri, dəhşətli "ağ ölüm" bəlasının qaynaqları məhz "çətin" uşaqlar aləmindədir.

"Çətin" uşaqlar cərgəsinə müxtəlif xislətli uşaqları daxil edirlər: sözə baxmayan, şıltaq, tərs, intizamsız, kobud, tənbəl, yalançı uşaqlar əvvəllər də olub, lakin onları keçmiş zamanlarda bu günkü ölçülərlə "çətin" uşaqlar saymayıblar və hövsələ ilə ailə ocağının öz hərarətində tərbiyə ediblər.

Professor Ə.Əlizadənin fikrincə bu günün "çətin" uşaqları min bir tellə küçə ilə bağlıdır. Küçə özünün birbaşa, dolayı və əlavə effektləri ilə çağdaş məktəbin həyatına nüfuz edir, "çətin" şagirdlər özləri ilə məktəbə küçənin ab-havasını, ovqatını gətirilər. Məktəbdə baş verən qeyri-adi hadisələr, müxtəlif konfiliktlər, hətta şagirdlərin bir çoxunun təlim uğursuzluqları küçə problemi ilə bağlıdır.

Küçədəki uşaq qrupları, sözün rəmzi mənasında olsa da, əsl cəmiyyətdir. Onun müxtəlif təbəqələrini və laylarını fərqləndirirlər, ancaq iki əsas qütbü var: bir qütbü necə deyərlər "yaxşı" uşaqlardan, bir qütbü isə "çətin" (asosial və antisosial) uşaqlardan ibarətdir. Bu qeyri-formal və ya qeyri-rəsmi uşaq qrupları və dəstələri xüsusilə şəhər həyat tərzi üçün səciyyəvi olan sosial fenomendir.

Ailə kimi məktəb də küçə problemləri ilə bir qayda olaraq yeniyetməlik yaşı dövründə rastlaşır. Məktəbəqədər yaş dövründə uşaqlar, adətən, göz qabağında - həyətdə qonşu uşaqları ilə oynayırlar. Kiçik məktəblərinin yoldaşları və dostları cərgəsində qonşu uşaqları ilə yanaşı sinif yoldaşları da müəyyən yer tutmağa başlayırlar.

Yeniyetməlik yaşında isə şagirdlərin yoldaşlıq və dostluq münasibətləri şaxələndikcə onların coğrafiyası da genişlənir. Coğrafi ölçülərin isə psixoloji effektləri var: uşaqlar həyətinin sərhədlərindən, məktəb mühitindən uzaqlaşdıqca, onların davranış və rəfdarında da yeni meyllər meydana çıxır. Bir cəhət də maraqlıdır. Əvvəlcə oğlanlar oğlanlarla, qızlar isə qızlarla oynayırlar. Tədricən qomogen (bir cinsli) qrupların sirli-sehrli aləmində geterogen (iki cinsli) qruplar peyda olur.

Ailə nəzarətindən kənar qalıb, təhsildən yayınıb küçə və meydanlarda dolaşan, ailəyə kömək üçün küçələrdə maşın silən, dəmir yığan, şəhər nəqliyyatına sərnişin "yığan", xırdavat satan yeni uşaq dəstələri heç kimin diqqətindən yayınmır. Şəhərlərdə bəzi hallarda uşaq dilənçiliyinə də təsadüf olunur. Bəzən uşağın çətin tərbiyə edilməsi daha çox onun ailəsinin sosial vəziyyəti, yaşayış tərzinin aşağı olması ilə əlaqədar olur. Dilənçiliklə məşğul olan uşaqlarda əlgbaxımlılıq, tənbəllik və bir çox başqa pis vərdişlər yaranır. Cəmiyyətimizdə yad olan hərəkətlər, neqativ təzahürlər, xüsusilə, məktəb yaşlı uşaq, şagird və yeniyetmələr tərəfindən qayda-qanunun pozulması hər birimizi düşündürür, ciddi mübarizə və pedaqoji nəzarətsizliyin aradan qaldırılmasını

tələb edir. Lakin "çətin" uşaq və yeniyetmələr problemi yeni deyildir. Professor Ə. Əlizadənin qeyd etdiyi kimi, hər zamananın öz "çətin" uşaqları olur.

Bütün hallarda problemin kökü uşaqlara qarşı nəzarətin, tərbiyəedici mühitin zəif olması ilə əlaqələndirilir. Psixoloq və pedaqoqlar uşaq, kiçik məktəbli və yeniyetmələrin "çətin" liyinin aşağıdakı simptomlarını müəyyən etmişlər: davranış pozuntusu; aqressivlik; passivlik; tündməcazlıq; hiperaktivlik; psixi inkişafda geriqalma; diqqət çatışmazlığı (defisiti) sindromu olan uşaqlar (hiperaktivlər); solaxaylıq; xarakterin aksentuasiyası və psixopatiya; nevrotizm; alkoqol və narkotik vasitələrdən istifadə; çətin (problemli) ailənin uşaqları; seksual inkişafla bağlı problemləri olan uşaqlar; qəddar davranış təzahürlü uşaqlar; asosial davranış.

**"Çətin" uşaqların bu və ya digər tipini doğuran səbəblər** aşağıdakılardır:

**1.**"Çətin" uşaqların bu və ya digər tipini doğuran səbəblərdən biri pedaqoji baxımsızlığın olması;

**2.**"Çətin" uşaqların formalaşmasında əxlaqi təsəvvürlərin yaranmaması;

**3.**Şagirdlər arasında qarşılıqlı anlamanın olmaması nəticəsində qarşılıqlı münasibətlərin pozulması;

**4.**Tərbiyəçi və müəllimlərin uşaqlarla düzgün tərbiyəvi iş apara bilməməsi;

**5.** Bu və ya digər şəraitdə necə davranmaq haqqında şagirdlərə zəruri bilik və təsəvvürlərin aşılanmasına diqqətin yetirilməməsi;

**6.** Düzgün təsəvvürlərin olmaması ilə bağlı davranışın tənzimlənməsindəki çətinliklər,

**7.** Uşaq və kiçik məktəblilərin tərbiyəsindəki çətinliklərin əsas səbəblərindən biri də onlara fərdi yanaşılmaması, temperament və xarakter xüsusiyyətlərinin nəzərə alınmamasıdır. Onlara yanaşma zamanı bu xüsusiyyətlərin nəzərə alınması vacibdir. Fərdi xüsusiyyətlərdən asılı olaraq, elə uşaqlar var ki, onları cəzalandırılmaqla davranışındakı mənfilikləri aradan qaldırmaq mümkündür. Ancaq elə uşaqlar var ki, onlara qarşı kobudluq, cəzalandırılma tərbiyələrinə yalnız mənfi təsir göstərə bilər və vəziyyətin daha da qəlizləşməsinə səbəb olar.

**8.** Çox vaxt çətin uşaqların meydana gəlməsi ailə tərbiyəsində yol verilən nöqsanlarla bağlı olur. Ailədə valideynlər arasında uşaqların tərbiyəsində vahid tələbin olmaması,uşağın tərbiyəsi və onun şəxsiyyətinin inkişafı üçün müvafiq şəraitin yaradılmaması,valideynlər arasında ciddi konfliktin olması,valideynlərin davranışında uşağa mənfi təsir edən qüsurların mövcudluğu, ailədə əxlaq,

ictimai münasibət normalarına uyğun olmayan sərvət və normalar sisteminin formalaşması və s. "çətin uşaqların yaranmasının başlıca səbəbləridir.

Psixoloqlar emosional sahəsində problemlərin olması ilə bağlı olaraq hələ **kiçik məktəb yaşı** dövründə "çətin" uşaqların meydana gəldiyini də qeyd edirlər. Bununla bağlı olaraq **"çətin" kiçik məktəbli** uşaqları üç qrupa ayırırlar.

1.**Təcavüzkar uşaqlar.** Adətən, elə bir uşaq tapmaq olmaz ki, həyatında heç olmasa bir dəfə təcəvüzkar hərəkət etməmiş olsun. Lakin bu uşaqların hamısını "təcavüzkar" adlandırmaq olmaz. Bu qrupa yanlız o uşaqları aid etmək olar ki, onların təcavüzkar hərəkətləri, reaksiyaları özünün davamlılığı, affektiv davranışa səbəb olma xarakteri ilə fərqlənsinlər.

2.**Yüksək, idarə olunmayan səviyyəyə çatan emosional uşaqlar.** Bü cür uşaqlar hər şeyə çox sərt reaksiya verirlər. Əgər onlar hər hansı bir sevinc, sadlıq hissi keçirirlərsə, öz ekspressiv davranışları sayəsində bütün sinfi hərəkətə gətirirlər. Əgər onlar əzab, iztirab hissləri keçirirlərsə - onların iniltisi, ah-vayı, ağlamağı həddən artıq uca və diqqəti cəlbedici olur.

3. **Hədsiz küsəyən, utancaq, hər şeydən tez təsirlənən, küsəyən, qorxaq,**
**həyəcanlı uşaqlar.** Bu cür uşaqlar isə öz hisslərini həddindən artıq ucadan və aydın ifadə etməyə utanır, başqalarının diqqətini cəlb etməkdən qorxduqlarına görə öz hisslərini və problemlərini çox sakit keçirirlər.

Hələ kiçik məktəb yaşı dövründə emosional sahəsində problemlərin olması ilə bağlı "çətin" kiçik məktəblilərin meydana gəlməsi də özünəməxsus amillərlə bağlı olur. "Çətin" kiçik məktəblilərdə emosional pozğunluğa səbəb olan amillərə aşağıdakıları aid etmək olar:

1) ***təbii xüsusiyyətlər*** (məsələn, temperamet tipi); xoleriklərdə oyanma çox güclü olduğundan, onlarda təcavüzkarlıq yüksək olur; melanxoliklər ağlağan, hər şeydən tez təsirlənən, utancaq olurlar;

2) ***sosial amillər:***

- ailə tərbiyəsinin tipi (uşağı rədd etmək, həyəcanlı-vasvası tərbiyə, hipersosial tərbiyə, eqoistik tərbiyə);
- müəllimlərin münasibəti;
- məktəb psixoloqunun təsiri.

Məktəbdə şagirdlərin tərbiyəsi sahəsində yol verilən köklü səhvləri də xüsusi vurğu ilə bu deyilənlərə əlavə etmək lazımdır.

Hər şey ilk adi səhvlərdən başlıyır. Oğlan uşağı dəhlizdə qaçır, irad tutulur. Ona təkcə vuruşmağı, sadəcə olaraq güləşməyi deyil, hoppanıb-düşməyidə qadağan edirlər. Qız uşağının çantasını axtarıb güzgü tapırlar. Məktəbdə söz-söhbət başlayır.

Şagirdə mübahisə etmək, oynamaq, küsmək, barışmaq mədəniyyəti aşılamaq əvəzinə onu yerli-yersiz danlayır, sinifdən çıxarır, məktəbə qoymurlar. Elə edirlər ki, valideyn məktəbdən üz döndərir.

Məktəblərin birində tənəffüs vaxtı uşaqlar həyətdə səs-küylə oynayırdılar. Oğlanlardan biri isə həyətin bir küncündə sakit dayanıb onlara baxırdı. Məktəbin direktoru psixoloqu çağırıb amiranə tərzdə göstəriş verdi ki, həyətə çıx, fikir ver, uşaqlar səs salmasınlar. Təcrübəsiz psixoloq ötkəm direktorun iradəsinə tabe oldu. Həyətdə onun diqqətini isə əlüstü bir küncə sığınmış tək uşaq cəlb etdi. Psixoloq ömrün qayğısız günlərinin işığında fərəhlə oynayan, hoppanıb-düşən, direktorun anlamında səs salan uşaqlara qıymadı. Onların səmtinə deyil, tək uşağa yaxınlaşdı və söhbətə başladı. Direktor gördü ki, həyətdə səs-küy kəsilmədi, özü həyətə çıxdı. Psixoloq isə tək uşaqla söhbət edirdi. Direktor istezha ilə ona tərəf baxdı və acıqla yanına çağırdı:

- O uşaqla nə danışırsan?

Psixoloq dedi:

- Müəyyən etmək istəyirdim ki,  onun tay-tuşları oynadıqları halda, o niyə oynamır?!

  Bu sözlər direktorun xoşuna xoşuna gəlmədi:

- Mən səni göndərdim ki, gedib intizamlı uşaqla söhbət edəsən, yoxsa intizamsızları intizama gətirəsən?

Diqqət edin: xəstə uşaq kimi bir küncə qısılıb oynamayan şagirdi direktoru intizamlı, yaşın sehrində atılıb-düşən, oynayan sağlam uşaqları intizamsız adlandırır. Bu, məktəblərdə geniş yayılmış səhv fikirlərdən biridir. Psixoloqlar peşə fəhmilə hərəkət etmişdi: Uşağin oynayib gülən vaxtıdır, bəs o niyə oynamır? Həmyaşıd uşaqlara nə üçün qoşulmur? Onu məhz bu kimi sullar narahat edirdi.

Direktor isə əllərini yellədib iri addımlarla oynayan şagirdlərə tərəf getdi və onları nəinki oynamağa qoymadı, yerli-yersiz danlamağa, artıq-əksik sözlər danışmağa başladı. Uşaqlardan biri cavab qaytardı. Direktor isə düşünüb-daşınmadan onun adını "çətin" uşaqlar siyahısına yazdı. Heç bir ehtiyac olmadan məktəbdə yeni bir "çətin" uşaq problemi yaratdı.

Müasir məktəbin "çətin" uşaqları ən çox qeyri-formal uşaq qrupları və referent qruplara qoşulurlar.  Orta ümumi təhsil məktəblərinə təhsili idarə etmə orqanları tərəfindən göndərilən məlumat cədvəllərində "çətin" uşaqlar anlayışı (avarılıqla, dilnçiliklə məşğul olanlar, əxlaqsız həyat tərzi sürənlər, hüquq pozmalara və cinayətkarlığa, zərərli vərdişlərə meylli, müxtəlif hüquq pozmalara görə daxili işlər orqanları tərəfindən qeydiyyata alınmış, lakin islah olunması mümkün olmayanlar və ümumi orta təhsildən qərəzli şəkildə yayınanlar)

**“problemli uşaqlar”** və **“həssas qrupa daxil olan təhsilalanlar”** göstəricisində öz əksini tapır.

Müasir məktəb və rəhbərlik təcrübəsi göstərir ki, “çətin” uşaqları öyrənmədən, “çətinliyi” doğuran səbəbləri aşkara çıxarmadan onlarla lazımı səviyyədə iş aparmaq qeyri-mümkündür.

“Çətin” uşaqların davranışında və şəxsiyyətinin inkişafında özünü göstərən bilən qüsurların qarşısını almaq və onları aradan qaldırmaq pedaqoji baxımdan aşağıda qeyd olunan istiqamətləri müəyyənləşdirmək olar:

1. Məktəbə yeni daxil olan şagirdlə, onun valideynləri ilə uşağa aid bütün sənədlərlə tanış olmaq və bu zaman həmin şagirdin tərbiyəsindəki çətin cəhətləri aşkara çıxarmağa çalışmaq;
2. “Çətin” uşaqların kollektivə adaptasiya olmasına köməklik göstərmək, sinif

rəhbəri, məktəb psixoloqu, uşaq birliyi təşkilatı rəhbəri, təlim-tərbiyə işləri üzrə direktor müavini (təşkilatçı müavin) ilə birlikdə bu qrupa aid edilən təhsilalanların tərbiyəsində və davranışında mövcüd olan qüsurları aradan qaldırmağın planını hazırlamaq;

1. Davranışında və şəxsiyyətinin inkişafında qüsurları olan “çətin” uşaqları

dərindən öyrənmək, bu zaman müəllimin müəllimlərin etik davranış qaydaları və məktəb psixoloqunun peşə etikası normalarına əməl etmək, imkan daxilində şagirdə yoxlanılmasının həqiqi məqsədini bildirməmək və s.

*Professor* M.Ə.Həmzəyevin fikrincə, “ məktəbdə psixoloji xidmət sahəsində diqqəti cəlb edən əsas məsələlərdən biri də çətin tərbiyə olunan uşaqlarla aparılan işdir. Burada birinci növbədə əsas diqqəti sosial cəhətdən deformasiyaya uğrayan asosial uşaqların vaxtında diaqnostikasını verməyə yönəlməlidir. Bu zaman uşaqda çətinliyin yaranması səbəblərindən aşkara çıxarılmasına da xüsusi diqqət yetirilməlidir. Bütün bunların əsasında uşağın fərdi xüsusiyyətlərini nəzərə almaqla onunla tərbiyəvi iş sistemi müəyyənləşdirilməlidir.”

## ƏDƏBİYYAT

1.Bəylərov E., Çələbiyev N., Cəfərova L., Həsənova S., Haciyev E., Quliyeva N., Qafarlı Ə., Qasımova G., Əlizadə B. Məktəb psixoloqunun stolüstü kitabı. - Bakı: JEKO-print, - 2022.

2.Rüstəmov E., Əliyeva M., Allahverdiyeva M. Təhsildə psixoloji xidmətin əsasları. - Bakı: Füzuyat, - 2021.

3.Əzizov Q.Q. Psixologiya. Dərs vəsaiti. - Bakı: Mütərcim, - 2012.

4.Nuriyev S.Ş., İbrahimova D.R. Təhsildə sosial-psixoloji xidmət. Dərs vəsaiti. - Bakı: Elm və təhsil, - 2016.
5.Çələbiyev N.Z. Təhsil sistemində psixoloji xidmət: (nəzəriyyə və təcrübə) Dərs vəsaiti.2 hissədə. I hissə. - Bakı: ADPU nəşriyyatı, - 2008.
6.Çələbiyev N.Z. Təhsil sistemində psixoloji xidmət: (nəzəriyyə və təcrübə) Dərs vəsaiti.2 hissədə. II hissə. - Bakı: ADPU nəşriyyatı, - 2008.
7.Hüseynzadə R.L., İsmayılova M.C. Tərbiyə işi və onun metodikası. Dərs vəsaiti. - Bakı: ADPU-nəşriyyatı, - 2012.
8.Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya. Dərslik. - Bakı: Nurlan, 2007.
9.Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Dərs vəsaiti. - Bakı: - 2003.
10.Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Dəslik. - Bakı: Pedaqogika, - 2004.
11.Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. 3 cilddə. - Bakı: ADPU-nəşriyyatı, - 2008.

**Nərgiz NİFTƏLİYEVA**
***Mingəçevir Dövlət Universiteti Təhsil fakültəsinin***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: nnifteliyeva@list.ru**

## MƏKTƏB AQRESSİYASI MƏKTƏBLİ ŞƏXSİYYƏTİNİN TRAVMA AMİLİ KİMİ

*Açar sözlər:* mobbinq, bullinq, aqressiya, konfilikt

Psixoloji lüğət aqressiyanı “insan mövcudluğunun normalarına zidd olan, hücum obyektlərinə zərər vuran, insanlara fiziki, mənəvi ziyan vuran və ya psixoloji diskomfort yaradan motivasiya edilmiş dağıdıcı davranış” kimi şərh edir. Həmişə başqa insanlara və ya özünə zərər vermək məqsədi ilə həm fiziki, həm də şifahi şəkildə ifadə edilə bilən qəsdən edilən bir hərəkətdir. Zorakılıq, öz növbəsində, başqa insanlara qarşı yönəlmiş təcavüzdür.

Məktəb aqressiyası problemi müasir cəmiyyətimizdə kifayət qədər mürəkkəb və qapalı bir mövzudur. Müasir məktəblərdə zorakılığın ən çox yayılmış formaları fərdi və qrup zorakılığı, mobbinq, sinif yoldaşlarına qarşı amansız rəftar, şantaj, qəsb halları, fiziki zorakılıqla hədələmə və s.dir. İllərdir zorakılıq problemi bullinq və mobbinq kimi təcavüzün təzahürlərinə çevrilmişdir. Bu baxımdan qrup davranışının bu sosial-psixoloji hadisələrinin öyrənilməsi xüsusi maraq doğurur. Təsadüfi bir döyüş və ya mübahisədən fərqli

olaraq, məktəb zorakılığı qəsdən, müntəzəm olaraq həyata keçirilən aqressiv davranışdır.

Konfilikt və ya aqressiv davranış təkcə şagirdlərin özləri arasında əmələ gəlmir. Valideynlər, müəllimlər, rəhbərlik ilə şagirdlər arasında bu cür situasiyalar yaranır. Əsasən yeniyetməlik yaşı dövründə bu problemə daha çox rast gəlinir. Məktəblinin bu dövrdə mənlik şüurunun, əxlaqi şüurunun, yaşlılıq hissinin, ünsiyyət mədəniyyətinin, iradi məziyyətlərinin, xarakterinin və s. formalaşması prosesi gedir. Bəzən valideynlərin və ya ətrafdakıların yeniyetməlik yaşı dövründə uşaqlara qarşı həssas yanaşmaması onlarda aqressiv davranışlara səbəb olur.

Psixoloji və ya fiziki zorakılığa məruz qalan uşaqlar öz aqressiv davranışlarını onlara qarşı zorakılıq edən insanlara qarşı göstərə bilmədikləri halda bu cür davranışlarını onlardan daha zəif olan obyektlərdə və ya canlılarda göstərirlər. Yaş artıqca uşaqların aqressiv davranışlarının hədəfi onların məktəb yoldaşları olur. Aqressiv davranışlarını qarşı tərəfə mobbinq, şiddət, təhqir, alçaltma kimi hərəkətlərlə ifadə edirlər. Həddindən artıq aqressivliyə məruz qalan şagirdlər arasında məktəbdən yayınma, oxumaq istəyinin azalması da baş verir.

Eyni zamanda, yeniyetmə qızlar da məktəbdə aqressiv davranışlar göstərə bilər, çünki zorakılıq və mobbinq cinsdən, boydan, milliyyətdən və ya üstünlüklərdən asılı deyil. Zorbalığın hədəfi ən çox digər uşaqlardan fərqli olan və özünü qoruya bilməyən uşaqlar olur.

Təhsil müəssisələrində müəllim tərəfindən edilən psixoloji zorakılıq faktlarının müxtəlif formalarına rast gəlinir. Şagirdi təhqir etmək, açıq-aşkar mənfi münasibət göstərmək, şagirdin yaşına uyğun olmayan münasibət göstərmək, düşüncələrini ələ salmaq, qorxu yaratmaq və s. buna aiddir. Psixoloji zorakılıq uşaqların təfəkkür, hafizə, diqqət, təxəyyül, qavrayış kimi psixi proseslərinə, həmçinin sosial və əxlaqi dəyərlərinin düzgün formalaşmasına mənfi təsir göstərir. Bu vəziyyət isə zehni qabiliyyət və məktəb uğurunun azalmasına səbəb olur.

Uşaqların aqressiv davranışlarının səbəblərindən biri də internet və televiziya vasitəsilə izlədikləri aqressiv davranışların, zorakılığın olduğu filmlər və ya cizgi filmləridir. Belə filmlər uşaqların şüuraltısına təsir edir.

Tədqiqatlar göstərir ki, zorakılıq uşaqları tez-tez narahatlığa, depressiyaya və hətta psixi pozğunluqlara gətirib çıxarır, onlarda özgüvən əksikliyi olur, bunun nəticəsində uşaq tez-tez özünə qapanır və təcrid olur. Bu da onun akademik performansına təsir edir və müxtəlif növ emosional pozuntulara səbəb olur. Bəzən bu proseslər intihara qədər gedir.

Məktəb çağında alınan psixoloji travmalar böyüklər üçün kifayət qədər ciddi problemlərə çevrilə bilər. Tədqiqatlar göstərir ki, məktəb illərində zorakılıq bütün iştirakçılara təsirsiz ötüşmür və onun nəticələri insanların həyatı boyu təsir edə bilər. Yəni, bu prosesdə yalnızca xəsarət alan tərəf şiddətə məruz qalan deyil, eyni zamanda şiddət göstərən şəxs də olur. Keçmiş "qurban" üçün

başqa insanlarla münasibət qurmaq, onlara etibar etmək, cəmiyyətdə sərbəst davranmaq çətin prosesə çevrilir. Bəzən gələcəkdə onlar özləri də təqiblərin təhrikçisinə çevrilir və beləliklə, yaşadıqlarını unutmağa çalışırlar. Ətrafdalarında olan insanlara şübhə ilə yanaşırlar və güvən problemi yaşayırlar.

Beləliklə, məktəb aqressiyasının nəticələri bullinq və mobbinqdə özünü göstərir və aqressiya şagirdin psixikasını deformasiya edir, patoloji pozğunluqlara, zorakılıq, intihara meylli və asılı davranışın sosial təhlükəli formalarının yaranmasına səbəb ola bilər. Eyni zamanda, aqressiya ilə mübarizənin yeganə yolu birlikdə işləməkdir. Uşaqların psixoloji sağlamlığını qoruyacaq, rahat mühit yaradacaq və təhsilin keyfiyyətini təmin edəcək məktəb aqressiyasının təzahürlərinin aradan qaldırılmasına cavabdeh olan məktəbdir. Lakin uşaqların sağlam psixikasının olması üçün hər cür şiddətdən uzaq tutmalı, ailələr uşaqların tərbiyəsinə, yaş xüsusiyyətlərinə diqqət yetirməli və uşaqlarına qarşı həssas davranmalıdırlar.

ƏDƏBİYYAT

1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Dərslik. – Bakı: “Qapp-Poliqraf”, - 2003. – 356 s.

2.Əmrahlı L.Ş., Rzayeva N.T. Uşaq psixologiyası. – Bakı: ADPU nəşriyyatı, - 2010. – 360 s.

**Əfsanə ƏLİZADƏ**
***Naxçıvan Müəllimlər İnstitutunun***
***Pedaqogika və psixologiya kafedrasının müəllimi***
**E-mail: alizadeefsane@gmail.com**

## “MOLLA NƏSRƏDDİN” JURNALININ ANA DİLİMİZİN QORUNMASINDA ƏSİL XALQ JURNALI KİMİ ROLU

*Açar sözlər:* “Molla Nəsrəddin” jurnalı, Ana dili, Cəlil Məmmədquluzadə, həyat təcrübəsi

“Molla Nəsrəddin” jurnalı nəşr olunduğu gündən, ana dilində yazılmış və fəaliyyət göstərdiyi son günədək bu ənənəyə sadiq qalmışdır. “Molla Nəsrəddin” jurnalı xalqı öz ana dilində danışmağa, körpə vaxtı anaların dediyi şirin laylanı unutmamağa səsləyirdi. Bu jurnalın baş redaktoru C.Məmmədquluzadə ana dilinə əhəmiyyət verməyən, bu dildə danışmağı özünə sığdırmayanları kəskin tənqid edərək, ana dilimizin qorunmasında “Molla Nəsrəddin” jurnalının və “mollanəsrəddinçilərin” əvəzsiz rolu olduğunu, onların sayəsində dilimizin ərəb, fars, rus və s. dillərin təsirindən azad olduğunu söyləmişdir.

Bu gün bizim ədəbi dilimizin yaranmasında "Molla Nəsrəddin" jurnalı və əməkdaşlarının böyük rolu və xidmətləri olmuşdur. Jurnal ana dili və ana dilli məktəb uğrunda mübarizə aparmış, xalqı maarifləndirməyə, Ana dilinin saflığını, gözəlliyini xalqa çatdırmaq üçün tez-tez jurnalda hekayələr, şeirlər, məqalə və felyetonlara yer ayrılmışdır. Bunlardan "Dil", "Pək eyi", "Zəncir", "Bizim obrazovannılar", "Dili tutulub", "Ana dili", "Meymunlar", " Əlifba" və s. yazıların adlarını misal göstərmək olar. "Meymunlar" adlı məqalədə ana dilində danışmağı özünə ar bilənlərə saysız iradlar tutulur və yazılırdı. " Bir saatlığa tutaq ki, hökümət qoymur məktəblərdə ana dilimizi öyrənək. Tutaq ki, bunu hökümət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizi xoşlamağı kim qoymur. Hətta elə olur ki, iki müsəlman bir- birini görəndə rus dilində hal- əhval tuturlar. Uşaqlarına "Fatma" əvəzinə "Fatya", "Həsən" əvəzinə "Qasanka" və s. adlar qoyanlar, valideyinlərinə "Ana" əvəzinə "Madər", "Ata" əvəzinə "Pədər" deyənlər "Ana Dili" adlı məqalədə tənqid olunmuşdur. Yazıq analarımız bu yaşa kimi "Madər" eşitməyiblər amma olublar "Madər". C.Məmmədquluzadə bu deyilənləri irad tutaraq deyirdi ki, hökümət məktəblərdə ana dili keçməyə qoymur, bəs sizlər niyə ana dilimizi qorumursunuz və höküməti bəhanə edirsiniz.

Təkcə yazı yazmaqla kifayətlənməyən jurnal bunu xalqa təbliğ etdirmək üçün jurnalda bildirilirdi ki, ana dilində yazılmayan məqalə və məktublara cavab verilməyəcək və onlar jurnalda çap olunmayacaq. Hətta yazıların birində satirik şəkildə belə bir cümlə verilmişdir: " Molla Nəsrəddinə göndərilən məktublar dəbdəbəli və ibarəli dildə yazılsın, orada bir kəlmə də Azərbaycan sözü işlənməsin. Çünki Azərbaycan sözü işlətmək həmin şəxsin elminin azlığına və savadsızlığına dəlalət edir".

"Molla Nəsrəddin" jurnalı təlimin ana dilində aparılması ideyasını geniş təbliğ edərək, həmin dövrdə ana dilinin inkişafı üçün xalqa ana dilli məktəblər lazım olduğunu söyləyirdi. Lakin bu fikirlərin özlərinə faydalı olmadığını düşünən çar məmurları və mollalar bu məktəblərin yaranmasına qarşı çıxaraq xalqı ruslaşdırmağa, mollalar isə farslaşdırmağa cəhd edirdilər. Müsəlman məktəblərində ziyalı müəllimlər əvəzinə daha çox mollalara dərs saatı ayrılır və onlarda demək olar ki, dərsə gəlməyir amma vaxtı çatanda əməkhaqqını alırdılar. Bir yox bir neçə məktəbdə müəllim olaraq fəaliyyət göstərirdilər. Mollaların dərsə gəlməməsinin səbəbləri isə saysız-hesabsız idi. Yas yerləri, kəbin kəsmək, mərsiyələr və s. Onlar özlərini sanki haqlı çıxardaraq deyirdilər ki, "Söz yox ki, bunları buraxıb dərsə gəlmək olmaz".

Digər müəllimlərlə müqayisədə ana dili müəllimlərinin maaşı olduqca az idi və bəzən elə olurdu ki, bəzi aylarda maaş verilmirdi. Bu səbəbdəndir ki, məktəb bitirən oğul və qızlarımız ana dilində düzgün yazıb oxuya bilmirdilər. Bu hal isə "Molla Nəsrəddin" jurnalının tez- tez tənqid hədəfinə çevrilirdi.

Ana dilli təlimə münasibətini bildirənlərdən biridə "Molla Nəsrəddin" jurnalında fəaliyyət göstərmiş Firudin bəy Köçərli olmuşdur. O, Uşiniskinin fikrinə istinad edərək "Ana dili" əsərində yazırdı. " Bir millətin malını, dövlətini və hətta vətənini əlindən alsan ölüb itməz, amma dilini alsan yox olar və ondan bir nişan qalmaz". Bu sözlərlə o, millətini, xalqını ana dilində danışmağa və ana dilini qoruyub saxlamağa səsləyirdi. O düşünürdü ki, ana dilini qorumaq ən əsası bizim ziyalılarımızın, yazıçılarımızın, jurnalistlərimizin borcudur. Onlar ana dilində yazmalı, danışmalı və bunu xalqa çatdırmalıdırlar ki, bunun nəticəsində yazıçı, şair və ədiblər ana dilindən uzaq olmayacaq, sadə dildə yazmağa meyil edəcəklər. Buna əməl etməyənləri isə acı bir şəkildə "meymunluqdan əl çəkin" deyə xəbərdarlıq etmişdir. Ədib bütün yazılarını "Ciddi" ləqəbi ilə yazaraq, hər zaman öz fikirlərini açıq və sərt şəkildə bildirmişdir.

C.Məmmədquluzadə qələmin əsas vəzifəsinin xalqa xidmət etmək, xalq üçün yazıb yaratmaq olduğunu bildirmiş, özüdə bu dediklərini yaradıcılığı boyu ön planda tutmuşdur. O, şair və yazıçılardan redaktoru olduğu "Molla Nərəddin" jurnalı vasitəsilə dəfələrlə xahiş edib, bildirmişdir ki, anlaşıqlı, sadə və ana dilində yazsınlar, oxuyanlar onları başa düşüb, dərk etsinlər. C.Məmmədquluzadə hər zaman müasirliyi, təlim və tərbiyənin inkişaf etdirilməsini təbliğ etmiş və bu yolda daim mübarizə aparmışdır.

C.Məmmədquluzadə rus, ərəb və ya fars dilini öyrənməyi lazım bilirdi. Lakin bu dilləri bilməklə yanaşı ana dilimizi də unutmamağı xatırladırdı. Bizə lazım olduqca digər dillərə müraciət etmək tövsiyə olunurdu. Günlük həyatımızda isə hər zaman doğma dilimizdə danışmaq daha yaxşı olardı. "Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən, həyatın məqsədi məhz budur" deyən Cəlil Məmmədquluzadə qələmin əsas vəzifəsini xalqa xidmət etməkdə, onları maarifləndirməkdə görmüş, öz əsərlərində hər zaman təlim və tərbiyəni ön planda tutmuşdur.

Ana dilimizi qorumaq, ona hörmət etmək, onu yad sözlərdən qorumaq hər birimizin borcudur. Ana dili hər bir millətin varlığı, onun keçmişi və gələcəyidir. Dilimiz bizi yaşadan inkişaf etdirən bizi gələcəyə aparan əsas vasitədir.

## ƏDƏBİYYAT


1. Məmmədquluzadə C. Əsərləri. IV cilddə. IV cild. – Bakı: "Öndər nəşriyyat", - 2004. - 472 s.
2. Şərif Ə. Molla Nəsrəddin necə yarandı. Bakı: 1986.
3. Hüseyinov F. Molla Nəsrəddin və mollanəsrəddinçilər. Bakı: 1986.
4. Camalov K. Böyük mütəfəkkirlərin maarifçilik ideyaları. Naxçıvan: 2015.
5. Məmmədli Q. Molla Nəsrəddin. Bakı: 1966.

**Nərgiz MALAYEVA**
***Azərbaycan Dillər Universitetinin***
***Psixologiya kafedrasının magistrantı***
**e-mail: nrgzmlyv@gmail.com**

## MÜƏLLİMİN RƏHBƏRLİK ÜSLUBU

*Açar sözlər:* rəhbərlik üslubu, avtoritar, avtokratik, demokratik

Rəhbərlik üslubu pedaqoji psixologiyada əhəmiyyətli mövzu kimi müxtəlif psixoloqlar tərəfindən tədqiq olunmuşdur.

XX əsrin əvvəllərində rəhbərlik üslubuna sosiologiyanın problemi kimi yanaşılırdı. Bu baxımdan, aparılan tədqiqatların mərkəzində sosial qrupların idarə olunması məsələləri dururdu. M.Veber, G.Zimmel, T.Parsons, C.Moreno, T.Nyukoma, E.Dürkheym və b. sosial qrupların idarə olunmasını istehsalın xüsusiyyəti, qrupun dəyərləri və b. bu kimi amillərlə əlaqələndirirdilər.

XX əsrin 60-cı illərindən başlayaraq problem, istər Avropa və Amerika, istərsə də Rusiya və Azərbaycan tədqiqatçılarının araşdırmalarının əsas mövzusuna çevrildi.

Azərbaycan tədqiqatçılarından B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, M.Ə.Həmzıyev, Ə.Ə.Qədirov, Ə.T.Baxşəliyev və b. təhsil qruplarında və kollektivində şəxsiyyətlərarası münasibətləri, müəllimin rəhbərlik fəaliyyətinin xüsusiyyətlərini araşdırmışlar. Lakin olduqca maraqlı nəticələrin əldə olunduğu bu tədqiqatlarda problemin bütün aspektlərinin öz əksini tapdığını demək olmaz. Bu da problemin müasir dövr üçün bir daha aktual olduğunu göstərir.

Müəllimin rəhbərlik üslubu müəllimin normal təlim prosesinin təşkili, dərsin şagirdlərə həzz verməsi və səmərəli keçməsi üçün sinifdə (müəllim və şagirdlər üçün) rahat şərait yaratmaq üçün bütün hərəkət və səylərini ifadə edən ümumi termindir. "Nizam-intizam" daha konkret termindir və müəllimin sinifdə qeyri-ciddi davranışların qarşısını almaq, onu minimuma endirmək üçün göstərdiyi fəaliyyətləri nəzərdə tutur.

İdarəetmə ilə bağlı olaraq sosial psixologiyada beş cür rəhbərlik üslubu qeyd olunur: avtokratik, avtoritar, demokratik, laqeyd (etinasız, liberal) və qeyri-sabit (ardıcıl olmayan) rəhbərlik üslubu.

Avtoritar üslub. Bu gücə əsaslanan prinsip və qaydaların tətbiqi ilə formalaşan idarəetmə yanaşmasıdır. Sinif rəhbəri bütün səlahiyyətləri əlində toplayır. Tələblərinin qeyd-şərtsiz yerinə yetiriləsini gözləyir,əks halda cəzadan istifadə edir. Belə sinif rəhbərləri qarşıya qoyulan məqsədə maksimum səviyyədə çatmaq üçün sinifdə şəraiti təşkil etsələrdə, şagirdlərin istək və tələbatlarını ödəmək,onları sevindirmək üçün heç bir tədbir görmürlər ( 1, s.18).

Avtokratik üslub. Müəllim bütün diqqətini uğura yönəldir. Müəllim şagirdlərinin qarşısına çətin məqsədlər qoyur və hər fürsətdə onlardan yüksək

nəticə gözlədiyini bildirir. Şagirdləri qiymətlərinə görə dəyərləndirir və nəticələrə görə şagirdləri məsuliyyətli tutur.

Liberal üslub. Bu üslubda müəllimin şagirdlər üzərində təsiri yox dərəcəsindədir. O, heç nə tələb etmir, şagirdlərin təklifini və istəklərini düşünmədən qəbul edir (2, s. 13). Belə mühitdə təhsil alan şagirdlər cəmiyyətdə qoyulan tələblərə əməl etməyə çalışmır və bu halda onları nəyin gözləyəcəyini bilmirlər.

Demokratik üslub. Sinifdə qaydaların yaradılmasına rəhbərlik edir və şagirdlərin fikirlərini dinləyirlər. Müəllim tərəfindən özünü idarə etmənin necə qazanılacağı öyrədilir. Bu üslubda müəllim tənqid və alçaldıcı ifadələrdən istifadə etmir, səhvləri düzəltməkdə şagirdləri cəsarətləndirir. Bu üslub uşaqları birləşdirir: tədricən onlarda "Biz" hissi, ümumi işə aidiyyət hissi formalaşır. Demokratik ünsiyyət tərzində tərbiyə olunan sinifdə müəllim nəzarəti olmadan uşaqlar özlərini nizam-intizamla saxlamağa çalışırlar (4, s. 5).

Bəs ən səmərəli üslub hansıdır? Təəssüf ki, bu sualın sadə cavabı yoxdur, çünki həmişə şagirdin davranış problemlərinin qarşısını alacaq və ya aradan qaldıracaq, bütün şagirdlərdə yüksək səviyyədə öyrənməni və son nəticədə nizam-intizamı təmin edəcək üsul yoxdur. Bununla belə, müasir dövrdə demokratik üslub ən səmərəli üslub hesab olunur. Buna səbəb cəmiyyətin tələblərinə cavab verən şəxsiyyətin bu mühitdə yetişdirilməsinin daha yaxşı baş verməsidir.

Müəllimin bütün rəhbərlik üslublarına yiyələnməsinə ehtiyac var. Lakin avtoritar, avtokratik, liberal və qeyri-sabit rəhbərlik üslubları demokratik fonda tətbiq olunarsa, bu daha səmərəli olar. Çünki şagird sinfində müxtəlif xarakterli, koqnitiv xüsusiyyətli şagirdlər olduğu üçün sinfin idarə olumasında da bütün üslublardan istifadə olunmasına ehtiyac yaranır. Ona görə də hesab edilir ki, müəllim bütün üslubları mənimsəməli, şəraitə və şagirdə uyğun olaraq onlardan istifadə etməlidir. Biz hesab edirk ki, demokratik üslub şagirdlərlə qarşılıqlı münasibət yaratmağa, eləcə də şagirdlərin təfəkkürünün aktivləşməsi üçün əlverişli zəmin yaradır. Demokratik rəhbərlik üslubu müəllimin yüksək peşəkarlığından, müsbət mənəvi keyfiyyətlərindən, uşaqlara məhəbbətindən danışır. Bu üslub müəllimdən böyük psixi gərginlik tələb edir, lakin uşağın şəxsiyyətinin inkişafı üçün ən məhsuldar şərt məhz odur. Məhz demokratik liderlik üslubunda uşaqda məsuliyyət hissi formalaşır. Uşağın cari təhsil vəzifəsi ilə bağlı cəlbedici məxfi ünsiyyət formasına bürünmüş normalar onun diqqətini təşkil edir, yaddaşı və təfəkkürünü işə salır. Mənəvi rahatlıq vəziyyətində olan uşaq zövqlə zehni məşqlərə müraciət edir. Tapşırığın üzərində məmnuniyyətlə işləyir, cavab verməyə can atır. Bu üslub normal üsnsiyyət qurmağa, sağlam sosial-psixoloji mühit yaratmağa, insanın şəxsi ləyaqət hissini qorumağa, rəhbər işçinin nüfuzunu yüksəltməyə və başlıcası, səmərəli idarəetməyə imkan verir (3, s. 30).

## ƏDƏBİYYAT

1.Erdoğan, İ. Sınıf Yönetimi. – İstanbul: Alfa Yayıncılık, – 2008. – 18 s.
2.Pala, A. Sınıfta istenmeyen öğrenci davranışlarını önlemeye düşük disiplin modelleri. Manas Üniversitesi Sosyal Birimler Dergisi, 13 s.
3.İsmixan, M., Bəxtiyarov, R. Məktəbin idarə edilməsi. – Bakı: 2012. – 30 s.
4.Plunkett, W.Richard, Raymond, F.Attner. İntroduction to Management. California: Wadsworth Publishing Company, 1994, edition 5.

Psixologiya Elmi-Tədqiqat İnstitutunun "Əbdül Əlizadə: Azərbaycan psixologiyasının tarixi və inkişaf perspektivləri" mövzusunda keçirdiyi Respublika elmi konfransı. Psixologiya Elmi-Tədqiqat İnstitutu, 22 oktyabr 2022-ci il. – Bakı: ADPU-nun mətbəəsi, – 2023. – 145 səh.

© Psixologiya Elmi-Tədqiqat İnstitutu

---

Çapa imzalanmış _______________
Kağız formatı 60x84 $^{1/16}$, çap vərəqi __
Sifariş __, sayı ___

---

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel: (+99412) 493-74-10
Email: poliqrafiya@mail.ru